Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Növbədənkənar
on üçüncü sessiya

54-cü cild

16 iyun – 14 iyul 2023-cü il

Milli Məclisin nəşri
Bakı – 2023

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# NÖVBƏDƏNKƏNAR
# XIII SESSİYASI İCLASININ

# PROTOKOLU № 137

*Milli Məclisin iclas salonu.*
*16 iyun 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 99 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 88 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Sahib Məmmədov**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**Anar Əliyev**, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

**İsmayıl Hüseynov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini.

**Yusif Yusifov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini.

**Himalay Məmişov**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun direktoru.

**Mustafa Abbasbəyli**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin sədri.

**Elşən Rəhimli**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin baş idarə rəisinin müavini.

**Yalçın Əzizov**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Azər Əmiraslanov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadiyyat şöbəsinin müdiri.

**Fazil Fərəcov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Fikrət Şirinov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Rəhman Hümmətov**, Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini.

**Elmin Məmmədov**, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Hüquq şöbəsinin müdiri.

**Anar Rzayev**, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda

dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

2. "Dövlət Sosial Müdafiə Fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

3. "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. "Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü il üçün xərclər smetası haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 2022-ci il 9 dekabr tarixli 688-VIQR nömrəli Qərarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

5. "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş"in təsdiqi və "Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının iclasında Azərbaycan Respublikasının Hökuməti adından imzalanmış "Yalançı əmtəə nişanlarından və coğrafi göstəricilərdən istifadənin qarşısının alınması və kökünün kəsilməsi tədbirləri haqqında" Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun ləğv edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Fazil Mustafa, Musa Qasımlı, Naqif Həmzəyev, Tural Gəncəliyev, Soltan Məmmədov, Ramin Məmmədov, Zahid Oruc, Vüqar Bayramov, Elman Nəsirov, Elşad Mirbəşir oğlu, Etibar Əliyev, Vahid Əhmədov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
| Lehinə | 87 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**1. "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**2. "Dövlət Sosial Müdafiə Fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Məlahət İbrahimqızı

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 3 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**3. “İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**4. “Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü il üçün xərclər smetası haqqında” Azərbaycan Respublikası Milli Məclisinin 2022-ci il 9 dekabr tarixli 688-VIQR nömrəli Qərarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**5. "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş"in təsdiqi və "Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının iclasında Azərbaycan Respublikasının Hökuməti adından imzalanmış "Yalançı əmtəə nişanlarından və coğrafi göstəricilərdən istifadənin qarşısının alınması və kökünün kəsilməsi tədbirləri haqqında" Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun ləğv edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sevinc Fətəliyeva, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

**6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**7. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**8. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Azay Quliyev, Vahid Əhmədov, Elşən Musayev, Etibar Əliyev,

İltizam Yusifov, Məlahət İbrahimqızı, Bəhruz Məhərrəmov, Müşfiq Cəfərov, Aydın Hüseynov, Qüdrət Həsənquliyev, Rauf Əliyev, Aqil Abbas, Rüfət Quliyev, Rəhman Hümmətov, Fazil Mustafa

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 4 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Tahir Mirkişili, Siyavuş Novruzov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 3 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**11. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 3 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**12. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**13. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*16 iyun 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, əziz qonaqlar və media nümayəndələri! Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 88 |
| Yetərsay | 83 |

Çox sağ olun. İclasa başlaya bilərik. Gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi. Hörmətli həmkarlar, 30 dəqiqəmiz var, buyurun. Gündəmdə, ya da gündəlikdə olan məsələlərlə bağlı kim çıxış etmək istəyirsə, 10 nəfər çıxış eləyə biləcək. Sonuncu çıxış Vahid Əhmədovun çıxışı olacaq. Fazil Mustafa. Buyurun, Fazil müəllim.

**F.Mustafa.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri! Bu gün Ermənistan işğalçı dövləti, onu dəstəkləyən Avropa Birliyi və İranın şantajçı qüvvələri tərəfindən Azərbaycanın sərhəd bölgələrində suveren hüquqlarını həyata keçirməsinə mane olacaq addımlar atılır. Düzdür, dövlətimiz qətiyyətlə bu addımların cavabını verir. Bu günlərdə Laçın postunda bizə qarşı törədilən təxribatın da qarşısı alındı. Orada hələ də müəyyən döyüşlərin getdiyi barədə məlumatlar da səsləndirilir. Hər halda biz hamımız bu məlumatları həyəcanla izləyirik. Amma orada olan hərbçilərimizin taleyi barədə düşünməliyik və bu, bizi bir daha bu məsələnin üzərinə gəlməyə vadar eləyir.

Tez-tez həm "Youtube" kanallarında, həm də sosial şəbəkələrdə hərbçilərimiz özlərinin pensiya hüququnun təmin olunması ilə bağlı məsələ qaldırırlar. Problemlərindən danışırlar, maaşlarda olan artımın onların pensiyasına şamil edilməməsini qeyd edirlər. 2006-cı ilə qədər hərbi xidmət keçmiş şəxslərin sığorta kapitalının yığılmaması hesabına onların pensiyalarında bir dəyişiklik olmadığı barədə fikirlər səsləndirirlər. Hətta əmək pensiyası ilə hərbi qulluqçuların pensiyasının ayrılması məsələsini qaldırırlar.

Əslində, onların haqlı tələbləri çoxdur. Yəni bu gün sərhəd qoşunlarının əsgər və zabitləri, Dövlət Təhlükəsizliyi Xidmətinin heyəti, xüsusi təyinatlı qüvvələrimiz, Daxili Qoşunların qüvvələri ilk zərbəni üzərinə alan şəxslərdir. Yəni əlahiddə bir şəraitdə xidmət edən insan-

ların, əslində, təminatla bağlı hansısa bir şikayəti olmamalıdır. Ona görə də biz bu istiqamətdə bir mexanizm yaratmalıyıq ki, bunların konkret şikayətləri olan məsələlərin dərhal həll olunması üçün addımlar atılsın.

Mən bilirəm, bizim hörmətli maliyyə nazirimiz Samir Şərifov Xüsusi Olimpiya Komitəsinin prezidenti kimi dəfələrlə elementar bir məsələnin, nöqsanın olduğu barədə məlumat alan kimi, dərhal onun həlli istiqamətində addımlar atıb. Digər qurumlardan biz bəzən bu addımları görmürük. Ona görə də bütün qurumların bu istiqamətdə özünə aid olan məsuliyyəti anlaması dərhal vacibdir. Çünki hərbçi bu gün bizim üçün ən öndə gələn bir təbəqədir. Onları incidəcək, narahat edəcək fəaliyyət mümkün deyil. Ölkə Prezidenti onların ailə üzvlərinin təminatı ilə bağlı böyük işlər görür, maaşları artırır, hər şey edir. Amma yerlərdə bu məsələlərin icrası ilə bağlı məsələ həllini tapmayanda bu, ciddi narazılıq doğurur və dərhal həllini tapmalıdır. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Musa Qasımlı, buyurun.

**M.Qasımlı.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri! Mən bir məsələyə münasibət bildirmək istəyirəm. Dünən bizim öz torpağımızda, öz ərazimizdə sərhədçimizə terrorçu Ermənistan dövləti tərəfindən atəş açılması, hərbçimizin yaralanması Ermənistanın beynəlxalq normaları kobudcasına pozduğunu göstərir. Hamı yaxşı bilir ki, bu gün Azərbaycanın Rusiya, İran, Gürcüstan, Türkiyə ilə quru sərhədləri bağlıdır, amma Ermənistanla açıqdır. Həkəri çayının üstündə buraxılış-keçid məntəqəsi yaradılıb. Bu, cənab Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin böyük humanist addımıdır.

Ermənistan qətiyyən bunu qiymətləndirə bilmir, belə bir şəraitdə də ağıllanmır. Onun havadarları və xüsusən

sülh prosesinə mane olan İran dövləti regionu qarışdırmaq istəyir. Bu gün bizim Naxçıvanla əlaqəmiz yoxdur. Naxçıvan blokada şəraitindədir. Amma Azərbaycan dövləti erməni vətəndaşlarının sərbəst hərəkətinə icazə verib. Ermənistan bunu anlamır, anlamaq qabiliyyətində də deyil. Hesab edirəm ki, onlara da mane olurlar.

Azərbaycan dövlətinə, əsgərinə, ordusuna, təhlükəsizlik qüvvələrinə, bütün silahlı qüvvələrə atəş açan, ona cürət edən şəxs yerində və dərhal məhv edilməlidir. Həmin adamlarla başqa heç cür danışmaq olmaz. Biz sərhədimizdən bir quşun iznsiz uçmasına icazə verməməliyik. Bir millət olaraq, vətəndaş olaraq bu gün hər birimiz dövlətimizin yanındayıq. Hesab eləyirəm ki, insan haqlarından, humanitar hüquqdan danışan dövlətlər, beynəlxalq təşkilatlar o keçid-buraxılış məntəqəsində baş verən hadisələrə münasibət bildirməlidirlər, ipə-sapa yatmayan, özünü uşaq bağçasında narahat uşaq kimi aparan Ermənistana yerini göstərməlidirlər. Onlara deyilməlidir ki, sənin üçün bu cür şərait yaradılıb, bəs sənin davranışların nədir? Ona görə də sərhəddə baş verən bütün hadisələr üçün məsuliyyət Ermənistanın və onun havadarlarının üstünə düşür. Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Naqif Həmzəyev, buyurun.

**N.Həmzəyev**. Hörmətli xanım sədr, mənə söz verdiyinizə görə təşəkkür edirəm. Hörmətli həmkarlar və hökumət üzvləri, mən hər birinizi salamlayıram. Mən diqqətinizi bir problemə cəlb etmək istəyirəm. Bilirsiniz ki, bizə lombardlar haqqında durmadan şikayətlər daxil olur və bu, əhalini ən çox narahat edən problemlərdən biridir. Təəssüflər olsun ki, bu şikayətlər günü-gündən azalmaqdansa artır. Konkret olaraq bu gün lombardların fəaliyyətini tənzimləyən bir qurum yoxdur və bununla bağlı heç bir iş görülmür.

Bəs bu lombardların fəaliyyəti kimə xeyirdir? İqtisadiyyatımıza heç bir faydası yoxdur. Əksinə, lombardlar günü-gündən artır və burada çalışan işçilərin çoxunun qeydiyyatı yoxdur. Onlar əhalinin ora girov qoyulmuş qızıl və qiymətli əşyalarını götürürlər, qaçırırlar. Bu şikayətlər də günü-gündən artır və nəticə etibarilə lombardlardan narazı qalan əhali problemin günahını hökumətdə görür. Mən düşünürəm ki, bununla bağlı konkret işlər görülməlidir.

Biz əgər Mərkəzi Banka səlahiyyətlər veririksə, bu məsələni də unutmamalıyıq. Konkret bu problemin həlli ilə bağlı tənzimləmə mexanizmi hazırlanmalıdır. Əgər bu mexanizm hazırlanmırsa, gecikirsə, lombardların fəaliyyəti dondurulmalıdır, əhaliyə olan borclar geri qaytarılmalıdır. Əks təqdirdə bu problemlər günü-gündən artacaqdır. Bunlarla yanaşı, həmkarlarımız hər dəfə çıxış edərək xarici valyutalar üzrə mübadilə mərkəzlərinin az olmasından danışırlar. Mən düşünürəm ki, bank olmayan kredit təşkilatlarına da bu səlahiyyətlər verilə bilər. Onların həm kassaları, həm də mühafizələri var və onların bu xidməti göstərməsi üçün, demək olar ki, heç bir problem yoxdur. Mən düşünürəm ki, həmin problemi biz bu yolla həll edə bilərik.

Bununla yanaşı, xanım sədr, yəqin ki, sosial şəbəkələri hər kəs izləyir. Çox təəssüflər olsun ki, bu dəfə orta məktəblərdə son zəng tədbirlərində kriminal mahnılar daha çox səsləndi. Bu da bizi düşündürməlidir. Təhsil Nazirliyində, məktəblərdə olan şəxslər hara baxırlar? Biz məktəblilərimizin bu kriminal aləmə olan marağının artmasının qarşısını niyə ala bilmirik? Başa düşürük, kənarda məktəblilər buna qulaq asa bilərlər. Bəs orta məktəblərdəki tədbirlərdə kriminal həyatı təbliğ edən belə musiqilərə necə göz yumulur? Bu barədə düşünməliyik və bu

problemin həlli ilə bağlı aidiyyəti qurumlar konkret iş görməlidirlər. Bu məsələni hər kəs bir-birinin boynuna atır, heç kim çıxıb nə açıqlama, nə də bu problemin həlli ilə bağlı konkret bir konsepsiya vermir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sizin bununla bağlı faktlarınız var? Sosial şəbəkələrdən həmin faktları yığın, nazirliyə xəbər verin. Tural Gəncəliyev, buyurun.

**T.Gəncəliyev**. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, əziz həmkarlar! Təəssüflər olsun ki, yenə də Ermənistan–Azərbaycan sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında və Qarabağ bölgəsində biz vaxtaşırı təxribatların şahidi oluruq. Müsbət bir atmosferin yarandığı, danışıqların normal getdiyi bir mühitdə yenə də Ermənistan tərəfi təxribatlara əl atır, vəziyyəti gərginləşdirməyə cəhdlər edir. Bu bir daha təsdiq edir ki, Ermənistan sülhün əldə edilməsində hələ də maraqlı deyil. Biz bunu qınayırıq və pisləyirik. Ümumiyyətlə, Ermənistan hər zaman öz qonşularının ərazi bütövlüyünə qarşı iddialar ilə çıxış edir. Artıq Ermənistan ictimaiyyətində müzakirələr başlamışdır. İşğalçı ölkənin dövlət atributlarında – gerbində, himnində başqa dövlətlərin ərazilərinə qarşı iddialar mövcuddur. Bunlara son qoyulmalıdır.

Bildiyiniz kimi, Ermənistanın gerbində Türkiyənin Ağrı dağı təsvir olunmuşdur. Ermənistan Konstitusiyasının preambulasında müstəqillik bəyannaməsinə bir istinad var və orada Azərbaycana qarşı açıq-aşkar ərazi iddiaları mövcuddur. Hesab edirəm ki, bütün bu məsələlərə Ermənistan yenidən baxmalıdır, əgər o, qonşularına qarşı ərazi iddialarını davam etdirsə, regionda sülh olmayacaq. Birincisi, bu ölkənin Konstitusiyasının preambulasından dövlət gerbində, himnində olan həmin o istinad çıxaril-

malıdır. İkincisi, Ermənistanın öz qonşularına qarşı əsassız ərazi iddialarına son qoyulmalıdır. Bu yaxınlarda beynəlxalq tədbirlərin birində biz Ermənistan nümayəndələrinin nə qədər destruktiv fəaliyyət apardığını, öz qonşularına qarşı ərazi iddiaları irəli sürdüklərini ifşa etdik. Hətta Türkiyəyə qarşı ərazi iddiaları ilə bağlı da biz mövqeyimizi bildirdik. Bunlar o qədər reallıqdan uzaqlaşıblar ki, NATO-nun ikinci böyük ordusuna, dünyanın ən güclü ölkələrindən birinə – Türkiyəyə qarşı ərazi iddialarını hələ də davam etdirirlər. Həqiqətən də bu, yalnız reallıqdan uzaq olan, yerləşdiyi regionda gedən prosesləri başa düşməyən xəstə təfəkkürün nəticəsi ola bilər. Bunu başqa cür anlamaq mümkün deyil.

Ona görə də mən hesab edirəm ki, Ermənistanın siyasi-hərbi rəhbərliyi öz ictimaiyyətini sülhə hazırlamaq istəyirsə, elə sülh mesajlarından başlamalıdır, ilk növbədə onların rəsmi qanunvericiliyində, dövlət atributlarında qonşu ölkələrin ərazilərinə qarşı iddialara son qoyulmalıdır. Belə bir halda, təbii ki, regionda sülhün və əmin-amanlığın əldə edilməsinə daha tez nail ola bilərik. Sonuncu istər Qarabağda, istərsə də sərhəd bölgələrində hərbçilərimizə, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan Rusiya sülhməramlılarına qarşı atəşin açılması da qəbuledilməzdir.

**Sədrlik edən.** Sağ olun. Mən görürəm, Soltan müəllim artıq Fransadan qayıdıb. Soltan müəllim, Fransada necə keçdi görüşləriniz? Buyurun.

**S.Məmmədov**. Xanım sədr, söz verdiyinizə görə təşəkkür edirəm. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar və media nümayəndələri. Bu günlərdə Fransanın Avropa və xarici işlər naziri Katrin Kolonna Avropa Parlamentində müzakirələr zamanı Azərbaycanla bağlı növbəti

dəfə əsassız mülahizələrlə çıxış edib. Ölkəmizin öz suveren ərazilərində nəzarət-buraxılış məntəqəsi yaratması ilə bağlı qərəzli fikirlər səsləndirib. Bu, bir daha göstərir ki, Fransa Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesində obyektiv və tərəfsiz mövqe tutmur. Əksinə, vəziyyəti gərginləşdirmək siyasətini davam etdirir.

Fransa ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu üzvlərinin ötən həftə Fransa Respublikasına səfərinin təşkilinə və işçi qrupun fəaliyyətinə göstərilən dəstəyə görə, Sahibə xanım, Sizə, Milli Məclis rəhbərliyinə dərin təşəkkürümü bildirmək istəyirəm. Orada deputat həmkarlarım Ramin Məmmədov və Tural Gəncəliyevlə birlikdə Fransa Milli Assambleyasının Azərbaycanla dostluq qrupunun rəhbəri Pyer Vatan və qrupun digər üzvləri ilə görüşdük. Görüşdə iki ölkə arasında münasibətlərə dair bir sıra məsələlər ətrafında müzakirələrimiz oldu.

Fransalı həmkarlarımız da son illərdə ölkələrimiz arasında qarşılıqlı münasibətlərdə yaranan anlaşılmazlıqlardan çox narahatdırlar. Fransanın Cənubi Qafqazla bağlı siyasətini, xüsusilə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesində tutduğu mövqeyini heç də Fransadakı bütün siyasətçilər dəstəkləmir. Biz Azərbaycanın münasibətlərdə yaranmış böhranın səbəbkarı olmadığını və Milli Assambleyadakı dostluq qrupundan daha aktiv fəaliyyət gözlədiyimizi bildirdik.

Xüsusilə son dövrlərdə Fransanın Ermənistanı silahlandırmaq təşəbbüsləri ilə bağlı yayılan məlumatlar barədə ətraflı fikir mübadiləmiz oldu. Fransa Senatının Beynəlxalq əlaqələr, müdafiə və silahlı qüvvələr komitəsinin sədri Kristian Kambonla görüşdə də Azərbaycanı narahat edən məsələlər barədə məlumat vermək imkanımız oldu.

44 günlük müharibədən sonra bölgədə yaranmış yeni reallıqlar, Azərbaycanın sülh təşəbbüslərinə Ermənistanın qeyri-konstruktiv yanaşması ilə bağlı fikirlərimizi bildirdik. Fransa parlamentinin üzvləri ölkələrimiz arasında parlamentlərarası əlaqələrin möhkəmləndirilməsinin vacib olduğunu bildirdilər. Bu istiqamətdə bir sıra maraqlı təkliflər səsləndi.

İnanıram ki, Milli Məclis rəhbərliyinin də dəstəyi ilə biz bu təklifləri həyata keçirə biləcəyik. Bütün görüşlər zamanı bir daha vurğuladıq ki, əlaqələrdə mövcud böhranın aradan qaldırılması üçün ilk növbədə Fransa tərəfinin öz siyasətinə yenidən baxmasına ehtiyac var. Orada parlamentin hər iki palatasında Azərbaycanın haqlı, ədalətli mövqeyini anlayışla qarşılayan həmkarlarımız var və onlar hökumətlərinin yürütdüyü siyasətin yanlış olduğunu cəmiyyətə çatdırmaq üçün daha fəal iş aparmalıdırlar. Biz də bu məsələdə səlahiyyətlərimiz çərçivəsində zəruri dəstəyi verməyə hazır olduğumuzu bildirdik. Səfərin nəticəsi ilə bağlı da qeyd etmək istəyərdim ki, Cənubi Qafqazdakı reallıqları düzgün qiymətləndirməyi bacaran, Azərbaycanın regional və qlobal proseslərdə artan rolunu başa düşən Fransa parlamentinin hər bir üzvü ilə daha sıx işləməyi düşünürük. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ramin müəllim, Siz ermənilərlə görüşünüz haqqında söz açmadınız? Qısa olaraq buyurun.

**R. Məmmədov.** Hörmətli Sahibə xanım, hörmətli həmkarlar və media nümayəndələri. Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri hörmətli Soltan Məmmədovun da diqqətinizə çatdırdığı kimi biz ötən həftə Fransa parlamenti üzvləri ilə görüşlər keçirdik və səfərimizin əsas məqsədlərindən biri mütləq mənada

Azərbaycanın haqlı mövqeyini çatdırmaq idi. Parlamentlərarası dostluq qruplarının işçi qrupunun fəaliyyətinə zərər gətirəcək hallardan çəkinməli olduğu və iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsi üçün zəruri addımlar atmalarının zəruriliyi ilə bağlı geniş fikir mübadiləsi apardıq. Fransa parlamentinin üzvləri ilə münasibətlərin tənzimlənməsi istiqamətində atılacaq addımlardan söz açdıq. Müzakirə olunan məsələlər arasında Qarabağ iqtisadi zonasında yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarının bundan sonrakı mərhələdə Azərbaycanın həm iqtisadi, həm də sosial-siyasi proseslərə inteqrasiyası nöqteyi-nəzərindən aparılan işlərlə bağlı geniş fikir mübadiləsi apardıq. Azərbaycan dövlətinin və cəmiyyətinin bu istiqamətdə konkret ölkəmizin Konstitusiyasına əsaslanan və Azərbaycanın daxili məsələsi kimi dünya ictimaiyyətinə təqdim etdiyi ermənilərlə təmas qrupunun fəaliyyətindən danışdıq.

Təbii ki, fransız həmkarlarımız Azərbaycanın bu istiqamətdə atdığı addımları çox yüksək qiymətləndirirlər. Bəziləri, ümumiyyətlə, bu proseslə bağlı hər hansı məlumatlarının olmadığını vurğuladılar. Biz də öz növbəmizdə əminliklə onların diqqətinə çatdırdıq ki, Azərbaycan istər ərazi bütövlüyünün təmin olunması, istərsə də ərazimizdə yaşayan hər hansı bir etnik qrupun nümayəndələrinin qanunvericilik çərçivəsində fəaliyyəti, həyati təhlükəsizliklərinin, hüquqlarının qorunması istiqamətində əmin addımlar atacaq. Bu istiqamətdə Azərbaycan parlamenti üzərinə düşən məsuliyyəti hiss edir. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Siz danışdınız, ümidvarıq ki, onlar eşitdilər. Zahid Oruc, buyurun.

**Z.Oruc.** Hörmətli sədr. Üç gün əvvəl Avropa Parlamentində son üç ildə 7-ci dəfə gündəliyə çıxarılan Ermənistan–Azərbaycan məsələsi deputatların avrokomissar Jozef Borrelə verdiyi suallardan sonra bir cümləlik anti-Azərbaycan bəyanatı ilə yekunlaşıb. Bədnam Fransua Bellami və onun Almaniya, Niderland, Fransa, Malta, Kiprdən olan həmkarları ölkəmizin əleyhinə birləşiblər. Sessiyada ölkəmizə sanksiyaların tətbiqi, Xankəndi ermənilərinə maliyyə və hərbi yardım, bölgəyə beynəlxalq təhlükəsizlik missiyasının göndərilməsi xüsusi vurğulanıb.

Göründüyü kimi, 44 günlük müharibənin qəfil baş verməsi ilə Qərb özünü məğlub sayır, bölgədən çıxarılması ilə barışmır və hər vəchlə geri dönməyə can atır. Avroparlamentdə Laçın yolunu gündəmə çıxaranlar 10 noyabr sənədini tanımadıqları halda 6-cı bənddən – Rusiya sülhməramlılarının məntəqəni qorumadığından danışıb özlərini ifşa ediblər. Bəli, 30 il o yolu icazəsiz keçənlərin qarşısına indi sədd çəkilib. Beləliklə, Paşinyanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması Qərbin planlarına zərbə vurub. Jozef Borrel 51 dövlətin 100 milyard dollardan artıq yardım etdiyi Ukraynanın anti-Rusiya koalisiyasına Azərbaycanın da qoşulmasını istəyir. Plan bəllidir: Ukrayna müharibəsini Qafqazlara qədər uzadıb Rusiya ordusunu bir neçə cəbhəyə parçalamağa cəhd edirlər. Bir əsr əvvəl bolşevik inqilabı olmasaydı, indi Vudro Vilsonun və Almaniyanın, Britaniyanın qüvvələri bölgəmizdə hökmranlıq edirdilər. Ssenari eynidir: NATO qüvvələrini Qafqaza gətirsinlər.

Bu ilin martında Foq Rasmussenin əvvəlcə Cermuxa gəlib Azərbaycanın “hərbi hücumu”nu pisləməsi, ardınca Laçın sərhəd məntəqəsinə yaxınlaşıb görüntülər paylaşması, Qarabağda erməni əhalisinin “humanitar böhran”ını

qabartması Ermənistana casus missiyası göndərən NATO-nun, onun əsas yönləndiricisi olan Amerikanın birbaşa sifarişi idi. Ağdama, Ağdərəyə bir dəfə də gəlməyən keçmiş Baş katib indi ölkəmizə sistemli hücumlar edir və İrəvandan, Xankəndidən rus hərbi birləşmələrini çıxarıb Avro-Atlantik Alyansın qoşunlarını yerləşdirmək istəyənlərin sözünü deyir.

Göründüyü kimi, Paşinyana Brüssel və Parisdən güclü təzyiqlər var. USAID, UNICEF, UNESCO və digər humanitar təşkilatlar, o cümlədən Beynəlxalq Qırmızı Xaç Komitəsi agentura şəbəkəsinə çevrilib və onların Qarabağa gələn missiyası hərbi kəşfiyyat planlarını həyata keçirirlər.

Dünən bütün erməni informasiya kanallarında Həkəri körpüsü üzərində Azərbaycan bayrağının qaldırılması zamanı ölkəmizin qəhrəman oğulları ilə Rusiya sülhməramlılarının birgə hərəkət etməsinə qarşı genişmiqyaslı qarayaxma kampaniyası aparılırdı. 30-cu ildönümünü yaşadığımız hazırkı iyun günlərində bizi Rusiya ilə yenidən 1990-cı illərdəki kimi toqquşdurmaq istəyirlər. Əliyev, Putin və Ərdoğan arasındakı münasibətlər Amerika və Avropa Birliyini qəzəbləndirir. Lakin plan işləmir. Dünənki Zəngilan, Laçın və digər sərhəd nöqtələrindəki təxribatlarla Strasburqdakı, Brüsseldəki müzakirələr eyni mərkəzdən idarə olunur.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov, buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri və hökumət nümayəndələri, mən də sosial məsələlərlə bağlı bir məsələni qeyd etmək istərdim. Son illər Azərbaycanda sosial paketlərin mütəmadi olaraq reallaşması sosial təminat sisteminin daha da güclənməsinə gətirib çıxarıb. Bu, özünü həm əmək haqqı,

həm də pensiyalarda artımlarla göstərir. Bu gün Azərbaycan minimum əmək haqqı və eləcə də pensiya məbləğinə görə MDB-də ilk yerlərdən birini tutur. Bütün bunlarla yanaşı, rəsmi statistikaya görə ölkəmizdə məşğul əhalinin sayı 5 milyon 304 min nəfərdir və bunun 2 milyon 714 min nəfərini qadınlar və qalan hissəsini kişilər təşkil edir. Eyni zamanda, statistika göstərir ki, kişilərlə müqayisədə qadınlar arasında işsizliyin səviyyəsi daha yüksəkdir. Rəsmi göstəricilərə əsasən kişilər arasında işsizliyin səviyyəsi 4,9 faiz, qadınlar arasında isə 7 faizdir və kişilərin əmək haqqı qadınlarla müqayisədə 54 faiz daha artıqdır. Həm əmək haqqı fərqi, həm də qeyri-fəal əhali içərisində qadınların sayının çox olması, rəsmi statistikaya görə 66 faiz təşkil etməsi nəticə etibarı ilə qadınlarla kişilər arasında pensiya məbləğində fərqlərin yaranmasına gətirib çıxarır.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, qadınlarla kişilər arasında pensiya məbləğində fərqin aradan qaldırılması üçün xüsusi əmsallardan istifadə olunur. Yəni bunun mahiyyəti ondan ibarətdir ki, qadınlar pensiya yaşına çatan zaman onun pensiya kapitalı xüsusi əmsala vurulur və bununla da qadınların pensiya kapitalında artımlar müşahidə olunur. Bu iclasda hökumət nümayəndələrinin iştirakını nəzərə alaraq təklif etmək istərdim ki, oxşar praktikadan Azərbaycanda da istifadə olunsun. Çünki sosial təminat və pensiya təminatının gücləndirilməsi cənab Prezidentin diqqətində olan əsas məsələlərdən biridir. Ona görə də Azərbaycanda da qadınların pensiya yaşı tamam olan zaman onun xüsusi koeffisientə vurulması qadınların pensiya kapitalının artmasına və nəticə etibarı ilə qadınların daha çox pensiya almasına imkan yarada bilər. Bu, eyni zamanda, imkan verəcək ki, qadınlarla

kişilər arasında pensiya məbləğinin fərqi aradan qaldırılsın və pensiya yaşında olan qadınlarımızın sosial təminatının daha da gücləndirilməsi mümkün olsun. Düşünürəm ki, bu təklifin maliyyə təminatının hesablanması və gələcəkdə tətbiqi imkanlarına baxılması məqsədəuyğun olardı. Çünki bu, bütövlükdə Azərbaycanda həyata keçirilən sosial prioritetin əsas istiqamətlərindən biridir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elman Nəsirov, buyurun.

**E.Nəsirov.** Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri və əziz həmkarlar, mən diqqətinizi bir neçə gün öncə baş vermiş və bir qədər mətbuatın diqqətindən kənarda qalmış bir hadisəyə cəlb etmək istəyirəm. Fransanın xarici işlər naziri Ketrin Kolonna Avropa Parlamentində anti-Azərbaycan bir çıxış edib. Həmin çıxışın məzmunu ilə tanış olduqdan sonra dünən Ermənistan–Azərbaycan şərti sərhədində baş verən Ermənistanın hərbi təxribatının bütün motivlərini başa düşmək çox asan olur.

Burada dirijor çubuğunun kimin əlində olduğunu bilmək elə də çətin deyil. Ketrin Kolonnanın – Fransanın xarici işlər nazirinin çıxışının bir mövzusuna diqqət yetirin, belə adlanır: "Ermənistan – Azərbaycan münasibətləri, Dağlıq Qarabağda və Laçın dəhlizində vəziyyət". Yenə də ənənəvi "Dağlıq Qarabağ" ifadəsi və yəqin ki, bu məsələdə avropalı parlamentarilər, xüsusən də Fransa parlamentinin üzvləri daha böyük fəallıq göstəriblər. Bu xanım xarici işlər nazirindən soruşurlar ki, Fransa nə dərəcədə, hansı səviyyədə Ermənistanı müdafiə edir? Nazirin cavabı belə olur ki, siz qətiyyən narahat olmayın, Fransa Ermənistan–Azərbaycan sülh prosesində ermənilərin yanındadır. Bax, bu şəkildə bir mövqe ifadə edir. Fikir verirsiniz: "narahat olmayın".

Fransanın bu qədər problemləri var, ölkə elə özü baş-

dan-ayağa problemdir. Onları narahat edən məsələ daxili problemlər yox, Ermənistan və erməni xalqı ilə bağlı məsələlərdir. Bu nöqteyi-nəzərdən biz Fransanın sülh prosesinə hansı "töhfə verə biləcəyini" təsəvvür edə bilirik və bu hətta dəqiq bəllidir. Ketrin Kolonna iddia edir ki, Avropa İttifaqının Ermənistandakı missiyası guya ki, regionda sülhün və sabitliyin təmin olunmasında çox mühüm bir alətdir və prosesə çox böyük dəstək verir. Amma biz bunu görmürük. Elə dünən baş verən hadisələr də aydın göstərir ki, avropalı sülhməramlılar nə ilə məşğuldur və orada missiyanın fəaliyyəti nədən ibarətdir. Laçın dəhlizi ilə bağlı o qədər yalan, iftira səsləndirirlər ki. Hətta bu dəhlizi Ermənistan üçün, Qarabağdakı erməni əhalisi üçün ölüm dəhlizi kimi təqdim edirlər. Bizim dəhşətli bir blokada siyasəti həyata keçirdiyimizi söyləyirlər. Bütün bunların ardınca isə bu xanım Avropa Parlamentinin deputatının sualına cavabında deyir ki: "Madam deputat, siz bayaqdan mənim ermənilərin dəstəyi ilə bağlı fikirlərimlə tanış oldunuz və gördünüz ki, biz təpədən dırnağa qədər ermənilərin yanındayıq".

**Sədrlik edən.** Sağ olun. Elşad Mirbəşir oğlu, buyurun.

**E.Mirbəşir oğlu**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Müasir dünyamızda mədəni təsir uğrunda mübarizə sürətlə genişlənməkdə və barışmaz xarakter almaqdadır. Bunu demək vacibdir ki, qloballaşma əksər hallarda xalqların mədəni və milli identikliyinə çox ciddi təhdid yaradır, kənar elementlərin milli mədəniyyətə daxil olmasını şərtləndirir. Təbii ki, bütün bunlar hər bir xalqın gələcəyi üçün, milli mental dəyərlərinin mühafizəsi üçün böyük təhlükə formalaşdırır. Müvafiq olaraq beynəlxalq müstəvidə milli maraqların qorunması istiqamətində də real əngəllər törədir. Bu baxımdan təklif edərdik ki,

artıq bu gün beynəlxalq mövqelərə malik olan ölkəmizin də hərtərəfli potensial humanitar siyasət konsepsiyasının hazırlanması zəruridir.

Azərbaycan həm beynəlxalq siyasi münasibətlər sistemində, həm də əməkdaşlıq sistemində ən fəal iştirak edən dünya dövlətlərindəndir və onsuz da kifayət qədər uğurlu humanitar siyasət həyata keçirir. Bu siyasətin sistemli şəkildə təşkil olunması beynəlxalq əməkdaşlıq sistemində bizim mövqelərimizin daha da uğurla qorunmasını təmin edə bilər. Nəzərə almaq lazımdır ki, Azərbaycanın milli-mədəni dəyərləri elə, sözün əsl mənasında, dünyada sülhün və təhlükəsizliyin təşviq olunmasında, dövlətlər arasında barışın təmin olunması istiqamətində uğurla tətbiq oluna bilər. Bu sahədə bizim gördüyümüz çox işlər var.

Bu baxımdan özündə prinsipləri, istiqamətləri, məqsəd və vəzifələri ehtiva edən Azərbaycan Respublikasının humanitar siyasət konsepsiyasının hazırlanması artıq dövrün, qarşıya qoyduğumuz yeni məqsədlərimizin tələbidir. Bu, bir neçə istiqamətdə Azərbaycanın mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirəcək. Birincisi, biz həm mental dəyərlərimizi dünyaya tanıdacağıq, həm də onu kənar təsirlərdən qoruyacağıq. Bu gün aydın müşahidə olunan acı reallıq həm də ondan ibarətdir ki, insanlar arasında qeyri-ənənəvi münasibətlər geniş təbliğ olunmaqdadır. Bu da xalqların gələcəyi üçün çox böyük təhdid yaradır. Hesab edirəm ki, humanitar siyasət konsepsiyasının hazırlanması həm bu sahədə təsirli addımların atılması, həm də Azərbaycanın dəyərlərinin dünyaya tanıdılması istiqamətində çox təsirli rol oynayacaq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev, buyurun.

**E.Əliyev**. Çox hörmətli Sahibə xanım və hörmətli deputatlar. Həmkarımız Fazil Mustafaya qarşı törədilən terror aktı da, son zamanlar dünyada baş verənlər də göstərir ki, təhlükəsiz şəhər tipli sistemlər ictimai asayişin qorunması üçün böyük əhəmiyyət kəsb edir. Bəs ölkəmizdə təhlükəsiz şəhər sisteminin vəziyyəti necədir? 2009-cu ildən başlayaraq bu sistem daxilində biometrik identifikasiya, videomüşahidə və digər tip alt sistemlər mövcuddur. Bu, kütlə içərisindən yalnız axtarılan şəxsi seçməyə və izləməyə, hətta saxta nömrələrlə avtomobili və onun sahibini identifikasiya etməyə, izləməyə imkan verir.

Bununla bağlı dövlətimizin başçısının 2009-cu il 15 may tarixli fərmanı və Nazirlər Kabinetinin 2010-cu ildə qəbul etdiyi qərarlar var. Bəs cənab Prezidentin 14 il bundan əvvəl uzaqgörənliklə imzaladığı fərmanın icra vəziyyəti necədir? Son açıqlanan məlumatlara görə, Bakı şəhərində təhlükəsiz şəhər sistemi üzrə təxminən 2300 nöqtədə 7000 müşahidə kamerası istifadəyə verilib. İnkişaf etmiş ölkələrdə isə müşahidə parametrinə daxil olan ərazilərdə hər 1000 nəfərə düşən kamera sayı hədsiz dərəcədə yüksəkdir. Bu, belə qənaətə gəlməyə əsas verir ki, təhlükəsiz şəhər infrastrukturunun inkişaf etdirilməsi və dayanıqlılığı ilə bağlı qarşıda görüləsi işlər çoxdur. Fazil Mustafaya qarşı törədilən amansız terrorun təşkilatçılarının yaxalanması bu sahədə müsbət tendensiyalardan xəbər verir. Bununla yanaşı, baş verənlər və müasir çağırışlar da tələb edir ki, təhlükəsiz şəhərin əhatə dairəsi genişləndirilməli, mütləq bu məqsədlə yol xəritəsi hazırlanmalıdır.

Yeri gəlmişkən, yeni tikililərdə telekommunikasiya və videomüşahidə sistemlərinin istismarı ilə bağlı qanunvericilikdə də dəyişikliklər edilməlidir. Müasir dünyanın çağırışlarına uyğun olaraq hətta maskada olan cinayət-

karları identifikasiya etmək imkanı verən müasir videomüşahidə sistemləri, təmassız biometrik texnologiyalar quraşdırılmalıdır. İnkişaf etmiş ölkələr terrorçuluğa qarşı mübarizədə süni intellekt yollarından istifadəyə daha çox önəm verirlər. Bu təcrübələrin öyrənilməsi və ölkəmizdə tətbiq edilməsinə diqqət artırılmalıdır. Təhlükəsiz şəhər sisteminin modernləşdirilməsi, yeni texnologiyaların tətbiqi, kameralardan məlumatların ötürülməsi üçün optik şəbəkənin inkişaf etdirilməsi, məlumatların emal edilməsi üçün data mərkəzinin gücünün artırılması, digər təhlükəsizlik sistemləri ilə inteqrasiya böyük resurslar və peşəkar kadrlar tələb edir. Odur ki, bu məsələlərin yenidən gündəmə gətirilməsi, hökumətdən resurslar ayrılması və təhlükəsizlik sistemlərinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirilməsi faydalı olardı. Yeri gəlmişkən, videomüşahidə sistemləri ilə toplanan informasiyaların qorunması və bu məlumatlardan sui-istifadə hallarının qarşısının alınması üçün də qanunvericiliyin təkmilləşdirilməsi vacibdir. Sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov, buyurun.

**V.Əhmədov.** Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli millət vəkilləri və media nümayəndələri, iyun ayının 15-də səhər saatlarında Ermənistan təxribat törədərək Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusunu yaralamışdır. Yenə iyunun 16-da səhər Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində qeyri-qanuni erməni silahlı qüvvələri tərəfindən Şuşa istiqamətində çox ciddi atəş mövqeləri pozuldu. Qarabağda nə baş verir? Elə bil ki, 1990-cı illər yenidən təkrar olunur. O vaxt da atəşkəs elan edildikdən sonra Amerikada, Avropada, Rusiyada yığışıb Azərbaycan–Ermənistan sülh sazişinin imzalanması barədə danışırdılar, amma nəticəsi olmurdu.

Nəhayət, cənab Prezident 2020-ci ildə öz siyasi iradəsini ortaya qoyaraq Azərbaycan ərazilərinin işğaldan azad olunması barədə qərar verdi və qəhrəman ordumuz bu missiyanı şərəflə yerinə yetirdi. İndi də eyni vəziyyətdir, Amerikada, Avropada, Rusiyada yığışırlar, müəyyən qərarlar qəbul edirlər. Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Amma siyasi sazişin imzalanmasına gələndə təxribatlar törətməyə başlayırlar. Başlayıblar ki, Qarabağda yaşayan ermənilərin hüquqlarını müdafiə etmək lazımdır, o barədə qərar vermək lazımdır və sair. Laçında cənab Prezident çıxış edərkən amnistiya məsələsinə toxundu, bu da həm Avropada, həm də Amerikada çox müsbət qarşılandı.

Ümumiyyətlə, Ermənistanın atdığı addımlardan belə hiss olunur ki, sülh sazişinin yaxında imzalanması gözlənilmir. Həmkarlarım bir az əvvəl İranla əlaqədar məsələyə də toxundular. Amma mən hiss edirəm ki, burada İrandan başqa Rusiya da maraqlıdır ki, bu sülh sazişi, ümumiyyətlə, imzalanmasın. Çünki sülh sazişi imzalanandan sonra oradakı sülhməramlılara ehtiyac qalmayacaq, çıxmalı olacaqlar. Rusiya isə çalışır ki, onlar uzun müddətə qalsınlar ki, həm Azərbaycanı, həm də Ermənistanı təzyiq altında saxlasınlar. Cənab Prezident Pakistanın Baş naziri ilə görüşündə yaxşı bir cümlə işlətdi. Dedi: "Sülh sazişinin imzalanmasının perspektivləri var. Sadəcə olaraq, Ermənistan siyasi iradə nümayiş etdirməlidir və artıq rəsmi olaraq bəyan etdikləri kağızın üzərində həkk etməlidir ki, Qarabağ Azərbaycandır!" Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Çıxış edənlərə təşəkkür edirəm. İndi isə gündəliyin məsələlərinin müzakirəsinə keçirik. Qeyd edim ki, bu gün biz 13 məsələyə baxacağıq. Gündəliyin ilk 3 məsələsi möhtərəm cənab Prezidentin bir

məktubu ilə Milli Məclisə daxil olub. Bu ilin dövlət büdcəsinə və büdcə zərfinə daxil olan digər iki sənədə dəyişiklik edilməsi barədədir. Onu da qeyd edim ki, qanun layihələri üçüncü oxunuşda təqdim ediləcək. Hörmətli həmkarlar, hər 3 qanun layihəsi büdcə zərfi ilə bağlıdır. Ona görə də təklif edirəm ki, ötən iclaslarda olduğu kimi, məsələlərin təqdimatları birlikdə edilsin, ancaq səsvermə ayrıca olacaq. Gündəliyin 1-ci məsələsi "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili**, *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli hökumət üzvləri və media nümayəndələri. Bildirmək istərdim ki, "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Qanuna dəyişikliklər edilməsi barədə sənəd Milli Məclisin plenar iclasında üçüncü oxunuşda müzakirə olunur. Biz birinci və ikinci oxunuşlar zamanı layihə haqqında ətraflı təqdimatlar etmişik və həmkarlarım layihə barədə rəy və təkliflərini səsləndirmişlər. Bu çıxışlara, sual və təkliflərə qanun layihəsinin ikinci oxunuşda müzakirəsi zamanı hörmətli maliyyə naziri tərəfindən geniş şərh verilmişdir. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında üçüncü oxunuşda müzakirə edilən qanun layihəsinə layihə təşəbbüskarı tərəfindən bir neçə dəyişiklik təklif edilmiş və bu təkliflər komitədə müzakirə edilərək qəbul edilmişdir.

Hörmətli həmkarlar! Yenilənmiş makroiqtisadi proqnozlar, o cümlədən neft qiyməti ilə bağlı gözləntilər,

əmtəə bazarlarında qiymət dinamikaları və cari ilin birinci rübündə dövlət büdcəsinin gəlirlərinin faktiki icra vəziyyəti İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidmətinin xətti ilə qeyri-neft gəlirləri üzrə büdcə daxilolmalarının əlavə olaraq 55 milyon manat (əlavə dəyər vergisinin hesabına) artırılmasını şərtləndirmişdir. Həmçinin qeyd olunmalıdır ki, hazırda Milli Məclisdə müzakirədə olan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində ediləcək dəyişikliklərə uyğun olaraq yol hərəkəti qaydalarının pozulmasına görə bəzi cərimələrin məbləğinin artırılması nəzərdə tutulur. Həmin dəyişikliklər nəzərə alınmaqla cərimələri tətbiq edən dövlət orqanlarının büdcədənkənar gəlirlərinin və müvafiq olaraq büdcədənkənar xərclərinin artacağı proqnozlaşdırılır. Bununla yanaşı, bəzi büdcə təşkilatlarının (İqtisadiyyat Nazirliyi və Xüsusi Tibb Xidməti) büdcədənkənar gəlirlərində cari ilin sonuna əlavə olaraq 56 milyon manat vəsaitin daxil olacağı proqnozlaşdırılır. Mövcud qaydalara uyğun olaraq müvafiq balanslaşdırılma aparılmaqla həmin məbləğ qədər, yəni 56 milyon manat aidiyyəti büdcə təşkilatlarının büdcədənkənar xərcləri artırılmalıdır. Bu deyilənləri nəzərə alaraq, sizə təqdim olunmuş qanun layihəsində aşağıdakı dəyişikliklərin edilməsi təklif olunur:

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinin qeyri-neft daxilolmalarının əlavə olaraq 55 milyon manat artırılaraq 8 milyard 985 milyon manata çatdırılması; dövlət büdcəsinin büdcədənkənar gəlirlərinin 56 milyon manat artırılaraq 857 milyon manata çatdırılması; İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə qeyri-neft gəlirlərinin 55 milyon manat əlavə daxilolması hesabına dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi üçün xəzinə qalığından nə-

zərdə tutulmuş vəsaitin həmin məbləğ qədər azaldılması. Nəticədə dövlət büdcəsinin gəlirləri 111 milyon manat artırılaraq 33 milyard 890,5 milyon manat və yaxud təsdiq olunmuş göstəriciyə nisbətən 3 milyard 116,5 milyon manat, 10,1 faiz çox olacaqdır. Dövlət büdcəsinin kəsiri isə 55 milyon manat azaldılaraq 2 milyard 734,3 milyon manat təşkil edəcəkdir.

Qeyd edilən dəyişikliklərdən sonra dövlət büdcəsinin xərcləri 56 milyon manat artırılaraq büdcədənkənar xərclər hesabına 56 milyon manat və daxili ehtiyatlar hesabına Naxçıvan Muxtar Respublikasına verilən dotasiyanın 0,2 milyon manat artırılması hesabına 36 milyard 624,8 milyon manat olacaqdır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 3 milyard 271,5 milyon manat və ya yaxud 9,8 faiz çoxdur. Aparılacaq dəyişikliklər hesabına icmal büdcənin gəlirləri əlavə 111 milyon manat artırılaraq 43 milyard 60,1 milyon manat, xərcləri əlavə 56 milyon manat artırılaraq 41 milyard 269,9 milyon manat, profisiti isə əlavə 55 milyon manat artaraq 1 milyard 790,3 milyon manat olacaqdır.

Yuxarıda qeyd olunan təkliflər də daxil edilməklə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsində ediləcək dəyişikliklərin əks olunduğu son layihə sizlərə paylanmışdır. Paylanan layihədə bütün bu dəyişikliklərin maddələr üzrə əksi cədvəldə göstərilmişdir.

Hörmətli həmkarlar, beləliklə, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi yekun olaraq hesab edir ki, müzakirə etdiyimiz dövlət büdcəsinə dəyişikliklər layihəsi 2023-cü il üçün ölkəmiz qarşısında yaranacaq çağırışlara layiqli cavab vermək və bütün istiqamətlərdə dövlət siya-

sətini həyata keçirmək üçün mühüm maliyyə bazası yaradacaqdır. Bunları nəzərə alaraq, "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini Milli Məclisin plenar iclasında üçüncü oxunuşda qəbul edilməsi üçün məqbul hesab edirik. Deputat həmkarlarımdan da bu layihələri bir daha dəstəkləmələrini xahiş edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Tahir müəllim, sağ olun. 2-ci və 3-cü məsələləri Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət xanım İbrahimqızı təqdim edəcək. Buyurun, Məlahət xanım.

**M.İbrahimqızı,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsi sədrinin müavini.*

Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar və hökumət üzvləri. Hər iki qanun layihəsi – "Dövlət Sosial Müdafiə Fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə və "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda komitəmizdə müzakirə olunmuşdur. Heç bir təklif yoxdur. Xahiş edərdim ki, həmkarlarım olduğu kimi səs versinlər. Çox sağ olun.

**Sədrlik edən.** Məlahət xanım, çox sağ olun. Tahir müəllim, bu iki layihəyə sizdə də baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin.

**T.Mirkişili.** Hörmətli xanım sədr, hər iki layihə barədə bizim komitənin rəyi müsbətdir.  Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən  qanun layihələrini bir-bir səsə qoyacağam. Xahiş edirəm, "Azərbaycan Respublikasının 2023-cü il

dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə mən "Dövlət Sosial Müdafiə Fondunun 2023-cü il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 3 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə hörmətli həmkarlar, xahiş edirəm, "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 2 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 4-cü məsələsinə keçirik. Bu məsələ "Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü il üçün xərclər smetası haqqında" Milli Məclisin 2022-ci il 9 dekabr tarixli Qərarında dəyişikliklər edilməsi barədə qərar layihəsidir. Layihə sizə paylanıb. Xahiş edirəm, kimsə çıxış etmək istəyirsə etsin, yoxsa mən qərarı səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə mən hökumət üzvlərinə təşəkkür edirəm və uğurlar arzulayıram. Sağ olun.

Hörmətli həmkarlar, biz işimizi davam etdiririk. 5-ci məsələyə keçirik. Bu, "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş"in təsdiqi və "Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının iclasında Azərbaycan Respublikasının Hökuməti adından imzalanmış "Yalançı

əmtəə nişanlarından və coğrafi göstəricilərdən istifadənin qarşısının alınması və kökünün kəsilməsi tədbirləri haqqında" Sazişin təsdiq edilməsi barədə" Qanunun ləğv edilməsi haqqında qanun layihəsidir. Qeyd edim ki, beynəlxalq sazişlərlə bağlı olduğuna görə qanun layihəsi müvafiq Konstitusiya qanununun tələbinə əsasən, bildiyiniz kimi, bir oxunuşda qəbul ediləcəkdir. Sənədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, ona görə Sizə söz verirəm. Buyurun, məlumat verin.

**T.Mirkişili.** Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, bu saziş 2021-ci ilin may ayının 28-də Belarusun Minsk şəhərində imzalanmışdır. Saziş əqli mülkiyyət hüququ sahəsində qarşılıqlı fəaliyyəti tənzimləmək məqsədi daşıyır. Sazişin əsas qayəsi tərəflərə saxta əmtəə nişanları və coğrafi göstəricilərlə təchiz olunmuş əmtəələrin istehsalı və satışı, dövlətlərin sərhədləri üzərindən hərəkətlərin qabaqlanması və bu sahədə əməkdaşlıq şəraitinin yaradılmasıdır. Tərəf dövlətlər sazişin müddəalarını öz səlahiyyətli qurumları vasitəsi ilə milli qanunvericilik və beynəlxalq normalara uyğun olaraq həyata keçirəcəkdir. Sazişdə nəzərdə tutulmuş qarşılıqlı fəaliyyətlərin əlaqələndirilməsi MDB-nin sahəvi əməkdaşlıq orqanına, əqli mülkiyyət hüququnun qorunması və mühafizəsi ilə bağlı dövlətlərarası şuraya həvalə ediləcəkdir.

Saziş qeyri-müəyyən müddətə bağlanır. İştirakçı dövlətlər sazişin qüvvədə olduğu müddətdə yaranan öhdəlikləri tənzimləyərək hər an bu sazişdən çıxa bilərlər. Bu saziş qüvvəyə mindiyi tarixdən etibarən 1989-cu il 4 iyul tarixli "Yalançı əmtəə nişanlarından və coğrafi göstəricilərdən istifadənin qarşısının alınması və kökünün kəsilməsi tədbirləri haqqında" Saziş ləğv olunur. Bizim komitənin sazişə rəyi müsbətdir. Həmkarlarımın dəstəkləmə-

lərini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Sevinc xanım, sənədə sizin komitənizdə – Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Xahiş edirəm, Siz komitənin rəyi haqqında məlumat verin.

**S.Fətəliyeva,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini.*

Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Komitəmizdə qanun layihəsinə baxılıb və rəyimiz müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli deputatlar, qeyd edim ki, gündəliyin növbəti 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə yaxındır. 6-cı məsələ Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, 7-ci məsələ isə “Gömrük tarifi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Hər iki layihə üçüncü oxunuşda təqdim olunur. Bilirsiniz ki, qanun layihələrinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, xahiş edirəm, məlumat verin.

**T.Mirkişili.** Hörmətli xanım sədr, Siz də qeyd etdiyiniz kimi, hər iki qanun üçüncü oxunuşdadır. Birinci və ikinci oxunuşlar zamanı həmkarlarım tərəfindən hər hansı qeyd, təklif olmadığına görə layihələri olduğu kimi səsə qoymağınızı Sizdən xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Görürəm ki, çıxış etmək, sual vermək istəyən yoxdur. Ona görə də məsələləri bir-bir səsə qoyuram. Xahiş edirəm, indi 6-cı məsələyə – Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 7-ci məsələ – "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi səsə qoyulur. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun,  qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin son 6 məsələsi də möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə də bir-birinə yaxındır. 8-ci məsələ “Avtomobil nəqliyyatı haqqında” Qanunda dəyişiklik edilməsi barədə, gündəliyin 9-cu məsələsi İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, 10-cu məsələ Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, gündəliyin 11-ci məsələsi “Yol hərəkəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə, gündəliyin 12-ci məsələsi “Lisenziyalar və icazələr haqqında” Qanunda dəyişiklik edilməsi barədə, gündəliyin 13-cü məsələsi isə “Dövlət rüsumu haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir.

Hörmətli deputatlar, məsələlərin müzakirəsi ilə əlaqədar dəvət olunan şəxslər də var – Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini hörmətli Rəhman Hümmətov, nazirliyin Hüquq şöbəsinin müdiri hörmətli Elmin Məmmədov və Nazirlik yanında Yerüstü Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Anar Rzayev. Anar müəllim buradadır? Çox yaxşı. Mən qonaqlarımızı da salamlayıram.

Hörmətli həmkarlar, qanun layihələri birinci oxunuşda müzakirəyə təqdim olunur. Xahiş edirəm, birinci oxunuşun tələblərinə uyğun olaraq çıxış edin. Qeyd edim ki, qanun layihələrinə Milli Məclisin 2 komitəsində baxılmışdır. 8-ci, 10-cu, 12-ci və 13-cü məsələlərə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, buyurun, məlumat verin.

**T.Mirkişili.** Çox sağ olun. Hörmətli xanım sədr, icazə verirsinizsə, bir-bir yox, qanun layihələrinin hamısı barədə ümumi bir məlumat verim. Daha geniş məlumat vermək üçün hamısını bir yerdə təqdim edərdim. Son zamanlar bu

mövzunun cəmiyyətdə geniş müzakirə olunması və yazılan həmkarlarımın sayının da çox olmasını nəzərə alaraq, layihə haqqında bir az geniş məlumat vermək istəyirəm.

Hörmətli həmkarlar, ilk öncə deyim ki, qanunlara təklif edilən dəyişikliklər avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları xidmətlərinin istehlakçılarının qanuni maraqlarının qorunması, bu sahədə haqsız rəqabət və inhisarçılığın qarşısının alınması, daşımaların təhlükəsizliyinin, əməyin mühafizəsinin təmin olunması məqsədi daşıyır. Qanun layihələrində həm ölkədaxili, həm də beynəlxalq yükdaşımalarına nəzarətin təkmilləşdirilməsi nəzərdə tutulur.

Xatırladım ki, 2016-cı ildə qəbul olunmuş "İcazələr və lisenziyalar haqqında" Qanuna görə həmin ildən başlayaraq ölkədə sərnişin və yük daşımaları sistemində icazə və lisenziya sistemi ləğv edilmişdir. Keçən 7 il ərzində mövcud vəziyyət barədə danışmaq istərdim. Vəziyyət ondan ibarətdir ki, hazırda sərnişin və yük daşımalarında yalnız fərqlənmə nişanı icazə kimi müəyyən edilsə də, o yalnız fiskal alət rolunu oynayır. Yəni sərnişin və yük daşıması üçün fərqlənmə nişanı almaq lazımdır. Bu yalnız maliyyə alətidir, vergi uçotuna durmaq tələb olunur və ölkədə fərqlənmə nişanı almaq üçün bütövlükdə müəyyən edilən aylıq ödəniş 9 manatdır. Yəni Bakı şəhərində iki əmsaldan ayda 18 manat ödəniş tələb olunur, fərqlənmə nişanı almaq üçün yalnız verginin, sosial sığorta haqqının və icbari tibbi sığorta haqqının ödənilməsi kifayət edir. Qanunvericilikdə avtonəqliyyat vasitələrinə və sürücülərə dair tələblər icazə kimi fərqlənmə nişanının şərtləri olaraq müəyyən edilməmişdir. Dövlət orqanları tərəfindən daşıyıcıların vahid uçot sistemi mövcud deyildir. Sərnişin-

lərin təhlükəsizliyinin təmini, onlara qarşı qanunsuz davranışın qarşısının alınması, sürücülərin müvafiq tələblərə uyğunluğunun təmin edilməsi mexanizmləri az effektivdir. Taksi sifarişi operatorlarının fəaliyyəti, ümumiyyətlə, tənzimlənmir. Sərnişinlərin fərdi məlumatları, ödəniş kartları haqqında, hərəkət trayektoriyaları haqqında bütün məlumatlar əksər hallarda ölkə xaricinə ötürülür. Taksi sifarişi operatorları, əsasən, virtual olduğundan milli təhlükəsizlik baxımından onların hansı ölkədə yerləşdiyini, sahiblərinin kim olduğunu bilmək vacibdir. Bakıda təqribən 28 minə yaxın taksi var ki, onların 90 faizi bu platformalar üzərindən fəaliyyət göstərir.

Taksi sürücüləri gündə orta hesabla 14-16 saat işləyirlər, qəzaların sayı çox, sürücülərin anlaqsız olması halları artmaqda, sərnişinlərin isə şikayəti çoxalmaqdadır. Bakıda istifadə olunan taksi gedişlərinin 60 faizə yaxını 1,5-3 kilometr məsafə üçün istifadə olunur. İctimai nəqliyyatdan istifadə edən sərnişinlərin sayı durmadan azalır. Son 1 ildə avtobuslardan istifadə halı 40 faizə qədər azalmış, metrodan istifadə isə hələ də 2019-cu ilin səviyyəsinə çatmamışdır.

Taksi sayının əhaliyə nisbətdə yüksək olması diqqət çəkir. Bu məsələ, eyni zamanda, şəhər nəqliyyat sisteminin, tıxacların idarə edilməsi üçün ciddi çağırışlar yaradır. Qeyd edim ki, məsələn, İstanbulda taksi sayı üçün kvota müəyyən edilmişdir. Hazırda bu kvota 17 min 325 ədəd müəyyən edilmişdir və bildiyiniz kimi, İstanbulun əhalisi 15 milyona yaxındır. Əhalinin nisbətinə baxanda İstanbulda hər 865 nəfərə 1 taksi düşürsə, Azərbaycanda hər 85 nəfərə 1 taksi düşür. Təxminən 10 dəfəyə yaxın fərq var.

Avtobus hesab edilməyən və taksi olmayan nəqliyyat vasitələri ilə sərnişin daşımaları fəaliyyəti, ümumiyyətlə,

tənzimlənmir. Daşımalar haqqında tənzimləyici qurumda məlumatlar olmadığından ictimai nəqliyyatın inkişafı ilə bağlı data əsaslı qərarlar qəbul etmək imkanı mövcud deyildir. İcazə blanklarından istifadə qaydalarının pozulması ilə bağlı normalar olmadığından sui-istifadə hallarının aradan qaldırılması çətinlik yaradır. Daşıyıcıların və sürücülərin peşəkarlıq səviyyəsi mövcud münasibətlər sisteminin tələblərinə uyğun deyildir. Mənim dediklərim hazırda mövcud olan vəziyyətdir.

Bütün bunları dəyişmək üçün, təbii ki, ölkədə son zamanlar nəqliyyat sahəsində aparılan islahatlar və dövlət başçısının tapşırığı əsasında həyata keçirilən tədbirlər nəticəsində nəqliyyat siyasətinin daha da təkmilləşməsi müşahidə olunur. Biz keçən ay, səhv etmirəmsə, beynəlxalq daşımalarla bağlı, icazə blankları ilə bağlı qanunvericilikdə dəyişiklik etdik. Bundan sonra təklif edilən dəyişikliklər isə ölkə daxilində bu siyasətin daha da tənzimlənməsinə xidmət edəcəkdir.

Qanun layihələri nəyi təqdim edir? Yeni mexanizmlər nədən ibarətdir?

1. Sərnişin və yük daşımalarında istifadə edilən rəqəmsal alətlər və reallıqlar qanunda əks olunur. Çünki bildiyiniz kimi, sərnişin daşımalarının 90 faizindən çoxunda rəqəmsal alətlərdən istifadə olunur.

2. Qanuna taksi sifarişi operatoru anlayışı gətirilir. Daşıyıcı, onun avtomobili və taksi sifarişi operatoru qanunla bir-birindən fərqləndirilir.

3. Daşıyıcıya buraxılış vəsiqəsi, onun istifadəsində olan nəqliyyat vasitəsinə buraxılış kartı, taksi operatoruna isə icazə veriləcəkdir.

4. İcazələrin verilməsi üçün tələb olunan sənədlər və məlumatlar dəqiq müəyyən edilmişdir.

Qeyd edim ki, ümumi sənədlər "Lisenziyalar və icazələr haqqında" Qanunda da müəyyən edilsə də, təklif olunmuş qanun layihəsində ümumi sənədlərlə yanaşı, əlavə sənədlərin də təqdim olunması tələb olunur. Bunların bir-ikisinin nədən ibarət olduğunu demək istərdim. Məsələn, daşıyıcılar üçün avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılmasının, sürücülərin reysqabağı tibbi müayinəsinin təşkili imkanı barədə sənədlər, sürücünün narkotikə qarşı tibbi müayinəsinin nəticəsi barədə məlumat, sürücülərin hazırlıq keçməsini təsdiq edən sənədlər tələb olunacaqdır.

Taksi sifarişi operatoru üçün əlavə tələb olunan sənədlər onun istifadə etdiyi proqramlar barədə məlumatlar, taksi sifarişi xidmətinin göstərilməsi üçün Azərbaycan Respublikasının ərazisində yerləşən filial və ya nümayəndəlik barədə məlumatlar.

5. Bütün icazələrin qüvvədə olma müddəti 7 ildir.

6. İcazənin verilməsi üçün "Dövlət rüsumu haqqında" Qanuna dəyişiklik edilmişdir. Belə ki, sərnişin daşıyıcıları üçün buraxılış vəsiqəsi rüsumu 125 manat, 7 illik buraxılış kartı isə 25 manatdır.

Hörmətli həmkarlar, 7 il ərzində 25 manat bir taksi maşını üçün bir ayda 30 qəpik deməkdir. Taksi operatoru üçün isə 7 il müddətinə 3 min manat dövlət rüsumu müəyyən edilir. Ölkədaxili sifarişli daşımalar üçün, – sifarişli daşımalar deyəndə biz qeyri-müntəzəm sərnişin daşımaları və yük daşımalarını nəzərdə tuturuq, – buraxılış vəsiqəsinin alınması tələb olunsa da, onun rüsumu sıfır manatdır.

7. İcazə olmadan fəaliyyət göstərmək qadağan edilir.

8. İcazələrin sayına məhdudiyyət qoyulma imkanı yaradılır.

9. Taksilərin və avtobusların daxili və xarici tərtibatının

uyğunluğuna nəzarət mexanizmi yaradılacaqdır. Qeyd edim ki, hazırda qüvvədə olan 2019-cu il tarixli Nazirlər Kabinetinin 73 saylı qərarı ilə Bakı şəhərində taksilərin xarici görünüşünə müəyyən dərəcədə tələblər müəyyən olunsa da, bir çox taksi sürücüləri tərəfindən bu tələblərə əməl olunmur.

10. Fərqlənmə nişanı qalır və o yalnız fiskal alət rolunu yerinə yetirəcək.

11. Fərdi məlumatlar haqqında qanunvericiliyə riayət edilməsi vəzifəsi müəyyən edilir.

12. Buraxılış kartı olmayan daşıyıcıya və ya sürücüyə taksi sifarişi xidmətinin göstərilməsi və operatorların belə sürücüləri və ya daşıyıcıları öz proqramlarına qoşması qadağan edilir.

13. Hər bir taksi sifarişi üzrə adsızlaşdırılmış məlumatların, iş və istirahət rejiminə nəzarət məqsədi ilə sürücü barədə məlumatların nazirliyin informasiya sisteminə real vaxt rejimində ötürülməsi vəzifəsi müəyyən edilir.

Bu dediklərimlə yanaşı, qanunvericilikdə bir sıra dəqiqləşmə normaları da müəyyən edilmişdir. Onlar da aşağıdakılardan ibarətdir:

Taksi daşımalarında taksometrlə bərabər onu əvəz edən proqram təminatının istifadəsinə imkan verilir, buna icazə verilir.

Yaşayış məntəqələrində avtovağzalların sayı ilə bağlı meyar müəyyən edilir. Şəhərlərarası avtobus marşrutlarının başlanğıc, aralıq və son təyinat məntəqəsinin yalnız avtovağzal olması müəyyən edilir. İcazə blanklarının bölgüsünün aparılması üçün meyarlar müəyyən edilir. Xarici dövlət qeydiyyat nişanlı avtomobil nəqliyyatı vasitəsi ilə ölkədaxili sərnişin və yük daşımalarının həyata keçirilməsi qadağan edilir. Müraciətlərin, əsasən, elektron

formada həyata keçirilməsi nəzərdə tutulur. Bu fəaliyyət ilə qanunun tələblərinə uyğun olaraq məşğul olmaq üçün hər hansı bir şəxsə məhdudiyyət qoyulmur. Bir daha sonda qeyd etmək istərdim ki, qanunun əsas məqsədi bu sahədə texniki normaları tənzimləmək, istehlakçıların hüquqlarını qorumaq və qanunvericiliyin bütün tələblərinə əməl etməkdir. Bu tələblərə əməl edən hər hansı bir sahibkar, fərdi sahibkar və ya taksi fəaliyyəti göstərən şəxs qanunun tələblərinə əməl edərsə, bununla bağlı hər hansı bir məhdudiyyət yoxdur.

Biz bu gün qanunu konseptual olaraq müzakirə edirik. Bir daha həmkarlarımdan qanunu konseptual olaraq dəstək-ləmələrini xahiş edərdim. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, 9-cu və 10-cu məsələlərə dair məlumat vermək üçün mən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü hörmətli Kamal Cəfərova söz vermək istəyirəm. Buyurun, Kamal müəllim, bu gün bu qanun layihələrini Siz təqdim edirsiniz.

**K.Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Tahir müəllim qanunvericilik paketi haqqında geniş təqdimat verdi. Biz də Hüquq siyasəti və dövlət quruculuğu komitəsi olaraq qanunvericilik paketini mütərəqqi hesab edirik. Çünki bu paket həm taksi sürücülərinin, həm də sərnişinlərin qanuni mənafeyini qoruyacaq. Məhz elə taksi sürücülərinin əməyini mühafizə edəcək və operatorların məsuliyyətini artıracaq.

İkinci konseptual məsələni qeyd etmək istəyirəm. Biz nə zaman İnzibati Xətalar Məcəlləsinə dəyişiklik etmişiksə, dərhal mətbuatda da, sosial şəbəkələrdə də radikal qruplar tərəfindən yanlış məlumatlandırma və təqdimatlar olub. Ancaq bu gün İnzibati Xətalar Məcəlləsinə təklif edilən

dəyişikliklərin konseptual hədəfi taksi fəaliyyətini təşkil edən operatorlara qarşıdır, konkret taksi sürücülərinə qarşı deyil. Məsələn, icazə olmadan avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmasına görə cərimənin daha çox olduğu bunu göstərir. Buraxılış vəsiqəsi olmadan daşıyıcı tərəfindən taksi minik avtomobillərində sərnişin daşınmasının təşkilinə görə vəzifəli şəxslər iki yüz manat, hüquqi şəxslər min manat cərimə ödəməlidirlər. Əlbəttə, burada taksi buraxılış kartı olmadan da fəaliyyət göstərmək imkanı var. Buna görə taksi sürücüləri üçün təklif edilən cərimə 50 manatdır.

Burada digər bir nümunəni də çəkə bilərəm. Müvafiq xüsusi hazırlıq kursları keçməmiş taksi sürücülərinə müqavilə bağlamağa görə cərimə nəzərdə tutulur. Bildiyiniz kimi, yeni dəyişikliklər içərisində taksi sürücüləri il ərzində cəmi 6 saat müvafiq hazırlıq keçirlər. Onun içində etik davranış da, taksi mədəniyyətinin inkişaf etdirilməsi ilə bağlı müvafiq sənədlər də var. Bu cür hazırlıq kurslarından keçməmiş taksi sürücüləri ilə müqavilənin bağlanmasına görə məsuliyyət taksi operatorlarının üzərinə düşür. Qanunun 342-2-ci maddəsində də qeyd edilir ki, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunmuş qaydada hazırlıq keçməmiş sürücülərə daşıyıcı tərəfindən sərnişin və yük daşımasını həyata keçirmək üçün buraxılış kartının verilməsinə görə vəzifəli şəxslər 300 manat, hüquqi şəxslər 1200 manat məbləğində cərimə edilir.

Üçüncü konseptual məsələ isə hərbi informasiya məlumatlarının qorunması ilə bağlıdır. Bildiyiniz kimi, hazırda bir sıra mobil tətbiqlər var. Telefonlarımızda həmin tətbiqlərin icazəmiz olmadan bizim kameralara, mikrofonlara, o cümlədən sənədlərə çıxışları var. Əlbəttə, biz bunun qabağını ala bilərik, amma bəzi hallarda biz yeni tətbiq yazan kimi dərhal onlara çıxış yaranır. Bu məlumat-

ların və ümumiyyətlə, hər bir Azərbaycan vətəndaşının fərdi məlumatlarının identifikasiyası, qorunması üçün qanunvericiliyə uyğun olaraq İnzibati Xətalar Məcəlləsinə əlavələr təklif edilir. Amma burada yenə də yüksək – 5 min manat, 20 min manat cərimələr müəyyən olunan taksi operatorları məsuliyyət daşıyır. Onlar bizim sərnişinlərə həmin tətbiqləri təqdim edərkən Azərbaycan Respublikasının bu sahədə olan müvafiq qanunvericiliyinin tələblərinə uyğun təşkil etməlidirlər.

Mən bütün həmkarlarımı bu mütərəqqi qanun layihələrinə dəstək olmağa çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Tahir müəllim, bu 2 məsələyə sizin komitədə də baxılıb. Xahiş edirəm, stenoqram üçün rəyinizi bildirin, buyurun.

**T.Mirkişili.** Bəli, hörmətli xanım sədr, hər iki məsələ bizim komitədə də müzakirə olunub. Kamal müəllim bizim komitənin iclasında iştirak etmişdir. Qanun layihələrinə komitəmizin rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihələrinin müzakirəsinə başlayırıq. Siyavuş müəllim, sualınız var, yoxsa təklifiniz? Buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Əziz deputatlar, doğrudan da, qanun layihələri çox mütərəqqi sənədlərdir. Həm ümumi təhlükəsizlik baxımından, həm vətəndaşların təhlükəsizliyi baxımından, həmçinin də taksi və avtobus sürücülərinin təkmilləşməsi baxımından. Bir sistemləşmə öz əksini tapır. Mənim sualım ondan ibarətdir ki, ölkəmizdə taksi və avtobus sürücülərinin təlimlərə aparılması ilə əlaqədar yerlər mövcuddurmu? Çünki bilirsiniz ki, say kifayət qədər böyükdür. Bəzi hallarda 67 min, bəzən 48 min deyirlər, bəzi hallarda isə 50 min deyirlər.

İkinci bir tərəfdən, heç olmasa, bunların işə cəlb olunması ilə əlaqədar məşğulluq orqanları və ya başqa sahələrin adamları ilə əlaqələr varmı? Çünki burada kifayət qədər insan öz iş yerini itirəcək.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Fazil müəllim, buyurun.

**F.Mustafa.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli qonaqlar. Bu məsələyə keçməzdən öncə mən bir xatırlatma etmək istəyirəm. 3 gün öncə biz hörmətli Zahid Orucun rəhbərlik etdiyi Sosial Tədqiqatlar Mərkəzində "Dövlət orqanlarının göstərdiyi xidmətlər üzrə keyfiyyət və məmnunluğun qiymətləndirilməsinin analitik hesabatı" ilə tanış olduq. Mən tövsiyə edərdim millət vəkillərinə ki, həmişə bu sənədi mütləq əllərinin altında tutsunlar və dövlət orqanlarının fəaliyyəti ilə bağlı vətəndaş məmnunluğunun səviyyəsini müəyyən etsinlər. Təbii ki, burada 77 faiz insanın, əsasən, məmnun olduğu göstərilir. Amma elə sahələr var ki, bizə bu cür qanun layihələri təqdim edəndə burada mütləq hansısa formada bir ictimai rəyin, vətəndaş məmnunluğunun nə olduğunu göstərən sənədlərin olması da vacibdir. Çünki burada deyildi ki, taksi sürücüsü vətəndaş marağını təmin edir. Bu marağı kim müəyyən edir? Onu dövlət orqanı, icra hakimiyyəti orqanı müəyyən edir. Amma vətəndaş nədən məmnundur? Ümumiyyətlə, vətəndaş taksidən niyə istifadə edir, avtobus sayı niyə 40 faiz azalıbdır? Avtobusa yol yoxdursa, onun gəliş-gedişi ilə bağlı dəqiq vaxtı müəyyən etmək çətindirsə, insanlar məcburi tıxaclara görə əlacsız qalıb taksidən istifadə edir. Bəzən, doğrudan da, narkoman taksi sürücüsünə rast gəlir, bəzən ədəbsiz taksi sürücüsünə rast gəlir, bəzən ədəblisinə rast gəlir. Təbii ki, bunlar dəyişən situasiyalardır.

Amma bir sual vermək istəyirəm, taksi sürücüsü, ümumiyyətlə, kimdir? Taksi sürücüsü peşəkar adam deyil, o, işsiz qalmış həkimdir, müəllimdir, müflis olmuş sahibkardır, başqa sahənin adamıdır. Başqa yerdə iş yoxdur. Burada qeyd olunduğu kimi, böyük əksəriyyət gedib 18 manat ödəyir, bir taksi işarəsi qoyur, fərqlənmə nişanı alır və çörək pulu qazanmağa başlayır.

Mən xatırlayıram, biz bir dəfə Qazaxıstanda – Alma-Atada taksiyə oturduq. Sürücü təqaüdçü idi. Deyirdi, təqaüdümüz az olduğuna görə bizə imkan veriblər ki, taksidən qeyri-qanuni istifadə edək və dolanışığımızı təmin edə bilək. Ona görə də biz birinci növbədə digər sahələrdəki problemləri həll etməliyik ki, taksi sahəsinə peşəkarlar gələ bilsin. Necə ki, xarici ölkələrdə bu işlə ancaq peşəkar sürücülər məşğul olur. Hesab edirəm ki, bu sahədə fərqli, neqativ xarakterli adamların üzə çıxmasında təəccüblü heç nə yoxdur. İndi burada müxtəlif taksometrlərin tətbiqindən söhbət getdi. Bu, bizim qanunvericilikdə əvvəllər də var idi. Tətbiq etmədik, indi isə çox bahalı bir alətdir. Büdcədən bura nə qədər vəsait ayrılacaq? Bunun izahı verilməlidir. Biz bəzən deyirik ki, bu qanundakı dəyişiklik vətəndaş üçündür. Amma zaman nəyi göstərdi? Xatırlayırsınız, vaxtı ilə deyilirdi ki, Bakıya filan nazir London taksisi gətirəcək, filankəsin taksi şirkətləri verildi filankəsə və sair. Yəni bu gün nəqliyyatın idarə olunmasının problemini Azərbaycan vətəndaşı daşımış olur.

Bu tıxaclarla bağlı məsələdə də taksini bəhanə etmək, məncə, doğru deyil. Metroda xidmət yüksək səviyyədə qurulubmu ki, vətəndaş taksidən istifadə edir? Kefindən istifadə etmir ki. İnsanların yaşayış səviyyəsi aşağı düşdüyünə görə ən ucuz nəqliyyat vasitəsi elə taksi olur. 4 nəfər bir yerdə yığışıb hərəsi bir manat verərək bir taksidə

gedirlər. Buna sosial problem kimi baxmaq lazımdır. Buna nəqliyyat problemi kimi baxılsa, məncə, biz burada doğru nəticə əldə edə bilmərik.

Burada deputat həmkarım Siyavuş müəllim bir məsələyə toxundu. Taksi sürücüləri harada, hansı kurslarda hazırlanacaq? Əlavə olaraq narkotik testdən keçmək, avtomobilin vəziyyətini testdən keçirməklə bağlı elə məsələlər qoyulub ki, hamısı maliyyə ödənişidir. Bunu kim ödəyəcək? Biz burada uşaqların tibbi məsələsini qoyduq. Hər gün 41–50 yaşında dünyasını dəyişən onlarca insan var, tanınmış şəxslərin övladları və başqaları. Nəyə görə? Çünki məktəbdə biz onu formal olaraq qeyd etmişik. Ona görə də bu bilinmir ki, kimin müalicəsi necə getməlidir. Müalicə sistemi düzgün qurulmayıb. Bu məsələlər də gələcəkdə bir problemə çevrilir.

Ona görə də mən hesab edirəm ki, birinci növbədə vətəndaş münasibətini, ictimai rəyi öyrənmək lazımdır. İkinci, bura sərf olunacaq vəsaiti müəyyən etmək lazımdır. Taksilərə bu qədər vəsait haradan alınacaqdır? "BakuBus"da biz gördük nə qədər böyük problem çıxdı, statusunu dəyişdik, yerini dəyişdik... Yenə də hesab edirəm ki, bu məsələ geniş müzakirə olunmalıdır, ictimai dinləmədən keçməlidir. Bu müzakirələrdən sonra məlum olmalıdır ki, biz necə edək? Bələdiyyə yoxdur deyə bələdiyyənin boynuna yıxaq? Bu qanun layihəsinin yerinə yetirilməsinə kim məsuliyyət daşıyacaq? Bu, aydınlaşdırılmalıdır. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Azay Quliyev.

**A.Quliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu gün müzakirə etdiyimiz qanun layihəsinin predmeti o qədər ciddi və ictimai əhəmiyyətə malikdir ki, son günlər əhali arasında da bu barədə ətraflı

müzakirələr aparılır. Biz qanun layihəsinin təqdimatından da belə başa düşdük ki, təkliflər bu sahədə ciddi şəkildə tənzimlənəcək, sistemli yanaşmanı tətbiq edəcək. Həqiqətən də, bu qanun layihəsinin müddəaları həyata keçirilərsə, mən ümid edirəm ki, belə də olacaq, hər 3 istiqamətdə, xüsusilə bizi maraqlandıran taksi və sərnişin daşımada təhlükəsizlik təminatı yüksələcək, keyfiyyət yaxşılaşacaq, rəqəmsal tətbiqlər daha da genişlənəcək. Azərbaycan müasir dövlətdir, ölkəmizə çoxlu sayda qonaqlar gəlir. Hesab edirəm ki, taksilərdə bu cür tətbiqlərin həyata keçirilməsi çox vacibdir. Üçüncü mühüm məqam ondan ibarətdir ki, icazə və lisenziyaların alınması prosedurları sadələşdiriləcək, daha əlçatan olacaq və burada bir növ qayda-qanun yaradılacaq. Nəhayət, dördüncüsü, vətəndaşların hüquqları və qanuni mənafeləri daha etibarlı şəkildə müdafiə olunacaq.

Yəni konseptual baxımdan ümumiləşdirsək, bizə təklif olunan qanun layihəsinin mahiyyəti bundan ibarətdir. Mən hesab edirəm ki, bunlar vacib məqamlardır və əlbəttə ki, dəstəklənməlidir.

Ancaq indi gəlin, bunun praktiki tərəfinə baxaq. Əlbəttə, bu gün biz başa düşürük ki, cənab Prezidentin təşəbbüsü ilə bir sıra istiqamətlərdə islahatlar aparılır. Biz bunu yüksək səviyyədə dəstəkləyirik, təqdir edirik. Xüsusilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə bu məsələlərin tənzimlənməsi səlahiyyətinin verilməsi, yeni agentliyin yaradılması, əlbəttə, bu istiqamətdə ciddi qayda-qanun yaradılacağına və mövcud problemlərin aradan qaldırılacağına ümidi artırır.

Burada hörmətli Tahir müəllim qeyd etdi ki, avtobusdan istifadə 40 faiz azalıbdır. Bu, hesab edirəm, ciddi siqnaldır. Niyə 40 faiz? Ona görə ki, xidmət keyfiyyəti

aşağıdır. Burada bizim qaldırdığımız məsələlər vətəndaşları narahat edir. Vaxtı ilə müvafiq dövlət qurumlarının bu istiqamətə nəzarəti kifayət qədər olmayıb. Burada indi dövlət qurumlarının əməkdaşları iştirak edirlər. Onlardan xahiş edirəm ki, bu məsələyə praktiki yanaşsınlar.

Məsələn, 2 mühüm məqamı istərdim, burada bir daha səsləndirəm. Birincisi ondan ibarətdir ki, bu gün marşrut xətləri üzrə hərəkət edən avtobusların sayı gündən-günə azalır. Nəticədə nə yaranır? Gecikmələr. Bəzən olur ki, sərnişinlər 45 dəqiqə, 1 saat avtobus gözləməli olurlar. Bu məsələlər ciddi şəkildə araşdırılmalıdır ki, niyə belə vəziyyət yaranır?

İkincisi, elə yaşayış massivləri var ki, orada, ümumiyyətlə, marşrut xətləri işləmir. Məsələn, bizim Binəqədi rayonunda 6-cı mikrorayonda dəfələrlə seçicilər mənə müraciət ediblər ki, bir sıra marşrutlar yaşayış massivinə qədər gedib çıxmır. Yəni vətəndaşların ehtiyac duyduğu ərazilərə qədər getmir. Çünki sahibkarlar onu qeyri-qənaətbəxş hesab edirlər, gəlirin az olduğunu qeyd edirlər. Əlbəttə, biz sahibkarların da maraqlarını qorumalıyıq. Eyni zamanda, vətəndaşların da marağını qorumalıyıq. Belə çıxır ki, sahibkar burada az vəsait əldə edəcək deyə insanlar kilometrlərlə yolu piyada qət etməlidir. Bunun yaşlısı var, xəstəsi var, bir dayanacaqdan digərinə necə getməlidir? Ona görə mən çox xahiş edərdim ki, həm nəqliyyat nazirliyinin, həm də yeni yaranan agentliyin əməkdaşları bu məsələni praktiki olaraq həll etsinlər.

Konkret təklifim ondan ibarətdir ki, Binəqədi Rayon İcra Hakimiyyəti ilə, rayon bələdiyyəsi ilə yaxın günlərdə görüşüb bu problemlərin həlli ilə bağlı addımlar atsınlar. Amma bir daha bildirirəm ki, təklif olunan layihə kifayət qədər mütərəqqidir. Biz bunu dəstəkləməliyik. Təbii ki,

cəmiyyətdə fərqli fikirlər ola bilər. Amma bir həqiqət var ki, bu sahədə ciddi qayda-qanun yaradılmalı, vətəndaşların təhlükəsizliyi təmin olunmalıdır. Lisenziya ilə bağlı olan söz-söhbətlər aradan qaldırılmalıdır. Hər kəs bilməlidir ki, hansı prosedura əsasən istər fiziki şəxs olsun, istərsə də hüquqi şəxs olsun, taksi işlətmək üçün sürücülük hüququnu əldə edə bilər. O cümlədən sərnişin daşımalarında da qeyd edilən problemlər öz həllini tapmalıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov. Vahid müəllim, sualınız var? Buyurun.

**V.Əhmədov.** Çox sağ olun, Sahibə xanım. Bu qanun layihəsini biz komitədə çox geniş müzakirə etmişik. O iclasda nəqliyyat naziri də iştirak edirdi. Mənim suallarıma da cavab verib. Amma dövri mətbuatda bu qiymət artımı ilə əlaqədar çox ciddi müzakirələr gedir. Ümumiyyətlə, qiymət artımının səbəbi olmalıdır. Bizim aldığımız məlumata və cənab nazirin dediyinə görə, taksi bazarında sayın azalması hadisəsi baş verməyəcək. Yəni 68 minə yaxın taksi varsa, hamısı fəaliyyət göstərəcək. O cümlədən, qiymətlər Tarif Şurası tərəfindən tənzimlənməyəcək. Digər tərəfdən, əgər bazarda inhisarçılıq halları olmayacaqsa, biz hansısa şirkəti bazardan çıxarmayacağıqsa, qiymət artımı haradan əmələ gəlməlidir? Qiymət artımına nə təsir etməlidir? Əgər ixtisarlardan söhbət gedirsə, burada digər bir problem yaranır ki, ixtisara düşən insanların...

**Sədrlik edən.** Sağ olun. Elşən Musayev, buyurun.

**E.Musayev.** Təşəkkür edirəm, xanım sədr. Hər kəsi salamlayıram. İlk öncə onu deyim ki, məlum qanun paketini tam dəstəkləyirəm. Həqiqətən, olduqca mütərəqqi sənədlərdir.

Burada ən çox taksilərdən söhbət düşdü. Mən şəxsən özüm gün ərzində ən azı 4-5 dəfə taksi fəaliyyətindən istifadə etdiyim üçün onların dərd-sərlərini və fikirlərini

hər kəsdən daha yaxşı bilirəm.

Mən, əsasən, 12-ci məsələ haqqında danışacağam. İndiyə qədər taksi operatorları, demək olar ki, ancaq vasitəçilik funksiyasını yerinə yetiriblər. Yəni öz xərclərini götürüblər və sürücüyə də bəlli bir faizlə pul veriblər – biri 20 faiz, biri 15 faiz, biri 10 faiz və sair. Amma operatorların fəaliyyəti elə bir istiqamətdə olmalıdır ki, onlar həm də sürücünün arxasında durmalıdırlar. Yəni bu sürücünün sığortası olmalıdır, hüquqi müdafiəsi olmalıdır və sair.  Bu indiyə qədər olmayıb.

İkinci məsələ onlayn və əyani qeydiyyat məsələsidir. Burada, əsasən, sifarişlərin onlayn olmasından danışıldı. Mən xüsusi olaraq sürücülərin qeydiyyatının əyani olmasından danışmaq istəyirəm. Bəzi beynəlxalq operatorlar var ki, onlarda qeydiyyat onlayndır. Bilinmir, o sürücü kimdir, nə işlə məşğul olur. Təbii ki, ciddi operatorlar da var. Onlardan birinin adını çəkmək istəyirəm – "189" taksi xidməti. Bunlar narkoloji dispanserdən kağız istəyirlər, digər sənədləri istəyirlər, sürücülərlə üzbəüz oturub söhbət edirlər, hətta onların psixoloji durumlarına da baxırlar. Demək ki, belə şirkətlər də var. Amma burada söhbət getdi ki, niyə ictimai nəqliyyatdan istifadə etmirlər. Çünki "Bolt"la 80 qəpiyə, 1 manata da harasa getmək olur. 5 nəfər oturub fikirləşir ki, avtobusa 2 manat verməkdənsə, elə 1 manat verib taksi ilə gedərəm. Hələ o taksinin baqajına 5 dənə də yük qoyur. Bu insan necə keyfiyyətli xidmət edə bilər?

Burada hörmətli Tahir Mirkişili çox doğru qeyd etdi ki, qəzaların sayı artıb. İnanın mənə, bu, sürücülərin günahı deyil, o sürücüləri yükləyən operatorların günahıdır. Adını çəkmək istəmirəm, amma bir taksi operatoru var, gün ərzində sürücülərə 24 saylıq gediş qoyub. 24 saylıq gediş

edən sürücü, təbii ki, yuxusuz qalacaq və qəza törədəcək. Bir ara "Prius"ların adı çıxmışdı. Məsələ "Prius" məsələsi deyil. Həmin sürücünü "Prius"a yox, "Opel"ə də otuzdursan, "Mercedes"ə də otuzdursan, yenə eyni hadisə olacaq. Ona görə də taksi sürücüləri də çox böyük intizarla bu məsələlərin necə yekunlaşacağını gözləyirlər. Bu məsələdə həddindən artıq maraqlıdırlar. Çünki, həqiqətən, onların özünü də qorumaq lazımdır. Öhdəliyi təkcə onların üzərinə qoymaq lazım deyil, həm də sərnişinin üzərinə qoymaq lazımdır. Sizə sadə bir şeyi deyim. Misal üçün, hansısa bir sərnişin operatora sifariş verdi və tutaq ki, hərdəmxəyalın da biridir, telefonunu da söndürdü. Həmin sürücü 5 kilometr qət etdi, gəldi və sərnişin telefonunu açmadı. Məsuliyyət kimin üzərindədir? Bilinmir. Uzaqbaşı 3-4 dənə elə sifariş olsa, həmin telefonu "qara siyahı"ya alacaqlar, vəssalam. Amma belə məqamda biz bütün istiqamətlərdə əsas sürücünü qorumalıyıq və hesab edirəm ki, bu layihə də ona hesablanıb.

Hörmətli Sahibə xanım, mən bayaq cari məsələlərdə bir replika vermək istəyirdim. Sizdən 30 saniyəlik vaxt xahiş edirəm, bu replikanı verim. Bir az əvvəl burada "Son zəng" məsələsinə toxunuldu, kriminal mahnılar səslənir və sair. Düzdür, dəyərli həmkarımın fikirlərinə çox hörmətlə yanaşıram. Amma mənim düşüncəm ondan ibarətdir ki, məktəblərdə keçirilən "Son zəng"lərdə hansı mahnıların səsləndirilməsi, onun kriminal və yaxud qeyri-kriminal olması Təhsil Nazirliyinin fəaliyyətinin predmeti deyil. Bu məntiqlə biz hamını çox şeydə günahlandıra bilərik. Onda kimsə burnu uzun ayaqqabı ilə yox, enli ayaqqabı ilə gəlsə, deyək ki, bu, Emin Əmrullayevin günahıdır. Nə bilim, kim isə "Son zəng"ə maşınla yox, atla gəlsə, deyək ki, bu, təhsil nazirinin günahıdır. Belə deyil. Bu ölkədə

5000 məktəb var, orada hansı mahnının çalınması insanların zövqünə qalan məsələdir. Zövqümüzü dəyişəkmi? Dəyişək. Amma ittiham və ya tənqid edəndə, məncə, haqqına etmək lazımdır. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun, Elşən müəllim. Ancaq mən düşünürəm ki, burada Təhsil Nazirliyinə heç bir ittiham səslənmədi. Hörmətli həmkarlarım Təhsil Nazirliyinə həmişə böyük diqqət göstərirlər. Mən özüm dedim ki, nazirliyə müraciət edin. Çünki həmin məktəblərin direktorları var, tərbiyə işləri üzrə müavinləri var və sair. Bilmirəm, bu, Naqif müəllimin məsuliyyətidir. Bu, doğrudanmı, bu qədər vacibdir? Müzakirə etməyəcəyik. O sualı mən verdim. Faktlarınız varmı? Deputat kimi də müraciət edə bilərsiniz. Bəlkə Sizin təmsil olunduğunuz rayonda və ya şəhərdə olub. Öz deputat mandatınız Sizə ixtiyar verir ki, həmin məktəblərin direktorları ilə danışasınız. Elşən müəllim, yəni burada səslənən fikir bundan ibarət idi. Etibar Əliyev, buyurun.

**E.Əliyev**. Çox hörmətli xanım sədr və hörmətli deputatlar. Bəli, taksi məsələsində rəqabət də, problemlər də var. Bu problemlər bazara yeni daxil olan oyunçunun kim olmasından asılı olmayaraq rəqabəti inkişaf etdirməklə həll edilməlidir. Xüsusən də xarici taksi şirkətləri tərəfindən dempinqlərin, (ingilis dilində azalma mənasını verir) yerli taksi şirkətlərinin bazardan çıxarılmasının qarşısı alınmalıdır. Yerli taksi şirkətləri daha innovativ və rəqəmsal həllərə yatırım etməli, keyfiyyəti artırmalıdırlar. Belə həllərin olduğu, smartfonların olduğu bir şəraitdə nazirliyin təklif etdiyi taksometr məsələsi ağlabatan görsənmir. Aidiyyəti qurumlar tezliklə taksi sektorundakı neqativlərin qarşısını almalıdırlar.

Bizim bütün hərəkət istiqamətlərimizi, hansı vaxt

haradan hara getməyimizi, əsas ünvanlarımızı özündə əks etdirən "Data Yandex"in mənbəyi Rusiya və ya xaricdəki kompüterlərdə olmalı deyil. Bu məlumatlar ölkəmizdə olmalıdır və üçüncü tərəfə verilməməlidir. Əlbəttə ki, bütün bunlar da qanunla qorunmalıdır. Düşünürəm ki, bu tip məsələlər həm də bir təhlükəsizlik məsələsidir və sivil qaydada tənzimlənməlidir. Bununla yanaşı, ekspertlərin yanaşmalarına görə vahid nəzarət sisteminin tətbiqi vacibdir. Problemi aradan qaldırmaq üçün vahid taksi sistemi deyil, taksilərə nəzarət edən qurumun vahid sistemi olmalıdır. Vahid taksi sistemi nə praktiki, nə hüquqi, nə də nəzəri olaraq mümkündür.

Burada söhbət xidmətin vahidliyindən getmir, dövlətin nəzarəti olmalıdır. Azərbaycanda Dövlət Gömrük Komitəsinin, Daxili İşlər Nazirliyinin vahid nəzarət sistemi var. Məsələn, Amerika Birləşmiş Ştatlarında nəzarət qurumunun vahid sistemi var. Tutaq ki, ölkədə 50 şirkət var və onların hamısına bir dövlət qurumu nəzarət edir. Həmin qurumun da vahid sistemi var. Ölkədə olan taksi şirkətlərini həmin sistemə inteqrasiya edib və ora daxil olan sürücülərlə bağlı bütün məlumatları əldə edə bilir. Taksilərə də bu nəzarət sistemi tətbiq edilməsə, onlara yetərli nəzarət etmək mümkün olmur və sui-istifadə halları baş verir.

Prinsip belədir – nə edirsiniz edin, ancaq pul gətirin. Sürücülər 12-14 saat istismar olunur. Şərtlər belə olduğuna görə sürücülər normal qazanc əldə etmək üçün bu qədər uzun müddətə çalışırlar. Bu da, təbii ki, məntiqə ziddir. Heç kəs gün ərzində 12 saat avtomobil idarə edə bilməz. Bu, sürücülərin psixikasında da dəyişiklik yaradır. Bu gün şəhərdə vurulmamış taksiyə çox az rast gəlmək olur və 1 manatlıq taksi xidməti geniş vüsət alıb. İctimai nəqliyyat taksi xidmətini tarazlaşdıra bilmir. Avtobusların

çoxu texniki istismardan keçmir. Sürücülər tibbi müayinədən formal olaraq keçirlər. Maşınları çox təhlükəli idarə edirlər. Havaya ötürülən zərərli qazları isə ölçə biləcək cihaz yoxdur. Biz inkişaf etmiş ölkələr sırasına daxil oluruq. Söhbət insan taleyindən gedirsə, sərnişin daşınmasını sivil qaydaya salmaq lazımdır. Mən düşünürəm ki, bu qanunun qəbul olunması olduqca vacibdir və səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. İltizam Yusifov, buyurun.

**İ.Yusifov.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli deputat həmkarlarım. Əvvəlcədən deyim ki, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında qanun layihəsini dəstəkləyirəm və bu dəyişiklikləri avtomobil nəqliyyatı sahəsində, o cümlədən istər taksi, istər sərnişin, istərsə də yükdaşıma sahəsində mövcud reallığa hesablanmış bir addım kimi dəyərləndirirəm. Bəzi fikirlərimi bildirmək istəyirəm. Qanun layihəsi ilə bağlı arayışlar tıxacların yaranmasında taksilərin böyük rolu olduğunu göstərir. Bəli, əslində, taksilərin rolu böyükdür. Amma mən hesab edirəm ki, bu, taksilərin çoxluğundan yox, daha çox taksilərin qaydalara riayət etməməsi və taksi xidmətlərinin nəzarətsizliyindən irəli gəlir.

Dünyanın ən inkişaf etmiş ölkələrindən sayılan, ictimai nəqliyyatın yüksək səviyyədə olmasına baxmayaraq, ucuz taksi xidməti təklif edən Sinqapurda insanlar, əsasən, taksidən istifadə edirlər. Bizdə isə ictimai nəqliyyatın yaxşı vəziyyətdə olmaması fonunda, hesab edirəm ki, taksilərin çox olması qəbuledilələndir. Çünki ictimai nəqliyyat yüksək səviyyədə olmalıdır ki, bunlar olmasın. Yəni insanlara digər yerüstü nəqliyyat vasitələri – tramvay, trolleybus, elektrobus və sair təklif olunmalıdır.

Rəsmi statistikaya görə, Azərbaycanda 2013-cü ildən 2021-ci ilə qədər ölkə əhalisinin sayı 763 min nəfər artdığı halda, avtobusların sayı cəmi 481 ədəd artıb. Bəs bu insanları necə daşıyaq? Bəli, əvəzində minik avtomobillərinin sayı 300 min artıb. Bu da elə lisenziyasız taksi xidmətinin artması deməkdir. Taksi fəaliyyəti, ümumilikdə, məsuliyyətli bir xidmət növüdür, həm də bir mədəniyyətdir. Hesab edirəm ki, bir vaxt Bakıya London taksilərinin gətirilməsi elə taksi xidmətinin formalaşması məqsədini daşıyırdı. Təsadüfi deyil ki, dünyada London, Sinqapur, Nyu-York kimi şəhər taksiləri artıq brend sayılırlar. Bu baxımdan taksilərin hərəkət marşrutu, onların sürəti, qayda-qanuna riayət etməsi – bütün bunlar hamısı nəzarət altında olmalıdır. Çünki burada insan həyatından, təhlükəsizlikdən söhbət gedir.

Bu gün müzakirə edilən bu qanun taksi fəaliyyəti xidmətinin artıq təkmil hüquqi bazasını yaratmaq təklif edir. Taksi xidməti, sərnişin və yükdaşıma özfəaliyyət yox, lisenziyalı olmalıdır. Hər bir nəqliyyat vasitəsinin işləməsi üçün xüsusi buraxılış kartının olması vacibdir. Qanun layihəsində bütün bunlar təklif olunur. Burada söhbət təkcə taksi xidmətindən getmir, ən böyük problemlərimizdən biri də müntəzəm sərnişin daşımadadır. Qanunda şəhərlərarası, rayonlararası müntəzəm sərnişin daşımanın kağız və elektron bilet vərəqəsi əsasında həyata keçirilməsi nəzərdə tutulur. Bu həm də sərnişinlərin icbari fərdi sığortasının işləməsi baxımından vacibdir. Mən sərnişinlərin icbari fərdi sığortası ilə bağlı plenar iclasda bir neçə dəfə çıxışlar etmişəm və artıq bu məsələ "Yol hərəkəti haqqında" Qanunda da öz əksini tapıb, yəni məsələ həll olunub. Belə ki, avtobusların texniki baxışı zamanı artıq bu sənəd tələb olunur. Hesab edirəm ki, icazə sənədləri

içərisində sərnişinlərin fərdi qəza sığortası haqqında məlumatın olması da yaxşı olardı.

Bundan əlavə, qanunda şəhərlərarası, rayonlararası müntəzəm sərnişin daşınmasının başlanğıc, aralıq və son nöqtələrinin avtovağzallar və ya avtostansiyalar olması təklif olunur. Bu da bəyənləndir. Əslində, rayon və şəhərlərdəki avtovağzallar artıq keçən əsrin 90-cı illərinin əvvəllərində özəlləşdirilib və bəziləri təyinatı üzrə işləmirlər. Elə rayonlar var ki, avtovağzal binası hətta şadlıq sarayı və yaxud market kimi fəaliyyət göstərir.

Bundan əlavə, qanuna 7.1.1-ci maddə əlavə olunur. Burada göstərilir ki, əhalisi 300 minədək olan rayon və şəhərlərdə 1, 300 mindən artıq olan rayon və şəhərlərdə 2 və daha çox avtovağzal və ya avtostansiya ola bilər. Əslində, 300 minlik şəhər böyük şəhər sayılır və şəhərlərin bir neçə giriş-çıxışı olur. Bu baxımdan təklif edirəm ki, 300 minədək əhalisi olan yerlərdə bir yox, bir neçə avtovağzal və ya bir neçə avtostansiyanın olması daha düzgün olardı. Bu, insanların həm rahatlığı baxımdan, həm də kiçik avtostansiyaların tez bir zamanda tikilməsi baxımından real və praktik olar. Qanun layihələrini təqdirəlayiq hesab edirəm, lehinə səs verəcəyəm. Bu qədər. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Məlahət İbrahimqızı, buyurun.

**M.İbrahimqızı**. Çox sağ olun, xanım sədr. Mən də təqdim olunmuş qanun layihələrinə öz münasibətimi və təkliflərimi bildirmək istərdim. Öncə məndən əvvəl çıxış edən həmkarlarıma çox təşəkkür edirəm, xüsusilə də qanun layihəsini təqdim edən Tahir müəllimə, eləcə də Kamal müəllimə. Bizim hər birimizə məlumdur və daim bununla fəxr edirik ki, Azərbaycanda bu qədər sürətli inkişaf gedir. Ölkədə bütün sahələrdə yüksək səviyyədə islahatlar gedir və paytaxtımız Bakı gündən-günə gözəlləşir.

Dünyanın hər yerindən turistlər Azərbaycana, Bakıya gəlmək arzusundadırlar. Ona görə, sözsüz ki, ictimai nəqliyyat xidməti sahəsində də ciddi dəyişikliklərə, təkmilləşdirmələrə ehtiyac yaranır.

Bu xidmətdə beynəlxalq səviyyədə standartlar tətbiq olunmalıdır. Türkiyədə ictimai nəqliyyat məfhumuna taksi xidməti də daxildir. Onlarda bir var avtobus–toplu daşımaçılıq və bir də var fərdi daşımaçılıq–taksi xidməti. Biz ictimai nəqliyyatdan istifadənin kəskin azalmasının günahını taksi xidmətinin üzərinə yaza bilmərik. Həm toplu daşımaçılıqda, həm də fərdi daşımaçılıqda ciddi problemlər var və əminik ki, bu qanun layihəsi ilə bu problemlər tənzimlənəcək. İnhisarçılığa deyil, sağlam rəqabətə və məqbul qiymətə xidmət edəcək bir qanun olacaqdır.

Məndən öncə çıxış edən Fazil müəllimə də təşəkkür edirəm. Həqiqətən də, biz bu qanuna həm də sosial problem kimi baxmalıyıq. Mən nə demək istəyirəm? Çox dəyərli təkliflər səsləndi. Biz millət vəkilləri olaraq xaricə ezamiyyətə gedəndə, səfərlər edəndə daha çox VİP keçiddən istifadə edirik. Amma yəqin ki, içimizdə ümumi keçiddən istifadə edənlər də var. Təbii ki, ölkəmizin turistlər, xarici vətəndaşlar üçün ilk təəssürat yaradan məkanlarından biri də hava limanı və dəmir yolu xidmətidir. Yəqin ki, həmkarlarım da əgər görüblərsə, mənim fikirlərimlə tam razılaşacaqlar. Dəmiryolu vağzalında binadan çıxan kimi heç bir qayda-qanun yoxdur, xaos baş alıb gedir. Heç bir taksi operatoruna bağlı olmayan “xalturşiklər” adamın üzərinə arı kimi hücum edirlər. Bir dəfə cavab verirsən, əl çəkmirlər. Yenə də “taksi lazımdır, bu qiymətə, bu qiymətə, filan yerə”. İnanın ki, adam bir azərbaycanlı olaraq fikirləşir ki, bu yanaşma xarici vətəndaşa olsa, Azərbaycan haqqında, gözəlləşən ölkəmiz, Bakımız haqqında nə

təəssürat yaranar? Xalqımızın mədəniyyəti haqqında nə düşünərlər? Elə qardaş Türkiyə olsun və ya Avropanın istənilən ölkəsində hava limanında xüsusi xidmət var. Növbə ilə dayanırlar, vətəndaşa da taksi lazım olanda yaxınlaşır, hər kəs sırasını gözləyir.

Burada müvafiq strukturların nümayəndələri, müvafiq dövlət qurumlarının təmsilçiləri və bizim çox dəyərli mətbuat nümayəndələri iştirak edirlər. Mən çox xahiş edərdim ki, bir zəhmət olmasa, hava limanına və yaxud dəmiryolu vağzalına getsinlər. Görsünlər ki, orada necə bərbad bir xaos var, özəl "xalturşiklər" hansı davranışları göstərir? Sözsüz ki, o da Azərbaycan xalqının adına yazılır. Mən qanun layihələrini dəstəkləyirəm, səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov, buyurun.

**B.Məhərrəmov**. Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, əziz həmkarlar! Bəzən məsələlər o qədər mahiyyətindən kənarlaşır ki, insan, sözün əsl mənasında, çaş-baş qalır. Bu məsələ də son günlər cəmiyyətdə çox geniş müzakirə olunur. Amma gəlin, kommunikasiya edilən fikirlərin çəkisinə baxaq. Bu tezislərin nə qədəri layihənin həqiqi mahiyyətini əks etdirir? Hər iki məruzəçi çox geniş açıqlama verdi. Bu çox sadə, eyni zamanda da, mütərəqqi bir layihədir. Beynəlxalq təcrübədə də qəbul olunan konsepsiyadır. İndi bu məsələni məqsədli şəkildə sosial gərginlik müstəvisinə endirmək nəyə lazımdır? Bu layihə sahibkarı da, sürücünü də qoruyur, sərnişinin də mənafelərini müdafiə edir. İndi qaydalar qoyulması, intizam yaradılması, təhlükəsizliyin təmin edilməsi, taksi fəaliyyətində anarxiya, özbaşınalığa son qoyulması niyə etiraz doğurmalıdır ki?

Təbii ki, cəmiyyətdə fərqli fikirlərin olması normaldır.

Amma məqsədli şəkildə süni gərginlik mühiti heç kimə fayda verməyəcək. Antimilli dairələr indi elə fon yaradırlar ki, sanki hökumət hansısa mürtəce layihə təqdim edib və xalqı bundan müdafiə etmək lazımdır. Bu dövlət elə xalqındır. Sən kimi kimdən müdafiə edirsən? Ona görə də manipulyasiyalara imkan verilməməlidir. Saxta tezisləri gücləndirmək olmaz. Nə edilirsə, xalqın mənafeyi naminə edilir. Layihəni dəstəkləyirəm və həmkarlarımızı da bu layihəyə dəstək verməyə çağırıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. 4 nəfər qalıb. Çıxış etsinlər, vaxtımız da var. Müşfiq Cəfərov, buyurun.

**M.Cəfərov**. Təşəkkür edirəm, xanım sədr. Hörmətli xanım sədr, əziz həmkarlar, mən də öz növbəmdə layihələri dəstəkləyirəm və lehinə səs verəcəyəm. Təklif xarakterli iki əsas məsələni diqqətinizə çatdırmaq istərdim. "Avtomobil nəqliyyatı haqqında" Qanunda taksi xidməti haqqında kifayət qədər yeni qanuni baza var və düşünürəm ki, biz bu bazanı yeniləsək məqsədəuyğun olar. Xüsusilə burada informasiya texnologiyalarının yaratdığı xeyli yeni ifadələr var. Hesab edirəm ki, bu ifadələr qanunda da öz əksini tapmalıdır.

Mənim əsas diqqət çəkmək istədiyim məqam operator fəaliyyəti ilə bağlıdır. Dünyanın inkişaf etmiş ölkələrinin qanunvericiliklərində, ümumiyyətlə, "operator" sözü yox, "nəqliyyat şəbəkəsi xidməti" ifadəsi işlədilir. Düşünürəm ki, operator dedikdə daha çox əlaqələndirici funksiyasını daşıyır. Yəni sürücü ilə sərnişini əlaqələndirir. Ancaq bu, belə deyil, yəni burada əsas öhdəliyi götürən şirkət olmalıdır. Yəni məsuliyyəti daşıyan şirkət olmalıdır. Çünki onların hüquqi imkanları var. Təbii ki, hər hansı bir insident və yaxud da neqativ bir hal baş verdikdə artıq operator boyun qaçıra bilər və burada nəqliyyat şəbəkəsi

xidməti şirkəti olduğu halda bu məsuliyyəti özü daşımış olur. İkinci məsələ taksometrlərlə bağlıdır. Burada imkan yaradılır ki, həm taksometr, həm də elektron tətbiqlərdən istifadə olunsun. Bu, məqsədəuyğundur. Çünki bu gün artıq informasiya texnologiyaları inkişaf edir. Artıq bizim ölkədə də elektron tətbiqlər mövcuddur. Ancaq burada bir məqam var ki, bu elektron tətbiqlərdən və taksometrdən istifadə edərkən, eyni zamanda, inteqrasiya olmalıdır. Yəni elektron tətbiqlər taksometrə inteqrasiya etməlidir. Təbii ki, bunu da yalnız elektron xidmət göstərən şirkət edə bilər. Söhbət taksidən gedir. Ancaq taksometri olmadığı üçün bu taksi yolüstü sərnişin götürə bilməz, artıq xidmət göstərə bilməz. Bu baxımdan da düşünürəm ki, elektron tətbiq də olsa, hər bir halda taksometr mütləq olsun. Bu, inteqrasiya xarakterli olsun ki, yəni, belə deyək, hər iki xidməti həyata keçirmiş olsun. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aydın Hüseynov, buyurun.

**A.Hüseynov**. Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Bu gün müzakirə etdiyimiz qanun layihəsinin mahiyyəti ilə həm komitənin iclasında, həm də bu gün Tahir müəllimin və Kamal müəllimin çıxışlarından ətraflı tanış olduq. Təbii ki, hər bir qanunun tətbiq sahəsi və tənzimləmə proseslərinin necə olacağı ilə bağlı subyektlər olur. Ancaq mən deyərdim ki, bu qanun layihəsinin ən başlıca mahiyyəti ondan ibarətdir ki, hər birimizi həmişə narahat edən və bu tribunalardan dəfələrlə səsləndirilən bir problemin həllinə yönəlmişdir. Bu qanun şəhərdəki tıxacların aradan qaldırılması üçün çox əhəmiyyətli bir rol oynayacaq. Demirik, tam aradan qaldırılacaq, amma bu sahədəki tənzimləmədə müəyyən dərəcədə öz töhfəsini verəcək. Ona görə mən bu qanuna səs verirəm.

Digər tərəfdən, bayaq da bir məsələ səsləndirildi ki, digər kateqoriyaların və xüsusilə taksi fəaliyyəti ilə məşğul olan insanların iş yerlərini, fəaliyyətini məhdudlaşdıracaq müəyyən müdafiəçilər peyda olub. Əslində, belə deyil. Biz qanuna baxanda birinci növbədə nə ilə rastlaşırıq? Köhnəlmiş taksi parklarının ekoloji problemlərinin aradan qaldırılması, digər tərəfdən, 14-15 saat sükan arxasında olub, az gəlir əldə edən sürücülərin hüquqlarının müdafiəsi, şirkətlərin onlarla müqavilə bağlamamasının qarşısının alınması. Biz görürük ki, doğrudan da, qanun layihəsi bu sahədə fəaliyyət göstərən insanların hüquqlarının təmin olunmasına yönəldilib. Digər tərəfdən, mətbuatda da tez-tez səsləndirilirdi ki, bu taksi fəaliyyəti ilə məşğul olan bir çox aqreqatorlar ölkədən kənardadır. Onların məlumat bazaları və gəlirlər ora axıb gedir. Qanun elə, bax, bu tərzdəki fikirlərin düzgün istiqamətə yönəldilməsini, yəni o məlumat bazasının və gəlirlərin ölkədə qalmasını təmin edəcək maddələrlə zəngindir. Qanuna səs verirəm və fürsətdən istifadə edib bir neçə məsələni də diqqətinizə çatdırmaq istəyirəm.

Burada tıxacların aradan qaldırılması, bu sahədə qanun-qaydaların tənzimlənməsindən söhbət getdi. Mən hesab edirəm ki, bu gün o tıxacların aradan qaldırılmasında ən başlıca rollardan birini də sürət elektrik qatarları oynaya bilər. Bununla bağlı mən bir neçə dəfə Milli Məclisdə də öz fikirlərimi səsləndirmişəm. Qaradağ rayonunun qəsəbələri şəhər mərkəzindən 50–70 kilometr uzaqlıqdadır. Əhalinin əksəriyyəti gün ərzində Bakı şəhərinin mərkəzi ilə əlaqədə olur. Vaxtilə Bakıda elektrik qatarları olub və bu gün o sürət qatarlarının bərpa olunması bu problemin həllində ən mühüm vasitələrdən biri ola bilər. Bu sahəyə artıq hansısa bir xərcin qoyulmasına ehtiyac yoxdur. Dayana-

caqlar mövcuddur, bu işlərin görülməsi üçün bütün infrastrukturlar hazır şəkildədir. Digər tərəfdən, qeyd etdiyim kimi, həmin qəsəbələrdə yaşayan, yəni 50–70 kilometr Bakı şəhərinin mərkəzindən, universitetlərdən kənarda yaşayıb təhsil alan tələbələr hər gün saat 6-da evindən çıxmalıdır ki, 9-un yarısı dərsdə ola bilsin, sonra axşam saat 6-ya qədər evinə qayıda bilsin. Deməli, bu tələbə 12 saat yollarda olur. Yenə də qeyd edirəm ki, bütün bunların qarşısının alınmasının ən asan yollarından biri o sürət qatarlarının verilməsidir.

Digər bir məsələ. Məlumdur ki, Qaradağ rayonunun böyük sənaye müəssisələri, ticarət mərkəzləri var. Bu yerlərə həftənin 6-cı və bazar günləri ən azı 30-40 min insan, bir o qədər də maşın gedib-gəlir. Bütün bunların tənzimlənməsi, mən hesab edirəm ki, bax, bu qaydada öz həllini tapa bilər. Qanun layihəsinə səs verirəm və fürsətdən istifadə edib hörmətli nazir Rəşad Nəbiyevə təşəkkürümü bildirmək istəyirəm. Çünki biz Sahil qəsəbəsinin nəqliyyat problemi ilə bağlı müraciət etmişdik, bu müraciət öz müsbət həllini tapıbdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev, buyurun.

**Q.Həsənquliyev**. Təşəkkür edirəm. Hörmətli sədr, həmkarlarım və media nümayəndələri. Əvvəlcə, mən bu layihənin müəlliflərinə öz təşəkkürümü çatdırmaq istəyirəm ki, Qərb standartlarına uyğun bir sənəd hazırlayıblar. Mən bir neçə dəfə parlamentdə bir fikri səsləndirmişdim ki, qanunlar real ictimai münasibətləri tənzimləməlidir, yəni ölkədə əgər Qərb standartları yoxdursa, bu standartlara uyğun qanunların qəbulu ona gətirib çıxarır – insanlar qanunları pozur və ölkədə qanunlara hörmət itir. Ona görə yaxşı qanun yüksək standartlara cavab verən

deyil, real ictimai münasibətləri tənzimləyən qanun olmalıdır ki, tətbiq edilməsi mümkün olsun. Əgər onu etmək mümkün olmayacaqsa, insanlar qanunları pozacaq, yayınacaq, bu, neqativ hallara yol açacaq və ölkədə qanunlara hörmət itəcək. Buna görə də bu məsələ üzərində ciddi düşünmək lazımdır.

Məsələn, millət vəkillərinə məlumat verilmədi ki, Qərb ölkələrində təqribən 100 min nəfərə neçə avtobus düşür, neçə metrostansiyası düşür. Mən bir dəfə Londonla müqayisə aparmışdım ki, bizdə hər 100 min nəfərə düşən avtobusların, metrostansiyalarının sayına görə oradakından minimum 3 dəfə azdır. Londondan fərqli olaraq, bizdə tramvay xətləri yoxdur, kanatlar yoxdur, su daşımaları yoxdur və sair. Buna görə də taksilərin sayı artıbsa və qiymət aşağı düşübsə, əslində, biz sevinməliyik. Bu bəlkə də hökumətin az sahələrindən biridir ki, uğuru var. Demək ki, rəqabət mühiti var və bunun nəticəsində qiymətlər aşağı düşüb, taksi qiymətində qiymət azalıb.

"Bakubus" niyə yaradıldı? Onu yaratmaq nəyə lazım idi? Burada da özəl şirkətlər yaradılmalı və bu işlə məşğul olmalıdırlar. Lazım gəlsə, onlara kredit verilməlidir ki, gedib elektrik mühərrikli avtobuslar alsınlar. Avtobusların sayını artırsaq, mən sizi əmin edirəm ki, bütün məsələlər qaydasına düşəcək. Bunun üçün də sahibkarlara güzəştli kreditlər vermək lazımdır.

Bu barədə müvafiq icra hakimiyyəti orqanları ciddi düşünməlidirlər. Amma mən, ümumiyyətlə, çox məqbul sayıram və vaxtilə burada parlamentdə də bu məsələni qaldırmışdım ki, niyə bizdə sürücünün taxoqraf kartı yoxdur. İndi bu, qanunvericiliyə daxil edilir. Yəni sürücü çox işləməyəcək, avtomobili fasiləsiz sürməyəcək, hər saat yarımdan, iki saatdan bir mütləq 10-15 dəqiqə daya-

nacaq, istirahət edəcək. Yəni aydın bilinəcək ki, bir sürücü sükan arxasında nə qədər oturub və sair.

Sadəcə olaraq, taksi kimi istifadə olunan avtomobillərə dair tələblər və standartlar bir az yüksək səviyyəyə qaldırılmalıdır. Mütləq avtomobillərin texniki və təhlükəsizlik göstəriciləri nəzərə alınmalıdır ki, hansı avtomobillərdən taksi xidmətində istifadə etmək olar. Mən hesab edirəm ki, belə olacağı təqdirdə bu problemlər aradan qalxacaq. Bu qanun, ümumiyyətlə, mütərəqqi qanundur. Amma qeyd etdiyim kimi, neqativ hallara yol açmasın deyə, mütləq şəkildə metro tikintisinə ciddi vəsait ayrılmalıdır. Bu işə xarici investorlar cəlb olunmalı və Bakı şəhərinə çoxlu sayda avtobus alınmalıdır.

Biz sıx-sıx Avropa ölkələrinə gedirik. Günün sonunda küçələrdə avtobuslar karvan kimi hərəkət edirlər, bir-birinin arxasında dayanırlar. Biz burada avtomobillə yol gedəndə baxıram, hərdən yanımda kimsə oturanda deyirəm, baxın, görün, gözünüzə avtobus dəyir? Tək-tük, orada-burada avtobus görünür. Əlbəttə, ona görə də belə vəziyyət yarana bilir. Burada müvafiq icra hakimiyyəti orqanlarının nümayəndələri də iştirak eləyirlər. Ona görə də, hörmətli sədr, onlar bu barədə ciddi şəkildə düşünməlidirlər ki, necə eləyək, ictimai nəqliyyatda keyfiyyəti yaxşılaşdıraq, avtobusların sayını artıraq?

Mən açıq söyləyirəm, qoy eşitsinlər, insanlar arasında fikir bundan ibarətdir ki, məmurların özləri də tıxaclara düşürlər. Özləri bundan narahatdırlar, ona görə istəyirlər ki, taksilərin sayını azaltsınlar, tıxacların qarşısını belə alsınlar. Amma dediyim kimi, bununla tıxacın qarşısını almaq mümkün olmayacaq. O vaxta qədər ki, ölkədə avtobusların sayı, özü də keyfiyyətli avtobusların sayı artırılmayacaq. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Rauf Əliyev, buyurun.

**R.Əliyev**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən qaldırdığım məsələləri burada həmkarlarım səsləndirdilər. Məncə, təkrara ehtiyac yoxdur. Ona görə mən də bu qanuna səs verəcəyəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Aqil Abbas. Aqil müəllim, buyurun.

**A.Abbas.** Sağ olun, Sahibə xanım. Mən elə fikirləşirdim ki, bu qanun layihəsinin əleyhinə səs verəcəyəm. Səbəbini də deyim. Hörmətli nazirimiz əvvəl bununla bağlı açıqlamalar vermişdi və çox dayaz açıqlamalar idi. Buna görə də bu məsələ mətbuatda və sosial şəbəkələrdə geniş müzakirə olundu. Amma hörmətli həmkarım Tahir Mirkişili layihəni o qədər gözəl əsaslandırdı, gördüm ki, layihə çox mütərəqqidir və ona səs vermək lazımdır. Ona görə də gərək cənab nazir açıqlama verəndə diqqətli olaydı. Necə yəni taksi əlçatan olmamalıdır? Bəs nə əlçatan olmalıdır, təyyarə, helikopter? Təyyarə də bahadır, buradan, nə bilim, harasa neçə min manatdır...

Bir məsələyə də toxunmaq istəyirəm. Mən istəmirəm ki, Azərbaycandakı taksi şirkətləri hansısa xarici ölkələrdən maliyyələşsin. Qədir Rüstəmovun məşhur bir sözü var. Seyran Səxavət ona sual verir ki, uşaqlara arvad qohumlarının adını qoymusan? Deyir, özümüzünkülər qırılıb ki, arvad qohumlarının adını qoyum? İndi özümüzün iş adamları qırılıb ki? Biz niyə pulu xarici şirkətlərə ödəməliyik? Yaxşı olar ki, bu taksilərə bizim öz iş adamlarımız yiyəlik etsinlər. Tahir müəllim, Siz də sağ olun ki, məni fikrimdən döndərdiniz. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Rüfət Quliyev, buyurun.

**R.Quliyev**. Təşəkkür edirəm, xanım sədr. Hörmətli millət vəkilləri, dəyərli hökumət üzvləri və jurnalistlər. Mən komitə iclasında suallarımı vermişəm. Hörmətli nazir həmin suallara cavab verdi. Belə bir təklifim var. Bizim imkanımız var, sərnişin nəqliyyatı ilə əlaqədar dənizdən istifadə edək. Vaxtilə, haradasa bir 15-17 il bundan əvvəl belə bir nəqliyyat növü var idi. Misal üçün, Bakıdan Sumqayıta, Lənkərana, Nabrana. Mən bunu təklif eləmək istəyirdim. Əgər imkan varsa, bunu təzədən bərpa edək. Lənkəranda hazır liman da var. Harasa 4-5 saata gedib çatırdı. Yəni bu prosesə müəyyən qədər kömək edə bilər. İmkan olsa, bu təklifi nəzərə alsınlar.

Bir məqama da toxunum. Komitə iclasında hörmətli cənab nazir maraqlı bir məsələni dedi. Qeyd olundu ki, bu gün bizim qəbul etdiyimiz bu qanunun məğzi ondan ibarətdir ki, xaosun qabağını alaq, normal formada inkişaf etdirək. Azərbaycan bu gün imkanlı ölkədir və bəlli bir büdcə də var. Amma bu pulun hansı hissəsi ictimai nəqliyyata, nə qədəri metroya və yaxud dediyim kimi, gəmi nəqliyyatına investisiya olunmalıdır, onu müəyyən edək. Təşəkkür edirəm, çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tahir müəllim, burada suallar səsləndi. Xahiş edirəm, buyurun, açıqlama verin.

**T.Mirkişili**. Çox sağ olun, hörmətli xanım sədr. Bəzi suallar birinci oxunuşun konseptual əsasına aid olduğu üçün icazə verirsinizsə, ilk olaraq onlara münasibət bildirmək istəyərdim. Birincisi, hörmətli Siyavuş müəllim təlim mərkəzləri ilə bağlı sual verdi. Bəli, qanunda icazə aldığı zaman ki, bu 7 ildə bir dəfə verilir, həmin sürücünün təlim mərkəzindən keçməsi ilə bağlı tələb mövcuddur. Hazırda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tərkibində belə bir təlim mərkəzi mövcuddur. Bu günə qədər 10 minə

yaxın beynəlxalq yük daşıyıcıları olan sürücülər bu mərkəzdən keçiblər. Amma bununla yanaşı, digər bütün tədris mərkəzlərinə də belə bir imkanın yaradılması nəzərdə tutulub. Bütün sürücülər istənilən tədris mərkəzində belə bir təlimdən keçməlidir ki, bunun proqramı da müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunacaq. Biz hətta düşündük və təklif də elədik ki, bəlkə bunu onlayn şəkildə həyata keçirmək olar. Yəni daha rahat olsun deyə, sürücülər rahat formada keçsinlər deyə.

Hörmətli Fazil Mustafa tibbi müayinə və texniki şərt ilə bağlı sual verdi. Bir məsələni etiraf eləmək lazımdır ki, taksi sürücüləri və yük daşıyıcıları da özündən başqa digərlərinin həyatına məsuliyyət daşıdığına görə tibbi müayinədən keçməsinə və avtomobilin texniki saz vəziyyətdə olmasına cavabdehdir. Əks halda, özü sürdüyü zaman, bildiyiniz kimi, elə bir tələb yoxdur. Amma başqa insanları daşıdıqlarına görə və son zamanlar da istehlakçıların ən çox şikayət etdiyi məsələlərdən biri olduğuna görə bu zəruridir. Hətta son zamanlar bir çox taksi sürücülərinin narkomaniya ilə bağlı testləri də müsbət çıxmışdır. Yəni bununla bağlı tələb də qanunda var. Eyni zamanda, həmin sürücünün istənilən bir klinika ilə müqavilə bağlayaraq hər gün müayinədən keçirilməsi şərti də qanunda nəzərdə tutulmuşdur. Təbii ki, bu, müəyyən dərəcədə həmin sürücülər üçün əlavə xərc deməkdir. Çünki bildiyimə görə hazırda bir dəfə belə bir tibbi müayinədən keçmək tibbi klinika tərəfindən 2 manata başa gəlir. Amma bu, əsasən, təzyiq və ürək nəbzinin yoxlanması ilə bağlıdır. Amma mən elə düşünürəm ki, bunun ölkədə müntəzəm hal alması klinikalar tərəfindən qiymətin daha aşağı olmasına gətirib çıxaracaq və bu da onlar üçün əlçatan olacaq.

Nəhayət, sonuncu məsələ. Mən hörmətli Elşən müəllimə xüsusi təşəkkür etmək istəyirəm. Qiymətlə bağlı çox vacib bir məqama toxundu. Qüdrət müəllim burada qeyd etdi ki, rəqabət mühiti var. Amma əgər bu qiymət hazırda Azərbaycanın taksi daşıyıcıları tərəfindən müəyyən olunmursa, onda hansı rəqabət mühitindən söhbət gedir? Burada qeyd olundu ki, bu gün taksi sürücüləri, sadəcə, beynəlxalq taksi operatorları tərəfindən istismar olunur. Yəni onların gedişləri ilə bağlı şərtlər qoyulur. Siz 24 dəfə gediş etməsəniz, sistemdən ayrılacaqsınız. Onsuz da qiyməti taksi sürücüləri müəyyən etmir, qiyməti həmin o beynəlxalq proqramlar müəyyən edir. Hətta mən sizə bir rəqəm də deyim ki, həmin qiyməti müəyyən etdikdən sonra taksi sürücülərinə o qiymətə sərnişin daşısın deyə, il ərzində 100 milyon dollardan çox vəsait bonus kimi ödənilir. Yeganə məqsəd bu taksilərin işləməsidir.

Sual olunur ki, bu beynəlxalq taksi şirkətlərinin marağı nədən ibarətdir? Nə qədər çox taksi bu sistemə qoşulursa, nə qədər çox sərnişin daşınırsa, həmin beynəlxalq şirkətlərin beynəlxalq bazarlardakı səhmlərinin qiyməti artır. Yəni onları əsas maraqlandıran məsələ nə Azərbaycanın bazarıdır, nə insanlarımızın rahat getməsidir, nə də ucuz getməsidir, daha çox beynəlxalq bazarda qazanmaqdır. Ona görə mən tamamilə razıyam ki, bu qiymətləri bazar tənzimləyəcək. Gördüyünüz kimidir və təklif olunan qanun layihələrində qiymətlə bağlı hər hansı bir şey yoxdur. Hətta qiymət artmasın deyə, dövlət rüsumu yeddi il müddətinə 25 manat müəyyən olunub. Bu, gündə bir qəpik deməkdir. Yəni bunun, ümumiyyətlə, heç bir taksi tariflərində təsbit imkanı yoxdur. Ona görə daha çox nəzarət sistemi yaratmaqla, təbii ki, bazar qiyməti müəyyən edəcəyik və bu qiymətlərdən həm sərnişinlər, həm də sürü-

cülər razı qalacaqlar. Mən təklif verən, çıxış edən bütün deputat həmkarlarıma minnətdarlığımı bildirirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Əhliman müəllim, sözünüz var idi? Əgər qonaqlarımızın sözü varsa, buyursunlar. Rəhman müəllim, buyurun.

**R.Hümmətov,** *Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. İcazənizlə, mən qısaca olaraq bəzi məsələlərə münasibət bildirim və bəzi məqamlarla bağlı məlumat verim. Hörmətli Tahir müəllim öz çıxışında kifayət qədər ətraflı məlumat verdi, mən onları təkrar etmək istəməzdim. Hazırda nazirlik tərəfindən nəqliyyat sahəsində, xüsusən də ictimai nəqliyyatda olan problemlərin araşdırması aparılır. Bu gün təqdim olunan qanun layihəsi həmin siyahıda müəyyənləşdirilən 60 təşəbbüsdən yalnız biridir. Yəni elə anlaşılmasın ki, biz bütün problemləri yalnız bu qanunun qəbulunda görürük. Təbii ki, yığılmış problemlər və onların həlli üçün mərhələli şəkildə görüləsi işlər var. Ancaq bu qanun layihəsinin başlıca məqsədi bu sahədə əhalinin, vətəndaşların  qanuni hüquqlarının qorunması, eləcə də sahibkarlıq fəaliyyəti ilə bağlı hər hansı problemin yaradılmamasıdır. Hörmətli xanım sədr, burada vahid taksi xidməti ilə bağlı bəzi fikirlər səsləndi. Nə bu qanun layihəsində, nə də nazirliyin planlarında, ümumiyyətlə, belə bir addım nəzərdə tutulmur.

Sonra hava limanları və ümumiyyətlə, limanlarla bağlı məsələlər. Biz bildirmək istəyirik ki, həqiqətən, belə problemlər var idi. Artıq hava limanında qanunsuz taksi daşımalarının qarşısı, demək olar ki, tam alınıb. Bu da, dediyim kimi, həmin o geniş şəkildə gördüyümüz mobillik

planının tərkib hissələrindən biridir.

Ancaq sürət qatarları və ictimai nəqliyyatın genişləndirilməsi ilə bağlı ümumi baxsaq, təbii ki, hələ problemlər var. Hamımız başa düşürük ki, ölkədə bu sahədə xidmət keyfiyyətinin yüksəldilməsi üçün diqqətin daha da artırılmasına ehtiyac var. Ancaq başqa ölkələrin də təcrübəsini götürsək və nəzərə alsaq ki, ümumiyyətlə, ictimai nəqliyyat gəlirli sahə hesab olunmur, bir çox hallarda bu, dövlət tərəfindən subsidiyalaşdırılır. Bunların tam olaraq həyata keçirilməsi və qatar daşımalarının xüsusi çəkisinin artırılması üçün ümumi işlər görülməlidir ki, o da dəmir yolları üzrə nəzərdə tutulmuş planlarda var.

Yekunda bir şeyi də qeyd etmək istərdim ki, məhz bu problemlərin koordinasiyalı şəkildə dərindən öyrənilərək və əlaqəli şəkildə həll olunması üçün bu yaxınlarda Nəqliyyatı Əlaqələndirmə Şurası yaradılmışdır. Şura çərçivəsində qəbul olunan müddəalar lazımi qaydada araşdırılacaq və həyata keçirilməsi üçün əlavə tədbirlər, qərarlar veriləcək. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Rəhman müəllim. Tahir müəllim, mən düşünürəm ki, hələ ikinci və üçüncü oxunuşlarda hökumət üzvləri, yəni nazirliyin nümayəndələri yenə dəvət olunacaqlar. Ona görə də xahiş edirəm, bu məsələlərlə bağlı kimin sualı olarsa, Siz həmkarları çağırın və daha geniş müzakirə edin.

Hörmətli həmkarlar, daha çıxış edən yoxdur. Mən qanun layihələrini ardıcıl olaraq səsə qoyuram. Xahiş edirəm, indi 8-ci məsələyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 4 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə mən 9-cu məsələni – İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 3 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Xahiş edirəm, 10-cu məsələyə – Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

11-ci məsələni – "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 3 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

12-ci məsələyə – "Lisenziyalar və icazələr haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Nəhayət, mən 13-cü məsələni – "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Mən hamıya təşəkkür edirəm. İclasımız bitdi. Növbəti iclasımız ayın 23-də olacaq. Sağ olun.

**ALTINCI ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**NÖVBƏDƏNKƏNAR**
**XIII SESSİYASI İCLASININ**

# PROTOKOLU № 138

*Milli Məclisin iclas salonu.*
*23 iyun 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 98 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 89 |
| Yetərsay | 83 |

## İclasa dəvət olunmuşlar:

**Taleh Kazımov**, Azərbaycan Respublikası Mərkəzi Bankının sədri.

**Ülvin Əliyev**, Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin ofisinin rəhbəri.

**Gülər Paşayeva**, Azərbaycan Respublikası Mərkəzi Bankının Baş direktoru.

**Rəna Məlikova**, Azərbaycan Respublikası Mərkəzi Bankının Hüquq departamentinin direktoru.

**Rasim İsmayılov**, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

3. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

4. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

5. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. Azərbaycan Respublikasının "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 140-VQD nömrəli, "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 141-VQD nömrəli, "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart

tarixli 142-VQD nömrəli, “Poçt haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” 2016-cı il 4 mart tarixli 143-VQD nömrəli, “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” 2016-cı il 4 mart tarixli 144-VQD nömrəli, “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” 2016-cı il 4 mart tarixli 145-VQD nömrəli və “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” 2016-cı il 4 mart tarixli 146-VQD nömrəli qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. “Bank olmayan kredit təşkilatları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. “Kredit ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. “Poçt haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. “Kredit büroları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

14. “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

15. “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

16. “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

17. “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

18. “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

19. “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

20. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

21. “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

22. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

23. “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

24. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

25. “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

26. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

27. “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

28. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

29. “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

30. “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

31. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

32. “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

33. “Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elnur Allahverdiyev, Fazil Mustafa, Elman Nəsirov, Sevinc Hüseynova, Sahib Alıyev, Tural Gəncəliyev, Arzu Nağıyev, Razi Nurullayev, Ceyhun Məmmədov, Azər Badamov, Aqil Abbas, Etibar Əliyev

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Vahid Əhmədov, Razi Nurullayev, Əli Məsimli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.47 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**3. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Taleh Kazımov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 95 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 2 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**4. “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 13.00 dəq.)

| | |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–14-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 15–21-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 93 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 22–28-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

## 6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 5–8-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

Səs vermədi 1
İştirak edir 95
Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikasının "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 140-VQD nömrəli, "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 141-VQD nömrəli, "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 142-VQD nömrəli, "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 143-VQD nömrəli, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 144-VQD nömrəli, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 145-VQD nömrəli və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 146-VQD nömrəli qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin
**Səsvermənin nəticələri** (saat 11.56 dəq.)
Lehinə 88

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–7-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**9. "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik**

**edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**10. “Kredit ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 95 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**11. "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 7–9-cu maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**12. “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilmə-**

**si barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 7–9-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 91 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 10-cu və 11-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**13. "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**14. "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**Təklif:** Səsvermə etibarsızdır

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Səsvermə etibarsızdır

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verмədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**15. "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–5-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 6–10-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 11–15-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 16–20-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 21–25-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**16. "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 96 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**17. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sədaqət Vəliyeva, Aqil Abbas

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
| Lehinə | 87 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**18. “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 5–8-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 9–12-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 13–17-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**19. "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**20. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov, Tahir Mirkişili

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**21. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**22. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**23. "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**24. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

## 25. “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barə-

**də Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---|
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**26. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 93 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**27. "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 96 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**28. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 93 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**29. "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**30. "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov, Tahir Kərimli, Etibar Əliyev, Azər Badamov, Razi Nurullayev, Tahir Mirkişili, Qənirə Paşayeva, Rəşad Mahmudov, Rasim İsmayılov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 89 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

**31. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Siyavuş Novruzov, Tahir Kərimli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.07 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

**32. "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov, Əminə Ağazadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.12 dəq.) |
| Lehinə | 88 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**33. "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Etibar Əliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.14 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*23 iyun 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri, hörmətli qonaqlar! Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçək. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 89 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, gündəliyə keçməzdən əvvəl, sizə iyunun 19-dan 21-dək Milli Məclis sədrinin rəhbərliyi ilə nümayəndə heyətinin Avstriya Respublikasına rəsmi səfəri haqqında qısa bir məlumat vermək istəyərdim. Qeyd edim ki, bu səfər, ümumiyyətlə, Milli Məclis sədrinin Avstriyaya ilk rəsmi səfəri idi.

Səfər çərçivəsində nümayəndə heyəti Vyanada Azərbaycan səfirliyində oldu, Ulu Öndər Heydər Əliyevin büstü önündə bu böyük dövlət xadiminin əziz xatirəsi dərin ehtiramla yad edildi.

İyunun 20-də Avstriya Milli Şurasının sədri Volfqanq Sobotka, iyunun 21-də isə Avstriya Federal Şurasının sədri Günter Kovaks ilə görüşlərimiz oldu. Görüşlərdə Azərbaycanla Avstriya arasında dostluq və tərəfdaşlıq münasibətlərinin səviyyəsindən məmnunluq ifadə edildi. Azərbaycanın Avropa üçün mühüm iqtisadi tərəfdaş, etibarlı enerji təchizatçısı olduğu xüsusi ilə vurğulandı.

İki ölkənin parlamentləri arasında əməkdaşlığın inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıldı. Azərbaycanın demokratik dövlət quruculuğu tarixi, multikulturalizm ənənələri, 44 günlük Vətən müharibəsindən sonra yaranmış vəziyyət, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri, Böyük Qayıdış proqramının icrasına başlanması, bölgədə sülh və sabitliyin təmin olunması üçün Azərbaycanın göstərdiyi səylər barədə həmsöhbətlərimizə geniş məlumat verildi.

Hörmətli həmkarlar, Avstriya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşdə iki ölkənin parlamentləri arasında iş birliyinin dərinləşdirilməsi məsələləri də nəzərdən keçirildi. Qeyd edim ki, nümayəndə heyətinin üzvləri Vyanada yerləşən İmperiya xəzinəsi muzeyində də oldular.

Hörmətli həmkarlar, hesab edirəm ki, Avstriya Respublikasına rəsmi səfər uğurlu keçdi və bununla əlaqədar Milli Məclisin nümayəndə heyətinin hər bir üzvünə dərin minnətdarlığımı bildirirəm.

Hörmətli həmkarlar, gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, 30 dəqiqəmiz var. Kim gündəmdə, ya da gündəlikdə olan məsələlərlə bağlı çıxış eləmək istəyirsə, yazılsın. Həmişə olduğu kimi, 10 nəfər çıxış eləyə biləcək. Bu siyahı ilə indi sonuncu Etibar Əliyevdir. Elnur Allahverdiyev. Buyurun, Elnur müəllim.

**E.Allahverdiyev**. Dəyərli həmkarlar və media mənsubları. Gədəbəy rayonunun Söyüdlü kəndində baş vermiş hadisədən hər birimizin kifayət qədər məlumatı var. Bu kimi olaylar istənilən cəmiyyətə xas haldır və dövlətin də əsas funksiyası onu qanun çərçivəsində çözmək, yoluna qoymaqdır. Ancaq hər birimizi narahat edən fakt ondan ibarətdir, təəssüf ki, yaşanan olaydan istifadə edərək, öz məkrli niyyətlərini həyata keçirən şəxslər və dairələr var. Açıq görünür ki, onların qarşısındakı əsas hədəf vətəndaşla polisi, xalqımızla dövlətimizi üz-üzə qoymaq, nifaq salmaqdır. Şübhə yoxdur ki, onların bu məqsədləri, həmişəki kimi, gözlərində qalacaq. Çünki Azərbaycanda dövlətlə xalqı, cəmiyyətlə onu qoruyan hüquq mühafizə orqanlarını bir-birinə bağlayan tellər güclüdür və sarsılmazdır. Bunun bizim müasir tariximizdə kifayət qədər misalları və nümunələri var.

Təkrarlayıram, təəssüf ki, hazırda əsas etibarı ilə sosial şəbəkələrdə, məsuliyyətsiz, qızışdırıcı şərhlər yazan bəzi şəxsləri buna sövq edən dairələrin əsas məqsədi də məhz budur. Polis canlı orqanizmdir, polis insanlardan, vətəndaşlardan ibarətdir. Hər birimizin qohumu, dostu, qonşusu

içində ən azı bir polis əməkdaşı var. Hər birimizin xasiyyəti, temperamenti müxtəlifdir. Həyatda da belədir. İçimizdə mülayimi də, səbirsizi də, sərti də, yumşağı da var. Hər birimiz ətrafımızda baş verən hadisəyə öz temperamentimizlə, emosionallığımızla müxtəlif reaksiyalar veririk. Əgər polis əməkdaşı səlahiyyətlərini aşıbsa, təmkin göstərməyib, icazə veriləndən artıq sərtlik nümayiş etdiribsə, o, qanun və təlimatlara əsasən mütləq ya cəzasını alacaq, ya da bu davranışına görə barəsində müvafiq ölçü götürüləcəkdir.

Belə faktlar çoxdur. Daxili İşlər Nazirliyinin məlumatlarında səlahiyyətlərini aşan polis əməkdaşlarına qarşı tədbirlərin görülməsi barədə onlarla məlumat var. Polis bu kimi məlumatları cəmiyyətlə bölüşür, eyni zamanda, polisin nümunəvi addımları, davranışları barədə də çoxlu sayda video görüntüləri izləmişik. Gəlin, unutmayaq ki, polis vətəninin bütövlüyü uğrunda onlarca şəhid verib, polis sıralarında bizim yüzlərcə qazimiz var. Mən əminəm, həmin kadrlardakı polis əməkdaşlarının hər biri bu gün vətən uğrunda canını verməyə, vətəndaşlıq borcunu yerinə yetirməyə hazırdır. Hər bir evdə, ailədə, kollektivdə olduğu kimi, polisdə də səhv edə bilən əməkdaşlar var. Cəmiyyətimiz bilməlidir ki, hər kollektivdə səhvə yol verən əməkdaşın əməllərinin qiymətinin verilməsinin öz qaydası mövcuddur. Bu baxımdan mən həm bir millət vəkili, həm də vətəndaş olaraq cəmiyyətimizi diqqətli, ayıq-sayıq olmağa səsləyirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Zəngəzur dəhlizinin açılması uğrunda Azərbaycan dövlətinin apardığı görünən və görünməz savaş tədricən yekunlaşdıqca və işğalçı Ermənistan tərəfindən pozitiv

mesajların artıq səslənməyə başladığı bir dövrdə narahatlıqla düşünürəm ki, görəsən, ölkə daxilində hansı hadisəni təlatümə çevirərək, bu tarixi prosesdən diqqətin yayındırılmasına cəhd ediləcək? Bu dəfə də hamımızı üzən hadisənin episentri olaraq, təəssüf ki, erməni işğalına qarşı illərdir, dağlarını sipər etmiş Gədəbəy seçildi. Mən burada kənd sakinlərinin etirazının haqlı və ya haqsız olduğunu müzakirə etmirəm. İşin mahiyyəti budur ki, süni gölün tikilməsinə etiraz edən vətəndaşlar öz konstitusion hüquqlarından istifadə etmişlər, lakin aralarından bir neçəsi aksiya zamanı qayda-qanun yaratmağa çalışan polislərə daşlarla hücum etmiş, polislər də bu iğtişaşı yatırmaq istəyərkən, yaşlı bir qadına qarşı bir polis nəfəri bibər qazından istifadə etməklə köntöy və kobud hərəkətə yol vermişdir.

Anlaşılan bir durumdur, burada yaşayan vətəndaşlar öz sağlamlıqlarına qarşı təhlükə olduğunu iddia edərək etirazlarını bildirirlər. Asayiş keşikçiləri də bu etirazın qanun çərçivəsini aşmamasını tələb edirlər. Ancaq birdənbirə sosial şəbəkədə elə bir tozanaq qopur ki, sanki bir tərəfdə düşmən, digər tərəfdə isə xalq üz-üzə durublar. Bununla da bir polisin köntöy hərəkətini bütün Azərbaycan polisinə qarşı nifrət dalğasına çevirərək, dövlət hakimiyyətinə qarşı etimadsızlıq havası yaradılmağa çalışılır. Qaneedici hal odur ki, dərhal Daxili İşlər Nazirliyi xüsusi təhqiqat qrupunu bölgəyə göndərir, baş vermiş hadisədə yaşlı vətəndaşa qarşı kobud davranmış şəxsləri aşkara çıxarıb, məsuliyyətə cəlb etsin. Yəni hər cür bəhanəni kəsəcək addım atır. Yenə də sosial şəbəkədəki virtual ürəklər soyumur. Müxtəlif vəzifəli şəxsləri hədəfə alaraq gərginliyi artırmağa çalışırlar.

Ardınca ölkənin Baş naziri dərhal ekologiya nazirinin rəhbərliyi ilə komissiya yaradır və məsələni mahiyyəti

üzrə araşdırmaq üçün bölgəyə göndərir. Komissiya üzvləri də vətəndaşlarla görüşərək, onları narahat edən məsələləri həll edəcəklərini ictimaiyyət qarşısında açıq şəkildə bildirirlər. Buradan o tərəfə daha nə olmalı idi? Vətəndaş etiraz edir, dövlət də bu etirazı nəzərə alıb, tədbirlər görməyə başlayır. Anlaşılmayan budur ki, belə məsələləri fürsət bilən biriləri işin içinə dərhal siyasəti qarışdırıb, ekoloji şüarları siyasi şüarlarla əvəz edərək, odun üstünə daha çox benzin tökmək yarışına girirlər.

Bir ara bizdə şüar vardı, "Qarabağı unutma!". Bu şüar indi də aktuallığını qoruyur. Ancaq Gədəbəydə süni göldən sosial şəbəkədə süni balıqlar tutmağa çalışanların küyünə gedənlər bu ərəfədə "Zəngəzur dəhlizi uğrunda dövlətimizin apardığı savaşa məqsədyönlü şəkildə, yaxud öz sadəlövhlüyünüzlə mane olmayın" cümləsini təkrarlasalar, düşünürəm ki, daha fəzilətli davranış sərgiləmiş olacaqlar. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elman Nəsirov. Buyurun.

**E.Nəsirov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən də Gədəbəyin Söyüdlü kəndində baş verən hadisələrlə bağlı fikirlərimi söyləmək istəyirəm. Mətbuatda, sosial şəbəkələrdə yazırlar ki, birdən-birə Gədəbəyin Söyüdlü kəndində belə olaylar yaşandı. Əvvəla, onu qeyd edim ki, birdən-birə heç nə olmur. Proseslər təşkil edilir, proseslər idarə olunur və sadəcə, nəticəsini görəndə bizə elə gəlir, daha doğrusu, bizə deyil, sosial şəbəkələrdə yazan şəxslərə elə gəlir ki, bu, guya, birdən-birə baş verib. İndi artıq üstündən bir neçə gün keçdikdən sonra hadisələrin əsl mahiyyəti üzə çıxmaqdadır.

Məlum olur ki, hadisə baş verməmişdən bir müddət öncə yas tədbirində iştirak etmək üçün Rusiyadan iki nəfər – Aqil Allahverdiyev və Etibar Cabbarov adlı şəxslər

gəliblər. Bu məqsəd üçün, indi yaşanan hadisələrlə bağlı pul toplayıblar. İmkanlı, imkansız adamlar, kimin nəyə gücü çatır vəsait toplayın ki, bax, Söyüdlüdə baş verən bu hadisələr baş versin. Eyni zamanda, təəssüf içində qeyd edirəm, bu prosesə digər şəxsləri də cəlb edə biliblər, o şəxslər ki, vaxtı ilə vəzifə də tutublar. Məsələn, Saleh Rüstəmovun adı çəkilir, vaxtı ilə elə həmin rayonda icra başçısı olub. Eyni zamanda, keçmiş millət vəkili Nazim Məmmədovun adı qeyd olunur. Onlar da birbaşa və dolayısıyla Söyüdlü kəndində yaşanan bu hadisələrin təşkilində iştirak eləyiblər. Eyni zamanda, indi istintaq gedişatında digər adlar və soyadlar da üzə çıxmağa başlayır. Yəni bütün bunlar onu göstərir ki, məqsədyönlü, planlı şəkildə Söyüdlü kəndində polis ilə bir qrup sakin arasında yaşanan bu təxribatın əsası qoyulub və sakinləri təxribata cəlb eləyiblər. Bir çoxu bəlkə də onun mahiyyətinə tam varmadan bu prosesə qoşulublar.

Eyni zamanda, qeyd edirəm ki, Azərbaycan polisi ilə bağlı da sosial şəbəkələrdə çox təhqiramiz ifadələr işlədilir. Heç bir halda buna yol vermək olmaz. Azərbaycan polisi öz vəzifəsini icra eləyib, bu vəzifənin icrası zamanı, tutaq ki, bir polis nəfəri qaydanı pozub, kobud rəftar edib. Təbii, onlar cəzalanacaq və təsadüfi deyildir ki, Daxili İşlər Nazirliyi bu hadisə ilə bağlı xidməti bir yoxlama da təşkil eləyib, əməkdaşlarını hadisə yerinə göndərib. Bizim Baş nazirimizin rəhbərliyi altında bir iclas keçirildi və xüsusi bir komissiya yaradılıb. Yəni dövlət əlindən gələn bütün imkanlardan istifadə edir ki, bu insidentin yaranma səbəbləri üzə çıxsın. Amma sonda onu qeyd edim, bəlli olur ki, bu hadisələri birbaşa yaradan da xaricdəki xüsusi xidmət....

**Sədrlik edən.** Sağ olun. Sevinc Hüseynova. Sevinc xa-

nım, suala yazılmısınız, yoxsa? Buyurun.

**S.Hüseynova**. Çox sağ olun, hörmətli sədr. İmkan olardısa, mənə də çıxışa imkan yaradardınız. Mən yazılmışam, ancaq onluğa düşməmişəm.

**Sədrlik edən.** Sevinc xanım, Siz həmin dairədən seçilən deputatsınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mikrofon verin. Sevinc xanım, buyurun.

**S.Hüseynova**. Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli həmkarlar, hörmətli mətbuat nümayəndələri. Mən burada münasibət bildirən, yəni bu məsələyə həssaslıqla yanaşıb münasibət bildirən həmkarlarıma da təşəkkürümü bildirirəm. Ancaq bir məsələni qeyd etmək istəyərdim ki, hazırda hadisələrlə bağlı rayonda hüquq mühafizə orqanları iş aparır, həmçinin dövlət komissiyası fəaliyyət göstərir. İlkin məlumatlar olsa da, belə başa düşürəm ki, nəticələri gözləməliyik və nəticələrə uyğun olaraq biz mülahizələrimizə davam etməliyik.

Ancaq öncə bir məsələni qeyd etmək, təbii, Söyüdlü kəndi haqqında məlumat vermək istərdim. Söyüdlü kəndi rayonumuzun, – bildiyiniz kimi, Gədəbəy rayonu Ermənistanla 123 kilometr sərhədə malik dağlıq bölgədə yerləşən rayondur, – ən böyük, həm də dağınıq kəndlərindən biridir. Kənddə  3500-dən artıq əhali və minə qədər ev təsərrüfatı mövcuddur. Əhalinin əsas məşğulluq sahəsi əkinçilik və heyvandarlıqdır. Bu kənd sovet dönəmində həm də alimlər kəndi kimi tanınıb. Dünya şöhrətli alim, akademik Qoşqar Əhmədli də bu kənddə doğulub, boya-başa çatıbdır. Xalqımızın cəsur şəxslərindən olan gədəbəylilərin bir hissəsi olaraq Söyüdlü kəndinin əhalisi Birinci və İkinci Qarabağ müharibələri zamanı vətəninə və dövlətinə sədaqətlə xidmət edib.

Təbii ki, doğma rayonumda baş verən bu hadisə məndə də böyük təəssüf və narahatlıq hissi doğurur. Öncə birmənalı qeyd etmək istəyərdim ki, – elə bizim həmkarlar da onu bildirdilər, – dağın başında min bir əziyyətlə ev-eşik tikib, təsərrüfat yaradaraq, halal əməkləri ilə vətənə, dövlətə sədaqətli övlad böyüdən insanların ekoloji sağlam mühitdə yaşamaq istəyi təbiidir və onların hüququdur. Hadisə zamanı asayiş keşikçilərinin orada olan bacılarımızdan birinə qarşı kobud rəftarı isə, təbii ki, qəbuledilməzdir və bununla da bağlı araşdırma aparılır. Əminəm ki, mütləq şəkildə bu hərəkətə hüquqi qiymət veriləcək. Ancaq bununla yanaşı, hadisə bir çox suallar yaradır. Necə oldu ki, təsərrüfat işlərinin qızğın vaxtında ev-eşiyinin qayğısı ilə məşğul olan qadınlar...

**Sədrlik edən.** Mikrofon verin, qoy, deputat sözünü qurtarsın.

**S.Hüseynova**. O cümlədən bizim ağbirçəklərimiz, uşaqlar kənddən xeyli məsafədə yerləşən süni gölün ərazisinə eyni vaxtda toplaşır. Hər zaman dövlətinin yanında olan insanlar polislə üz-üzə gəlir. Ən əsası isə 10 ildən artıq müddətdə mövcud olan gölün ətraf mühitə verdiyi zərər barədə məhz indi Laçın–Xankəndi yolunda ekofəallarımızın səyləri ilə sülhməramlıların nəzarətində olan yataqların qanunsuz istismarının qarşısı alınandan sonra, ölkəmiz üçün həssas olan bir məqamda, sülh müqaviləsi ilə bağlı Amerikada danışıqların növbəti dövrəsi ərəfəsində kütləvi şəkildə danışılır. Onu da qeyd etmək istəyərəm ki, qızıl istehsalı ilə məşğul olan zavod da Amerika şirkətidir.

Ucqar kənddə bu cür xoşagəlməz durumun yaranmasının arxasında, təbii ki, kimlərsə dayanır. Bu hadisə incə şəkildə təşkil olunubdur. Çox təəssüflər olsun ki,

ölkəmizin qüdrətlənməsini qəbul edə bilməyən qüvvələr bu dəfə alın təri və əlinin qabarı ilə halal çörəyini qazanan zəhmətkeş və sadə insanları öz məkrli məqsədləri üçün istifadə etdilər. Lakin bu qüvvələrin niyyətləri gözlərində qaldı və əməyi puç oldu. Hadisənin qarşısı aidiyyəti qurumlar tərəfindən dərhal alındı və buna münasibət bildirildi. Bayaq qeyd etdim, artıq bununla bağlı işlər aparılır. Birmənalı olaraq, əminəm ki, burada iş aparan hüquq mühafizə orqanları, həm də komissiyanın üzvləri qarşıya qoyulan vəzifələri yüksək peşəkarlıqla yerinə yetirəcəklər, sakinlərimizin ekoloji tarazlıqla bağlı narahatlıqları aradan qaldırılacaq və sakinlərimizin müraciətlərində qaldırılan məsələlər də öz qanuni həllini tapacaqdır.

**Sədrlik edən.** Sevinc xanım, fikrinizi bitirdiniz, yoxsa...

**S.Hüseynova**. Düşünürəm ki, bu hadisələri törədənlər də müvafiq qaydada öz cəzasını alacaq. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev.** Hörmətli xanım sədr, dəyərli həmkarlar. Mən öncə Milli Məclis sədrinin Avstriya səfəri haqqında bir neçə kəlmə demək istəyərdim. Sonra Söyüdlü olaylarına toxunacam.

Mən də səfərin uğurlu olduğu düşüncəsindəyəm. Ən azından, hörmətli Sahibə xanım, regiondakı vəziyyəti hərtərəfli şəkildə diqqətə çəkdirdikdən sonra Avstriya Milli Şurasının sədri cənab Volfqanq Sobotkanın Ermənistanın savaş ritorikasına son qoyub Azərbaycanın sülh təklifinə adekvat yanaşmaya çağırması bunu təsdiqləyir. Heç kəsə sirr deyil ki, əsl reallıq göz önündə olsa da, Avropada yüksək vəzifə tutanların əksəriyyəti bu cür prinsipial mövqe ortaya qoyaraq, hər şeyi öz adı ilə çağırmaq istəmirlər.

Əksinə, Avropa Şurası və Avropa Parlamentindəki çıxışlardan da görürük ki, Fransa və onun təsiri altında olan bəzi peyk ölkələrin təmsilçiləri Ermənistandakı revanşist qüvvələri yeni savaş və qarşıdurmalara həvəsləndirirlər. Özü də bilə-bilə ki, həmin revanşistlərin böyük əksəriyyəti İran və Rusiyaya bağlıdır, ya da onların təsiri altında olanlardır. Bir sözlə, bu səfər Avstriyada Azərbaycan dövlətinin regionda oynadığı rolun və daşıdığı önəmin düzgün qiymətləndirildiyini, cənab Prezidentin 3 il bundan öncə Milli Məclisdəki çıxışında parlament diplomatiyasının gücləndirilməsi ilə bağlı verdiyi tövsiyənin uğurla yerinə yetirildiyini göstərən növbəti örnək idi.

Əlbəttə ki, dövlətimizin enerji təhlükəsizliyi məsələsində Avropanın vazkeçilməz tərəfdaşlarından birinə çevrildiyini, Azərbaycan–Ermənistan şərti sərhədinə ABŞ-ın 200 illik parlamentarizm tarixində etdiyi yaramazlıqlara görə açıq tənbeh ediləcək 26-cı konqresmeni Adam Şifə bənzər, saxtakar və müftəxor deputatlar göndərən Fransanın belə bunun qarşısını almaq cəhdlərinin heç bir nəticə vermədiyini görən, ən azından pislik potensiallarının hələ də qaldığını sərgiləmək üçün qəhrəman Gədəbəy camaatını ayağa qaldırmaq istədilər. Söyüdlüdə baş verənlərin arxasında dayanan həqiqət budur.

Amma əlbəttə ki, bununla belə, orada ekoloji vəziyyətin son dərəcə dəqiqliklə öyrənilib detallarınadək açıqlanmasına ehtiyac var. Eyni zamanda, camaatı ayağa qaldırmaq üçün ora göndərilənlərin də dindirilib kimlikləri bütün çılpaqlığı ilə çatdırılmalıdır. Onda edilən təhqir, atılan daşlar qarşısında emosiyasını saxlaya bilməyən, köntöy davranan polis əməkdaşının özünün belə üzərinə qaz püskürdülən o yaşlı qadın qarışıq Söyüdlü camaatının təəssübünü Rusiyadan gələn Vardanyanla eyni qurumdan tap-

şırıq alan emissarlardan və Qərbdəki bəlli çevrələrin maliyyələşdirdiyi "jurnalistlərdən" qat-qat çox çəkdiyi üzə çıxacaq. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tural Gəncəliyev. Buyurun.

**T.Gəncəliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Bir həftə bundan öncə Ermənistan–Azərbaycan sərhədində Laçın–Xankəndi yolunun girişində Azərbaycan dövlətinin quraşdırdığı sərhəd buraxılışı mexanizminə qarşı Ermənistanın törətdiyi hərbi təxribatdan sonra sanki bu təxribatı gözləyirmiş kimi Avropada proteji Ermənistanın bəzi protektorları, patronları aktivləşmişlər və biz bunu xüsusi ilə Avropa təşkilatlarında görürük. Misal üçün, biz Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamentində ermənipərəst qüvvələrin bu təxribat baş verdikdən sonra sanki necə də aktivləşdiyini tam müşahidə edirik. Məsələn, Avropa Şurası Parlament Assambleyasında Laçın yolu ilə bağlı qərəzli bir sənəd hazırlayan İrlandiyadan olan deputat Pol Qavanın müvafiq sənədi tamamilə qəbuledilməzdir. Bu sənəd başdan ayağa yalan faktlarla, qərəzlə doludur. Bu şəxs bir neçə ay bundan öncə hətta Azərbaycana səfər etmişdi, görüşlər keçirmişdi və ona tam dolğun obyektiv məlumat çatdırılmışdır. Ancaq bu, bir daha göstərir ki, proteje Ermənistanın maraqlarını müdafiə etməkdən ötrü bunlar hər bir vəchlə dəridən-qabıqdan çıxmağa hazırdırlar, təki yalan məlumatlarla təmsil olunduqları təşkilatlarda fəaliyyət göstərsinlər.

Yaxud götürək, Avropa Parlamentinin Müdafiə və təhlükəsizlik alt komitəsinin sədri fransalı Natali Luazonun Ermənistan–Azərbaycan sərhədinə Ermənistan tərəfdən gələrək guya Laçın yolunda hansı isə bir monitorinq keçirilməsi ilə bağlı yayılan məlumatlara. Biz Azərbay-

canın Avropa Parlamentində nümayəndə heyəti olaraq dəfələrlə Brüsselə, Strasburqa səfərlərimizdə Natali Luazo ilə görüş keçirməsini xahiş etmişik. Həmişə müxtəlif bəhanələrlə imtina edən Natali Luazo Azərbaycana qarşı olan nifrət hissi, etnik nifrəti nə qədər güclüdür ki, bizimlə görüş keçirməkdən imtina edir. Ancaq durub bu boyda yolu qət edib Azərbaycan sərhədinə gəlib təxribat işləri ilə məşğul olur. Bu göstərir ki, bunlar, ümumiyyətlə, Avropa təşkilatlarında oturublar, insan hüquqlarından, demokratiyadan dəm vururlar. Ancaq ən azı protokol xətrinə, nəzakət görüşü xətrinə parlament ölçüsündə, parlament görüşləri çərçivəsində bizimlə görüşlər keçirə bilərdilər. Ancaq bunu etmirlər. Natali Luazonun elə ən yaxşı funksiyası gəlib kənardan nümayiş etməklə kifayətlənməsi olar. Ümidvaram ki, tez bir zamanda Zəngəzur dəhlizi tam funksional olaraq fəaliyyət göstərdikdən sonra Natali Luazo yeni bir səfər təşkil edər və azərbaycanlıların öz qədim dədə-baba torpaqlarına geri dönməsi ilə bağlı gəlib, yeni bir səfər edib kənardan müşahidə etməklə kifayətlənər. Ümumiyyətlə, bu insanlara bir daha çağırış edərək bildirmək istəyirik ki, Azərbaycan sülh, barış gündəliyi ilə, həmişə təkliflərlə irəli gəlir, ölkəmiz sülhdə maraqlıdır. Ancaq Avropa təşkilatlarının belə təxribat xarakterli hərəkətlərini də heç vaxt qəbul etməyəcəyik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tural müəllim, mən düşünürəm ki, Sizinlə görüşmək istəməyən zaman elə dərhal həmin o məlumatı gərək "Twitter"ə, sosial şəbəkəyə qoyaydınız. Mütləq elə etmək lazımdır, başa düşsünlər, qoy, bütün dünya da bilsin ki, bir deputat o biri parlamentin deputatı ilə görüşmək istəmir. Halbuki onun vəzifəsi idi. Çünki Avropa Parlamentinin üzvüdür. Siz isə həmin o Avropa Parlamenti ilə Azərbaycan Parlamenti arasında

olan komissiyanın rəhbərisiniz.

Arzu Nağıyev. Arzu müəllim, Sizin nə sualınız var? Bu, 3 dəqiqəlikdir. Buyurun.

**A.Nağıyev**. Mən də istərdim, Söyüdlü hadisələri ilə bağlı əgər imkan varsa, mənə bir dəqiqəlik söz verəsiniz.

**Sədrlik edən.** Siz də Gədəbəydən seçilən deputatsınız. Buyurun.

**A.Nağıyev**. Söz verdiyinizə görə təşəkkür edirəm. Burada həmkarlarımız, demək olar ki, bütün əsas məsələlərə toxundular. Yəni birinci gün baş verən insidentlə bağlı polisin, eyni zamanda, daxili işlər nazirinin mövqeyi açıqlandı. Bir məqam da ondan ibarətdir ki, təbii ki, kənd sakinlərinin dediklərində də həqiqət var. Orada ekoloji problemlər deyilən, qabardılan qədər olmasa da, mövcuddur. Lakin bunu sivil bir qaydada çatdırmaq, məsələnin mahiyyətini başa salmaq daha vacibdir və problemi bu vəziyyətə gətirib çıxarmaq düzgün deyildi.

Təəssüf ki, mərd dağ camaatından, Söyüdlü sakinlərindən istifadə edərək və onlarla manipulyasiya edərək öz məkrli siyasətini həyata keçirməyə çalışanlar da çox oldu. Burada adları da qeyd olundu. Azərbaycanın son vaxtlar dünyada apardığı siyasət kimlərə isə, əsasən də, ermənilərə və onların havadarlarına xoş gəlməzdi. Buna misal olaraq, Laçın–Xankəndi yolundakı aksiya, ermənilərin Qarabağda yataqlarımızdan qanunsuz istifadəsi, bunların hamısı bizim qələbəmizlə nəticələndiyinə görə həzm etmək, təbii ki, nə onların havadarlarına, nə də özlərinə qismət olmazdı. Dəfələrcə sərhəddə təxribatlar törətdilər, əsas məsələ də məhz sülh müqaviləsinin imzalanmamasıdır.

Məhz buna görə də dağ adamları yaşayan Gədəbəy kimi bölgədə təxribata çalışdılar. Ölkədən kənarda yaşayan şəxslərə, eyni zamanda, daxildəki koordinatorlara məramı,

məqsədi vəzifə hərisliyi, nəyin bahasına olur-olsun bu xalqa, millətə pislik aşılamağı məqsəd seçənlərə verilən tapşırıqlar, əsasən, sadə xalqdan istifadə etmək niyyətinə çatmaq idi. Bəzi əqidəsiz troll dəstələrindən və özünü kütləvi informasiya vasitəsi adlandıran qurumlardan da istifadə etdilər. Bu "blogerlər", "jurnalistlər" və onların fəaliyyəti də araşdırılsın. Məmurlara, digər dövlət adamlarına iftira atanlar, qara yaxanlar da öz əməllərinə görə cavab verəcəklər. Sahiblərinin bir əmrinə sadiq olan bu şəxslər heç vaxt nə Söyüdlü sakinlərini, nə də Azərbaycanı düşünməyiblər. Bunlar dağ adamlarından istifadə etməklə öz məkrli məqsədlərinə çatmayacaqlar. Çünki Azərbaycan dövlətinin əsas siyasəti xalqın rifahı, müstəqilliyinin əbədi qorunması, təhlükəsizliyə hər bir təhdidin qarşısının alınmasıdır.

Onu da qeyd edim ki, baş vermiş insidentin dövlətə qarşı böyük aksiyaya çevrilməsinin qarşısı alınıb və bu gün hər hansı təhlükə yoxdur. Komissiya işləyir, baş vermiş insidentlə bağlı araşdırmalara başlanılıb. Müvafiq qurumların nümayəndələri tərəfindən işlər aparılır və nəticə ilə bağlı məlumat veriləcəkdir. Söz verdiyiniz üçün çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar! Bazarlarda olan bahaçılıq barədə danışmaq istəyirəm. Həm də bu bahaçılığın səbəblərinin dünyada gedən proseslər olduğunu da demək istəyirəm. Onun üçün də aparılan mübarizələrə baxmayaraq, qiymətlərdə enmə yox, qalxma müşahidə olunur və bu da əhalinin kasıb hissəsini daha çox əzir. Hökumət, İqtisadiyyat və Maliyyə nazirlikləri tərəfindən tədbirlər görülür və bu yaxşıdır. Təklif edirəm ki, xarici ölkələrdən ölkəmizə idxal edilə biləcək qiyməti daha aşağı, amma keyfiyyətli məhsulları müəyyən

etmək üçün müəyyən işlər aparılsın. Aidiyyəti dövlət qurumlarının nümayəndələri xarici ölkələrə ezam oluna bilər ki, onlar bu sahədə araşdırmalar və danışıqlar aparsın, ölkəyə hansı ucuz məhsullar idxal oluna bilər.

İkinci təklifim isə dövlət tərəfindən himayə olunan və dəstək verilən ucuz supermarketlərin hər bir rayonda, həm də şəhərlərdə açılmasıdır. Belə supermarketləri bir çox xarici ölkələrdə görmüşəm. Başa düşürəm ki, həmin marketlərə bütün əhali axışa bilər. Onun üçün də xüsusi siyahının hazırlanması və həmin adamlara buraxılış kimi bir sənədin verilməsi mümkündür. Bu siyahı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində var. Əlavə olaraq, rayon icra hakimiyyətlərində də ərzaq yardımı verilən kasıb əhalinin siyahısı da var.

Daha bir vacib məsələni demək istəyirəm. Qeyri-döyüş şəraitində həlak olan və barmaqla sayıla bilən qədər əsgər və zabitlərimiz var ki, onların valideynləri və yaxınları onlara da şəhidlik statusunun verilməsini tələb edirlər. Onları təkrar-təkrar dinləməli, qəbul etməli və aidiyyəti üzrə müraciət etməli oluruq. Elə bir neçə gün öncə Laçın rayonunun Qaragöl ərazisində həlak olan Rəhim Dadaşovun anası Yetər Dadaşovanı Milli Məclisdə qəbul etdim. Buna qədər də bir neçə ananı qəbul etmişəm və doğrusu, izah etmək də olmur. Çünki onların övladları hələ də müharibə şəraitində olan Qarabağda həyatlarını itiriblər. Bu məqamı nəzərə alaraq, Qarabağda hərbi xidmət zamanı müxtəlif səbəblərdən həyatlarını itirmiş əsgər və zabitlərə də şəhidlik statusunun verilməsini təklif edirəm. Dediyim kimi, bu hallar kütləvi deyil. Mən bu təklifi verən zaman Qarabağda xidmət etməyin çətinliyini, müharibə şəraitini, hər zaman düşmən təxribatı ilə üz-üzə qalmaq təhlükəsini nəzərə alaraq verirəm və ümid edirəm ki, bu məsələni

müzakirə edib qanunvericiliyə istisna hal kimi əlavə edə bilərik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov.

**C.Məmmədov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Son proseslər bir sıra daxili və xarici qüvvələrin mətbuatdan və sosial mediadan ölkəmizdə ictimai-siyasi sabitliyi pozmaq, dövlətimizə qarşı siyasi təzyiq vasitəsi kimi istifadə cəhdlərinin artdığını göstərir. Gədəbəydə baş verən hadisələr də bunu bir daha açıq göstərdi. Nə qədər mənəviyyatdan kasad və uzaq olasan ki, Gədəbəydəki hadisələri Xocalıdakı hadisələrə oxşadasan və bunun ətrafında fikir mübadiləsi aparasan və bunu öz səhifələrində paylaşasan. Azərbaycanda ictimai-siyasi sabitliyin pozulmasına yönəlmiş bir addımı bəh-bəhlə öz səhifəndə paylaşasan və eyni zamanda, çalışasan ki, bu daha çox gərginlik yaratsın.

Onu da qeyd edək, son proseslər göstərir ki, artıq ənənəvi media sosial şəbəkələrə rəqabətdə uduzur. Bu, bir tərəfdən, informasiyanın əlçatanlığını təmin etməklə yanaşı, eyni zamanda, informasiya təhlükəsizliyi baxımından da bir sıra problemlər yaradır. Bütün bunlar informasiya təhlükəsizliyini təmin etmək üçün ölkəmizin media siyasətinə yenidən baxılmasını, yerli media qurumlarının öz fəaliyyətini daha peşəkar səviyyədə qurmasını zəruri edir. Onu da nəzərə almaq lazımdır ki, qardaş Türkiyədə keçirilən seçkilərdə sosial mediada aparılan çirkin təbliğat ictimai rəyə çox ciddi təsir göstərdi. Bəzən bir sosial platformada yayılan videoya 30 milyon insanın baxması kimi halları biz gördük. Bütün sosial media gücünü siyasi təbliğata yönləndirmişdi.

Onu da qeyd etmək lazımdır ki, bu gün, təəssüf, xaricdə oturan və bəzən də daxildə olan bir sıra qüvvələr sosial

şəbəkələri və medianı söyüş meydanına çeviriblər. Xüsusi ilə də mən burada xaricdə oturaraq Azərbaycana yönəlmiş təbliğat aparan insanlarla bağlı məsələləri qeyd etmək istəyirəm. Davamlı olaraq biz ölkə rəhbərliyinin, dövlət məmurlarının ünvanlarına hədyan və təhqirlərin yağdırıldığının şahidi oluruq. Kimsə kimi isə tənqid edə bilər, bu, normaldır. Ancaq təhqir qəbuledilməzdir.

Onu da nəzərə almaq lazımdır ki, eyni zamanda, bu gün sosial platformalar, yuxarıda qeyd etdiyim kimi, sürətlə artır, yeni platformalar yaradılır və bu, böyük bir məkana çevrilir. Düşünürəm ki, Azərbaycanın aidiyyəti qurumları bu platformaların sahibləri ilə, onları idarə edənlərlə təmasa keçməlidirlər. Eyni zamanda, birmənalı olaraq saxta məlumat yayan, ölkəmizin təhlükəsizliyini təhdid edən, söyüş və təhqir yolunu özünə bir yol seçən platformaların bloklanması məsələsinə baxılmalıdır. Artıq Türkiyə bu istiqamətdə iş aparır və düşünürəm ki, biz də onların təcrübəsini öyrənərək müəyyən addımlar ata bilərik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Azər Badamov. Buyurun.

**A.Badamov**. Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Qeyd olunduğu kimi, sosial şəbəkələrdə Gədəbəyin Söyüdlü kəndində qeyd edilən insidentlə bağlı xoşagəlməz video görüntülər paylaşılır. Məlumata görə polis əməkdaşı tərəfindən qadına gözyaşardıcı qazın tətbiq edilməsi və insanları narahat edən digər məsələlərin araşdırılması üçün Söyüdlüyə komissiyanın ezam olunduğu bildirilir. Komissiyanın insanları narahat edən bütün məsələləri araşdıracağını, qanun çərçivəsində müvafiq tədbirlərin görüləcəyini, problemli məsələlərin həll olunacağını hesab edirəm. Amma insanların polis əməkdaşlarına daş atmalarını, ağır ifadələrlə təhqir etmələrini və küt alətlərlə hücum çəkmələrini də düzgün hesab etmirəm. Çünki

polisdə xidmət edən əməkdaşlar da bizim övladlarımızdır. Onlar xidmətdədirlər və ictimai asayişi qoruyurlar.

Bu gün Azərbaycan siyasi sabitliyin təmin olunmasına görə dünyada nümunəvi ölkədir. Biz dinc ölkədə yaşayırıq. Sabitliyi pozulmuş ölkələrin vətəndaşları heç vaxt xoşbəxt olmurlar. Sabitlik və təhlükəsizlik ən böyük nemətdir. Unutmamalıyıq ki, siyasi sabitliyi pozaraq ölkəmizi zəiflətmək istəyən xarici və daxili düşmənlərimiz kifayət qədər çoxdur. Biz onların əlinə fürsət verməməliyik. Amma insident yerində qaldırılan plakatların qabaqcadan hazırlanması, insident zamanı kənar şəxslərin orada olması və qərəzli çəkilişlər edərək sosial şəbəkələrdə dərhal paylaşılaraq ictimaiyyətləşdirilməsi bu narazılığın qabaqcadan hazırlanmış hadisə olduğunu açıq şəkildə göstərir. Düzdür, cəmiyyətdə xoşagəlməz hadisələr də olur. İnsanların müəyyən məsələlərdən narazılığı da ola bilər. İnsan faktoru varsa, orada hamı hər şeydən razı ola bilməz. Amma narazılığı ifadə etməyin, yoluna qoymağın və həll edilməyin qaydaları var. Bunu daş atmadan, xidmətdə olan əməkdaşa xəsarət yetirmədən yoluna qoymaq olar. Əgər sakinlərin o bölgədə görülən işlərdən narazılığı varsa, bunu qanuni şəkildə, dinc yolla bildirməlidirlər, emosiyalara qapılmaqla mübahisə yaratmaq və əməkdaşlara fiziki xəsarət yetirmək məsələnin həlli yolu deyil. Görünür, bu insidentin təşkilatçılarına insanların dinc yolla narahatlığını ifadə etməsi lazım deyilmiş. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aqil Abbas. Buyurun.

**A.Abbas**. Təşəkkür edirəm, Sahibə xanım. Mən həmkarlarımızın fikri ilə razıyam. Amma bir məsələyə diqqət yetirmək istəyirəm. Qızıl mədəni də Amerikanındır və o cümlədən FETÖ də Amerikada oturub və FETÖ-çülər meydan sulayır. Bir ara bir az mübarizə apardıq. Amma

Azərbaycan mətbuatı da, – mən mətbuat işçisiyəm, – saytlar da və sosial şəbəkəçilər də FETÖ-çülərin əlindən qan ağlayır. Oradan idarə olunur. Bunu axtarsalar, Dövlət Təhlükəsizliyi Xidməti və Daxili İşlər Nazirliyi də bilər. O camaatı ora çıxaran da eyni əldir, polisi ona qaz sıxdıran da eyni əldir. Yəni polisə deyirlər bir qaz sıx, kimsə, o da onun içində ola bilər. Eyni əldir. FETÖ-çülər meydan sulayır və istədiklərini da yazırlar, camaatı üz-üzə qoyurlar, məzhəb davası salırlar, sonra milli, etnik davalar salırlar və eləcə də kəndlərimizdə bu oyunlardan çıxırlar. Bu, məsələnin bir tərəfi.

Amma o da var ki, yaxşı, burada icra başçısı var, məndə olan rəsmi məlumata görə icra başçısının maaşını da gərək ki, Orxan Mürsəlov alır. Eyni zamanda, kənddə icra nümayəndəsi var, bələdiyyə sədri var. Bəs bunlar bunu hiss etmirdilər? Onda niyə işləyirlər orada? Niyə hiss etmirlər ki, belə bir hadisə hazırlayırlar, qarşısını vaxtında almaq olsun. Kəndlilərin ayağına getmək, onlarla söhbət etmək... Moskvadan ora iki nəfər gəlir, əgər meydanı boş görüb yas yerində bunları qura bilirsə, bəs icra hakimiyyətinin bir elə işçiləri harada idilər? Yəni məsələnin bir tərəfi budur.

Buna görə də... İndi yəqin o polisi ələ də alıblar, polis də insandır. Amma bu polislə qarşıdurma. Polis Azərbaycan dövlətinin bel sütunudur. Polisi nüfuzdan salmaq Azərbaycan dövlətinin nüfuzunu salmaq deməkdir, bel sütununu laxlatmaq deməkdir. Bayaqdan dedilər, polis cinayətkarlarla mübarizədə də qurban verir, narkotikə qarşı mübarizə də güclənib. Burada onların da əli var ki, polisi nüfuzdan salsınlar. Hər gün oxuyuruq, nə qədər narkotacirlər tuturlar. Bu məsələdə bir qədər daha dərindən düşünmək lazımdır. Bu əli axtarıb tapmaq lazımdır. Yox-

sa, orada Rusiyadan gələn, ya kiminsə tək işi deyil. Onu ora göndərənlər var. Mənə elə gəlir, bu göndərənləri tapmaq lazımdır. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev. Buyurun.

**E.Əliyev.** Çox hörmətli Sahibə xanım, hörmətli deputatlar. Gədəbəydə baş verən hadisələr bir neçə gündür ki, müzakirə mövzusudur. Baş nazir problemi araşdırmaq üçün hökumət komissiyası yaratdı. Bəs, bu lokal narazılıq niyə rezonans verib? Burada əsas məsələ nədir?

Müvafiq icra hakimiyyəti strukturunun, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin bu müddət ərzində passivliyi və bu son ildə sakinlərin narazılığını qulaqardına vurması vəziyyəti dramatikləşdirib. Ən əsası, camaatla danışmaq, məsələni izah etmək, çünki ciddi kommunikasiya böhranı olub.

Nazir Muxtar Babayev deyir: "biz getdik gölə baxdıq, özümüzlə həm hava, həm su, həm də torpaq nümunələrinin öyrənilməsi üçün xüsusi maşın da gətirmişdik. Bizim xüsusi cihazlarla hava keyfiyyəti yoxlanıldı. Qorxuducu amillər yoxdur". Bu hadisədən əvvəl xüsusi maşınınız işləmirdi?

Sonra görün nə deyir: "Ərazidə maarifləndirmə məsələsi çox aşağı səviyyədə olub". Maarifləndirmə işini kim aparmalı idi? Deyəsən, nazir Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti haqqında Əsasnamədən xəbərsizdir. Əsasnamənin üçüncü, xidmətin vəzifələri hissəsində yazılır: "Aidiyyəti qurumlarla birlikdə təhlükəli ekoloji vəziyyətlərin yaranması və genişlənməsi təhlükəsi yaradan halların və hadisələrin aşkarlanmasında, habelə proqnozlaşdırılmasında iştirak etmək".

İcra başçısı ilə nazir polisin müdaxiləsindən əvvəl öz doğma dilimizdə insanlara izahat verməli idilər. Gedişat-

dan gördük ki, icra strukturları yaxasını kənara çəkməyə üstünlük veriblər. İcra başçısının sakinlərlə söhbətində bu, tam çılpaqlığı ilə özünü büruzə verdi. Nəticədə polis Gədəbəy kimi gözəl bir məkanda camaatla üz-üzə qalmalı oldu. Bir polisin instinktiv hərəkətinə görə bütün sistemi ləkələmək nadanlıqdır.

Ölkəni sevməyən fürsətcil nadürüstlərə imkan vermək olmaz ki, məsələni şişirtsinlər. İdeoloji işlər intensivləşdirilməlidir. Burada problemlər var. Bunu bizim hamımız bilirik. Biz daxili və xarici düşmənlərin niyyətini çox yaxşı bilirik. Bu günə qədər heç nəyə nail olmayıblar, olmayacaqlar da. Problem də yaxın günlərdə tamamilə həllini tapacaq.

Biz erməni faşizmi və barbarlıq üzərində qələbə çalmışıq. Torpaqlarımız işğaldan azad olunub, qələbəmizi sinirməyənlər var. Bunu bizim hamımız bilirik. Hamımız bu qələbənin məsuliyyətini dərk etməliyik. Azərbaycanda xalqla hakimiyyət arasında çox böyük etimad mühiti var və bu möhtəşəm dəyərə heç bir məkrli daxili və xarici qüvvə xələl gətirə bilməz.

Hörmətli həmkarım Aqil Abbas FETÖ-çülərin adını çəkdi. Amma mən bura həm də sorusçuların adını əlavə etmək istərdim. Çox təhlükəli tendensiyalardır və bu işdə də biz ayıq-sayıq olmalıyıq. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, hamınıza təşəkkür edirəm. Biz gündəliyin məsələlərinə keçirik. Bu gün biz 33 məsələni müzakirə edəcəyik. Onu da qeyd edim ki, gündəliyin 1-ci və 2-ci məsələləri üçüncü oxunuşda olan qanun layihələridir. Biz gündəliyin 1-ci məsələsinə başlayırıq. Bu məsələ Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Qanun layihəsinə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə

dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Musa müəllimə söz verirəm. Buyurun, Musa müəllim.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Əmək Məcəlləsinin 64-cü maddəsində təklif olunan dəyişikliklər barədə birinci və ikinci oxunuşlar zamanı ətraflı məlumat verilibdir. Ötən müddət ərzində komitəyə təkliflər və digər fərqli rəylər daxil olmayıbdır. Layihənin mətnində dəyişiklik yoxdur. Xahiş edirəm, üçüncü oxunuşda da qanun layihəsini dəstəkləyəsiniz. Sağ olun.

**Sədrlik edən.** Musa müəllim, sağ olun. Çıxış etmək istəyən, sualı olan yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

2-ci məsələyə keçirik. Bu məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini,*

*Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Bu layihə ilə bağlı birinci və ikinci oxunuşlarda çox geniş məlumat verilmişdir. Layihənin mahiyyəti kifayət qədər aydındır. Faktiki olaraq, alkoqolun təsiri altında və bundan daha ağır olan narkotik vasitələrin təsiri altında avtomobil nəqliyyatını idarə etdiyinə görə məsuliyyət gücləndirilir, daha da ağırlaşdırılır. Bu da çox təbii haldır.

Eyni zamanda, cəmiyyətimizdə indi bu cür neqativ hallara, narkomaniyaya qarşı mübarizə daha da gücləndirilmişdir. Bu baxımdan bu layihənin üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.47 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 3-cü məsələsindən başlayaraq növbəti 27 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və bildiyiniz kimi, mahiyyətcə də bir-birinə yaxındır. Mən ötən həftə keçirdiyimiz iclasda da demişdim ki, bu qanun layihələri bank işi sahəsində tənzimlənmənin və nəzarətin təkmilləş-

dirilməsi, maliyyə bazarlarının sabitliyinin təmin olunması və bu sahədə xidmətlərdən istifadə edənlərin hüquqlarının qorunması ilə bağlıdır. Qeyd edim ki, bu layihələr ikinci oxunuşda müzakirəyə təqdim olunur.

Hörmətli həmkarlar, onu da deyim ki, məsələlərin müzakirəsi ilə əlaqədar dəvət olunan şəxslər var. Azərbaycan Respublikası Mərkəzi Bankının sədri hörmətli Taleh Kazımov, sədrin ofisinin rəhbəri hörmətli Ülvin Əliyev, Mərkəzi Bankın baş direktoru hörmətli Gülər xanım Paşayeva və Hüquq departamentinin direktoru hörmətli Rəna xanım Məlikova da iclasımızda iştirak edirlər. Mən onları da salamlayıram.

Hörmətli həmkarlar, nəzərinizə çatdırım ki, qanun layihələrinə Milli Məclisin 3 komitəsində baxılmışdır. Biz həmin komitələrin təqdimatlarını dinləyək, sonra isə layihələri birlikdə müzakirə edəcəyik. Səsvermələri isə, bildiyiniz kimi, həmişə olduğu kimi, biz ayrılıqda keçirəcəyik. Qeyd edim ki, 27 məsələdən 20-nə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələlərə dair məlumat vermək üçün, Tahir müəllim, buyurun. Komitə sədri kimi məsələlərlə bağlı məlumat verin. Deməli, 20 məsələ haqqında Siz məlumat verəcəksiniz. Buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Hörmətli Sahibə xanım, icazənizlə, qanun layihəsinin təqdimatına keçməzdən öncə, mən Azərbaycan-Avstriya dostluq qrupunun rəhbəri olaraq Sizin Avstriyaya Milli Məclis sədri olaraq ilk səfərinizi xüsusi minnətdarlıq hissi ilə qeyd etmək istərdim. Çünki Sizin bütün görüşlərdə həm parlamentin sədri, həm Federasiya Şurasının, həm də

dostluq qrupunun üzvləri ilə görüşdə dövlət siyasətinin həqiqətlərini kifayət qədər açıq və peşəkar formada qarşı tərəfə çatdırmağınız Azərbaycan diplomatiyasının hədəflərinə yetişməkdə çox mühüm rol oynayır.

Eyni zamanda, bir dostluq qrupunun rəhbəri kimi, qeyd etmək istərdim ki, bizim dostluq qrupları arasında da əlaqələrin daha üst səviyyəyə qalxmasında Milli Məclisin sədri olaraq Sizin səfərlərinizin çox böyük əhəmiyyəti var. Mən bütün dostluq qrupları üzvləri adından Sizə öz minnətdarlığımızı bildirmək istərdim.

Hörmətli həmkarlar, qanun layihələri barədə mən birinci oxunuşda, hesab edirəm ki, geniş məlumat vermişdim. Bizim Milli Məclis üzvlərindən, 8 nəfər hörmətli deputatımız çıxış etmişdir. Onlar, bütövlükdə, konseptual olaraq qanun layihələrini dəstəkləsələr də, amma bəzi suallar və təklifləri səslənmişdi. Bu gün bizim iclasda iştirak edən hörmətli Mərkəzi Bankın sədri Taleh Kazımov imkan yaranarsa, bu barədə öz rəyini bildirəcəyinə görə, mən daha çox qanun layihəsi haqqında danışmaq istərdim.

Bir daha qısa olaraq qeyd etmək istəyirəm ki, bildiyiniz kimi, qanun layihəsi möhtərəm cənab Prezidentin 2019-cu il 28 noyabr tarixli Sərəncamına əsasən hazırlanmışdır. Həmin sərəncamda, bildiyiniz kimi, maliyyə bazarlarına nəzarət funksiyası Mərkəzi Banka həvalə olunduğuna görə, bu sahədə olan tənzimləmələrin, eyni zamanda, hüquqi çərçivənin yenilənməsi ilə bağlı bir zərurət yaranmışdır. Eyni zamanda, xüsusi qeyd etmək istərdim ki, Mərkəzi Bankın yeni rəhbərliyinin son 1 il ərzində apardığı islahatlar və innovativ fikirlərinin qanunvericilikdə də əks olunması bu paketin həm də yeni reallıqları və bundan sonra aparılacaq islahatları özündə əks etməsi anlamına gəlmişdir.

Bildiyiniz kimi, qanun layihələrinin əsas məqsədi Mər-

kəzi Bankın maliyyə bazarlarında meqarequlyator funksiyasının təsbit olunması, maliyyə bazarlarında tənzimlənmə və nəzarət sisteminin müasir çağırışlara uyğun olaraq, təkmilləşdirilməsi, idarəetmə resurslarının sadələşdirilməsi və bankçılıq sahəsində müstəqilliyin artırılması, informasiya təhlükəsizliyinin gücləndirilməsi və vətəndaşlara maliyyə əlçatanlığının artırılması olmuşdur.

Qanun layihəsi, bütövlükdə, bu bazarın bütün iştirakçılarına təsir edəcəkdir. Həm Mərkəzi Banka, həm banklara, bank olmayan kredit təşkilatlarına, sığorta oyunçularına, həm də kredit bürolarının və bütövlükdə, bu sahədə fəaliyyət göstərən bütün oyunçuların bir tərəfdən baxsaq, dövlət nəzarət sisteminin gücləndirilməsi, digər tərəfdən, onların müstəqilliyinin artırılması, üçüncü bir tərəfdən isə dövlət üçün çox vacib olan maliyyə sabitliyinin qorunması baxımından alətlərin və resursların artmasına xidmət edəcəkdir.

Hörmətli xanım sədr, Sizin tapşırığınızla qanun layihəsinin ictimaiyyətə daha çox təqdim edilməsi məqsədi ilə dövlət televiziyasında efirə gedən “Parlament saatı” proqramında həm bizim, həm də ictimai sektoru təmsil edən assosiasiyaların, banklar və bank olmayan kredit təşkilatlarının nümayəndələri dəvət olunmuşlar. Onların da fikirləri ictimaiyyət üçün açıq elan olunmuşdur.

Bütövlükdə, hər kəsin fikri ondan ibarətdir ki, təqdim edilmiş paket bu sahədə aparılan islahatların ruhuna uyğundur və bu sahənin sabitliyi, inkişaf etməsi üçün lazım olan resursları indiki mərhələdə təmin edəcəkdir. Mən həmkarlarımdan ikinci oxunuşda da qanun layihələrini dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, 6 məsələyə, yəni 5-ci, 7-ci, 21-ci, 26-cı, 28-ci və 29-cu məsələlərə Hüquq siyasəti və dövlət quruculuğu

komitəsində baxılmışdır. Bu qanun layihələrinə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Nurlan Həsənova söz vermək istəyirəm. Nurlan müəllim, buyurun.

**N.Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, dəyərli həmkarlar. İlk oxunuş zamanı 6 layihə ilə bağlı geniş məlumat verilmişdir. Hər hansı bir təklif və rəy yoxdur. Qanun layihələrinin mətnində hər hansı bir dəyişiklik yoxdur. Olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Nurlan müəllim, çox sağ olun. 20-ci məsələyə, çox hörmətli Əhliman müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, məlumat verin.

**Ə.Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi birinci oxunuşda müzakirə olunduqdan sonra komitəyə irad və təkliflər daxil olmamışdır. Xahiş edirəm, qanun layihəsini dəstəkləyəsiniz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Tahir müəllim, indi təqdim olunan 7 qanun layihəsinə sizin komitənizdə də baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin.

**T.Mirkişili.** Hörmətli Sahibə xanım, bu 7 qanun layihəsinə də bizim komitənin rəyi müsbətdir. Deputat həmkarlarımdan onları da dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, ikinci oxunuşdur və bilirsiniz ki, biz öncə gərək hər bir qanun layihəsini əsas kimi qəbul edək. İndi isə xahiş edirəm, 3-cü məsələyə, yəni "Azərbaycan Respublikasının Mərkəzi

Bankı haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə 4-cü məsələyə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

5-ci məsələyə, Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə 6-cı məsələyə, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin əsas kimi qəbul olunmasına münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

Qəbul edildi, çox sağ olun.

7-ci məsələyə, xahiş edirəm, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

Qəbul edildi, çox sağ olun.

Xahiş edirəm, 8-ci məsələnin əsas kimi qəbul olunmasına münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Bu qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə 9-cu məsələni mən səsə qoyuram. Bu, "Bank olmayan kredit təşkilatları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

İndi isə "Kredit ittifaqları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə əsas kimi münasibət bildirin. Bu, 10-cu məsələmizdir.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

11-ci məsələyə münasibət bildirin. Bu, "Poçt haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
12-ci məsələni səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
İndi isə 13-cü məsələyə – "Kredit büroları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

14-cü məsələni səsə qoyuram. Bu, “Valyuta tənzimi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir.

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

15-ci məsələni, “İnvestisiya fondları haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə, xahiş edirəm, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

16-cı məsələni səsə qoyuram. Bu məsələ “Qiymətli kağızlar bazarı haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

17-ci məsələni səsə qoyuram. "Sığorta fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

18-ci məsələyə, "İcbari sığortalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

19-cu məsələyə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə 20-ci məsələni səsə qoyuram. "Tibbi sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

21-ci məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

22-ci məsələni səsə qoyuram. Bu, "Sahibkarlıq fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun,  qanun layihəsi əsas kimi qəbul edildi.

23-cü məsələyə, "Hesablama Palatası haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə əsas kimi səs verin.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

24-cü məsələni səsə qoyuram. "Mühasibat uçotu haqqında"  Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
25-ci məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
Mən indi 26-cı məsələni əsas kimi səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.
İndi 27-ci məsələyə əsas kimi münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

28-ci məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Hörmətli həmkarlar, nəhayət, 29-cu məsələyə – "İcra haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə əsas kimi səs verməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə biz müzakirələrə başlayırıq. Vahid Əhmədov. Buyurun.

**V.Əhmədov.** Çox sağ olun. Hörmətli xanım sədr, hör-

mətli millət vəkilləri. 2016-cı ildə yaradılan və 3 il fəaliyyət göstərən Maliyyə Bazarlarına Nəzarət Palatasının fəaliyyəti dövründə maliyyə bazarında nəzarət mexanizminin düzgün qurulmaması, faktiki fəaliyyət göstərməməsi, inkişafın olmaması, o cümlədən Mərkəzi Bankla Palata arasında olan fikir ayrılıqları Palatanın 2019-cu ildə bağlanmasına gətirib çıxardı. Bütün bunları nəzərə alan cənab Prezidentin 2019-cu ildə imzaladığı sərəncamla Maliyyə Bazarlarına Nəzarət Palatasının bütün səlahiyyətlərini, o cümlədən onun maliyyə xidmətləri bazarında lisenziyalaşdırma, tənzimləmə, nəzarət, investorların və maliyyə xidmətləri istehlakçılarının hüquqlarının qorunması sahəsində vəzifə və hüquqları, habelə əmlakı Mərkəzi Banka verildi. Qanun layihələrindən göründüyü kimi, Mərkəzi Banka maliyyə bazarlarında maliyyə sabitliyinin təmin edilməsi tapşırılmış və bununla əlaqədar layihələrdə Mərkəzi Banka əlavə səlahiyyətlər verilmişdir. Mən bütün bunları nəzərə alaraq, bir neçə məsələ ətrafında fikrimi bildirmək istərdim.

Qanunun 5.1.10-cu maddəsində əmanətlərin sığortalanması sahəsində nəzarət sisteminin fəaliyyətinin təmin edilməsi Mərkəzi Bankın funksiyasına aid edilmişdir. Bu sahədə problemlər kifayət qədər çoxdur. Bu barədə millət vəkilləri öz çıxışlarında kifayət qədər qeyd ediblər. Xüsusi ilə bağlanmış bankların depozitlərinin əhaliyə qaytarılması, əmlak hərraclarının vaxtında və düzgün keçirilməməsi çox ciddi problemlər yaratmışdır. Ona görə də mən hesab edirəm ki, Mərkəzi Bank bu məsələ ilə çox ciddi məşğul olmalıdır.

Qanunun 28.2-ci maddəsində yeni olaraq pul siyasətinin əsas istiqamətlərində növbəti il üçün inflyasiya hədəfi və ona nail olmaq anlayışı daxil edilmişdir. Bu, çox müs-

bət addımdır. Çünki inflyasiyanın qarşısını alan, monetar siyasət aparan, onun alətlərindən istifadə edən Mərkəzi Bankdır. Bu siyasət iqtisadi blokun həyata keçirdiyi fiskal siyasətlə uzlaşdırılanda daha çox səmərə verir. Həm inflyasiya yüksək olmaz, həm də qiymət siyasətində müəyyən problemlər aradan qalxar. Burada, əlbəttə, bank faizləri, pul kütləsinə nəzarət, manatın məzənnəsi də böyük rol oynayır.

Ümumiyyətlə götürəndə, mən belə hesab edirəm ki, bu qanun layihəsində kifayət qədər ətraflı maddələr vardır. Misal üçün, layihənin 15-ci maddəsində, yəni "Bank olmayan kredit təşkilatları haqqında" Qanunda bank olmayan kredit təşkilatları yeni qanuna əsasən ödəniş hesabları aça, apara və kredit kartlarını emissiya edə bilərlər. Əlbəttə, bu, bank olmayan kredit təşkilatı üçün müsbət addımdır. Amma bununla bərabər, mən təklif edərdim ki, bank olmayan kredit təşkilatlarına valyuta mübadiləsi və nağd pul əməliyyatları aparmaq vəzifəsi də verilsin. Çünki, ümumiyyətlə, dünyada banklarla bank olmayan kredit təşkilatları arasında əsas fərq bankların əmanət qəbul edə bilməməsidir.

Mərkəzi Bankın yeni rəhbərliyi çox ciddi islahatlara start verib. Bu, bütün qanun layihələrindən görünür. Dünən də biz komitənin iclasında ödəniş sisteminin tənzimlənməsi ilə əlaqədar çox ciddi bir qanun layihəsini müzakirə etmişik. Bütün bunlar hamısı müsbət addımlardır, yəni müsbət islahatlara gətirib çıxaracaq. Bank rəhbərliyindən, ümumiyyətlə, mən bir məsələni xahiş edərdim, bankların kredit faizinə yenidən baxılmasına çox böyük ehtiyac var. Diqqəti daha çox istehlak kreditlərinə deyil, – burada elə bir ciddi problem yoxdur, – istehsal, yəni yeni iş yerlərinin açılması üçün olan kreditlərə yönəltmək, daha

çox fikir vermək lazımdır.

Mən Mərkəzi Bankın İdarə Heyətinin sədrinin burada olmasından istifadə edərək, onun bir məsələdə mövqeyini bilmək istərdim. Uzun müddətdir, mətbuatda, o cümlədən Milli Məclisdə maliyyə amnistiyası ilə əlaqədar məsələlər qaldırılır və bu barədə respublikanın iqtisadiyyat naziri Mikayıl Cabbarov da öz müsbət mövqeyini bildirmişdir. Ümumiyyətlə, mən Taleh müəllimin bank rəhbəri olaraq maliyyə amnistiyası məsələsi barədə mövqeyini bilmək istərdim.

Ümumi götürəndə, hesab edirəm ki, qanun layihələri çox vacibdir. Bank islahatları və əhalinin vəziyyətinin yaxşılaşmasına kömək edəcək. Qanun layihələrinə səs verəcəyəm və millət vəkillərini də səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. "Banklar haqqında" Qanunda ikinci oxunuşda təklif edilən dəyişikliklərə ümumi münasibətim var.

Komitə iclaslarında birinci oxunuşda hörmətli həmkarlarım tərəfindən xeyli məsələlər, problemlər sadalandı. Təklif edilən dəyişikliklər qanunu daha müsbət yöndə təkmilləşdirmək üçündür. Qanunla bağlı tövsiyələrimi vermək üçün bir neçə maliyyəçi dostuma müraciət etdim və istədim ki, onlar mənə qanunda ikinci oxunuşda konkret maddələr üzrə narahatlıq doğuran müddəaları desinlər. Çünki təhsilim maliyyə deyil. Aldığım cavab bu oldu ki, ürəklə bu qanunu dəstəkləmək olar. Çünki qanun konkret olaraq bir sıra məsələlər, o cümlədən yerli bankların fəaliyyətinin asanlaşdırılmasını, yeni bank filiallarının yaradılmasının sadələşdirilməsini, yeni peşəkarların və inzibatçıların təyinatı ilə bağlı məsələləri xeyli asanlaşdırır.

Təbii ki, bank sistemində ciddi problemlər mövcud olub və dövlət olaraq onun haqqını da ödəmişik. 2014–2015-ci illərdə yaşadığımız inflyasiya şokundan hələ də tam ayılmamışıq. Onun üçün də maliyyə bazarlarına həm ciddi nəzarət, həm də inkişaf üçün sadəlik, süründürməçilikdən uzaq sadə idarəçilik mexanizmləri vacibdir. Görürəm ki, təklif olunan bu dəyişikliklər bu narahatlıqları aradan qaldırmaq gücündədir.

Qanunda dəyişikliklərdən sonra arzum budur ki, Mərkəzi Bank vətəndaşların və sahibkarların kredit əlçatanlığını təmin etmək üçün yeni-yeni məhsulların təqdim edilməsi, əlçatanlığın artması üçün fəaliyyətini daha da genişləndirsin. Buna ciddi ehtiyac var.

Mərkəzi Bankın sədri Taleh müəllimə, iştirak edən rəhbər şəxslərinə və kollektivlərinə qanunda edilən müsbət dəyişikliklərdən dolayı təşəkkürümü bildirmək istəyirəm. Taleh müəllimin təyinatı ilə bank sistemində yeni müsbət dəyişikliklər və maliyyə dayanıqlılığı əmələ gəlməkdədir. Ona görə də bütün peşəkar kadrları və onların gətirdikləri müsbət yenilikləri də dəstəkləməyi borcum hesab etdim. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli. Buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. Mərkəzi Bank haqqında və onu müşayiət edən normativ hüquqi aktlarda dəyişikliyi müsbət qiymətləndirirəm. Həmin sənədlərin reallaşdırılması, bir tərəfdən, Mərkəzi Bankın səlahiyyətlərinin və çevikliyinin, onun nəzarət imkanlarının artırılmasında müsbət rol oynayacaq. Digər tərəfdən, hesab edirəm ki, bu, Mərkəzi Bankın son vaxtlar başlatdığı islahat xarakterli tədbirlərin həyata keçirilməsinin hüquqi bazasının möhkəmləndirilməsində mühüm rol oynayacaq.

Eyni zamanda, bu qanun layihələrini bank sisteminin

qarşısında duran çoxsaylı problemlər kontekstindən müzakirə edəndə bir sıra məqamlara da aydınlıq gətirilməsini vacib hesab edirəm. Birinci məqam Mərkəzi Bankın ölkə ərazisində hüquqi şəxs yaratmaq hüququ qazanması ilə bağlıdır. Bu, 3.2-ci maddədə öz əksini tapıb. Bunu müsbət qiymətləndirirəm. Amma Mərkəzi Bankın qarşısında çox fundamental bir məsələ durur və belə bir şəraitdə Mərkəzi Bank birbaşa və dolayı yolla tədris kursları yaradır, kommersiya fəaliyyəti həyata keçirməyə başlayır. Burada məqsəd, kurslar, təlim-təhsil qeyd olunur. Burada əsas məsələ müəyyən dərəcədə Mərkəzi Bankın mandatından kənar kommersiya məsələsidir. Ona görə, ümumiyyətlə, hesab edirik ki, Mərkəzi Bankın məqsədi pul qazanmaq deyil, qiymətlərin sabitliyini təmin etmək və real sektorla onun əlaqələrinin gücləndirilməsi olmalıdır.

İkinci məqam, bilavasitə 22.1.17.1-ci maddə sosial layihələrlə bağlıdır. Mən bunu müsbət qiymətləndirirəm. Amma hansı sosial layihələrdən söhbət gedir, bunun aydınlaşdırılmasına ehtiyac var. Hörmətli sədr, ona görə ki, Dövlət Neft Şirkətinin bu sosial layihələr qismində həyata keçirdiyi tədbirlərin müsbət tərəfi də oldu, xeyli dərəcədə mənfi tərəfləri də oldu və nəticədə bu gün Dövlət Neft Şirkətinin yaranmış borcları, dövlətə dəyən ziyanlar burada nəzərə alınmalıdır. Belə məsələlərə aludə olanda Dövlət Neft Şirkətinin qarşılaşdığı problemlərlə sonradan Mərkəzi Bank da qarşılaşa bilər.

6.2-ci maddə. Mərkəzi Bank bütün hallarda yoxlamalar məsələsini inkar edir. Hesab edirik ki, bu sahədə olan dəyişikliklərdə Mərkəzi Bank, ümumiyyətlə, bilavasitə özünün funksiyalarını yerinə yetirməklə məşğul olmalıdır. Amma kommersiya fəaliyyətinə meyillilik bəlkə də ikinci planda olmalıdır. Mən sual qaldırıram ki, monetar siyasət

xaricində əgər Mərkəzi Bank buna meyil edirsə, monetar siyasət xaricində niyə onun fəaliyyəti yoxlanılmamalıdır.

Bir də Mərkəzi Bankın mandatı bilavasitə qiymətlərin aşağı salınması ilə bağlıdır. Burada xeyli dərəcədə mübahisəli məqamlar var. Məsələn, mən bir də təkrar edirəm ki, keçən il olduğu kimi, bu ilə yenə də Azərbaycan da inflyasiyanın sürəti artır. Bu il mart ayında Azərbaycanda inflyasiya 3,2 faiz, MDB-nin orta göstəricisi 2 faiz, Belarusda 0,6 faiz, Qazaxıstanda Azərbaycan kimi, Moldavada 2,2 faiz, Rusiyada 1,7 faiz olub. MDB-də 1,6 faiz, Rusiyada 1,9 faiz inflyasiyanın tempi bizdən aşağıdır. Yaxud tərsinə desək, bizdə inflyasiyanın tempi MDB-nin orta göstəricisi... May ayının göstəriciləri bu cür olmadığına görə ötən ilin mayının bu ilin mayına nisbətini götürəndə bizdə bir balaca enmə var. Azərbaycanda ötən ilin mayına nisbəti 11,5 faiz göstərilirsə, məsələn, Gürcüstanda 1,5 faiz 7 dəfə bizdən aşağıdır, Belarusda 3,3 dəfə bizdən aşağıdır, Rusiyada 4 dəfə. Ona görə burada vahid fikir yoxdur və Mərkəzi Bank birrəqəmli inflyasiyanın, İqtisadiyyat Nazirliyi ikirəqəmli inflyasiyanın olmasını proqnozlaşdırır.

Hörmətli sədr, yaxşı olar ki, üçüncü oxunuşda plenar iclasa çıxana qədər bu vacib məsələ ətrafında bir müzakirə olsun. Çünki beynəlxalq təşkilatların da proqnozlarında Azərbaycana münasibətdə vahidlik yoxdur. Azərbaycanın özündə də İqtisadiyyat Nazirliyi 10 faizin üstündə ikirəqəmli, Mərkəzi Bank 8 faiz ətrafında birrəqəmli inflyasiyanın olmasını proqnozlaşdırır. Bu məsələlərə xeyli dərəcədə aydınlıq gətirilməsi, faiz dərəcələrinin aşağı salınması imkanları, girov məsələlərinin asanlaşdırılması və sair kimi məsələlərlə bağlı, hesab edirəm ki, üçüncü oxunuşa qədər İqtisadi siyasət, sənaye və sahibkarlıq

komitəsində belə bir müzakirənin keçirilməsi məqsədəuyğun olar. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sədaqət Vəliyeva. Buyurun.

**S.Vəliyeva.** Xanım sədr, söz verdiyiniz üçün təşəkkür edirəm. Mən də qanun layihələrini dəstəkləyir və həmkarlarımı da dəstəkləməyə dəvət edirəm.

Sadəcə, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə bəzi fikirlərimi bölüşmək istərdim.

Dünya təcrübəsi göstərir ki, sığorta bazarının inkişafda olmasının əsas səbəblərindən biri də sığortanın mahiyyəti, əhəmiyyəti haqqında əhalinin maarifləndirilməsidir. Təəssüf olsun ki, ölkəmizdə vətəndaşlarımızın sığorta ilə bağlı məlumatı aşağı səviyyədədir. Düşünürəm ki, ölkəmizdə də əhali arasında sığorta ilə bağlı maariflənmə işlərinə ciddi ehtiyac vardır. Bu, həm də sığorta bazarının inkişafı ilə yanaşı, insanlarımızın sığortaya inamını artıra bilər.

İkinci, hazırda ölkəmizdə sığorta sahəsində əsas problemlərdən biri də sığorta şirkətlərinin əksəriyyətinin fəaliyyətinin banklardan asılı vəziyyətdə olmasıdır. Bu da mövcud bazardan asılılığa və inkişafın zəif olmasına gətirib çıxarır. Yaxşı olardı ki, sığorta şirkətlərinin banklardan asılılığının aradan qaldırılması istiqamətində tədbirlər həyata keçirilsin.

Qeyd etmək istərdim ki, ölkəmizdə sığorta şirkətlərinin hesabatlılığı çox aşağı səviyyədədir. Yaxşı olardı ki, sığorta şirkətlərinin fəaliyyətləri, ödədiyi zərərin məbləği barəsində mütəmadi olaraq cəmiyyətə məlumat verilsin. Bu, vətəndaşlarda sığortaya inamın daha da artmasına gətirib çıxaracaqdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aqil Abbas. Buyurun.

**A.Abbas.** Sağ olun, Sahibə xanım. Mən Sədaqət xanımın fikirləri ilə razıyam. Amma sığorta haqqında televiziyalarda da, mətbuatda da, təşkilatlarda da lazımi qədər maarifçilik gedir. Çox təəssüf ki, əhali sığorta olunmaq istəmir. Mən indi sığorta bəlasından danışmaq istəyirəm.

Ağdamı, Ağcabədini dolu vurub. Başqa rayonlarda da fəsadlar var. Dolu vurub. Camaatın min bir əziyyətlə yetişdirdiyi taxıl da, pambıq da, həyətinin meyvəsi də gedib. Hətta elə bir dolu yağıb ki, bizim kənddə bir dənə evin üstündə şifer qalmayıb, dəmir qalmayıb. Əslində, dolu yox, buz yağıb.

Mənə zəng edirlər. Qardaşım, deyirəm, 30 manatından, 50 manatından keçib, evini demirəm, elə əkin sahəsini niyə sığorta etməmisən ki, dövlət də sənə sığorta pulu verəydi. Deyirlər, düz deyirsən. Deyirəm, düz deyirəm, dəfələrlə demişəm, görüşlərdə də deyirəm ki, gedin, sığorta olunun. Olunurlar. Nə isə problemlər görür, ya düzgün izah etməyiblər. İndi qalıblar belə.

Mən üzümü hörmətli Əli müəllimə tuturam. Yəqin eşidəcəkdir. Söhbət Əli Əsədovdan, hörmətli Baş nazirimizdən gedir. Camaat 10-15 min manatlıq ziyana düşüb, hər bir kəndli ziyana düşüb, amma sığorta ala bilməyəcəklər. Dediyim kimi, torpaqlarını sığorta etməyiblər. Hələ evləri cəhənnəmə. Bunlar səhv ediblər, sığorta etməyiblər, bəs bunlar nə etsin? Heç olmasa, – Allaha şükür, büdcəmizdə də imkan var, büdcəni təsdiq edəndə də gördük, imkanımız var, – bu əhaliyə, heç olmasa, az miqdarda da olsa, əl tutsunlar. Yoxsa, camaat qaçıb Bakıya gələcək, bundan belə nə taxılı var, nə də həyətində nə isə qalıb. Heyvanı da qalmayıb. Heyvanı da dolu vurub, ölənlər var.

Bir əmim oğlu var, başına necə dolu vurubsa, yarılıb, ürəyi gedib, xəstəxanaya aparıblar. Görün, nə boyda dolu

yağıb. Əslində, kartofdan böyük. Yəni onlara kömək etsinlər, Ağdama da, Ağcabədiyə də. Əkin sahələri tamamilə məhv olubdur. Bir az, nə imkan var, camaata əl tutsunlar.

Mən hörmətli Kəmaləddin Heydərovla danışdım, xahiş etdim ki, evi sığortalanmayıb, amma evinin üstü dağılıb, sarayının üstü dağılıb. Saray deyəndə tövləni nəzərdə tuturam, kəndlinin sarayı tövləsidir. O da söz verdi ki, məktub göndərsinlər, hamısını komissiya yoxlayıb, protokollaşdırıb, evlərinin üstünü təmir etmək üçün, deyək, dəmir və yaxud şiferlə kömək edəcəklər. Amma onunla iş düzəlmir.

Hörmətli Əli müəllim, Siz komissiya yaradıb Söyüdlüyə göndərdiniz. Bir dənə də komissiya yaradın, o adamlara, o kəndlilərə kömək etsin. Yoxsa, dediyim kimi, onsuz da Bakıda adam çoxdur. Məcburdur, ailəsini dolandırmaq üçün Bakıya gəlsin. Bu bir.

İkinci də, elə bir hala düşmüşük ki, hörmətli Sahibə xanım, kinolarda deyilir, xüsusən Amerika kinolarında. Deyir: "Danışdığın hər söz məhkəmədə əleyhinə kullanılacaqdır". İndi deputatları da elə günə qoyurlar, mətbuatda danışmağa bəzən qorxuruq ki, xalqın, dövlətin mənafeyinə uyğun nə desək, nə ağıllı, nə düz söz desək, hamısını əleyhimizə kullanacaqlar, kullanırlar da. Necə ki, Söyüdlü məsələsində kim bir balaca açıqlama verib, hamısı sosial şəbəkələrdə həmin deputatın söyülməsinə, təhqir olunmasına gəlib çıxıbdır. Sözüm bu qədər. Yəqin ki, hörmətli Baş nazirimiz kəndlilərin halına yanar və bir kömək əli uzadar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli Aqil müəllim, bu zalda heç bir deputat heç vaxt söz deməyə qorxmayıb.

Hörmətli həmkarlar, qanun layihələrinin həm birinci oxunuşunda, həm də bugünkü müzakirələrində müəyyən

məsələlər qaldırıldı və mən keçən dəfə hörmətli Taleh müəllimə dedim ki, xahiş edirəm, cavablarınızı ikinci oxunuş zamanı deyəsiniz. Taleh müəllim, keçən dəfə də suallar oldu, bu gün də bir-iki sual oldu, xahiş edirəm, mikrofon Sizindir. Buyurun.

**T.Kazımov,** *Azərbaycan Respublikası Mərkəzi Bankının sədri.*

Çox sağ olun, xanım sədr. Sahibə xanım, hörmətli millət vəkilləri, ilk növbədə hər birinizi salamlayıram. Sizə dərin təşəkkürümü bildirmək istəyərdim. Bilirəm ki, Milli Məclisin gərgin iş rejimi var. Bu gərginliyi nəzərə alaraq, bizim qanun layihələrinin müzakirədən keçirilməsi və səs verməyinizə görə mən dərin təşəkkürümü bildirirəm. Sizin şərhlərinizi, təkliflərinizi, suallarınızı, əsaslı iradlarınızı mən çox müsbət qəbul edirəm və çox istərdim ki, dialoqumuzu da bu səpkidə davam edək.

Hörmətli xanım sədr, birinci oxunuşda bir neçə – 8 nəfər millət vəkili öz suallarını vermişdilər. İcazənizlə, onlardan başlayardım. Siyavuş müəllim Novruzov valyuta mübadilə məntəqələri ilə bağlı sual vermişdi. Demək olar, irad bildirmişdi ki, bu, valyuta mübadilə məntəqələrinin az olması turistlərə və əhaliyə çətinliklər yaradır. Məhz buna görə bugünkü müzakirə olunan "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda təklif olunan dəyişikliklər bu sahədə əhaliyə və gələn turistlərə daha şəffaf, yüksək səviyyədə və təhlükəsiz valyuta mübadilə xidmətləri göstərilməsini nəzərdə tutur. Məhz yeni təkliflərdə valyuta mübadilə fəaliyyəti müstəsna fəaliyyət kimi nəzərə alınır və bu sahənin institusional inkişafında Mərkəzi Bankın birbaşa marağı var. Bir də belə bir fikir söylənilmişdir ki, son illərdə 10 minə yaxın valyuta mübadilə məntəqəsi bağlanmışdır, 20 minə yaxın işçi işsiz qalmış-

dır. Onu qeyd etmək istərdim ki, 2014-cü ildə valyuta mübadiləsi ən pik həddi olanda valyuta mübadilə məntəqələrinin sayı cəmi 222 idi. Bilmirəm, 10 min rəqəmini, bu məlumatı haradan almısınız. Bu gün ümumi bank sektorunda 23 min nəfər işçi çalışır. Yəni valyuta mübadilə məntəqələrində 20 minə yaxın işçinin çalışması mümkün deyil.

İkinci məsələ. Siyavuş müəllim Novruzovun banklarda 100 min manat sığortalanan limitlərlə bağlı sualı yaranmışdır ki, bunu daha artıraq və belə bir fikir var, 100 min limit olduğuna görə əhali banklara pul etibar etmir. İlk növbədə onu qeyd etmək istərdim ki, 2020-ci ilin əvvəlindən bu ilin may ayının sonuna kimi fiziki şəxslərin əmanətləri 51 faiz artıb, bu, 4 milyard 100 milyon manat deməkdir. Həm müddətli, həm tələbli əmanətlər kəskin artıb. 100 min manat limitinə gəldikdə isə bunu da hörmətli millət vəkillərimizə məlumat üçün qeyd etmək istəyərdim ki, Azərbaycanda 100 min manat limit olduğu təqdirdə, Qazaxıstanda bu rəqəm 38 mindir, Türkiyədə 28 min 900-dur, Rusiyada 28 min 300-dür, Gürcüstanda isə 9 min 750-dir. Bu, iyun ayının 22-nə olan məzənnə ilə hesablanmış limitlərdir. Avrozonada 186 mindir. Mərkəzi Bank və mən şəxsən düşünürük ki, 100 min kifayət qədər yüksək limitdir və bunun artırılmasına ehtiyac yoxdur. Çünki requlyator olaraq limit nə qədər çox olsa, ehtimal var ki, o qədər də banklar öz balansına örtülməmiş, izafi risklər götürəcəklər və bunun maliyyə sabitliyinə böyük bir təsiri ola bilər. Ona görə 100 min olmasını biz dəstəkləyirik və fikirləşirik ki, onun artırılmasına ehtiyac yoxdur.

Böyük bir müzakirə və hər zaman qaldırılan məsələ kredit faizləri ilə bağlıdır. Siyavuş müəllim faizlərin aşağı salınmasını təklif etmişdir. Kredit faizlərinin yüksək olmasını Zahid müəllim Oruc da qeyd etmişdir. Məlumat

üçün qeyd etmək istərdim ki, Azərbaycanda kreditlər üzrə faizlər hüquqi şəxslər üçün orta faiz 10,1, fiziki şəxslər üçün isə 16,1 faizdir. Həmin bölgü ilə getsək, Rusiyada bu göstərici 8,9 və 12,5 faizdir. Gürcüstanda hüquqi şəxslər üçün 14, fiziki şəxslər üçün 18,6 faizdir. Qazaxıstanda isə müvafiq olaraq 18,9 və 19,1 faizdir. Yenə də mən bunu vurğulamaq istərdim ki, bizim bazarda olan kredit faizləri ümumi portfelə baxdıqda tərəfdaş, qonşu ölkələrə nisbətdə kifayət qədər aşağıdır. Onu da qeyd etmək istərdim, – mən bunu hər zaman təkrarlayıram, – kredit faizləri bir neçə amildən formalaşır. İlk növbədə həmin resursların maya dəyərindən formalaşır. Əksər hallarda bankların cəlb etdiyi depozitlər formasında.

İkinci amil qeyri-faiz xərcləridir, yəni bankların əməliyyat xərcləridir. Üçüncü amil həmin borc alanın riskidir və dördüncü amil, sözsüz, bankın ümumi mənfəət marjasıdır. Məlumat üçün qeyd edim ki, milli valyutada kreditlər üzrə orta faiz bütün portfel üzrə, həm hüquqi, həm də fiziki şəxslər üçün 14,3 faizdir. Depozitlər üzrə orta faiz dərəcəsi 8,5-dir. Arada 5,8 faiz bəndi qalır. Bu da həm kredit riski, həm borc alanın kredit riski, həm bankın marjası, həm də bankın əməliyyat xərclərinin örtülməsi üçün istifadə olunur. O da çox vacib bir məqamdır, Mərkəzi Bankın sədri olaraq, bunu şərh etməliyəm ki, yüksək inflyasiya şəraitində kredit üzrə faizlərin azalması məqbul hesab edilmir. Çünki kredit faizlərinin azalması inflyasiyanı kəskin artıracaq və bu isə makroiqtisadi dayanıqlılıq nöqteyi-nəzərdən yenə də qəbul olunan deyil. Ona görə indiki şəraitdə may ayının illik inflyasiyası 11,5 faizdir. Mərkəzi Bankın aprel proqnozlarına əsasən bu ilin sonuna kimi illik inflyasiyamız 8,3 faiz olacaq. Bu da bizim hədəf diapazonumuzdan yüksəkdir. Ona görə bu şəraitdə

faizlərin azalması yalnız inflyasiyanın artımına təsir göstərə bilər.

Tahir müəllim Kərimli bir neçə məsələyə toxundu. Bu, fiziki şəxslərin bir-birinə borc verməməsi ilə bağlıdır. Bu, yəqin ki, Mülki Məcəllə ilə tənzimlənməlidir. Burada mən şərh etmək istəməzdim, kredit faizlərinin yuxarı həddinin müəyyən edilməsi, bunu mən bir neçə dəfə eşitmişəm. Düşünürəm ki, hansı isə rəqəmlə yuxarı hədd müəyyən etməyin əleyhinəyik və mən şəxsən əleyhinəyəm. Çünki yuxarı həddi müəyyən etmək bazar iqtisadiyyatı prinsiplərinə ziddir. Onu da qeyd etmək istəyərdim ki, Mərkəzi Bank olaraq biz məhdudlaşdırıcı tələbləri maliyyə institutlarının qarşısında təqdim etmişik və bu tələblər izafi, kəskin faiz artımının qarşısını alınmasını nəzərdə tutur. Lakin hansı isə rəqəmi limit olaraq müəyyən etməyi məqsədəuyğun hesab etmirik. Ümumiyyətlə, biz faizlərə bir riyazi rəqəm və faiz işarəsi kimi baxırıq. Lakin mən onu qeyd etmək istərdim, hər bir iqtisadiyyatda vəsaitlər, xüsusi ilə borc vəsaitləri iqtisadiyyatda borc alanın riskini əhatə edir və hansı isə limit qoymaqla biz belə bir şəraitdə yaşaya bilərik ki, maliyyə institutlarımız riskləri əhatə etməyən kreditlər verəcəklər, bu isə, sözsüz, maliyyə dayanıqlığının zəifləməsinə gətirib çıxara bilər. Ona görə biz bu xəttin müəyyən edilməsinin də əleyhinəyik.

Məlahət xanım İbrahimqızı qeyd etmişdir ki, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə xatirə əskinaz buraxmaq planlaşdırırıq, yoxsa yox? Azərbaycan Mərkəzi Bankına xatirə banknotunun tədavülə buraxılması nəzərdə tutulmamışdır. Lakin onu qeyd etmək istərdim ki, ölkəmizin tarixində ilk dəfə tədavülə buraxılan və eyni zamanda, ilk dəfə olaraq Azərbaycanın qızılından hazırlanmış investisiya məqsədli pul nişanları fərqli çəkilərdə

hazırlanmışdır və səhv etmirəmsə, həmin yubileyə həsr olunaraq keçən ayın 10-dan tədavülə buraxılmışdır.

Türkiyədə əmək haqqı və pensiya kartları uzunmüddətlidir, eyni hal bizdə mümkündür, yoxsa yox? Burada qeyd etmək istərdim ki, hazırda banklar tərəfindən ödəniş kartları 3-5 illik müddətinə emissiya olunurlar, buraxılırlar və ödəniş kartları ilə kod kartlarının müddətləri ilə bağlı Mərkəzi Bank tərəfindən qanunvericilik çərçivəsində hər hansı bir məhdudiyyət müəyyən edilməmişdir. Ona görə bu 3 il də, 5 il də, 10 il də ola bilər. Bu, sadəcə, iki tərəfin razılığı ilə, müqavilə şərtləri ilə həyata keçirilə bilər. Mərkəzi Bankın sədrinin pul nişanlarının üzərində imzası nə vaxt olacaq məsələsi də qaldırılmışdı. Təşəkkürümü bildirirəm diqqətə görə. Keçən ilin ikinci yarısında Mərkəzi Bankın İdarə Heyəti pul ehtiyatlarının idarə edilməsinə yenidən baxmışdır və optimallaşdırmışdır. Kifayət qədər çap olunmuş ehtiyatlarımız var. Ona görə dövlət xərclərini səmərəli icra edərək biz hazırda imza ilə tələsmirik, əsas odur ki, mən şəxsən düşünürəm, imzadan əvvəl o pul əhalimiz üçün bərəkətli olmalıdır. Amma onu da qeyd edim ki, artıq bir manat nominallar köhnə olduqlarına görə avqust-sentyabr aylarında yeni imza ilə, inşallah, tədavülə buraxılacaq.

Azay müəllim Quliyev icbari sığorta ilə bağlı qeyd etmişdi. Xüsusi ilə əmlak sığortası ilə bağlı da burada penitrasiyanın aşağı olması ilə bağlı öz şərhlərini vermişdi. Tamamilə razıyam, penitrasiya kifayət qədər aşağıdır. Onu qeyd etmək istəyərdim ki, sığortaya ictimai inamın yaradılması Mərkəzi Bankın bu sahədə apardığı islahatların başlıca istiqamətidir. Bu məqsədlə sığorta istehlakçılarının qorunması üçün lazımi tənzimlənmə çərçivəsinin, eləcə də sığortaçıların sığortalara qarşı ədalətli rəftarının təmin olunması

üçün nəzarət proseslərinin yaradılması başlıca strateji hədəfimizdir. Hazırda Milli Məclisdə müzakirə olunan qanun layihəsi Mərkəzi Banka bu sahədə lazımi mandatın verilməsini nəzərdə tutur və hazırda icbari sığortanın bütün növləri ilə Mərkəzi Bankın təkmilləşdirilmə işləri aparılır və ümidvaram ki, qısa bir müddətdə biz ictimaiyyətə onu açıqlayacağıq. Əhalidə kifayət qədər çox risklər var, belə ki, bizim əhali sığortalanmayıb və bu, sözsüz, həm sosial nöqteyi-nəzərdən, həm də maliyyə sektorunun, xüsusi ilə sığorta bazarının inkişafı nöqteyi-nəzərdən bizi narahat edir. Bu istiqamətdə kifayət qədər böyük planlarımız var. Azay müəllim tərəfindən sığorta şirkətlərinə ikinci bir irad və əsaslı irad qeyd olunmuşdur, sığorta vasitəçiləri, şirkətləri, agentləri əhalini qorxuzur ki, icbari əmlak sığortasını almasalar, cərimələnəcəklər. Onların bu hüququ yoxdur, mən tamamilə razıyam və bu səlahiyyət yalnız müvafiq dövlət orqanlarına aiddir. Digər qurumların belə bir səlahiyyəti yoxdur və Mərkəzi Bankın qaynar xətləri var, biz mütəmadi olaraq istehlakçılarla əlaqə saxlayaraq həmin narazılığı eşitmişik. Hələ birinci plenar müzakirədən öncə biz sığorta şirkətlərinin vasitəçilərinə və sığorta şirkətlərinə öz iradlarımızı və tələblərimizi irəli sürmüşük ki, bu sms-lər və ya zənglər onların səlahiyyətində deyil və bunları dayandırmalıdırlar.

Dəymiş ziyanla bağlı Azay müəllim Quliyev bir nümunə olaraq diqqətə çatdırmışdır. Mövcud qanunvericiliyə uyğun olaraq, sığorta hadisəsi nəticəsində dəymiş zərərin miqdarını sığortaçı müəyyən edir. Sığortaçı həmin qiymətləndirmə ilə razı deyilsə, müstəqil ekspert cəlb edə bilər və zərərçəkmiş qiymətləndirmə ilə razı deyilsə, həmin qiymətləndirmə ilə bağlı məhkəməyə müraciət edə bilər. Bu gün burada müzakirə olunan qanun layihəsində biz bütün

bu problemləri düşünərək, bilərək bu qanun layihəsində sığorta sahəsində fəaliyyət göstərən müstəqil ekspertlərin institutunun inkişafı ilə bağlı tələbləri irəli sürmüşük. İndi buna vaxt sərf etmək istəməzdik. Amma bilirik ki sığorta bazarında müstəqil ekspertlərin inkişafı çox vacibdir. Həm şəffaflıq nöqteyi-nəzərdən, həm də sığortaçıya göstərilən xidmət nöqteyi-nəzərdən. Burada artıq təsdiq olunmuş kifayət qədər daxili planımız var və qanun layihəsi təsdiq olunduğu təqdirdə, biz bu istiqamətdə fəaliyyətimizi genişləndirəcəyik.

Zahid müəllim Oruc "Bank Standard"la bağlı məsələlərə toxundu, əmanətçilərin pullarını hələ də almamaları ilə bağlı qeyd etdi. Buna aydınlıq gətirmək istərdim, çünki bu məsələlərlə tez-tez üzləşirəm. Bankların ləğv etmək funksiyası Mərkəzi Bankın səlahiyyətlərinə aid deyil. Amma "Bank Standard"a gəldikdə, mən onu qeyd etmək istərdim, – hamının məlumatı olsun, – ləğvetmə prosesində olan kommersiya bankı "Bank Standard"ın 10 min 328 sayda qorunan əmanətçisinə, ümumilikdə, 437,8 milyon manat ekvivalentində kompensasiya ödənilmişdir. Bu isə ümumi kompensasiyanın 99 faizi deməkdir. Bakı Apelyasiya Məhkəməsinin inzibati – iqtisadi kollegiyasının 2019-cu il 10 sentyabr 2 saylı qərarına əsasən 17 min manatadək qorunmayan əmanəti olan 15650 sayda fiziki şəxs üzrə, ümumilikdə, 6,65 milyon manat məbləğində kredit tələbinin fond tərəfindən ödənilərək qanunun 82-ci maddəsinin tələblərinə əsasən tələbin növbəlilik qaydasında fonda ötürülməsi qərara alınmışdır. Bu da həmin bu əmanətlərin qaytarılmasında bir dəstək idi.

Beynəlxalq bankların bazara daxil olması ilə bağlı Zahid müəllim qeyd etmişdir ki, bizim hansı isə məhdudiyyətlərimiz və ya limitlərimiz var, ya yoxdur. Təklif odur

ki, daxil olmalıdırlar, xarici banklar gətirilməlidirlər. Mən Sizinlə razıyam ki, xarici təcrübə bizim bank sektorunda rəqabəti artıraraq, innovasiya, insan kapitalının inkişafı, yeni texnologiyaların inkişafı nöqteyi-nəzərindən böyük bir təkan verə bilər. Burada onu da əlavə qeyd etmək istərdim ki, Mərkəzi Bank tərəfindən hazırda xarici kapitalın iştirakı ilə bağlı hər hansı bir limit yoxdur və mütəmadi olaraq, fərqli ölkələrin bank nümayəndələri ilə, – Azərbaycanda olanda onlarla özüm də görüşürəm, – müzakirələr aparırıq. Xarici banklardan hazırda hələ ki, belə bir niyyət yoxdur. Ümidvaram ki, gələcəkdə maliyyə sektorunda aparılan islahatların nəticəsində xarici investisiyalar üçün bu sahə daha da cəlbedici olacaq.

Etibar müəllim Əliyev qeyd etmişdir ki, valyuta alanda şəxsiyyət vəsiqəsi tələb olunur, nə vaxta qədər belə olacaq? Çalışacağam buna cavab verim ki, ilk növbədə Mərkəzi Bankın mandatına əsasən valyuta nəzarəti Mərkəzi Bankın səlahiyyətindədir və bizim əsas məqsədimiz bu istiqamətdə valyuta axınlarına nəzarət etməkdir və beynəlxalq praktikada da bu təcrübə çox aktiv istifadə olunur. Sizin tərəfinizdən qeyd olunan nəzarət tələbini hələ ki, ləğv etmək planımız yoxdur. Sərtləşməyi də planlaşdırmırıq. Sadəcə, bugünkü durum necədir, çox güman ki, bu ilin sonuna qədər elə də qalacaq.

Mərkəzi Bankın pul-kredit siyasətində dəyişikliklər etmək gözlənilirmi? Bir neçə dəfə qeyd etmişəm, Mərkəzi Bank artıq iyul ayından ildə 4 dəfə öz proqnozlarını verməyə başlayacaq. Həm inflyasiya ilə bağlı, həm də makroiqtisadi və digər göstəricilərlə bağlı öz proqnozlarını verəcək. İllik inflyasiya göstəricilərinə və proqnozlarına baxaraq, hədəfə yaxınlaşma baş versə, illik olaraq humanitar şəraitin dəyişilməz saxlanılması, sonrakı mərhələdə isə

onun yumşaldılması imkanları nəzərdən keçiriləcəkdir.

Sabit məzənnə rejimi özünü doğruldurmu, Etibar müəllim Əliyevdən belə bir sual var idi. Bəli, birmənalı doğruldur. Təhlillər göstərir ki, sabit məzənnə rejimi nəticəsində əsas tərəfdaş ölkələrdə milli valyutaların ucuzlaşması həmin ölkələrdən Azərbaycana olan idxalın qiymətlərinə azaldıcı təsir göstərir. Qiymətləndirmələrə görə bu ölkələrdən idxal olunan məhsullar üzrə qiymətlərin azalması daxili qiymətlərə əsasən 3-12 ay intervalında ötürülür. Məlumat üçün qeyd edək ki, nominal effektiv məzənnənin 10 faiz bahalaşması daxili qiymətlərə birinci rübdə 1,8 faiz, dördüncü rübdə isə 3,4 faiz azaldıcı təsir edir. Yəni yüksək inflyasiya şəraitində xüsusi ilə bizim tərəfdaşlarımızda sabit məzənnə rejimi inflyasiyaya azaldıcı təsir edir. Ona görə də düşündük ki, o, inflyasiya nöqteyi-nəzərdən özünü doğruldur. Çünki Mərkəzi Bankın əsas siyasəti qiymətlərin sabitliyidir. Makroiqtisadi sabitlikdir. Məzənnə siyasəti deyil. Məzənnə siyasəti yalnız makroiqtisadi sabitliyin təmin edilməsi üçün olan bir rejimdir və ölkəmizin makroiqtisadi sabitliyinin təmin edilməsi üçün hansı rejim tələb olunacaqsa, Mərkəzi Bank da onun üzərində fokuslaşacaq. Bu gün də sabit məzənnə rejimi özünü doğruldur.

Mərkəzi Bankın rəqəmsal valyuta haqqında baxışları nədir, belə bir sual olmuşdur. Biz Beynəlxalq Valyuta Fondu ilə birgə araşdırma aparmışıq. Bu ilin əvvəlində bu layihə bitirilib. Hazırda Mərkəzi Bankın bu sahədə görüləcək planları mövcud deyil. Çünki bu sahədə kifayət qədər çox suallar var. Həm humanitar siyasət, həm də maliyyə sabitliyi nöqteyi-nəzərdən. Ona görə Mərkəzi Bankın bu gün fundamental işlərinin görülməsi üçün kifayət qədər vaxt tələb olunur. Ona görə biz daha çox onlara fokuslaşa-

cağıq və bu sahədə olan digər ölkələrin təcrübələrini izləyərək, sözsüz ki, həmin yeniliyin Azərbaycana gətirilməsini də nəzərdən keçirəcəyik. Hazırda belə bir planımız yoxdur.

Bir də "bank 04" planları ilə bağlı sual verilmişdir. Bu, rəqəmsallaşma, yeni innovasiyalar, bizim strateji baxışımız ondan ibarətdir ki, ölkədə maliyyə inklüzivliyinin artırılması, o cümlədən ən qabaqcıl beynəlxalq təcrübənin ölkəmizə gətirilməsi, rəqəmsal transformasiya tədbirlərinin sürətləndirilməsi, elektron maliyyə bank xidmətlərinin genişləndirilməsi və bu xidmətlərin əhali üçün daha əlçatan edilməsidir. İnanırıq ki, bu istiqamətdə hazırlanan qanunvericilik layihələri, beynəlxalq ekspertlərlə birgə formalaşdırılan maliyyə sisteminin inkişafı strategiyasının davamlı olaraq həyata keçirilməsi tədbirləri Mərkəzi Bank olaraq qarşıya qoyduğumuz hədəflərə nail olmağımıza imkan verəcəkdir. Hazırda biz bunun, ola bilsin, dörd və ya beş versiyasını deyə bilərik. Burada əsas o deyil. Daha çox Mərkəzi Bank, indi qeyd etdiyim kimi, qlobal ekspertlərlə ölkəmizin maliyyə sektorunun inkişafı strategiyasının üzərində çalışır və ümidvarıq ki, növbəti, bu ilin sentyabrında biz bunu ictimaiyyətə açıqlayacağıq. Sözsüz ki, həmin sənəddə biz ölkədə maliyyə sektorunun növbəti 3 ildə inkişafını sizin, bütün ictimaiyyətin qarşısında təqdim edəcəyik və orada xüsusi ilə bank sektorunun inkişaf istiqamətləri qeyd olunacaq. Bugünkü sualları... İki dəqiqə vaxtım varmı?

**Sədrlik edən.** 2 dəqiqə olar.

**T.Kazımov.** Çalışaram. Vahid müəllim Əhmədov, çox sağ olun, bugünkü suallarınıza görə çox təşəkkür edirəm. Əmanətlərin Sığortalanması Fondu ilə bağlı fikir söylənilmişdi. Biz 5.10-cu maddədə qeyd olunan nəzarətə, yalnız əmanətlərin sığorta haqqının ödənilməsinə nəzarət

edirik. Biz Əmanətlərin Sığortalanması Fonduna nəzarət etmirik. BOKT-ların valyuta mübadilə xidmətlərinin həyata keçirilməsi və nağd pul əməliyyatlarının keçirilməsi təklifinizi eşitdim. Bu qanun layihəsi təsdiq olunduqdan sonra biz onlara yeni imkanlar veririk. Ödəniş kartlarının buraxılışı və ödəniş fəaliyyəti ilə məşğul olmasına imkan yaradacağıq. Bir az müddət keçsin, bank olmayan kredit təşkilatları üçün aktivliyi nəzərə alaraq, ola bilsin, yeni əməliyyatlar da, yeni xidmətlər də keçirməyə imkan yaradacağıq. Bankların faizlərini və istehsal üçün faizləri qeyd etdiniz. Buna mən qayıtmaq istəməzdim, çünki hüquqi şəxslərə verilən kreditlər dövlət fondları istisna edilməklə 11 faizdir. Dövlət fondlarını əlavə etsək, 10 faiz civarındadır. Bankların kifayət qədər böyük likvidliyi var. Hər zaman bunu qeyd edirəm, 5 milyard manata yaxın sərbəst vəsaitlər var. Burada biz məsələyə konseptual yanaşmalıyıq. Yalnız faizlərin azalması ilə deyil.

Maliyyə amnistiyası. Bilirəm ki, hazırda hökumət tərəfindən bu sahədə kifayət qədər çox araşdırmalar aparılır, sözsüz, maliyyə sektoru buna ancaq müsbət baxacaq, çünki rəqəmlərə gəlsək, bu gün bir az bəlkə texniki səslənər. Amma M0 göstəricimiz 14 milyard manatdır, yəni nağd şəkildə ölkədə olan manat həcmi 14 milyard manatdır. Kifayət qədər böyükdür. Bu isə bizim tərəfdaş, qonşu ölkələr ilə müqayisədə kifayət qədər yüksəkdir. M2, həmin rəqəm geniş manat pul kütləsinin 50 faizinə qədər artıb. Digər ölkələrdə isə bu, 20-30 faiz civarındadır. Sözsüz ki, maliyyə sektoru və Mərkəzi Bank olaraq amnistiyaya müsbət baxırıq, yalnız hökumət tərəfindən qeyd etdiyim kimi, indi araşdırmalar aparılır və ona uyğun olaraq da, yəqin, hökumət həmin istiqamətdə öz addımlarını atacaq.

Razi Nurullayevə, birincisi, təşəkkür edirəm. Bizim işi-

mizə qiymət verdiyiniz üçün. Sizin yeni məhsulların inkişafı və maliyyə sektorunda yeni məhsulların tətbiqi ilə bağlı təklifiniz nəzərə alındı və söz verirəm ki, bu istiqamətdə banklarla aktiv çalışacağıq. Lakin bu, daha çox bankların üzərinə düşən bir məsuliyyətdir. Burada isə biz requlyator olaraq öz tələblərimizlə onları stimullaşdıra bilərik ki, onlar bazara daha yeni məhsullar gətirsinlər.

Sədaqət xanım Vəliyeva. Sığorta sektorunda maarifləndirmə işi çox aktivdir. Biz bu sahədə  çox aktiv iş aparırıq. Hazırda assosiasiya ilə birgə geniş planımız var. Banklardan asılılığı, səmimi deyim, dəqiqliklə başa düşmədim, hansı istiqamətdə asılılıq. Amma vəsaitlərin yerləşdirilməsi ilə bağlı biz banklara sığortalar üçün yeni investisiya qaydaları təqdim edirik və ümidvaram ki, bu yeni yanaşma ilə sığorta şirkətləri öz vəsaitlərini qiymətli kağızlar bazarında daha çox istifadə edəcəklər. Hesabatlılıqla bağlı sizinlə tamamilə razıyam, Sədaqət xanım. Yaxın zamanlarda sığorta şirkətləri  üçün ilk dəfə olaraq Mərkəzi Bank tərəfindən korporativ idarəetmə standartları tətbiq olunacaq. Burada bankların, sığorta şirkətlərinin korporativ idarəetmə standartlarının bir hissəsi də hesabatlılığın açılmasıdır, ictimaiyyətə çatdırılmasıdır. Burada da aktiv işlər görüləcək, çox qısa zamanda siz onu görəcəksiniz.

Əli Məsimli Mərkəzi Bankın hüquqi şəxsdə iştirak payı ilə bağlı qeyd etdi. Sözsüz ki, burada yalnız Mərkəzi Bankın mandatına uyğun olan hüquqi şəxslərdən söhbət gedir. Mərkəzi Bankın heç bir zaman kommersiya fəaliyyəti maraqları, kommersiya maraqları olmayıb. Gəlir qazanmaq, sözsüz ki, yaxşıdır. Amma  Mərkəzi Bank emissiya təşkilatıdır, yəni gəlir formalaşdırması üçün emissiya edə bilər. Bizim əsas məqsədimiz nəzarət etdiyimiz istiqamətlərdə inkişaf nöqteyi-nəzərdən bəzi hüquqi şəxs-

lərin, ola bilsin, təsis edilməsi, xüsusi ilə vurğuladınız maliyyə akademiyasının formalaşdırılması, bizneslə, bazar iştirakçıları ilə birgə töhfə verməklə, sonra, sözsüz ki, həmin hüquqi şəxslərə artıq bazar iştirakçılarının idarəsinə verilməsidir.

Sosial layihələrə gəldikdə, bu gün bəzi sosial layihələrimiz var. Mərkəzi Bankın Biləsuvarda məktəbidir, biz həmin məktəbi dəstəkləyirik və nəzərə alsaq ki, artıq bu layihələr var. Bunu həmçinin qanunda da qeyd etmək istəyərdik və sözsüz ki, növbəti bizim sosial-iqtisadi inkişaf strategiyamızdan irəli gələn hansı sosial layihələr olduğu Mərkəzi Banka uyğun gəldiyi təqdirdə, biz, sözsüz ki, onlara baxılmasını nəzərdən keçirə bilərik.

İnflyasiya dedik, bu, çox vacib məsələdir. Bilirəm, bir az çox danışdım, üzrlü hesab edin, amma bizim... Problem yoxdur. Ümidvaram ki, sizə də maraqlı olar. Çünki bu məsələlər deyilir, amma sonra həmin o fikirlərə izah gəlmir. Əli müəllim, Çində inflyasiya 0,2 faizdir. Biz baxmalıyıq, bu inflyasiyanın səbəbləri nədir? İndi MDB ölkələrində Siz dediniz, Rusiya, Gürcüstanda, bəli, inflyasiya bizdən aşağıdır. Amma gəlin, həmin ölkələrin 2022-ci ilin may ayındakı inflyasiyasına baxaq. O bizdən daha yüksək idi və biz statistikaya baxdıqda o ölkələrin inflyasiyası, bizə ötürücülüyü 3-6 ay vaxt çəkir. Həmçinin də onların sərbəst üzən məzənnəsi var. Bu da inflyasiyaya azaldıcı təsir edir. Xüsusi ilə Rusiya–Ukrayna münaqişəsi hesabına. Ölkəmizin inflyasiyası 11,5 faizdir. Onun 70 faizi, 66 faizi idxal olunan inflyasiyadır, birbaşa tərəfdaşların inflyasiyasıdır. 3 faizinə kənd təsərrüfatının istehsal qiymətlərinin indeksinin təsiri var. Burada da qarışıq idxal olunan mallar var. Yəni biz fərqli-fərqli ölkələrlə müqayisə eləyə bilərik. Amma biz başa düşməliyik ki, səbəb

nədir. Çin kimi ölkədə 0,2-dir. Deyirsiniz, yaxşıdır, mən düşünürəm ki, yox. Elə aşağı inflyasiya iqtisadi inkişafa dəstək olmur. Ona görə də bizim ölkəmizdə inflyasiya hədəfi 4 faizdir. İntervalı da 2-6 faiz aralığındadır, bu inflyasiya olmalıdır ki, iqtisadi inkişaf da dəstəklənsin. İnflyasiya olmadığı təqdirdə, bu, kifayət qədər pisdir. O ki qaldı İqtisadiyyat Nazirliyi ilə Mərkəzi Bankın rəqəmləri ilə müqayisədə mən bunu bir neçə dəfə vurğulamışam.

Biz yenə də buna qayıdırıq ki, həmkarlar, İqtisadiyyat Nazirliyi orta illik inflyasiyanı bilir. Bu isə həmin ilin, misal üçün, 5 ayının illik inflyasiyasının cəmi bölünür 5-ə, vurulur 12-yə, riyazi. Mərkəzi Bankın əsas mandatına uyğun olaraq, qiymət sabitliyini nəzərdən keçirsək, biz orta deyil, 12 aylıq inflyasiyaya baxırıq. Yəni keçən ilin may ayında olan əmtəənin qiyməti bu ilin may ayındakı qiymətindən fərqlidir. Ona görə bu rəqəmlər 99 faiz halda heç vaxt üst-üstə gəlməyəcək, heç vaxt. Çünki bu, fərqli göstəricilərdir. Proqnozlarımız var, İqtisadiyyat Nazirliyi ilin sonuna kimi orta illik inflyasiyanı proqnoz edir. Mərkəzi Bank isə illik 8,3 faiz inflyasiyanı proqnoz edir. Bizdən soruşsanız ki, orta illik inflyasiyamız nədir? Orta illik inflyasiyamız 11,5 faizdir. Sözsüz ki, beynəlxalq maliyyə institutları da fərqli proqnozlar verir, Beynəlxalq Valyuta Fondunun Dünya Bankı ilə proqnozları da üst-üstə düşmür. Bu da normal bir haldır. Çünki bu, gələcəyə baxış tərzidir. Bunu uyğunlaşdırmaq da lazım deyil. Hamımız üçün fərqli alternativlər var. Hansısa inflyasiyanın hesablanması üçün hansısa təklifləriniz varsa, Mərkəzi Bank həmişə açıqdır.

Mən çox üzr istəyirəm ki, vaxtınızı çox aldım. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, fikirlərinizə və

şərhlərinizə görə sizə dərin təşəkkürümü bildirirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Taleh müəllim. Çox ətraflı məlumat verdiniz. Mən düşünürəm ki, sual verən hər bir deputat öz sualına cavab da aldı. Eyni zamanda, Tahir müəllim, mən düşünürəm ki, suallar çox olanda onların bir qisminin cavabını həm bu auditoriyada, yəni plenar iclasda, həm də bəzilərinin cavabını isə sizin komitə iclasınızda ikinci oxunuş zamanı da səsləndirmək olardı.

Hörmətli həmkarlar, artıq fasilə zamanıdır...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fasiləsiz? Fasiləsiz təklif olundu, qəbul edirəm. İndi isə biz səsverməyə keçirik və bilirsiniz ki, ikinci oxunuşdur. Səsvermə bir az uzun proses olacaq, ona görə də, xahiş edirəm, hamı diqqətli olsun. 3-cü məsələnin səsvermə proseduruna keçirik. Bu, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. 3 maddədən ibarətdir. Mən indi həmin maddələri bir-bir səsə qoyacağam. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

**Səsvermənin nəticələri** (saat 12.59 dəq.)

| | |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

3-cü maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 2 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsinə bütövlükdə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

4-cü məsələyə keçirik. “Banklar haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir və bu qanun

layihəsində iki maddə var. Bir-bir səsə qoyacağam. 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
İndi isə qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul

edildi.

5-ci məsələyə keçirik. Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. 28 maddə var. Mən onları qruplaşdırıb səsə qoyacağam. Buyurun, 1-cidən başlayaraq 14-cü maddə daxil olmaqla, maddələri səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

15 – 21-ci maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Son 7 maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

6-cı məsələyə keçirik. Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. 4 maddədən ibarətdir. İki-iki səsə qoyacağam. Xahiş edirəm, ilk 2 maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

3-cü və 4-cü maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Münasibət bildirin, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

7-ci məsələyə keçirik. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi 8 maddədən ibarətdir. Mən onları dörd-dörd səsə qoyacağam. Birinci 4 maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Qalan 4 maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

8-ci məsələ. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunda və digər 6 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində 7 maddə var. Mən onların üçünü bir, dördünü bir səsə qoyacağam. Ona görə də xahiş edirəm, indi 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

Qalan 4 maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Qanun layihəsini bütövlükdə səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də ikinci oxunuşda qəbul edildi.

9-cu məsələyə keçirik. “Bank olmayan kredit təşki-

latları haqqında”  Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində 4 maddə var. İki-iki səsə qoyacağam. 1-ci və 2-ci maddələrə  münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

10-cu məsələyə keçirik. “Kredit ittifaqları haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində 6 maddə var. Mən onları üç-üç səsə qoyacağam. 1-ci, 2-ci və 3-cü maddələrə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 4-cü, 5-ci və 6-cı maddələrə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|

| | |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

11-ci məsələ, “Poçt haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi 9 maddədən ibarətdir. Mən onları üç-üç səsə qoyacağam. Xahiş edirəm, birinci 3 maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Növbəti 3 maddəyə, yəni 4-cü, 5-ci və 6-cı maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 7-ci, 8-ci və 9-cu maddələrə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

12-ci məsələyə keçirik. “Əmanətlərin sığortalanması haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində 11 maddə var. Mən onları üç-üç səsə qoyacağam. İndi isə birinci 3 maddəyə səs verək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 4-cü, 5-ci və 6-cı maddələrə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 7-ci, 8-ci və 9-cu maddələrə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2 maddə qalır, buyurun, qalan 2 maddəyə səs verək.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

13-cü məsələnin səsverməsinə keçirik. "Kredit büroları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. 2 maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

14-cü məsələ. “Valyuta tənzimi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. 2 maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

Xahiş edirəm, bu maddəyə bir dəfə də səs verin.

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

Qəbul edildi.
İndi isə 2-ci maddəni mən səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

Qəbul edildi.
İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

15-ci məsələ. "İnvestisiya fondları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi 25 maddədən ibarətdir. Mən onları beş-beş səsə qoyacağam. Buyurun, birinci 5 maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

Qəbul edildi.

Növbəti 5 maddəni, yəni 6 – 10-cu maddələri səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

Qəbul edildi.

Növbəti 5 maddəni səsə qoyuram. Buyurun.

**Səsvermənin nəticələri** (saat 13.15 dəq.)

| | |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Növbəti 5 maddəni, – 16-cı, 17-ci, 18-ci, 19-cu və 20-ci maddələrdir, – səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Son 5 maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|

| | |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 16-cı maddəyə keçirik. "Qiymətli kağızlar bazarı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. 2 maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi, sağ olun.

17-ci məsələyə keçirik. "Sığorta fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində 2 maddə var. 1-ci maddəni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

Qəbul edildi.

Qanun layihəsinə bütövlükdə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

18-ci məsələyə keçirik. "İcbari sığortalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində 17 maddə var. Mən onları böləcəyəm. Xahiş edirəm, ilk 4 maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

Qəbul edildi.

İndi isə 5-ci, 6-cı, 7-ci və 8-ci maddələri səsə qoyuram. Buyurun.

**Səsvermənin nəticələri** (saat 13.20 dəq.)

| | |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 9, 10, 11, 12-ci maddələri səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Hörmətli həmkarlar, buyurun, qalan 5 maddəyə də münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Bu-

yurun.

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

19-cu məsələyə keçirik. Bu qanun layihəsində 4 maddə var. Mən onları iki-iki səsə qoyacağam. Buyurun, 1-ci və 2-ci maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

3-cü və 4-cü maddələri mən səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

Qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
| --- | --- |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

20-ci məsələni mən səsə qoyacağam. "Tibbi sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. 1 maddədən ibarətdir. Xahiş edirəm, həmin maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
| --- | --- |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

**Səsvermənin nəticələri** (saat 13.23 dəq.)

| | |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

İndi isə 21-ci məsələyə keçirik. "Publik hüquqi şəxslər haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. O da 1 maddədən ibarətdir. Həmin o maddəyə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul

edildi.

22-ci məsələyə  keçirik. “Sahibkarlıq fəaliyyəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində 1 maddə var. Həmin maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Qanun layihəsini  bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi, çox sağ olun.

23-cü məsələyə keçirik. “Hesablama Palatası haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi 2 maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

24-cü məsələ. "Mühasibat uçotu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində 3 maddə var. 1-ci maddəyə münasibət bildirək. Buyurun.

**Səsvermənin nəticələri** (saat 13.26 dəq.)

| | |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

3-cü maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

**Səsvermənin nəticələri** (saat 13.27 dəq.)

| | |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 25-ci məsələnin səsverməsinə keçirik. "Dövlət satınalmaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. 2 maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi mən qanun layihəsinə bütövlükdə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

26-cı məsələyə keçirik. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi. Bu qanun layihəsi də 2 maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

27-ci məsələyə keçirik. "Auditor xidməti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi 1 maddədən ibarətdir. Bu maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsinə bütövlükdə münasibət bildirin. Buyurun.

**Səsvermənin nəticələri** (saat 13.30 dəq.)

| | |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

28-ci məsələyə keçirik. Bu qanun layihəsində 1 maddə var. Həmin maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul

edildi.

Nəhayət, 29-cu məsələnin səsverməsinə keçirik. "İcra haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. 2 maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.

Hörmətli həmkarlar, indi isə 2-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə qanun layihəsinə bütövlükdə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs verməmdi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, ikinci oxunuşda qanun layihəsi bütövlükdə qəbul olundu.

Hörmətli həmkarlar, biz növbəti məsələlərə keçirik. İndi bizim qonaqlarımıza "sağ ol" deyirik.

Hörmətli həmkarlar, 4 məsələmiz qalır. Bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir. Güman edirəm ki, birinci oxunuşun tələbləri hamımızın yadındadır. Gündəliyin 30-cu məsələsinə keçirik. Bu məsələ "Dərman vasitələri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, məsələnin müzakirəsi ilə əlaqədar bizim qonaqlarımız var. Eləmi, Fərid müəllim?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.**Azərbaycan Respublikası səhiyyə nazirinin müavini hörmətli Rasim müəllim İsmayılov iclasımızda iştirak edir. Qanun layihəsinə Milli Məclisin Səhiyyə komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən, Əhliman müəllim, Sizdən xahiş edirəm, buyurun, məlumat verin.

**Ə.Əmiraslanov.** Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, qonaqlar. "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə təklif olunan qanun layihəsi Milli Məclisin Səhiyyə komitəsində geniş müzakirə olunaraq plenar iclasa tövsiyə olunmuşdur.

Qanun layihəsi səhiyyə və tibbi sığorta sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər və Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman

və sərəncamlarının icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır.

Təqdim edilən layihədə dünya praktikası əsas götürülərək Ümumdünya Səhiyyə Təşkilatı, Avropa Dərman Agentliyi, Amerika Birləşmiş Ştatlarının, Yaponiyanın və İsrailin müvafiq qurumları tərəfindən istifadəsinə icazə verilmiş, habelə Avropa İttifaqına, Avropa Azad Ticarət Assosiasiyasına üzv ölkələrdə, Avropa İttifaqı ilə Gömrük İttifaqı sazişi qüvvədə olan ölkələrin ən azı birində istehsal olunan və dövlət qeydiyyatına alınmış, o cümlədən istifadəsinə icazə verilməsi meyarları nəzərə alınmaqla, dərman vasitələrinin beynəlxalq qeydiyyatının tanınması nəzərdə tutulmuşdur.

Bu dərman vasitələrinin sadələşdirilmiş ekspertizanın nəticələrinə əsasən beynəlxalq qeydiyyatı tanınaraq dərman vasitələrinin dövlət reyestrinə daxil edilməsi üçün tələb olunan sənədlərin sayı azaldılmış, sadələşdirilmiş və qeydiyyat prosedurlarının müddətləri qısaldılmışdır. Bununla yanaşı, dərman vasitələrinin beynəlxalq qeydiyyatının tanınmasına müraciət edən istehsalçı ilə yanaşı, topdansatış əczaçılıq müəssisəsi də nəzərdə tutulur.

Beləliklə, dərman vasitələrinin Azərbaycan Respublikasına gətirilməsi məqsədi ilə qeydiyyatı üçün müraciət edə biləcək tərəflərin dairəsi genişlənmiş və bütövlükdə, qeydiyyat prosesi sadələşdirilmişdir.

Qanun layihəsində dərman vasitələrinin dövriyyəsinə nəzarəti təmin etmək məqsədi ilə Səhiyyə Nazirliyi tərəfindən aparılan elektron təqib və izləmə sisteminin tətbiq edilməsi nəzərdə tutulmuşdur. Bu sistem istehsal və idxal olunan malların dövriyyəsinə, topdan və pərakəndə satışına nəzarəti həyata keçirən və bununla bağlı məlumatları qeydə alan informasiya mənbəyi olacaqdır. Həm-

çinin dərman vasitələrinə reseptlərin elektron formada yazılmasına imkan verən sistemin tətbiqi də nəzərdə tutulmuşdur.

Bununla yanaşı, layihədə dövlət qeydiyyatına alınmış dərman vasitələrinin tənzimlənən qiymətlərdən yuxarı qiymətlərlə satılması qadağan olunur. Həmçinin qanun layihəsində bioloji aktiv qida əlavələri ilə əlaqədar tənzimləmələr təkmilləşdirilir. Bioloji fəallığa malik qida əlavəsinin və dövlət qeydiyyatına alınmış dərman vasitəsinin adlarında ən azı 4 hərf fərqi olması tələbi müəyyən edilmiş, bioloji fəallığa malik qida əlavəsinin tərkibində olmayan maddənin onun adında istifadə edilməsi qadağan edilmişdir.

Layihədə tibb vasitələrinə dair tənzimləmələr, dərman vasitələrinin idxalına icazə verilməsi proseduru, dərman vasitələrinin yazılması qaydası, o cümlədən reseptdə dərman vasitələrinin ticarət adının deyil, tərkibinin yazılması tələbi müəyyən edilmişdir. Ümumilikdə, qanun layihəsində 7 istiqamət üzrə dəyişikliklər nəzərdə tutulmuşdur. Eyni zamanda, qanunda 4 yeni maddənin əlavə olunması və 11 maddə üzrə 86 dəyişikliyin edilməsi təklif olunur.

Xatırlatmaq istərdim ki, 2023-cü il aprelin 11-də Milli Məclisin plenar iclasında birinci oxunuşda qəbul edilən "Dərman vasitələri haqqında" qanun layihəsinin mətni hazırkı qanun layihəsinə əlavə edilmiş və vahid sənəd şəklində Milli Məclisin müzakirəsinə çıxarılması məqsədəyuğun hesab edilmişdir.

Beləliklə, qanun layihəsinin qəbul edilməsi dərmanların dövlət qeydiyyatı prosedurunun optimallaşdırılmasına, ölkə ərazisinə idxal edilən keyfiyyətli dərman vasitələrinin artırılmasına, ölkədə yarana biləcək dərman qıtlığının aradan qaldırılmasına, o cümlədən dərman vasitələrinin döv-

lət qeydiyyatına alınmasının sadələşdirilməsinə imkan verəcəkdir.

Bununla yanaşı, yeni qanun layihəsi innovativ dərman vasitələrinin dövlət qeydiyyatına cəlb edilməsinə, ekspertizanın həyata keçirilmə müddətinin qısaldılmasına, tələb edilən sənədlərin azalması və sahibkarlıq subyektləri üçün prosesin sadələşdirilməsinə imkan yaradacaqdır.

Hörmətli millət vəkilləri, xahiş edirəm, qanun layihəsini dəstəkləyəsiniz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Hörmətli həmkarlar, biz indi müzakirələrə keçirik. Tahir Kərimli. Tahir müəllim, sualınız, ya təklifiniz var? Buyurun.

**T.Kərimli.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Cənab səhiyyə nazirinin müavininin burada olmasından istifadə edərək, ona bir sorğu göndərirəm. Yəqin, o bilir, indi hörmətli Əhliman müəllim dedi, məni də razı salır ki, dərman qıtlığının qarşısı alınacaq və digər tədbirlər görüləcək. Amma soruşmaq istəyirəm: Səhiyyə Nazirliyi hiss edirmi ki, son illər qiymətlər mütəmadi surətdə artır? Dərmanlar çox bahadır, qıtlıq var, xaricdən baha qiymətə gətirirlər, əlçatan deyil. Səhiyyə Nazirliyi bunun haqqında nə fikirləşir? Yaxşı, bu qanunda dəyişikliyi, qanunu qəbul etdik. Bu sahədə kömək edəcəkmi ki, dərmanlar bir az ucuzlaşsın, keyfiyyətli olsun? Yəqin məlumdur ki, çox keyfiyyətsiz dərmanlar var. Hətta mənim bildiyimə görə tərkibində bəzi komponentlər olmur.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev. Buyurun. Təklif var ki, 5 dəqiqə olsun. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Etibar Əliyev. Buyurun, Etibar müəllim.

**E.Əliyev.** Çox hörmətli Sahibə xanım, hörmətli deputatlar. Hörmətli Əhliman müəllim komitə iclasında ma-

raqlı bir fikir səsləndirdi, daha doğrusu, həqiqəti söylədi. Sitat: "Azərbaycanda dərmanların qiyməti çox bahadır. Bunu yoxlamaq o qədər də çətin deyil. MDB ölkələrinə də getsəniz, bunu aydın şəkildə görəcəksiniz. Bunu gizlətməyin adı yoxdur. Dərman qiymətlərinin tənzimlənməsi ola bilər, nazirliyin tabeliyində olmaya da bilər. Amma Tarif Şurasında bununla məşğul olan insanlar dünyada olan qiymətlərə baxmalıdırlar. Bilməlidirlər ki, ölkədə dərman qiymətlərində artım var. Qiymətlər optimallaşdırılmalıdır".

Tarif Şurası dərmanlara da suyun, işığın, qazın, benzinin qiyməti kimi baxsa, onda batdıq ki. Dərman artıq qida kimi istifadə olunur. Əhliman müəllim bunu dedi – "qidaya əlavə". Dərman idxalına mane olan və qiymətlərin yüksəlməsinə rəvac verən qurumların sayına diqqət edək: Dövlət Gömrük Komitəsi, Qida Təhlükəsizliyi Agentliyi, Dövlət Vergi Xidməti, Səhiyyə Nazirliyi, TƏBİB də qarışsa, dairə tamamlanar.

Gömrükdə dərmanlar aylarla saxlanılır. Məndə olan məlumata görə heç onların saxlama şəraitləri də yoxdur və varsa da, çox pisdir. Ölkədə tibbi maarifçilik çox aşağı səviyyədədir. Ona görə də COVID-19-dan xeyli insan tələf oldu.

Bir dəfə televiziyaların birində aparıcı ağrıkəsici dərmanı təbliğ edirdi. Bir xalq artistinə təkid edirdi ki, bu dərmanı sən mütləq içməlisən və içən kimi keyfiyyətini görəcəksən. Belə dərman təbliğatı olar?

COVID-19-un tüğyan etdiyi bir vaxtda Türkiyə və Rusiya telekanallarında intensiv maarifçilik işləri aparılırdı. Rusiyalı infeksionist professor Skalninin maraqlı bir fikrini xatırlatmaq istəyirəm. O deyirdi: "Tədqiqatlar göstərir ki, sink koronovirusa qarşı aktivdir, o güclü təsirə malik-

dir. İmmun sistemini gücləndirməklə virus əleyhinə güclü təsir göstərir. Əhalinin 20-40 faizində bu mikroelement çatışmır. Bir çox hallarda isə 60 faizə çatır. Buna görə də insanların çoxu virusları dəf etməyə qadir deyil". Bəs keyfiyyətli sink və seleni haradan almaq olar? Ancaq alman apteklərindən keyfiyyətlisini tapmaq olar, özü də çox baha. Necə deyərlər, qanı qiymətinə. Firma dərmanları deyirlər.

Bu yaxınlarda yaxın qohumuma diz qığırdağının bərpası üçün klinikaların birində iynə vurdular. Bizi xeyli gözlətdilər ki, indi firmanın nümayəndəsi preparatı gətirəcək. Gəldi və gətirdi, qiymətini də dedi, 350 manat. Həmin preparat apteklərdə yoxdur. Əldə dərman satılır. Əvvəllər əldə ayaqqabı, dublyonka satardılar. İndi dərman satırlar. Nə yaxşı ki, valeryan və spazmalqon ucuzdur. Heç olmasa, bunun qiymətlərini qaldırmayın. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Azər Badamov. Buyurun.

**A.Badamov.** Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. "Dərman vasitələri haqqında" Qanunda təklif olunmuş dəyişikliklər dərman vasitələrinin idxalını asanlaşdıracaq. Dövlət reyestrinə daxil edilməsi üçün tələb olunan sənədlərin sayının azaldılması və sadələşdirilməsi dərman bazarının inkişafına müsbət təsir göstərəcəkdir. Bu da topdansatış əczaçılıq müəssisələrinin, o cümlədən idxalçıların sayının artmasına yol açacaq və dərmanların bazarda çatışmazlığının və müəyyən olunmuş tənzimlənən qiymətlərdən daha baha qiymətə satılma hallarının qarşısını alacaqdır. Qanunda edilən dəyişikliklər dərman bazarında rəqabət mühitinin yaranmasına və qiymətlərdə müəyyən tənzimləmələrin aparılmasına imkan verəcəkdir.

Hörmətli həmkarlar, bu gün insanları çox narahat edən

məsələlərdən biri dərman vasitələrinin qiymətinin baha olması ilə bağlıdır. Müzakirəyə çıxarılmış qanun layihəsindəki dəyişikliklər inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanır. Ümumiyyətlə, səhiyyə sistemində icbari tibbi sığortanın tətbiqi vətəndaşların səhiyyəyə əlçatanlığını təmin edir. Bu gün vətəndaşların imkanları xaricində olan bəzi əməliyyatlar və müalicələr icbari tibbi sığorta tərəfindən qarşılanır və bunu çox müsbət hal hesab edirəm.

Beynəlxalq təcrübəyə nəzər yetirəndə icbari tibbi sığorta xəstələrin ancaq stasionar şəraitdə müalicəsi ilə deyil, həm də ambulator şəraitdə dərman vasitələri ilə təmin olunmasında da yaxından iştirak edir. O cümlədən icbari tibbi sığortaya daxil xəstəxanalarda yazılmış reseptlərə əsasən apteklərdə satılan dərmanlara qiyməti satış qiymətindən aşağı satılmaqla xüsusi güzəştlər tətbiq olunur. Ayın sonunda isə reseptlə satılmış dərman vasitələrinə edilmiş endirimin ümumi məbləği icbari tibbi sığorta müəssisələrinin kassalarından apteklərə geri ödənilir. Bu da xəstəyə dərmanların aptekin satış qiymətindən kifayət qədər ucuz qiymətə əldə edilməsinə imkan verir. Məsələn, Almaniyada çəhrayı rəngli reseptlə apteklərdə satılan dərman vasitələrinin qiymətinin cəmi 10 faizi vətəndaş tərəfindən ödənilir. Belə bir təcrübə müzakirə etdiyimiz qanun layihəsinə daxil olunarsa, hesab edirəm ki, vətəndaşların dərmana əlçatanlığı təmin edilər və apteklərdə dərmanın baha olması ilə bağlı narahatlıq aradan qalxmış olar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev.

**R.Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. İlk öncə qanunun hazırlanmasında göstərdiyi əməyə görə mən komitə sərdi hörmətli həmkarım Əhliman müəllimə dərin təşəkkürümü bildirirəm. Səhiyyə Nazirliyinə, TƏBİB-ə və hər kəsə bu qanuna görə təşəkkür edirəm.

Çünki qanun, doğrudan da, mən oxudum, xoşuma gəldi. Amma bir sıra məsələlər barəsində konseptual olaraq fikirlərimi bildirəcəyəm. İkinci oxunuşda isə daha ətraflı danışacağam.

Vətəndaşlar tərəfindən ölkəyə gətirilən dərman vasitələrinin müsadirə edilməsi, onların incidilməsi halları var. Bu məsələni bir dəfə də səsləndirmişdim, amma dəyişiklik yoxdur. Yadınızdadırsa, bu məsələnin vacibliyini və vətəndaşların narahatlığını, etirazını burada bildirdim. Cənab Baş nazir Əli Əsədov qeyd etdi ki, belə bir təlimat, tapşırıq yoxdur, hər kəs şəxsi istifadə üçün istədiyi qədər dərman gətirə bilər. Bəs nəyə görə hava limanlarında hələ də dərmanların müsadirəsi gedir? "IPhone" telefonlarını başa düşmək olar. Kimlərsə "IPhone" telefonu üzərindən qeyri-leqal biznes qurub. Bəzən özünə ikinci "IPhone" telefon alan da problemlə üzləşməli olur. Bu başqa məsələdir. Amma konkret olaraq dərman vasitələrini öz xəstələri üçün gətirənlərə gərək şərait yaradılsın. Kimsə 6 aylıq, 1 illik dərman alırsa, bu da şübhə doğurur və vətəndaş ciddi şəkildə incilidir.

Gömrük işçiləri tərəfindən dərman vasitələrinin müsadirəsi və yoxlanılması yəqin ki, Gömrük Məcəlləsinin 215.1-ci maddəsinə görə edilir və buna görə də mən onları qınamaqdan uzağam. Bu maddənin yaratdığı məhdudiyyətləri nəzərə alaraq, düşünürəm ki, Nazirlər Kabineti şəxsi istifadə üçün xaricdən gətirilən dərman vasitələrinin xaricdən gətirilməsini tənzimləyən bir təlimat hazırlaya, yaxud qərarla qaydalar müəyyənləşdirə bilər. Bu qaydalara da uyğun vətəndaşlar sənədləri özləri ilə götürə və gömrük işçilərinə təqdim edə bilərlər ki, bu da məsələni kökündən həll etmiş olar. Ümid edirəm ki, bu məsələyə ciddi yanaşılacaq və bu məsələ birdəfəlik, kökündən

vətəndaşların xeyrinə həll olunacaqdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir Mirkişili. Buyurun.

**T.Mirkişili.** Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, bildiyiniz kimi, bizim İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclaslarında da hörmətli həmkarlarım tərəfindən dərmanların qiymətlərinin dəfələrcə yuxarı olması ilə bağlı məsələ qaldırılmışdı. Keçən müddət ərzində bizim komitə tərəfindən bu istiqamətdə, qiymətlərin səviyyəsinin yuxarı olması barədə bir araşdırma aparılmışdır.

Həqiqətən də, araşdırmamız bizi bir neçə situasiya ilə qarşılaşdırmışdır ki, bəzi dərman vasitələrinin qiyməti, həqiqətən də, dəfələrcə yüksəkdir, bəzi dərman vasitələrinin Azərbaycanda qıtlığı müşahidə olunur, bəzi beynəlxalq təşkilatların Azərbaycanı tərk etməsi ilə bağlı situasiya üzə çıxmışdı. Bütün bunların səbəblərini araşdırdığımız zaman isə qeydiyyat prosesində kifayət qədər çətinliyin olması, ekspertizanın tam şəffaf olmaması, Tarif Şurasının qiyməti birbaşa təyin etməsi kimi məsələlər üzə çıxmışdı. Məhz bu məsələnin səbəbini biz ictimaiyyətlə də bir dəfə geniş müzakirə etmişdik.

Hiss olunur ki, qanun layihəsi hazırlanarkən bütün bu problemlər dərindən təhlil olunmuşdur. Mən təqdir edirəm ki, qanun layihəsində artıq Tarif Şurasının qiymətləri deyil, qiymətlərin yuxarı həddini müəyyən etməsi çox vacib bir amildir. Ümumiyyətlə, iqtisadiyyatda belə bir yanaşma var ki, əgər siz hər hansı bir məhsulun qıtlığına nail olmaq istəyirsinizsə, ona qiymət təyin edin. Ona görə bu yanaşmanı biz təqdir edirik və mən düşünürəm, qiymətin deyil, qiymətin yuxarı həddinin təyin olunması o deməkdir ki, qiymətlər aşağı da düşə bilər. Buna kimsə mane olmur, buna rəqabət təsir edəcək. Vacib amillərdən biridir.

İkinci, mühüm məsələlərdən, qeydiyyat prosesində üzləşilən ən böyük problemlərdən biri ərizəçinin, yəni müraciətçinin yalnız istehsalçı və ixracçı olması ilə bağlıdır ki, yeni qanun layihəsində bu dairənin genişlənməsi təqdirəlayiq haldır. Yalnız istehsalçı, ixracçı deyil, eyni zamanda, topdansatışçı və müvafiq dövlət orqanının bura əlavə olunması o deməkdir ki, beynəlxalq şirkətlərin indiyə qədər narazı olduğu ən ciddi məsələlərdən biri aradan qalxa biləcəkdir.

Üçüncü, daim qaldırılan məsələlərdən birinin qanunda öz əksini tapması, bu, beynəlxalq tanınma ilə bağlıdır. Bildiyiniz kimi, mövcud şəraitdə indiyə qədər Azərbaycanda avtomatik tanınma yox idi, o dərman, tutaq ki, Avropa Birliyində tanınıbsa, Azərbaycanda yenidən qeydiyyatdan keçməli idi. İçində olan izahedici materiallar da qutunun üzərində yalnız Azərbaycan dilində olmalıdır. Bu şərtlərin götürülməsi, həqiqətən də, təqdirəlayiq haldır. Mən düşünürəm ki, avtomatik beynəlxalq tanınmanın və yaxud sadələşmiş tanınmanın olmasının qanuna gətirilməsi və Azərbaycan dilindən başqa dillərin də işlənməsinə icazə verilməsi, bu, bir çox hallarda, xüsusi ilə Türkiyə bazarında olan ucuz, aşağı qiymətə olan dərmanların Azərbaycan bazarına gəlib çıxmasına imkan yaradacaq.

Bütövlükdə, mən düşünürəm ki, təqdim olunan qanun layihəsi indiki halda konseptual olaraq bizim araşdırdığımız problemlərin bir çoxunun həll olmasına gətirib çıxarmaq potensialına sahibdir. Təbii, zaman göstərəcək, mən inanıram ki, qanun qəbul olunandan sonra dərmanların qiymətləri, qıtlıqla bağlı problemin aradan qaldırılmasında, bir çox məsələdə qanun imkan yaradacaq. Amma fürsətdən istifadə edib, mən həm də dövlət orqanlarından – Səhiyyə Nazirliyindən və Tarif Şurasından da xahiş etmək istərdim ki, qiymətlərin müəyyən edilməsi

qaydalarına yenidən baxsınlar. Hansı ölkələr bura daxil olacaq, ekspertiza zamanı hansı sənədlər tələb ediləcək ki, elektronlaşma daha çox olsun, bu istiqamətlərdə vaxt məhdudiyyəti də aradan qaldırılsın.

Bütövlükdə, biz qanun layihəsini konseptual olaraq dəstəkləyirik və həmkarlarımdan da dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qənirə Paşayeva. Buyurun.

**Q.Paşayeva**. Hörmətli xanım sədr, hörmətli həmkarlar! Mən də qanun layihəsini dəstəkləyəcəyəm. Amma hörmətli səhiyyə nazirinin müavininin burada iştirak etməsindən istifadə edərək, istəyərdik, bəzi məsələlərə çox ciddi şəkildə aydınlıq gətirilsin. Birincisi, çox istərdik bilək, geniş şəkildə analiz edildimi ki, nə idi bu dərman qiymətlərinin arasında, məsələn, qonşu qardaş Türkiyə ilə aramızdakı bu qədər fərqlər? Bu insanların bir çoxu da dərmanları məhz ona görə gətirirdi, o qiymət fərqlərinə görə. Doğrudan da, bu dəyişikliklər bunun qarşısını almaq üçün imkan yaradacaqmı?

İkincisi, qanun layihəsində ən vacib məsələlərdən biri vurğulanır, qeydiyyatın sadələşdirilməsi, ekspertiza problemlərinin həll olunması məsələsi. Tarif Şurasının bu sahədə qiymətlərin tənzimlənməsində çevikliyinin artırılmasına ciddi ehtiyac var. Amma bəzi ehtiyaclar da ciddi nəzarətdən yaranmalıdır. Biz deyirik dərmanların keyfiyyəti. Məsələn, çox istəyərdik bilək, – bu açıqlamanı biz heç vaxt, heç yerdə görmədik, – laboratoriyalar var, dərmanlar laboratoriyalardan ekspertizadan keçirilir, bəs bu qədər keyfiyyətsiz dərman bu ölkəyə necə gəlib çıxır? Bəs buna görə nə qədər insanlar cəzalandırılıb? Bax, buna məsuliyyət daşıyan qurumlar var və bunlar dövlət qurumlarıdır, rəsmi qurumlardır. Doğrudan da, bu qanun, də-

yişikliklər bunun qarşısını alacaqmı?

Mən istəyirəm səhiyyə nazirinin müavininə üz tutam. Bioloji aktiv maddələr, bioloji aktiv qida əlavələri. Əsas narazılığın biri ondan ibarətdir ki, insanların bir çoxunun, normaldır, tibb təhsili yoxdur, gedir həkimə, həkim resept yazır. O reseptdəkinin biri dərman olur, üçü birində görürsünüz, bioloji aktiv qida əlavələridir. Bu bioloji aktiv qida əlavələri o dərmanın qiymətindən dəfələrcə baha olur. Bu insan gəlib bunu alanda bunu almağa imkanları çatmır. Narazılıq yaranır ki, mən müalicə üçün reseptimi ala bilmədim. Hansı ki, o reseptdə onun müalicəsi üçün ya bir, ya iki dərman var. Bunun əksəriyyəti bioloji aktiv qida əlavələri olur. Mənim yadımdadır, mən də o zaman Səhiyyə komitəsinin üzvü idim, bu məsələ müzakirə olundu və bildirildi ki, reseptlərdə bu bioloji  aktiv qida əlavələrinin yazılması məsələsinin qadağan olunması məsələsinə baxılsın. Bu, tövsiyə edilə bilər. Bu, dərman vasitəsi deyil, reseptlər bununla doldurulur. Bu insanlar firmaların dərmanlarını və sair ala bilmirlər, narazılıq yaranır. Amma bununla bağlı da ciddi addımlar yoxdur. Bu məsələ ilə bağlı qurumlar buna nəzarət etməlidir.

İkinci bir məsələ antibiotiklərlə bağlıdır. Ölkədə antibiotiklərdən bilincsiz istifadə var. Dünyanın inkişaf etmiş heç bir ölkəsində antibiotiklər bu cür satılmır. Baxaq, bütün Avropa ölkələrinə, digər ölkələrə, dünyanın harasında, hansı inkişaf etmiş ölkədə belə bir şey var ki, kim istəyir gəlib aptekçiyə deyir: “mənə hansı antibiotiki məsləhət görərsən?” O da götürür, – elə bil ki, mağazada konfet satır, bilmirəm, peçenye satır, – belə bir şey kimi antibiotik verir. Bu antibiotiklərdən bilincsiz istifadənin yaratdığı problemlər bu gün müalicə ilə belə sonra bir çoxunun qarşısı çətinliklə alınan problemlərdir. Bu məsələ neçə

dəfə qaldırılır. Amma yenə də görürük ki, eyni vəziyyət bu məsələdə də davam edir.

Burada həmkarlarım qaldırdı, ümumiyyətlə, bir insan əgər ildə iki dəfə, – zatən pasportda bu qeydiyyatda var ki, ildə neçə dəfə ölkədən çıxıb, – xaricə gedib-gələndə özünə və yaxınlarına dərman gətirirsə, bunu niyə gətirir? Qiymətə və keyfiyyətə görə gətirir. Əgər bunlar ikisi də normal olsa, o dərman vasitələrini niyə gətirsin ki? Bunların incidilməsinin qarşısının alınması çox vacibdir.

Mən sonda bunu deyim. Qardaş Türkiyədə səfərdə olanda şəxsən məni dəvət etmişdilər. Azərbaycanlılar orada necə dərman zavodları yaradıblar və bu gün, sadəcə, Azərbaycana deyil, dünyanın bir çox ölkələrinə, eləcə də Türkiyə bazarına dərman ixrac edirlər. Elə səhiyyə nazirimizin müavini də buradadır. Bunu bir neçə dəfə vurğulamışam. Bu insanların əlaqələrini Sizə də verə bilərəm, dəvət etmək olar. Burada istehsal olarsa, bu qiymətlərin aşağı düşməsi mümkün olacaq. Əgər bizim insanlarımızın bu potensialı varsa, buna imkanların yaradılması yaxşı olardı ki, bu istehsal burada getsin. O zaman qiymətlər də daha ucuz olacaq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Rəşad Mahmudov. Buyurun.

**R.Mahmudov**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Mən fürsətdən istifadə edərək, dəyərli millət vəkillərinin qaldırdıqları bəzi məsələlərə aydınlıq gətirmək, həm də fikirlərimi paylaşmaq istəyirəm. Əlbəttə ki, Etibar müəllimin dilə gətirmiş olduğu, xüsusən dərman vasitələrinin ölkəyə gətirilməsi zamanı fərqli-fərqli qurumların bəlli prosedurlar tətbiq etməsi ilə əlaqədar məsələ. Onu demək istəyirəm ki, bu, birmənalı olaraq, istər gömrük məntəqəsindən başlayaraq, istər qida təhlükəsizliyi, istərsə də Səhiyyə Nazirliyinin aidiyyəti qurumlarının nəzarəti

ölkədə təhlükəsiz və keyfiyyətli dərman preparatlarının təyinatı üçün vacib olan bir məsələdir. Həqiqətən, bəlkə məsələ ilə əlaqədar ətraflı araşdırılma aparılmayıb. Ölkəmizdə bu mərhələlərdə görülən işlər təqdirəlayiq, beynəlxalq səviyyəyə uyğun bir şəkildə aparılır.

İkinci bir məsələ, dəyərli millət vəkilimizin bildirmiş olduğu dərmanlarla əlaqədar ödəmələrin olunması. Bu, əslində, qanunvericiliyin predmeti deyil. Bu məsələ aidiyyəti orqanların, icbari tibbi sığortanın və yaxud ölkədə bu məsələ ilə əlaqədar qərarla maliyyə resursları ayrıldıqdan sonra həll olunacaq bir məsələdir. Ona görə, məncə, bugünkü qanunun predmetinə aid olan bir məsələ deyil.

O ki qaldı ağrılı yanlarımız. Əlbəttə, ölkəmizdə, – biz də qəbul edirik, hamımız da bilirik ki, bu, dəfələrcə dilə də gətirilib, – xoşagəlməz hadisələr olur. Amma xoşagəlməz hadisələri nəzərə alaraq, doğru olan şeylərə də ləkə salmaq doğru deyil. Yəni bu gün hər nə qədər dərmanların qiyməti bəzi ölkələrlə müqayisədə dəfələrcə bahalı olsa da, istər Türkiyə, istərsə də Avropa ölkələrindən qiyməti qat-qat daha ucuz və eyni səviyyədə olan çox sayda dərman preparatları var və bunu təmin edən təşkilatlar var. Yəni bu işlərə kölgə salmaq, məncə, birmənalı olaraq işimizin müsbət tərəfdən həllinə deyil, çətinliklər yaranmasına səbəb olur. Əlbəttə, bu gün müzakirəyə çıxarılan bu qanun layihəsinin də əsas məqsədi ölkəyə gətirilən dərman vasitələrinin sənədləşdirilməsinin optimallaşdırılması və beləcə, gələcəkdə ölkədə sağlam rəqabət mühitində keyfiyyətli dərman əlçatanlığı ilə birlikdə, həm də uyğun qiymətlərin təmin edilməsinə yönəlmişdir. Ona görə mən dəyərli millət vəkillərinin də diqqətinə çatdırmaq istəyirəm ki, bu gün dövlətimiz birmənalı olaraq... Hətta hamının yaddaşındadır, çox hörmətli Baş nazirimiz Əli Əsədovun bu zalda bu mövzu ilə

əlaqədar verdiyi tapşırıqlara əsasən aidiyyəti qurumlar nə qədər çalışırlar. Biz əminik ki, gələcəkdə hansı isə yaxşılaşma yönündə real nəticələri görəcəyik.

O ki qaldı bu qanunda dəyişikliklərə, əlbəttə, komitə sədrimiz Əhliman müəllimin də tapşırığına uyğun bir şəkildə hər mərhələdə ətraflı bir şəkildə komitə üzvləri tərəfindən də araşdırılmalar aparılacaq. Burada bəzi təzadlı məqamlar var. O təzadlı məqamların biz komitə daxilində müzakirələrini aparacağıq. Çoxuna xoş gələ bilər, amma tanıtımı başqa ölkənin dilində olan istənilən dərmanın ölkəyə gətirilməsinin ciddi fəsadları da var. Bu fəsadlarla əlaqəli biz daha sonra professional olaraq aidiyyəti qurumlara məlumatlar verəcəyik. O fəsadlar adi bir şəkildə... Avropa, digər ölkələrin 3 fərqli iqlimə görə dərman istehsalı deyilən bir şey var. Fikirləşin ki, Avropada istehsal olunmuş, həmin ölkə üçün nəzərdə tutulmuş bir dərmanın bizim ölkədə istifadəsini əngəlləyən beynəlxalq standartlar var. Bu, tibbi tərəfdən sübuta yetirilmiş məsələlərdir. Yəni o qədər də rahat bir şey deyil ki, istənilən ölkədən istənilən dərmanı götürüb gətirərsən, kütləvi bir şəkildə istifadə edəsən. Ona görə bu məsələlərdə incə məqamlar da aydınlaşdırılaraq, mən düşünürəm ki, gələcəkdə daha effektli, daha məqbul və hər bir insan üçün həm təhlükəsiz, həm də uyğun qiymətə dərman preparatlarının təminatına nail olacağıq.

Fürsət yaratdığınıza görə mən bir daha hər birinizə təşəkkür etmək istəyirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əhliman müəllim, komitə sədri kimi Sizin sözünüz varmı? Buyurun.

**Ə.Əmiraslanov.** Sahibə xanım, mən hesab edirəm, həm suallara, həm təkliflərə, həm də qaldırılan məsələlərə biz ikinci oxunuş zamanı aydınlıq gətirərik. İkinci oxunuş-

da həm də səhiyyə nazirinin müavininə ünvanlanmış suallara cavab verilər, biz də təklif olunan məsələlərlə bağlı öz fikrimizi deyə bilərik.

**Sədrlik edən.** Çox sağ olun. Mən düşünürəm, elə Rasim müəllim də bununla razıdır. İndi sözünüz varmı, Rasim müəllim?

**R.İsmayılov,** *Azərbaycan Respublikası səhiyyə nazirinin müavini.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Əhliman müəllimin dediyi kimi, mən ilkin sualların böyük əksəriyyətinə cavab verməyə hazıram. Lakin Əhliman müəllimin təklifini dəstəkləyirəm ki, daha ətraflı müzakirə edək, sualları cavablandıraq. Növbəti görüşümüzdə sizə bu barədə ətraflı cavab verərik. Təşəkkür edirəm baxdığınıza görə.

**Sədrlik edən.** Çox sağ olun. İndi isə, hörmətli həmkarlar, mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 31-ci məsələyə keçirik, növbəti məsələmizdir. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Qanun layihəsinə

Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən sözü Sizə vermək istəyirəm, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, bu layihə parlamentdə hazırlanmış və geniş müzakirələr nəticəsində qəbul olunmuş "Siyasi partiyalar haqqında" Qanunun icrası ilə bağlı hazırlanmışdır. Belə ki, "Siyasi partiyalar haqqında" Qanunda biz qeyd etmişdik ki, o qanunun pozulması həm də məsuliyyət yaradır. İndi İnzibati Xətalar Məcəlləsində məhz həmin o xətalar qeyd olunur və onlara müvafiq olaraq, cərimə sanksiyaları da nəzərdə tutulub.

Demək istəyirəm ki, faktiki olaraq yeni 184-cü maddənin bütün müddəaları "Siyasi partiyalar haqqında" Qanunda öz əksini tapıb və belə demək mümkündürsə, həm də uyğunlaşdırma xarakterlidir. Ona görə bu layihəyə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Çıxış etmək istəyən var. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Doğrudan da, Əli müəllim qeyd etdi, "Siyasi partiyalar haqqında" biz çox gözəl bir Qanun qəbul etmişik və bu qanunun müddəalarının pozulmaması üçün, yəni belə bir zərurət var idi, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilsin. Çünki biz mütəmadi şahid olurduq ki, bir sıra siyasi partiyalar nə Mərkəzi Seçki Komissiyasına hesabat verir, nə də, ümumiyyətlə, onların köçürmələri qeyd olunur, ianələr nağd şəkildə toplanır, köçürmələr yoxdur. Xaricdən ayrı-ayrı şəxslərdən vəsait alması, o cümlədən xarici vətəndaşların onları himayə etməsi. Açıq şəkildə demək lazımdır ki, Azərbaycan Xalq Cəbhəsi Partiyasıdır, Müsavat Partiyasıdır, digərləridir və

heç bir hesabatlarında sərfiyyatları barədə nə ictimaiyyətə, nə də aidiyyəti qurumlara məlumat vermirlər. Sual olunur ki, bunlar bu pulu haradan alırlar, bu pul haradan daxil olur. Özgə vaxt Milli Məclisin deputatlarına, digərlərinə irad tuturlar, onların pulunu saymaqla məşğul olurlar. Amma biri çıxıb suallara cavab versin ki, bu adamlar 20 ildir heç bir yerdə işləmir və heç bir gəlir də göstərmirlər. Yaxşı, 20 ildir necə dolanırlar, necə yaşayırlar? Baxırsan ki, hər birinin cangüdəni, aparatı, aparatında işçilər, ən yuxarı qiyməti olan avtomobilləri. Gəlsinlər, bu insanlara cavab versinlər. Burada oturan hər bir Məclis üzvünün 3 illik əmək haqqı miqdarında vəsaitlə hər birinin uşağı bu gün Londonda oxuyur. Gəlsin, insanlara onun hesabatını versin. Ondan ötrü də belə bir qanun lazımdır.

Əli müəllim, mən təklif edirəm, ora bir müddəa da əlavə olunsun. Oradakı əməkdaşların müqavilə əsasında orada işləməsi. Əgər işləmirsə, bu da cəriməyə aid olunmalıdır, həmçinin onların əmək haqqı məsələləri və digər məsələlər də. Çünki onlar həm də pensiya fonduna pul köçürməlidirlər, bunların yaşları çatanda pensiyaya çıxmaq məsələləri var. Bu məsələlər də orada qeyd olunsa, yerində olar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli. Tahir müəllim, sualınız var? Buyurun.

**T.Kərimli.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli Əli müəllim, mən komitə iclasında məsələ qaldırmışdım, ikili vətəndaşlığı olan şəxslərin partiyaya qəbul edilməsi ilə bağlı məsuliyyət məsələsi ilə bağlı. Digər məsələlər aydınlaşdı, o yox. O, nə yerdə qaldı? Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, Sahibə xanım. Tahir müəl-

lim, ikili vətəndaşlıq Azərbaycan qanunvericiliyində nəzərdə tutulmayıb. Buna görə də qeyri-mümkündür.

**Sədrlik edən.** Hörmətli həmkarlar, qanun layihəsini mən birinci oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.07 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Bu məsələ "Konstitusiya Məhkəməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Nurlan müəllim, mən Sizdən xahiş edirəm, buyurun, bizə məlumat verin.

**N.Həsənov.** Hörmətli Sahibə xanım, təqdim olunan layihə "Konstitusiya Məhkəməsi haqqında" Qanunda 4 maddədə dəyişiklik edilməsini nəzərdə tutur. İlk öncə Konstitusiya Məhkəməsi hakimləri üçün "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 11-ci maddəsində nəzərdə tutulan yaş senzi aradan qaldırılır. Bildiyiniz kimi, yaş senzi ilə bağlı müddəalar 2016-cı ildə keçirilən referendumla Konstitusiyamızdan çıxarılmışdı və buna bu gün uyğunlaşdırma aparılır.

İkinci əsas dəyişiklik "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 32.2 və 34.2-ci maddələrində qeyd edilmişdir. Yəni Konstitusiya Məhkəməsi yalnız məhkəmə qərarla-

rında Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğun olmayan normativ hüquqi akta əsaslanma müəyyən etdikdə sorğu və şərtlərə baxacaq. Bildiyimiz kimi, bu o deməkdir ki, Konstitusiya Məhkəməsinə sorğu və şikayət vermək, bu sorğu və şikayətlərə baxmaq Konstitusiya Məhkəməsinin əsas funksiyası olan normativ hüquqi aktların Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılması funksiyası ilə uyğunlaşdırılır. Çünki bildiyimiz kimi, Konstitusiya Məhkəməsinin əsas vəzifəsi Konstitusiya nəzarətinin həyata keçirilməsidir və eyni zamanda, normativ hüquqi aktların Konstitusiya və qanunlara uyğunluğunun yoxlanılmasıdır. Həmçinin təklif olunan redaksiya Konstitusiya Məhkəməsi tərəfindən müraciətlərə baxılması ilə bağlı olan Venesiya komissiyasının tələblərinə və tövsiyələrinə uyğundur.

Deputat həmkarlarımdan layihəyə dəstək vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nurlan müəllim. Çıxış etmək istəyən var. Əminə Ağazadə. Əminə xanım, buyurun.

**Ə.Ağazadə.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Mən qısa olaraq bir məqamı bildirmək istəyirəm. Konstitusiya Məhkəməsində icraat 2 üsulla aparılır: Konstitusiya məhkəmə icraatı və xüsusi Konstitusiya icraatı. Konstitusiya işləri üzrə Konstitusiya Məhkəmə icraatı aşağıdakı növlərdə həyata keçirilir: Bunların 1-cisi Konstitusiyanın 130-cu maddəsinin III hissəsində 1-ci və 7-ci bəndlərində, V və VII hissəsində nəzərdə tutulmuş məsələlərin həlli üçün verilmiş sorğular və şikayətlə əlaqədar işlər üzrə icraatdır.

Eyni zamanda, Konstitusiyanın 130-cu maddəsinin III hissəsindən görünür ki, ombudsman Konstitusiyanın 130-cu maddəsinin III hissəsində sorğu ilə müraciət edən subyektlərin dairəsində yoxdur. Çünki ombudsmanla bağlı

səlahiyyətlər Konstitusiyanın 130-cu maddəsinin VII hissəsi ilə müəyyən edilir. Buradan isə aydın olur ki, ombudsman insan hüquq və azadlıqlarını pozan məhkəmə aktlarına məhz Konstitusiyanın III hissəsinin 1-ci və 7-ci məsələlərində göstərilən məsələlərlə bağlı Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün müraciət edir. Yəni bu istinaddan aydın olur ki, ombudsman bütün məhkəmələrin deyil, yalnız ədalət mühakiməsinin sonuncu instansiyası olan Ali Məhkəmənin qərarları barədə sorğu verə bilər. Bu gün müzakirəyə təqdim edilən "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 32.2-ci və 34.2-ci maddələrində də Konstitusiyanın bu müddəasının həyata keçirilməsi qaydası müəyyən edilir. Qüvvədə olan redaksiya həmin növ sorğulara və şikayətlərə baxılması üçün 3 şərt müəyyən edir. Lakin həmin redaksiyada və xüsusən də üçüncü şərt, normativ hüquqi akt məhkəmə tərəfindən düzgün şərh edilmədikdə, hesab edirəm ki, bu redaksiya qeyri-dəqiqdir. Çünki Ali Məhkəmə şərh vermir.

Qeyd edilənlərə əsasən bu gün təklif edilən redaksiyada daha təkmilləşdirilmiş variantdır və mövcud mətnlə müqayisədə hər hansı məhdudlaşdırma və ya əlavə səlahiyyət nəzərdə tutmur. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.12 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin sonuncu məsələsinə keçirik. Bu, 33-cü məsələdir. "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu qanun layihəsinə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Nizami Səfərova söz verirəm. Nizami müəllim, buyurun.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli Milli Məclisin deputatları. Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihəsi "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikası Qanununun bir sıra maddələrində dəyişiklik nəzərdə tutur və bunlar mahiyyətinə görə adıçəkilən qanunda 1.4-cü maddənin əlavə edilməsi ilə bağlıdır. Yeni maddəyə əsasən Azərbaycan Respublikasının səlahiyyətli orqanı dedikdə Azərbaycan Respublikasının Baş Prokurorluğu və müvafiq icra hakimiyyəti orqanı nəzərdə tutulur. Yəni bu qanunun icrası ilə bağlı prokurorluq orqanları da müvafiq məsələlərin həllində iştirak edəcək.

Xatırlatmaq istərdim ki, "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Qanunun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 11 iyun tarixli 499 saylı Fərmanına uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanı qismində öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Ədliyyə və Daxili İşlər nazirlikləri çıxış edirdi. Hazırda qanunun müvafiq maddələri üzrə nəzərdə

tutulan vahid hüquqi termin, səlahiyyətli orqan 3 qurumu – Azərbaycan Respublikasının Baş Prokurorluğu və 2 müvafiq icra hakimiyyəti orqanını ehtiva edir. Xahiş edirəm, birinci oxunuşda qəbul edilməsinə səs verəsiniz.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim. Çıxış etmək istəyən? Sual, ya təklif, elə başa düşdüm, Etibar müəllim. Buyurun. Etibar Əliyev.

**E.Əliyev.** Çox sağ olun, hörmətli Sahibə xanım. Burada dəyişikliklərin 3-cü səhifəsində bir hərf səhvi gedib. Bu, qanun layihəsidir. Ona görə də bunu düzəltməyi xahiş edərdim. "Səlahiyyətli" əvəzinə "sakayyətli" gedib. Bu sözü düzəltməyinizi xahiş edərdim. Budur təklifim.

**Sədrlik edən.** Sağ olun. Nəzərə alacaqlar, təbii. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.14 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bu gün dövlət qulluqçularının peşə bayramıdır. Sizin adınızdan bütün dövlət qulluqçularını peşə bayramı münasibəti ilə təbrik edirik!

Bununla da bizim iclasımız başa çatdı. Hamıya təşəkkür edirəm. Sabah bizim növbəti iclasımız olacaq. Sağ olun.

## ALTINCI ÇAĞIRIŞ

**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**NÖVBƏDƏNKƏNAR**
**XIII SESSİYASI İCLASININ**

## PROTOKOLU № 139

*Milli Məclisin iclas salonu.*
*24 iyun 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 96 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 91 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Rəşad Orucov**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti sədrinin birinci müavini.

**Fərid Osmanov**, Azərbaycan Respublikası Mərkəzi Bankının Baş direktoru.

**Məmməd Abbasbəyli**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi.

**Əhməd Həsənov**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin şöbə müdiri.

**Rəhman Hümmətov**, Azərbaycan Respublikası nəq-

liyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini.

**Anar Rzayev**, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri.

**Elmin Məmmədov**, Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Hüquq şöbəsinin müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. N.A.Səfərovun Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının üzvü təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.
2. Kosmik fəaliyyət haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
3. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
5. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
6. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
7. "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

8. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

14. "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998–2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

15. "Azərbaycan Respublikası Prezidentinin təhlükəsizliyini təmin edən orqanın 30 illiyi (1993–2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

16. “Azərbaycan Respublikasının strateji obyektlərin mühafizəsi orqanlarının 30 illiyi (1993–2023)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

17. “Azərbaycan Respublikasının xüsusi rabitə və informasiya təhlükəsizliyi orqanlarının 30 illiyi (1993–2023)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

18. Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

19. Dövlət satınalmaları haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

20. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Energetika haqqında”, “Büdcə sistemi haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” və “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**1. N.A.Səfərovun Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının üzvü təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**2. Kosmik fəaliyyət haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**3. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Qüdrət Həsənquliyev, Sadiq Qurbanov, Siyavuş Novruzov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.12 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**5. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli, Sadiq Qurbanov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**6. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.14 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**7. "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.15 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**8. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Fazil Mustafa, Sevil Mikayılova, Rəhman Hümmətov, Müşfiq Məmmədli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.21 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Tahir Mirkişili

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.21 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.38 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.38 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.38 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının Vergi Məcəlləsində**

**dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.21 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 89 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**11. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.22 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**12. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.22 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**13. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**14. “Azərbaycan Respublikası Minatəmizləmə Agent-**

**liyinin 25 illiyi (1998–2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Bəhruz Məhərrəmov, Hikmət Məmmədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**15. "Azərbaycan Respublikası Prezidentinin təhlükəsizliyini təmin edən orqanın 30 illiyi (1993–2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**16. “Azərbaycan Respublikasının strateji obyektlərin mühafizəsi orqanlarının 30 illiyi (1993–2023)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

**17. “Azərbaycan Respublikasının xüsusi rabitə və informasiya təhlükəsizliyi orqanlarının 30 illiyi (1993–2023)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

**18. Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**19. Dövlət satınalmaları haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Zahid Oruc, Razi Nurullayev, Vahid Əhmədov, Qüdrət Həsənquliyev, Aydın Hüseynov, Rüfət Quliyev, Etibar Əliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verməndi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**20. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Energetika haqqında", "Büdcə sistemi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*24 iyun 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Sabahınız xeyir, xoş gördük, hörmətli həmkarlar, hörmətli media nümayəndələri! Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçək. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 91 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasa başlaya bilərik. Xahiş edirəm, gündəliyə də münasibət bildirin.

Mən qonaqlarımızı da salamlayıram. Bu gün qonaqlarımız var.

| **Səsvermənin nəticələri** | (saat 11.10 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, bu gün biz 20 məsələ müzakirə edəcəyik. Gündəliyin 1-ci məsələsi Nizami Səfərovun Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının üzvü təyin edilməsi haqqında Milli Məclisin qərarının layihəsidir.

Hörmətli həmkarlar, bildiyiniz kimi, möhtərəm cənab Prezidentin təqdimatı ilə iyunun 9-da biz "Məhkəmə-Hüquq Şurası haqqında" Qanunda dəyişiklik etmişik. Bununla əlaqədar olaraq Məhkəmə-Hüquq Şurasının təşkili qaydası dəyişdirilmişdir. Xatırladım ki, hazırda Məhkəmə-Hüquq Şurasında Milli Məclisi həmkarımız hörmətli Nizami Səfərov təmsil edir. Qeyd etdiyim dəyişikliyə əsasən Məhkəmə-Hüquq Şurasının tərkibi yenidən formalaşdırılır və Milli Məclis tərəfindən Şuranın üzvlüyünə Nizami müəllimin namizədliyi irəli sürülür. Hörmətli həmkarlar, namizədi hamınız tanıyırsınız. Mən hesab edirəm ki, elə sizin təklifinizlə Nizami müəllimin namizədliyini səsə qoyaq. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin qərarı qəbul edildi. Nizami müəllim, biz Sizə uğurlar arzulayırıq!

Hörmətli həmkarlar, gündəliyin növbəti 5 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. Biz indi gündəliyin 2-ci məsələsinə keçirik. Bu məsələ Kosmik fəaliyyət haqqında qanun layihəsidir. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır və məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili**, *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, qanun layihəsi ilə bağlı birinci və ikinci oxunuşlar zamanı geniş məlumat verdik, həmkarlarım da çıxış etmişdilər. Ümumiyyətlə, qısa şəkildə qeyd etmək istəyirəm ki, qanun layihəsi Azərbaycan Respublikasında kosmik fəaliyyətin hüquqi, iqtisadi və təşkilati əsaslarını, kosmik sənayedə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair ümumi tərəfləri müəyyən edir.

Hörmətli xanım sədr, ikinci oxunuşda müzakirə zamanı deputat həmkarlarım Vüqar Bayramov və Fazil Mustafa tərəfindən maddələr üzrə təkliflər verilmişdir. Təkliflər qanunvericilik təşəbbüsü subyekti ilə müzakirə olunmuş və hər iki hörmətli həmkarıma bu barədə yazılı izahat da təqdim edilmişdir. Onların qaldırdıqları məsələlər maraqlı və vacib olsa da, həmin məsələləri qanunlardakı müvafiq mövcud maddələr çərçivəsində həll etmək mümkünlüyü ilə bağlı izahat da təqdim olunmuşdur. Ona görə mən hər iki deputata öz təşəkkürümü bildirmək istəyirəm. Amma istənilən halda qanun layihəsinin mətni birinci və ikinci oxunuşlarda olduğu kimi saxlanılmışdır. Həmkarlarımdan qanun layihəsini üçüncü oxunuşda da dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Tahir müəllim. Səsə qoyuruq. Xahiş edirəm, qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 4 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, məzmun və mahiyyətcə bir-birinə yaxındır. 3-cü məsələ "İstehsalat və məişət tullantıları haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 4-cü məsələ Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, 5-ci məsələ Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında, 6-cı məsələ isə "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Təklif edirəm, əvvəlcə biz qanun layihələrinin təqdimatlarını dinləyək. 3-cü məsələyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılıb. Ona görə mən hörmətli Sadiq Qurbanovdan – komitənin sədrindən xahiş edirəm. Buyurun, təqdim edin.

**S.Qurbanov**, *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Hörmətli həmkar-

lar, “İstehsalat və məişət tullantıları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda olduğu kimi səsə çıxarırıq. Xatırlatmaq istəyirəm ki, bizim deputat həmkarımız Vüqar Bayramov ikinci oxunuş zamanı təkliflərini vermişdir. Onun sualları, təklifləri yazılı surətdə əsaslandırılmış formada cavablandırılmışdır. Qanun layihəsində heç bir dəyişiklik yoxdur. Olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sadiq müəllim, çox sağ olun.

Hörmətli həmkarlar, 4-cü və 6-cı məsələlərə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Bu qanun layihələrinə dair məlumat vermək üçün mən komitənin sədri, Milli Məclis sədrinin birinci müavini hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**, *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Bizim komitədə baxılmış qanun layihələri hörmətli Sadiq müəllimin məruzə etdiyi “Tullantılar haqqında” Qanundan irəli gəlir. Belə ki, məhz yeni qəbul olunmuş qanunun pozulmasına görə inzibati məsuliyyət və utilizasiyaya gedən nəqliyyat vasitələrinin uçotdan çıxarılması məsələsi bu iki layihədə həllini tapmış olur. Heç bir dəyişiklik yoxdur. Üçüncü oxunuşda qəbul edilməsini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

5-ci məsələyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb və məsələyə dair məlumat vermək üçün mən komitənin sədr müavini hörmətli Əli Məsimliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Məsimli,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, Gömrük Məcəlləsinə edilən dəyişikliklər Sadiq müəllimin təqdim etdiyi əsas qanunu müşayiət edən qanunlar silsiləsinə aiddir. Birinci və ikinci oxunuşlar zamanı bu layihə barəsində ətraflı məlumat verilib. İkinci oxunuşdan sonra bizim komitəyə heç bir təklif daxil olmadığına görə bu layihənin olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Sadiq müəllim, 4-cü, 5-ci və 6-cı məsələlərə sizin komitədə baxılıb. Xahiş edirəm, bu məsələlər haqqında komitənin rəyini bildirin.

**S.Qurbanov.** Komitənin rəyi müsbətdir, olduğu kimi səsə qoymağı xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Mən görürəm ki, Qüdrət müəllimin sözü var. Buyurun, Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev**. Təşəkkür edirəm, hörmətli sədr. Hörmətli həmkarlar, media nümayəndələri, "İstehsalat və məişət tullantıları haqqında" Qanunu biz üçüncü oxunuşda təsdiq edirik. Qanunun 14-1-ci maddəsinin 4-cü bəndində qeyd olunur: "Utilizasiya haqqının məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən nəqliyyat vasitəsinin istehsal buraxılışı ili üzrə müəyyən edilir". Hörmətli həmkarlar, hörmətli sədr, mən əvvəllər də dəfələrlə söyləmişəm ki, ödənişlərin məbləği və ödənişin növü qanunla müəyyən olunmalıdır. Ona görə də biz müvafiq icra hakimiyyəti orqanına bu səlahiyyəti verə bilmərik, bu, Konstitusiyaya ziddir.

Hörmətli sədr, cari məsələlər olmadığına görə çox vacib bir məsələyə də münasibət bildirmək istəyirəm. Bu gün səhər biz öyrəndik ki, Rusiyada Priqojinin, əsasən,

cinayətkarlardan ibarət silahlı dəstələri qanuni hakimiyyətə qarşı qiyam qaldırıb, eyni ilə bizdə 1993-cü ildə Surət Hüseynovun qaldırdığı qiyam kimi. Rusiya bizim strateji tərəfdaşımız və böyük qonşumuzdur. 1993-cü ildə Rusiyanın sərgilədiyi mövqedən fərqli olaraq biz Rusiyanın Ukraynaya hərbi müdaxiləsini pisləsək də, qiyamı pisləməli, qanuni hökumətə öz dəstəyimizi ifadə etməliyik. Rusiyada sabitlik Azərbaycanın dövlət maraqlarına cavab verir. Çünki orada həm də 2 milyon azərbaycanlı, türk xalqları, on milyonlarca müsəlman yaşayır. Çox istərdik ki, qanuni hökumət qardaş qanı axıtmadan danışıqlar yolu ilə qanunsuz silahlı dəstələri, qiyamçıları tərk-silah etsin. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sadiq müəllim, Qüdrət müəllimin dediyi ilə əlaqədar qanun layihəsi ilə bağlı nə isə deməyə sözünüz var? Mən bu dəqiqə səsə qoyacağam.

**S.Qurbanov.** Dəyərli Sahibə xanım, Qüdrət müəllimin dediyi, bütövlükdə, tək bu qanuna deyil, bütün qanunlara aiddir ki, cərimələr qanunda göstərilsin. Amma çox hallarda bu, aidiyyəti qurum tərəfindən olur. Burada bir şeyi xatırlatmaq istəyirəm, bizim komitə iclasında da nəzərdə tutulan vauçerlərin nağdlaşdırılması prosesində, sadəcə olaraq, şifahi qeyd edildi ki, yerli istehsalı təşviq etmək üçün vauçerlər 100 faiz məbləğində nəzərdə tutulur. Yəni yerli istehsal olunan maşın alacaqlarsa, bunun pulu 100 faiz məbləğində nağdlaşdırılanda 50 faiz güzəşt edilirdi. Sonradan danışıqlar aparıldı, düzdür, qanunun içərisində göstərilməsə belə, razılaşdılar ki, bu, 75 faiz olacaqdır. O, icra hakimiyyəti orqanının işidir.

**Sədrlik edən.** Çox sağ olun. Siyavuş müəllim qanun layihəsi ilə bağlı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Ancaq qanun layihəsi ilə bağlı, üçüncü oxunuşdur, bilirsiniz. Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, çox uzun danışmayacam. Konkret olaraq hörmətli Qüdrət müəllimin dediyi fikirlərlə bağlı qeyd etmək istəyirəm ki, Azərbaycan dövləti bu gün çox düzgün siyasət aparır, düzgün olaraq öz mövqeyini ortaya qoyur. Xanım sədr, Siz Vyanada olanda parlament sədrləri də Sizə dəfələrlə Ukrayna ilə, Rusiya ilə bağlı suallar verirdi. Ukraynaya Azərbaycanın dəstəyi, Ukraynadakı uşaqlara azərbaycanlıların dəstəyi, Azərbaycanın onlara humanitar yardım göstərməsi və sair. Ona görə də bu gün biz heç bir dövlətin daxili işinə qarışa bilmərik. O baxımdan da mən hesab edirəm ki, fərdi qaydada hər birimiz münasibət bildirə bilərik. Amma rəsmi şəkildə parlamentin adından, yaxud da kiminsə adından müraciət oluna bilməz. Sağ olun.

**Sədrlik edən.** Siyavuş müəllim, mən Sizə sual verdim ki, sözünüz qanun layihəsi ilə bağlıdır, dediniz "hə". Ancaq Siz mənə düz cavab vermədiniz. Gələn dəfə mən heç kimə söz verməyəcəyəm. Mən qanun layihələrini bir-bir səsə qoyuram. 3-cü məsələni səsə qoyuram. Münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.12 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

4-cü məsələni səsə qoyuram. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

5-ci məsələ Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Nəhayət, 6-cı məsələ. “Yol hərəkəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.14 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verməmdi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 7-ci məsələsinə keçirik. Bu məsələ "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, bu qanun layihəsi də məzmun və mahiyyətinə görə indi qəbul etdiyimiz qanunlara yaxındır, uyğunlaşdırma xarakteri daşıyır. Odur ki, müvafiq Konstitusiya qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun, məlumat verin.

**Ə.Məsimli**. Çox sağ olun, hörmətli sədr. Sizin qeyd etdiyiniz kimi, 7-ci məsələyə aid olan "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Qanunda dəyişiklik də üçüncü qanunu müşayiət edən qanunlar silsiləsinə aiddir. Mən deyərdim ki, burada korrektə xarakterli bir dəyişiklikdən söhbət gedir. Qanunun adı "İstehsalat və məişət tullantıları haqqında" olub. İndi o qanunda "istehsalat və məişət tullantıları" sözləri, sadəcə, "tullantı" sözü ilə əvəz olunur. Ona görə də qanunvericilikdə belə bir dəyişikliyin olunması məqsədəuyğun hesab olunur. Bu dəyişikliyə səs verməyi deputat həmkarlarımdan xahiş edirəm.

**Sədrlik edən.** Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.15 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 6 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə yaxındır. 8-ci məsələ "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 9-cu məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, 10-cu məsələ Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, 11-ci məsələ "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 12-ci məsələ "Lisenziyalar və icazələr haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 13-cü məsələ isə "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Qeyd edim ki, qanun layihələri ikinci oxunuşda müzakirəyə təqdim edilir.

Hörmətli həmkarlar, məsələlərin müzakirəsi ilə əlaqədar dəvət olunan şəxslər var. Beləliklə, bizim qonaqlarımız Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Rəhman Hümmətov, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Anar Rzayev və nazirliyin Hüquq şöbəsinin müdiri Elmin Məmmədovdur. Bu gün onlar bizim iclasımızda iştirak edirlər. Mən qonaqlarımızı yenə də salamlayıram.

Hörmətli həmkarlar, qeyd edim ki, qanun layihələrinə Milli Məclisin iki komitəsində baxılmışdır. 8-ci, 10-cu, 12-ci və 13-cü məsələlər İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinə aiddir. Tahir müəllim, xahiş edirəm, Siz məsələlər haqqında məlumat verin. Buyurun.

**T.Mirkişili**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, qanunlara təklif edilən dəyişikliklər avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları xidmətlərinin istehlakçılarının qanuni maraqlarının qorunması, bu sahədə haqsız rəqabət və inhisarçılığın qarşısının alınması, daşımaların təhlükəsizliyinin, əməyin mühafizəsinin təmin olunması məqsədi daşıyır. Qanun layihələrində həm ölkədaxili, həm də beynəlxalq yükdaşımalarında nəzarətin təkmilləşdirilməsi nəzərdə tutulur. Hörmətli xanım sədr, biz birinci oxunuş zamanı qanun layihəsi haqqında geniş təqdimat etmişdik. Həmkarlarımdan 16 deputat çıxış etmişdir. Biz konseptual olaraq qanun layihəsinin dəstəyini əldə etmişik. Amma qısa olaraq demək istəyərdim ki, əsasən, bu sahədə qanuna icazə sisteminin gətirilməsi, yəni daşıyıcılara, operatorlara, taksi operatorlarına buraxılış vəsiqəsinin, buraxılış kartının və icazənin verilməsi, bununla bağlı dövlət rüsumunun müəyyən olunması, bu sahədə elektron idarəetmə alətlərinin qanuna gətirilməsi və təkmilləşdirilməsi, istehlakçıların, yəni sərnişinlərlə yanaşı, sürücülərin də hüquqlarının qorunması barədə bir çox maddələr qanun layihəsində öz əksini tapmışdır.

Bütövlükdə, keçən müddət ərzində həm komitədə aparılan müzakirələr, həm də bütövlükdə aparılan təhlil onu göstərir ki, bu sahədə mövcud olan vəziyyətin yaxşılığa doğru dəyişməsi üçün qanunda ediləcək dəyişikliklər bu istiqamətdə potensial imkanlar yaradacaqdır. Mən həmkarlarımdan qanun layihələrini ikinci oxunuşda

da dəstəkləmələrini xahiş edirəm. Əgər ikinci oxunuş zamanı maddələr üzrə hər hansı təkliflər və rəylər olarsa, onlara da rəy bildirəcəyik.

Bir məsələni xüsusi qeyd edim. Birinci oxunuş zamanı deputat həmkarlarım Fazil Mustafa və Etibar Əliyev tərəfindən qaldırılan bir məsələyə mən öz münasibətimi bildirmək istəyərdim. Mən düşünürəm ki, bu məsələ ilə bağlı daha doğru məlumatın verilməsi vacibdir. Bu, taksometrlərlə bağlıdır. Qanun layihəsində əgər hər hansı bir taksi maşınında rəqəmsal alətlərdən, yəni proqram təminatından istifadə edilirsə, yenidən taksometr alıb maşına quraşdırılmasına ehtiyac yoxdur və belə bir tələb də yoxdur. Bu gün qeyd etdiyim kimi, keçən dəfə də taksi avtomobillərinin 90 faizindən çoxu daha çox rəqəmsal alətlərdən istifadə etdiklərinə görə taksometrlərlə bağlı yalnız o zaman ehtiyac olacaq ki, əgər hər hansı bir avtomobil hər hansı bir rəqəmsal proqramdan istifadə etmirsə, yalnız lokal formada taksi, sərnişin daşıyıcı fəaliyyətlə məşğul olursa, o zaman onun taksometr alması və bu zaman da tarifini özü müəyyən edərək həmin taksometrə daxil etməsi tələbi qanunda öz əksini tapmışdır. Həmkarlarımdan bir daha dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. 9-cu və 11-ci məsələlərə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Əli müəllim, Siz məlumat verəcəksiniz. Buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, 9-cu məsələ – İnzibati Xətalar Məcəlləsi hörmətli Tahir müəllimin məruzə etdiyi "Avtomobil nəqliyyatı haqqında" Qanunun pozulmasına görə məsuliyyəti və sanksiyaları nəzərdə tutur. "Yol hərəkəti haqqında" Qanun isə sırf "Avtomobil nəqliyyatı haqqında" Qanuna uyğunlaşdırma xarakteri daşıyır. İkinci oxunuşda komitəmizin

rəyi müsbət olmuşdur. Çox sağ olun.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Tahir müəllim, bu iki məsələyə sizin komitədə baxılıb. Xahiş edirəm, qısa olaraq komitənin rəyini bildirin.

**T.Mirkişili**. Xanım sədr, hörmətli Əli müəllimin dediyi hər iki qanun layihəsi ilə bağlı bizim komitənin də rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, ikinci oxunuşdur, ona görə də biz hər bir qanun layihəsini əsas kimi qəbul etməliyik. İndi isə xahiş edirəm, 8-ci məsələyə, yəni "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.21 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi əsas kimi qəbul edildi.

9-cu məsələyə əsas kimi münasibət bildirin. Bu, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir.

| **Səsvermənin nəticələri** | (saat 11.21 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə xahiş edirəm, 10-cu məsələyə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.21 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

11-ci məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.22 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də əsas kimi qəbul edildi.

İndi isə 12-ci məsələyə – "Lisenziyalar və icazələr haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin əsas kimi qəbul olunmasına münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.22 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

13-cü məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də əsas kimi qəbul edildi.

İndi biz müzakirələrə keçirik, yazılanlar var. Fazil Mustafa, buyurun.

**F.Mustafa.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, bu mövzu ilə bağlı ötən iclasda birinci oxunuşda fikirlərimi səsləndirdiyimə görə burada ayrı-ayrı maddələr üzrə, detallar üzrə danışmaq istəyirəm. Təbii ki, bu qanunun işlək bir mahiyyət daşıyacağını düşünmürəm və ona görə də praktikada böyük çətinliklərlə qarşılaşacağı və bizim indiki nəqliyyat sisteminə də o qədər uğurlu bir yenilik gətirməyəcəyi fikrindəyəm. Burada, sadəcə, bir vacib məsələni qeyd eləmək istəyirəm. Taksometrlərlə bağlı məsələ ötən dəfə də müzakirə edildi ki, bu haradan gələcək, necə olacaq, hansı qiymətə olacaq? Çünki biz elektrik, qaz, su sayğacları ilə bağlı məsələləri dəfələrlə araşdırdıqda görürük ki, minlərcə, milyonlarca sayğac qısa müddətdən sonra istifadəsiz qalıb

xarab oldu, dövlət büdcəsindən ayrılan vəsaitlər boşa getdi və bu sahədə olduqca böyük problemlər yaşandı.

İndi taksometr məhdud sahəyə aid olduğuna görə bunun zərəri, düşünürəm ki, o qədər böyük olmayacaqdır. Amma burada müasir dövrdə POS-terminallar var. Taksometr nəzərdə tutulur, amma taksidən istifadə edən vətəndaş kartdan ödəniş etmək məsələsini də tələb eləyə bilər. Ona görə də qanunda bunun hansısa formada təmin olunmasını düşünmək lazımdır. Kartdan istifadə edən vətəndaşlar da müasir dövrdə bunu tələbetmə haqqına sahibdirlər, çətinlik çəkməsinlər.

İnzibati Xətalar Məcəlləsində 326.22.4-cü maddədə bir müddəa var. Burada taksi minik avtomobillərinin sərnişin daşımalarına buraxılış vərəqəsi və nəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanması, sürücülərin reysqabağı tibbi müayinəsinin təşkili imkanı barədə sənədlər və ya müvafiq xidmətdən istifadə olunmasına dair texniki məntəqə və ya tibb məntəqəsi ilə müqavilələri olmayan daşıyıcıya buraxılış kartı və başqa təsdiq edən sənədlərin göstərilməsinə görə inzibati məsuliyyət nəzərdə tutulur. Hər reysqabağı tibbi yoxlama nə dərəcədə realdır? Demək, hər reysqabağı 10 manat, 20 manat ödəniş eləməlisən ki, o sənədi alasan. Bu, rüşvət mənbəyidir. Yəni bunun bir formasını dəqiq tapmaq lazımdır. Adam bir dəfə yoxlanırsa, onun səhhətinin yoxlanmasını bir aydan bir, iki aydan bir təmin eləmək lazımdır. İndi hər dəfə bu tələb qoyulanda, demək, mütləq hansısa bir tibb müəssisəsi ilə müqavilə bağlayıb bu vəsaiti ödəməlisən. "Reysqabağı tibbi müayinə" anlaşılmaz bir ifadədir. Bunu dəqiqləşdirmək lazımdır. Müddətli tibbi müayinə məsələsi qoyulmalıdır. 3 aylıq, 6 aylıq, 1 illik müayinədən keçmə məsələsi. Çünki əks halda, bu, rüşvətə yol açar. Sərnişin-

daşımalarla məşğul subyektlər istər-istəməz bu sənədi almaq məqsədi ilə hansısa formada öz problemlərini həll eləməyə çalışacaqlar. Bu da yenə müəyyən aldatmadan başqa bir şey olmayacaq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sevil Mikayılova. Buyurun.

**S.Mikayılova**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, media nümayəndələri. Sərnişindaşıma ilə yükdaşıma sektorunda xidmət keyfiyyətinin artırılması və bu sahədə daha təkmil tənzimlənmənin həyata keçirilməsi vacibdir. Bu gün müzakirə edəcəyimiz qanun layihələri də hökumət tərəfindən bu sahədə keyfiyyət dəyişiklikləri aparmaq üçün əhəmiyyətli hüquqi baza formalaşdırır. Qanuna təklif edilən dəyişikliklər bu sahədə mövcud problemlərin aradan qaldırılmasına imkan yaradacaq. Qeyd edək ki, ölkədə sərnişindaşıma sektorunda mövcud çatışmazlıqların aradan qaldırılması, xüsusilə də ictimai nəqliyyatın fəaliyyətinin daha keyfiyyətli qurulması aktual olaraq qalır.

Aidiyyəti qurumların nümayəndələrinin burada olmasını nəzərə alaraq, mən, icazənizlə, bir neçə problemi nəzərə çatdırmaq istəyirəm. Millət vəkili seçildiyim Xaçmaz rayonunda ictimai nəqliyyatla bağlı bir sıra problemlər mövcuddur. Belə ki, rayonun Xudat şəhərində ictimai nəqliyyatın olmaması və bunun sakinlərin gündəlik həyatında çətinlik yaratması barədə dəfələrlə mənə müraciət ediblər. Qeyd edim ki, Xaçmaz rayonunun Xudat şəhəri 26,3 kvadrat kilometr sahəni əhatə edir və bu ərazidə 20 mindən çox əhali yaşayır. Şəhərdə 5 təhsil ocağı, 9 uşaq bağçası, xəstəxana, rabitə qovşağı, folklor evi, iki ticarət mərkəzi yerləşir. Əhalinin sayı və ərazinin böyüklüyü nəzərə alınaraq müntəzəm ictimai nəqliyyatın olması və keyfiyyətli xidmət göstərilməsi çox vacibdir. Seçicilərin qal-

dırdığı problem barədə müvafiq olaraq Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məktublar ünvanlamışıq. 2022-ci ilin avqustunda aldığımız cavab məktubunda şəhərdaxili marşrut sisteminin yaradılmasına ehtiyac olduğu təsdiqlənmişdir. Xudat şəhərində müntəzəm şəhərdaxili marşrutun açılması bu vaxta qədər mövcud olmayıb. Müasir tələblərə cavab verən avtonəqliyyat vasitələrinə sahib olan fiziki və hüquqi şəxslərin həmin marşruta cəlb olunması nəzərdə tutulmuşdur. Lakin ötən müddət ərzində problem həll olunmayıb və bu məsələni növbəti dəfə nazirliyin diqqətinə çatdırmışıq. Nazirlikdən göndərilən cavab məktubunda sözügedən marşrut xəttinin yaradılmasına ehtiyac olduğu yenə də təsdiqlənmiş və problemin həllinin nəzərdə tutulduğu bildirilib. Bu məktub 2023-cü ilin iyun ayında ünvanlanıb.

Nazirlik rəsmilərinin burada iştirakını nəzərə alaraq sakinlərin çoxsaylı müraciətini bir daha onların diqqətinə çatdırmaq istəyirəm. Xudat şəhərində müntəzəm ictimai nəqliyyatın təşkil olunması üçün lazımi işlərin həyata keçirilməsini xahiş edirik. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Sevil xanım. Tahir müəllim, Siz çıxış eləyəcəksiniz, yoxsa Rəhman müəllim, Siz çıxış eləyəcəksiniz? Burada bir neçə fikir səsləndi. Rəhman müəllim, keçən dəfə demişdiniz, Siz çıxış eləyəcəksiniz.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mikrofon verin.

**R.Hümmətov,** *Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri! Əgər icazə olarsa, qaldırılan məsələlərə ardıcıllıqla bir daha münasibət bildirmək istəyərdim. İlk olaraq Fazil müəllim tərəfindən qaldırılan taksometrlərlə bağlı məsələ

bir daha səsləndirildi. Əgər diqqət yetirsək, taksometr anlayışı hazırda qanunun özündə verilir. Həm cihazın olması haqqında, həm də proqram təminatının olması ilə bağlı qeydlər var. Bizdə hazırda əksər taksilərdə telefonlarla, cihazlarla bundan istifadə olunur və xidmətlər göstərilir. Əlavə hər hansı cihazın qurulmasına ehtiyac görmürük. Ancaq eyni zamanda, hər hansı bir vətəndaş smartfondan istifadə etmək istəmədikdə, yaxud buna imkan olmadığı təqdirdə, cihazların da quraşdırılması mümkündür. Yəni burada hər iki variantda mövcud şəraitin ciddi dəyişməsinə heç bir səbəb yoxdur, elə bir tələb də qoyulmur.

Reysqabağı müayinə ilə bağlı məsələ. Hesab edirik ki, bu, düzgün qaldırılmış bir məsələdir. Bu, uzun illərdir, mövcud bir problemdir. Yəni bu gün də bu sahədə problem olduğuna görə biz qanuna müəyyən dəyişikliklər təklif etmişik. Reysqabağı müayinə həm avtomobilin texniki müayinəsini əhatə edir, yəni ilkin vizual baxış, onun reysə buraxılması ilə bağlıdır. Eyni zamanda da, sürücünün reysqabağı müayinəsi dedikdə onun, sadəcə, müayinə olunması, yəni hərarətinin olub-olmaması və alkoqol qəbul edib-etmədiyinin yoxlanılması tələb olunur. Bizim planlarımızda və istəklərimizdə nəzərdə tutduğumuz budur ki, hazırda başqa ölkələrin də təcrübəsini nəzərə alaraq artıq buna müasir avadanlıqlarla nəzarət təşkil edilir. Yəni taksoparklarda, qarajlarda qaraj sisteminin olması vacibdir. Təbii ki, bunun üçün xüsusi avadanlıqlar vasitəsi ilə onların bu tibbi müayinədən keçməsi təmin edilir.

Burada vətəndaş və məmur arasında hər hansı təmasın olmaması üçün bu qanundan da, mətndən də göründüyü kimi, bu, sahibkarın birbaşa üzərinə qoyulur. Biz, sadəcə, sahibkar tərəfindən o şəraitin qarajda yaradılıb-yaradılmamasına nəzarət etmiş olasıyıq. Əmin olmalıyıq ki, bəli, bu

qaraj sistemində tibbi müayinənin keçirilməsi üçün müvafiq şərait yaradılmışdır.

Digər bir məsələ hörmətli Sevil xanım tərəfindən qaldırıldı. Bu yaxınlarda bizə rəsmi məktub da daxil olmuşdur, mən onu cavablandırdım. Bizim tərəfimizdən bütün müntəzəm reys olmayan və ehtiyac olunan yerlərdə artıq müsabiqələrin elan olunması mərhələli şəkildə aparılır. Xüsusilə şimal bölgəsində bu problemlər var. Eləcə də bəzi xətlər var ki, orada köhnəlmiş avtobus parkları var, onların da yenilənməsi üçün mərhələli şəkildə müsabiqələr keçirilir. Ancaq təəssüf, bu sahədə olan problemlər, xüsusilə qeyri-qanuni sərnişindaşımanın geniş vüsət alması bir çox hallarda müntəzəm, qanuni fəaliyyət göstərən sahibkarlar üçün maneçilik törədir və hesab edirik ki, hazırda bu qanuna da baxılması və nəhayət, qəbul olunması, o sahədə olan problemlərin aradan qaldırılması bu cür problemlərin də yaxın zamanlarda aradan qaldırılmasına köməklik göstərmiş olar. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Müşfiq Məmmədli, sualınız var, təklifiniz var? Buyurun.

**M.Məmmədli**. Mənim sualım hörmətli Rəhman müəllimədir. Kifayət qədər anlaşıqlı izah oldu. Amma tibbi müayinənin təşkili barədə mən belə anladım ki, reysqabağı tibbi müayinənin təşkili qarajlarda və həmin xidməti göstərən müvafiq müəssisələrdə təşkil olunacaqdır. Amma 14.3.4-cü maddədə göstərilir ki, texniki məntəqə və tibb məntəqəsi ilə müqavilələr imzalanacaqdır. Bu baxımdan iş yeri həkimliyinin də inkişafının önəmli olması ilə bağlı daha dolğun izahat olsa, məncə, daha məqsədəmüvafiq olardı ki, konkret olaraq həmin təşkilati işi həyata keçirən şirkətlərə iş yeri həkimliyi formasında tibb məntəqələrinin yaradılması daha aydın şəkildə göstərilsin, nəinki digər

məsələlərlə müqavilələr. Çünki digər məsələlərlə müqavilələr bağlanarkən burada tibbi müayinənin hansı səviyyədə aparılması bir qədər sual altında olacaqdır.

**Sədrlik edən.** Müşfiq müəllim, Siz mikrofonu söndürün, xahiş edirəm. Rəhman müəllim, sözünüz varsa, buyurun.

**R.Hümmətov.** Bu məsələ də düzgün qaldırılan bir məsələdir. Ümumilikdə, necə nəzərdə tutulub? Əslində, bu cür xidmətləri göstərən şirkətlər, elə düşünülür ki, qaraj və taksilərə, yaxud da avtobus və ya yük maşınlarına kifayət qədər xidmət göstərmək üçün müvafiq ərazilərdə yerləşdirilməlidir. Ancaq biz də bilirik ki, bəzi hallarda fərdi sahibkarlar da bununla məşğul ola bilər. Bu qanunla da nəzərdə tutulur ki, o şəxslər, sadəcə, qeydiyyata icazə almaları üçün müvafiq texniki xidmət məntəqəsi ilə, yaxud tibbi müayinə mərkəzləri ilə bu xidmətin göstərilməsinə dair müqaviləni təqdim etməlidirlər. Bunun üçün də, təbii, bizim tərəfimizdən də, sahibkarlar tərəfindən də, yəqin, müəyyən xidmət sahəsi açılar ki, onun da göstərilməsi üzrə işlərin aparılması vacibdir. Nəzərə alsaq ki, bu və digər məsələlərin təşkili üçün müəyyən vaxt tələb ediləcəkdir, bu səbəbdən də qanunun qüvvəyə minməsi 1 oktyabr tarixindən nəzərdə tutulur.

**Sədrlik edən.** Çox sağ olun. Mən düşünürəm ki, elə həmin o tibb məntəqəsi və ya hansısa bir idarə deyək, onlar da öz məsuliyyətini hiss eləyirlər, eləyəcəklər və həmçinin bunun üstündə nəzarət olmalıdır. Çox sağ olun.

Hörmətli həmkarlar, biz qanun layihələrinə maddələr üzrə və sonra bütövlükdə münasibət bildirməliyik. 8-ci məsələ, "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi iki maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə qəbul edildi.

Mən indi 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi. İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələnin səsverməsinə keçirik. 9-cu məsələ

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. İki maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.38 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.38 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Hörmətli həmkarlar, mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.38 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ 10-cu məsələdir, Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu qanun layihəsində də iki maddə var. 1-ci maddəyə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 4 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun ikinci oxunuşda qəbul edildi.

11-ci məsələnin səsverməsinə keçirik. “Yol hərəkəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir, iki maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

12-ci məsələyə keçirik. “Lisenziyalar və icazələr haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. İki maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

13-cü məsələyə keçirik. "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində iki maddə var. 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsinə bütövlükdə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim 7 məsələmiz qalır. Bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir. Ona görə də xahiş edirəm, çıxışlarınızda birinci oxunuşun tələblərinə riayət edəsiniz.

Gündəliyin 14-cü məsələsinə keçirik. Bu məsələ "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998–2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü Nizami Səfərova söz verirəm. Nizami müəllim, buyurun.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Azərbaycan Respublikası ərazilərinin minalardan təmizlənməsi üzrə milli agentlik 1998-ci il iyulun 18-də Ulu Öndər Heydər Əliyevin 854 saylı Sərəncamı ilə yaradılıb və möhtərəm cənab Prezidentin 2021-ci il tarixli 1251 saylı Fərmanı ilə milli agentlik əsasında publik hüquqi şəxs statuslu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) formalaşdırılıb. ANAMA-nın mürəkkəb və həyati əhəmiyyətli fəaliyyətini dəyərləndirmək üçün bəzi rəqəmlərə müraciət etmək kifayətdir.

1998-ci ildən bu günə qədər ANAMA tərəfindən 95 min 883 hektar ərazi təmizlənib, 860 min 119 ədəd mina və partlayıcı, hərbi sursat aşkarlanıb. Təkcə 44 günlük Vətən müharibəsindən sonra ANAMA əməkdaşları 41 min 574 hektar ərazini təmizləyib və 50 mindən çox mina və partlamamış hərbi sursat aşkarlayıb. Hətta üçtərəfli bəyannamə imzalandığı tarixdən bu günə qədər 143 mülki şəxs və 161 nəfər hərbi qulluqçu, ümumiyyətlə, 304 nəfər mina partlayışları nəticəsində həlak olmuş və ya müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Müasir şəraitdə minalar və müharibələrin partlayıcı qalıqları mülki əhalinin, hərbiçilərin, bərpa-quruculuq işləri ilə məşğul olan əməkdaşların həyat və sağlamlığına, məcburi köçkünlərin yaşadıqları yerə təhlükəli qayıdışına, inkişafa, tərəqqiyə ən ciddi təhdiddir. Bu təhdidin qarşısının alınmasında ANAMA-ya müstəsna rol məxsusdur.

Hörmətli deputatlar, qanun layihəsinin birinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyənlər var. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, əziz həmkarlar. Minatəmizləmə Agentliyinin 25 illik yubiley medalının təsis edilməsi əhəmiyyətlidir, çünki Azərbaycan bu gün dünyada ən çox mina çirklənməsinə məruz qalan dövlətlərdən biridir. Üstəlik, digər çirklənmiş zonalardan fərqli olaraq Azərbaycanın 30 illik işğal altında olan ərazilərində minalanma dövlət səviyyəsində Ermənistanın dövlət cinayəti kimi həyata keçirilib. Bu gün də Ermənistan mina xəritələrini gizlətməklə, yaxud qeyri-dəqiq xəritələr təqdim etməklə humanitar hüququ pozmaqda, müharibə cinayətləri törətməkdədir.

Digər tərəfdən, biz işğaldan azad olunmuş ərazilərdə yeni istehsal olunmuş minalar aşkarlayırıq. Bu o deməkdir ki, Ermənistanın xisləti dəyişməyib və müharibə cinayətlərində israrlıdır.

Eyni zamanda, biz qayıdış konsepsiyasını təsdiq etmişik. Təhlükəsiz, ləyaqətli qayıdış şərtdir və təbii ki, bütün bunların fonunda Minatəmizləmə Agentliyinin üzərinə ciddi öhdəlik düşür. Bu mənada layihəni dəstəkləyir, hər kəsi də dəstək olmağa çağırıram.

Fürsətdən istifadə edərək, icazənizlə, qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibəti ilə xalqımızı, hərbçiləri, şəhid ailələri və müharibə iştirakçılarını, əlalxüsus müharibə əlillərini təbrik edir, şəhidlərimizi və ordumuzun qurucusu və ilk layiqli Ali Baş Komandanı – Ulu Öndərimizi ehtiramla anırıq.

Azərbaycan xalqının döyüş ruhu həmişə olub. Sadəcə, Heydər Əliyevə qədər bu ruhu, Sovet ordusunun peşəkar zabitlərindən ibarət ciddi kadr ehtiyatını milli orduya çevirəcək, ona komandanlıq edəcək səviyyədə rəhbər olmayıb. Heydər Əliyevin hakimiyyətə qayıdışı ordu quruculuğunun başlanğıcı oldu və 1 il keçməmiş Azərbaycan

Ordusu situasiyanı dəyişib uğurlu Horadiz əməliyyatı keçirdi.

Silahlı Qüvvələrimizin sonrakı inkişafı, Şuşaya bayraq sancan müzəffər orduya çevrilməsi isə birmənalı şəkildə cənab İlham Əliyevin adı ilə bağlıdır. Məhz onun bütün sahələrdə uğurlu siyasəti bizə imkan verir ki, ordumuzun daha da gücləndirilməsini bir nömrəli vəzifə olaraq müəyyən edək.

Dünən möhtərəm Prezidentin komando hərbi hissəsinə döyüş bayrağı təqdim edərkən də dediyi kimi, məhz bu hərbi gücümüzə, potensialımıza görə istənilən hərbi-siyasi təxribata layiqli cavab verə bilirik. Bu mənada kimsə düşünməsin ki, hər şey döyüş ruhu ilə həll olunur. Xalqımızda döyüş ruhu, dediyim kimi, 1990-cı illərdə də var idi, amma o zaman məğlub olduq. Ona görə də unutmamalıyıq ki, mövcud reallığın təməlində qətiyyətli siyasi iradə və aydın vizyon dayanır.

Biz, təəssüf ki, bəzən bunun fərqinə varmayıb qaragüruhu xalqla qarışıq salırıq, o qaragüruhun ruhunu oxşamağa çalışırıq. Bizim konsepsiyamız aydın olmalıdır: İlham Əliyev və onun müdrik xalqının yanında olmaq, yoxsa sosial media qaragüruhunun qəhrəmanına çevrilmək. Yarımçıq Heydər Əliyevçilik olmur.

Dünən burada Gədəbəy hadisələrindən danışdıq. Anti-Azərbaycan blok tərəfindən təşkil edilmiş və zorakılıqla müşahidə olunan qanunsuz aksiya qarşısında polis nə etməli idi? “Polis haqqında” Qanunun 26-cı maddəsinə əsasən polis əməkdaşı konkret hallarda xüsusi vasitələr tətbiq edə bilər. Xüsusi vasitənin tətbiq edildiyi hər bir halda xidməti yoxlama aparılır və rəy verilir. Orada gözyaşardıcı qazın tətbiqi üzrə də, təbii ki, iş obyektiv, tam və hərtərəfli araşdırılacaq və yalnız bundan sonra pozuntuya

yol verilib-verilmədiyini demək olar. Kim ixtiyar verib ki, belə rəy olmadan, saxta, mənşəyi bilinməyən yarımçıq görüntülər əsasında hansısa pozuntu barədə danışaq? Biz qanunçuluğu bir tərəfə qoyub insanların qulağına xoş gələn ifadələrdən çəkinməliyik. Bu gün leş qarğası kimi fürsət gözləyənlər var, imkan vermək olmaz.

Hörmətli Qüdrət müəllimin bir müsahibəsini oxudum. Çox ciddi müqayisəli statistika aparıb. Yalnız ötən il Amerika Birləşmiş Ştatlarında 1200 adam polis zorakılığına məruz qalıb. Bu rəqəmlər barədə düşünək, müqayisə edək. Azərbaycan polisi ilə davrandığı kimi Avropa, Amerika polisi ilə davranmaq olarmı? Gədəbəydən yayımlar edən o muzdlu medianı əgər ekoloji fəlakətlər maraqlandırırdısa, Şuşa yolunda 138 günlük aksiyalarda harada idilər? Baxın, görün, həmin dövrdə nələr yazırdılar.

Polis bu dövlətin sütunudur, hansısa fərziyyələrlə polisi hədəfə almaq olmaz. Bu gün xarabazara qalan dövlətlərin hamısında ilk növbədə polisin müqaviməti qırılıb, ilk növbədə polis sıradan çıxarılıb. Amma biz buna imkan verməyəcəyik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov.

**H.Məmmədov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illik yubileyi ilə əlaqədar orden və medalların təsis edilməsi, düşünürəm ki, çox vacib bir məsələdir. Çünki Azərbaycan ərazisində 1 milyondan çox mina basdırılıbdır. Onların təmizlənməsi məhz bu peşə sahiblərinin vəzifəsidir.

Azərbaycanda müxtəlif peşə sahibləri var. Amma mən düşünürəm ki, hər gün evindən çıxıb öz peşə fəaliyyətini yerinə yetirmək üçün işə gedəndə ölüm riski ilə üzləşən və birbaşa bu təhdid altında olan yeganə peşə sahibləri məhz

minatəmizləyənlərdir. Bu vaxta qədər onların çox böyük əməyi olubdur. Qaçqınlarımızın, məcburi köçkünlərimizin öz torpaqlarına qayıtması üçün, Böyük Qayıdışın baş tutması üçün onlar çox böyük fədakarlıqlar nümayiş etdiriblər. Ona görə də mən düşünürəm ki, bu qanun layihəsinə səs verməliyik və səs də verəcəyik.

Başqa bir məsələ ondan ibarətdir ki, bu gün Azərbaycan təkcə döyüş meydanında, döyüş sahəsində minalarla üzləşmir. Azərbaycan bu gün internet resurslarında informasiya minaları ilə üz-üzədir. Çoxsaylı minalar bizim informasiya məkanımıza da döşənibdir. Eyni zamanda, ideoloji sahədə də çoxsaylı minalar döşənibdir. Mən düşünürəm ki, bu gün, əslində, hər bir Azərbaycan ziyalısı, hər bir sosial şəbəkə fəalı məhz minatəmizləmə funksiyasını yerinə yetirməlidir. Məsələn, biz bir neçə gün bundan əvvəl Gədəbəydə Azərbaycan xalqının birliyinə, bərabərliyinə qarşı döşənmiş bir minanın şahidi olduq. Çox sevindirici haldır ki, hörmətli cənab Baş nazirin rəhbərliyi altında komissiya yaradıldı. Ekologiya və təbii sərvətlər naziri hörmətli Muxtar müəllim, doğrudan da, çox maarifləndirici, izahedici işlər apardı. Yəni bu mənada bəzən ideoloji minaları, informasiya minalarını təmizləmək üçün bu cür fəaliyyətə ehtiyacımız var. Ona görə də bu gün dünyadan çox həyəcanlı xəbərlər gəlir.

Bu gün bir daha aydın oldu ki, cəmi bir neçə gün bundan əvvəl Operativ Qərargah nəyə görə quru sərhədlərin açılmaması ilə bağlı qərar qəbul etdi. Ona görə mən düşünürəm ki, bütün Azərbaycan xalqının milli enerjisi məhz bu minaların səfərbər olunmasına sərf edilməlidir. Mən qanun layihəsinə səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Təklif var ki, səsə qoyaq.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Məsələni səsə qoyuram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 3 məsələsi də yeni medalların təsis edilməsi ilə bağlıdır və möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Onlar da mahiyyətcə bir-birinə yaxındır. Gündəliyin 15-ci məsələsi "Azərbaycan Respublikası Prezidentinin təhlükəsizliyini təmin edən orqanın 30 illiyi" yubiley medalının, 16-cı məsələsi "Azərbaycan Respublikasının strateji obyektlərin mühafizəsi orqanlarının 30 illiyi" medalının, 17-ci məsələsi isə "Azərbaycan Respublikasının xüsusi rabitə və informasiya təhlükəsizliyi orqanlarının 30 illiyi" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Hər üç qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Nizami müəllim, mən xahiş edirəm, yenə də Siz məlumat verin. Buyurun.

**N.Səfərov.** Hörmətli xanım sədr, hörmətli Milli Məclisin deputatları. "Xüsusi dövlət mühafizəsi sahəsində ida-

rəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli Fərmanına əsasən Xüsusi Dövlət Mühafizə Xidməti ləğv edilərək onun əsasında üç dövlət orqanı yaradılmışdır: Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi.

Müzakirəyə təqdim edilən layihəyə əsasən adıçəkilən qurumların hər birinin ayrılıqda əməkdaşlarının müvafiq medalla təltif edilməsi nəzərdə tutulur. Xatırlatmaq istərdim ki, əvvəlki dövrdə, yəni 2013-cü il 30 aprel və 2017-ci il 15 dekabr tarixli Azərbaycan Respublikasının müvafiq qanunlarına uyğun olaraq, Xüsusi Dövlət Mühafizə Xidmətinin 20 illik və 25 illik yubiley medalı təsis edilmişdir. Hazırda isə yuxarıda qeyd etdiyim yeni yubiley medallarının təsis edilməsi həyata keçirilən struktur dəyişikliklərini nəzərə alır.

Qanun layihələri formalaşmış qanun yaradıcılığı praktikasına uyğun olaraq, təsdiq ediləcək əsasnamələrdə təltif edilən şəxslərin dairəsini, təltif edən orqanı, medalların taxılma qaydasını və yubiley medallarının təsvirini müəyyən edir. Hörmətli deputatlar, qanun layihələrinin birinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Nizami müəllim. Təklif var, səsə qoyaq.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, mən 15-ci məsələni səsə qoyuram. Azərbaycan Respublikası Prezidentinin təhlükəsizliyini təmin edən orqanın 30 illik yubiley medalının təsis edilməsi ilə bağlıdır. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| --- | --- |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə 16-cı məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| --- | --- |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 8 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə 17-ci məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| --- | --- |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 18-ci məsələsinə keçirik. Bu məsələ də Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında qanun layihəsidir.

Qeyd edim ki, məsələnin müzakirəsi ilə əlaqədar Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti sədrinin birinci müavini Rəşad Orucov və Mərkəzi Bankın Baş direktoru Fərid Osmanov iclasımızda iştirak edirlər.

Hörmətli həmkarlar, qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Tahir müəllim, yenə də söz Sizindir. Buyurun, məlumat verin.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında Azərbaycan Respublikasının qanun layihəsi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"nin və "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nda nəzərdə tutulmuş ödəniş xidmətləri üzrə hüquqi bazanın təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır.

Qeyd edim ki, 2023-cü il 1 yanvar tarixinə ölkədə emissiya edilmiş ödəniş kartlarının ümumi sayı 13,6 milyon ədəd olmuşdur. Bu, son 5 il ərzində 2 dəfə artım deməkdir. 2022-ci ildə ödəniş kartları ilə aparılan nağdsız əməliyyatların həcmi 24,4 milyard manat, əməliyyatların sayı isə 460 milyon ədəd olmuşdur. Bu, müvafiq olaraq son 5 il ərzində 8 dəfə və 12 dəfə artım deməkdir. Həcmin kifayət qədər sürətlə artması, əhalinin böyük bir hissəsinin ödəniş xidmətlərindən istifadə etməsi və bu sahənin tənzimləmədən kənarda qalması yeni bir qanun layihəsinin ərsəyə gəlməsi zərurəti yaratmışdır.

Qanun layihəsi 9 fəsil və 68 maddədən ibarətdir. Dərc edildiyi gündən 3 ay sonra qüvvəyə minəcək. Qanun qüvvəyə minənədək  fəaliyyət göstərən bütün bu sahədə subyektlər qanun qüvvəyə minəndən 6 ay ərzində öz fəaliyyətlərini qanunun tələblərinə uyğunlaşdırmalıdırlar.

Layihə ödəniş xidmətlərinin növlərini, bu xidmətlərin göstərilməsi zamanı ödəniş xidməti təchizatçılarının hüquq və vəzifələrini, ödəniş təşkilatları, elektron pul təşkilatları və ödəniş sistemi operatorlarının yaradılması və fəaliyyətlərinin iqtisadi, hüquqi və təşkilati əsaslarını, bu təşkilatlar üzərində həyata keçirilən dövlət tənzimlənməsini və nəzarətinin əsas aspektlərini, habelə ödəniş sistemlərinin təhlükəsiz və səmərəli fəaliyyətinin təmin edilməsi üzrə tələbləri müəyyən edir.

Layihənin hazırlanması zamanı Avropa Parlamenti və Avropa Şurası tərəfindən qəbul olunmuş "Daxili bazarda ödəniş xidmətləri" və "Elektron pul təşkilatlarının fəaliyyətinin təşkil edilməsi və prudensial nəzarət haqqında" adlı direktivlər, habelə qabaqcıl ölkələrin ödəniş sistemləri sahəsində təcrübələri əsas götürülmüşdür. Layihənin hazırlanmasına  texniki ekspertiza çərçivəsində Dünya Bankının, habelə Beynəlxalq Maliyyə Korporasiyasının ekspertləri cəlb olunmuşdur. Beynəlxalq təcrübənin təhlili məqsədi ilə qabaqcıl Avropa ölkələri ilə yanaşı, Gürcüstan, Türkiyə kimi yaxın qonşu ölkələrin təcrübələri də izlənilmişdir.

Layihənin bizim komitə iclasında müzakirəsində Mərkəzi Bankın və Azərbaycan Fintex Assosiasiyasının nümayəndələri iştirak etmiş və öz rəylərini bildirmişlər. Layihənin, eyni zamanda da, ictimai müzakirəsi tərəfimizdən bu formada təşkil olunmuşdur.

Hörmətli həmkarlar, qüvvədə olan qanunvericilikdə

banklar, xarici bankların yerli filialları və poçt rabitəsinin milli operatoru istisna olmaqla, digər təşkilatlar tərəfindən ödəniş xidmətlərinin göstərilməsinin hüquqi əsası müəyyən edilməmişdir. Lakin artıq uzun müddətdir ki, ödəniş xidmətləri bazarında bir sıra təşkilatlar əhalidən üçüncü tərəfin xeyrinə, xüsusilə də kütləvi xidmətlər üzrə ödənişlərin ödəniş terminalları infrastrukturu və internet şəbəkəsi üzərindən toplanılmasını həyata keçirirlər. Sayı 30-dan çox olan, geniş əhali kütləsi ilə işləyən bu təşkilatların fəaliyyətlərinin tənzimlənməməsi və nəzarət siyasətinin həyata keçirilməməsi bu sahədə potensial risklərin baş verməsi ehtimalını artırmışdır. Beynəlxalq təcrübədə elektron pul və ödəniş təşkilatı kimi klassifikasiya olunan bu tip təşkilatlar tərəfindən ödəniş xidmətlərinin göstərilməsi fəaliyyəti lisenziyalaşdırılır, üzərilərində tənzimləmə və nəzarət həyata keçirilir. Bundan irəli gələrək layihəyə elektron pul və ödəniş təşkilatlarının fəaliyyətinin lisenziyalaşdırılması, onların nizamnamə və məcmu kapitala sahib olmaları ilə bağlı analoji müddəalar daxil edilmişdir. Eyni zamanda, qeyd etmək istərdim ki, bank sahəsindən fərqli olaraq bu sahədə fəaliyyətə sərt nəzarətin aparılması gözlənilmir.

Eyni zamanda, layihədə beynəlxalq təcrübədə geniş istifadə olunan və ödəniş aləti kimi çıxış edən elektron pulun emissiyası və istifadəçinin hüquqi əsasları və tənzimləmə mexanizmləri müəyyən edilmişdir.

Ödəniş xidməti istifadəçilərinin hüquqi müdafiəsini gücləndirmək və ödəniş xidmətlərindən daha səmərəli və təhlükəsiz formada istifadəni təmin etmək məqsədi ilə layihədə ödəniş xidmətləri üzrə məlumatlandırma qaydaları, ödəniş sərəncamının icrası və icrasından imtina, avtorizə edilməmiş və ya səhv icra edilmiş ödəniş əməliy-

yatları üzrə məbləğlərin vətəndaşlara geri gaytarılması prosedurları, habelə ödəniş xidməti təchizatçısının və ödəniş xidməti istifadəçisinin hüquq və vəzifələri, məsuliyyət də-rəcələri müəyyən edilmişdir. Vətəndaşlardan yığılan vəsaitin və vətəndaşların elektron pul kisələrində olan vəsaitin itmə-məsi və onların təhlükəsizliyinin qorunması məqsədi ilə la-yihədə öz əksini tapan mexanizmlər mövcuddur.

Hörmətli həmkarlar, beləliklə, layihənin qəbul edilməsi ilə əldə olunan nəticələr ödəniş xidmətlərinə çıxış imkan-larının genişləndirilməsinə və nağdsız ödənişlərin inki-şafına gətirib çıxaracaq. Layihə innovativ onlayn və mobil ödənişlərin inkişafını təşviq edəcək. Layihə bu gün ölkədə geniş fəaliyyət göstərən "fintex"lərin inkişaf etməsinə dəs-tək verəcək. Amma eyni zamanda da, istehlakçıların ölkə-də maliyyə sabitliyinin qorunması üçün bu sahədə müəy-yən dərəcədə tənzimlənmə və lisenziya formasında icazə sisteminin də gətirilməsini özündə ehtiva edir.

Hörmətli xanım sədr, layihə komitədə geniş müzakirə edilmişdir. Biz də düşünürük ki, layihənin qəbul olunması Azərbaycanda bu sahədə bu təşkilatların inkişafına və is-tehlakçıların hüquqlarının qorunmasına gətirib çıxaracaq-dır. Həmkarlarımdan qanun layihəsini dəstəkləməyi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Tahir müəllim, ətraflı məlumata görə çox sağ olun. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə yaxındır. 19-cu məsələ Dövlət satınalmaları haqqında qanun layihəsidir, 20-ci məsələ isə Vergi Məcəlləsində, "Energetika haqqında" Qanunda və digər üç qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, məsələlərin müzakirəsi ilə əlaqədar dəvət edilən şəxslər var. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli və şöbə müdiri Əhməd müəllim Həsənov iclasımızda iştirak edirlər.

Hörmətli həmkarlar, hər iki qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Tahir müəllim, yenə də Siz təqdim edəcəksiniz. Buyurun, məlumat verin.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, qanun layihəsi bu sahədə kifayət qədər yeniliklər və innovasiyalar tətbiq etdiyinə görə mən çalışacağam, bu istiqamətdə daha ətraflı məlumat verim.

İlk öncə qeyd edim ki, yeni qanun layihəsi dövlət satınalmaları sahəsində möhtərəm cənab Prezidentin 2016-cı il 28 aprel tarixli fərmanına uyğun olaraq, qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla hazırlanmışdır. Layihə 10 fəsil və 59 maddədən ibarətdir. Layihənin beynəlxalq təcrübədən yararlanaraq günün tələblərinə uyğun hazırlan-

ması məqsədi ilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən müvafiq işçi qrupu yaradılmışdır. Həmin işçi qrupu tərəfindən qüvvədə olan "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsinə dair təkliflərin təqdim edilməsi ilə bağlı dövlət qurum və təşkilatlarına, habelə maraqlı biznes subyektləri və assosiasiyalarına müraciətlər edilmiş və onlardan qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər alınmışdır.

Daxil olmuş rəy və təkliflər nəzərə alınmaqla, eyni zamanda, Avropa Birliyinin dövlət satınalmaları üzrə direktivləri, Beynəlxalq Ticarət Hüququ üzrə Birləşmiş Millətlər Komissiyası, Dünya Bankı, Asiya İnkişaf Bankının təcrübələrindən yararlanaraq müasir çağırışlara cavab verməyi, şəffaflığı və intizamlılıq səviyyəsini artırmağı, çeviklik tələblərini nəzərə almağı, dövlət büdcəsi vəsaitlərindən qənaətli istifadəni təmin etməyi, sui-istifadə hallarını minimallaşdırmağı, nəzarət imkanlarını genişləndirməyi, nəhayət, elektron satınalmalara keçidi təmin etməyi hədəfləyən yeni qanun layihəsi  təqdim edilərək diqqətinizə çatdırılmışdır.

Hörmətli həmkarlar, qeyd etmək istəyirəm ki, 2022-ci ildə ölkədə, ümumilikdə, 12 min 102 sayda satınalma tətbiq edilməklə 6,8 milyard manat məbləğində satınalma müqavilələri "Dövlət satınalmaları haqqında" Qanun ilə müəyyən edilmiş metodlar tətbiq edilməklə bağlanılmışdır. Say baxımından 2022-ci ildə satınalmalar arasında bir mənbədən satınalma metodu 35,4 faiz, açıq tender 33,6 faiz,  kotirovka sorğusu 27 faiz, təkliflər sorğusu isə 4 faiz paya malik olmuşdur. Məbləğ baxımından satınalmada açıq tender ümumi məbləğdə 50,6 faiz, bir mənbədən satınalma metodu 33,6 faiz, təkliflər sorğusu isə 14,8 faiz

paya malik olmuşdur. Məbləğ baxımından məhz açıq tenderlərin həcminin 50 faizi keçməsi bu istiqamətdə aparılan islahatların və şəffaflığın mühüm göstəricilərindən biridir.

Son bir neçə il ərzində tender prosedurlarının elektronlaşması öz müsbət təsirini göstərmişdir. Eyni zamanda, toplanan datalar bu sahədə hansı problemlərin olduğunu, onları tənzimləmək üçün hansı təkmilləşmələrin aparılmasının da vacib olduğunu üzə çıxarmışdır. Bütün bunlar təhlil edilərək hazırlanan qanun layihəsi və onun üstünlükləri barədə aşağıdakıları demək istərdim.

İlk öncə deyim ki, struktur baxımından qüvvədə olan "Dövlət satınalmaları haqqında" Qanun ilə müqayisədə yeni qanunun daha asan və başadüşülən olması üçün qanun layihəsi təkmilləşdirilərək maddələrin məntiqi ardıcıllığı təmin edilmişdir.

Qanunun tətbiq dairəsinin genişləndirilməsi. Qüvvədə olan qanun nizamnamə fondunda dövlətin payı 30 faiz və daha çox olan müəssisə və təşkilatlar tərəfindən malların dövlət vəsaitləri dövlətin aldığı və dövlət zəmanəti ilə alınmış kreditlər və qrantlar hesabına satın alınmasına şamil edilir ki, nəticədə bəzi dövlət şirkətləri və publik hüquqi şəxslər qanunun tətbiq dairəsindən kənarda qalmışdılar.

Qanunun maliyyələşmə mənbəyindən asılı olmayaraq Müşahidə Şurasının tərkibi cənab Prezident tərəfindən təsdiq edilən kommersiya hüquqi şəxsləri tərəfindən öz vəsaitləri hesabına satınalmalar istisna olmaqla, bütün dövlət satınalan təşkilatlarını əhatə etməsi üçün yeni qanun layihəsində "dövlət vəsaiti" anlayışı "maliyyə vəsaiti" anlayışı ilə əvəz edilmişdir ki, bu anlayış həm dövlət vəsaitinin, həm də dövlət vəsaitinə aid edilməyən, lakin dövlət satınalan təşkilatının istifadəsində olan bütün növ pul vəsaitlərini ehtiva edir. Əlavə olaraq, qanunun publik

hüquqi şəxslərə də şamil olunması üçün satınalan təşkilatın anlayışı redaktə edilmişdir.

Dövlət satınalmalarına nəzarətin gücləndirilməsi məqsədi ilə qanun layihəsində nəzarət orqanının səlahiyyətləri genişləndirilmişdir. Bu səlahiyyətlərdən ən mühüm olanlarından bir qismi aşağıdakılardır:

İndidən sonra yeni qanun layihəsində bütün növ protokolların və qərarların xidmətə məlumat üçün deyil, razılaşdırılma və təsdiq üçün göndərilməsi; yekun protokol xidmət tərəfindən təsdiq edilmədən satınalma müqaviləsinin imzalana bilməməsi; əsaslandırılmış qərar və təchizatçıların etibarsız təchizatçıların reyestrinə daxil edilməsi; xidmətin satınalma komissiyalarının iclaslarında müşahidəçi qismində iştirak etməsi; satınalma müqaviləsi qüvvəyə minənədək qanunla müəyyən edilmiş qaydada satınalmanın nəticələrinin ləğv edilməsi; satınalma müqavilələrinin icrasına nəzarət edilməsi; satınalma komissiyasının sədri və ya digər üzvlərinin qanunazidd hərəkətləri üçün fərdi məsuliyyətin nəzərdə tutulması. Satınalma predmetinin ehtimal olunan məbləğindən asılı olmayaraq satınalma komissiyasının tərkibinə başqa nazirliklərin nümayəndələrinin daxil edilməsi ilə bağlı müddəa layihədə nəzərdə tutulmamışdır.

Rəqabətin təmin edilməsi üçün qüvvədə olan qanunda yalnız kotirovka sorğusu və ehtimal olunan qiyməti 3 milyon ABŞ dollarının manat ekvivalentindən aşağı olan açıq tenderlər, bildiyiniz kimi, elektron formada keçirilir. Yeni qanun layihəsində qapalı tender satınalma metodu istisna olmaqla, digər bütün hallarda təkliflərin cəlb edilməsi üçün dövlət satınalmalarının vahid internet portalında elanın dərc olunması nəzərdə tutulur.

Yeni qanun layihəsində məxfi məlumatlarla əlaqəli sa-

tınalmalar istisna olmaqla, dəyəri və metodundan asılı olmayaraq bütün satınalmaların vahid elektron internet portalı vasitəsi ilə keçirilməsi nəzərdə tutulur. Dövlət satınalmalarında şəffaflığın təmin edilməsi üçün layihədə aşağıdakılar nəzərdə tutulmuşdur:

Bütün satınalan təşkilatlar tərəfindən növbəti il üçün satınalma planının əvvəlcədən dərc edilməsi. Qeyd edim ki, "Büdcə sistemi haqqında" Qanuna dəyişikliyə görə, növbəti ilin dövlət büdcəsi Milli Məclisə təqdim olunan zamandan növbəti 5 il müddət ərzində bütün satınalma təşkilatları ilkin olaraq satınalma planlarını saytlarında dərc etməli və bu istiqamətdə elan verməlidirlər. Bu, həm də bu ildən başlayaraq növbəti ilin satınalmasının hazırlanması məqsədi ilə dövlət təşkilatlarına verilən mühüm bir imkandır.

Satınalma planında nəzərdə tutulmayan satınalma predmetinin satın alınmasının yalnız dövlət satınalmalarına nəzarət orqanının təsdiq etməsi şərti ilə həyata keçirilməsi; bir mənbədən satınalma metodundan istifadənin mürəkkəbləşdirilməsi; benefisiar mülkiyyətçisi eyni olan subyektlərin və qarşılıqlı asılı olan şəxslərin eyni satınalmalarda iştirakının yolverilməzliyi; satınalma komissiyasının fəaliyyətindəki formallığın aradan qaldırılması və məsuliyyətinin artırılması.

Bundan başqa, qanunda təkliflər sorğusu və məhdud iştirakçılıq tender metodlarının qanundan çıxarılması, habelə satınalma predmetinin ehtimal olunan qiyməti 100 min manatadək satınalmaların kotirovka sorğusunun metodu ilə keçirilə bilməsi nəzərdə tutulmuşdur. Xatırladım ki, qüvvədə olan qanunvericiliyə görə, kotirovka sorğusunun keçirilməsi üçün qanunda məbləğin yuxarı həddi 50 min manat idi. Bu, 100 minə qədər qaldırılır.

Layihədə ehtimal olunan qiymətin hesablanmasının yeni metodlarla aparılması, ehtimal olunan qiymətin tender iştirakçıları üçün açıq elan edilməsi, bu qiymətdən yuxarı təkliflərin isə qəbul olunmayacağı öz əksini tapmışdır. Qeyd edim ki, mövcud qanunvericiliyə görə, indiyə qədər ehtimal olunan qiymətlər tender elan olunan zaman elan edilmirdi. İndidən sonra isə bu qiymət ictimaiyyətə açıq elan ediləcəkdir.

Bununla yanaşı, qanunda mikro, kiçik və orta sahibkarların dəstəklənməsi üçün mühüm yeniliklər vardır. Belə ki, qüvvədə olan qanunda satınalma predmetinin ehtimal olunan qiyməti 3 milyon ABŞ dollarının manat ekvivalentində və ya ondan aşağı olan malların satınalınması yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə, açıq tender üsulunu tətbiq etməklə elektron satınalma vasitəsi ilə keçirilir ki, bu da mal göndərənlərin, bir çox halda sahibkarın şikayətinə və bizə də müraciətlərinə səbəb olmuşdur. Yeni qanun layihəsində bu tələb aradan qaldırılmışdır və mikro, kiçik və orta sahibkarlıq subyektlərinin satınalmalarda iştirakını təşviq etmək üçün kotirovka sorğusu metodu ilə keçirilən bütün satınalmaların yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə keçirilməsi müəyyənləşdirilmişdir. Bu zaman satınalma predmetinin ehtimal olunan qiyməti 30 min manatadək olduqda satınalmanın yalnız mikro və kiçik, 30 min manatdan 100 min manata qədər olduqda isə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə keçirilməsi nəzərdə tutulur.

Bundan əlavə, mikro və kiçik sahibkarlıq subyektlərinin təqdim etməli olduqları icra təminatının məbləğinin satınalma müqaviləsinin ümumi məbləğinin digərləri kimi 10 faiz deyil, 5 faiz müəyyən olunması təklif edilmişdir.

Habelə qalib mikro və kiçik sahibkarlıq subyektlərinə ödəniləcək avans məbləğin digərlərindəki kimi satınalma müqaviləsinin ümumi məbləğinin 30 faizi həcmində deyil, 50 faizi həcmində olması nəzərdə tutulmuşdur. Eyni zamanda, qeyd etmək istərdim ki, satınalan təşkilat məbləğdən asılı olmayaraq açıq tender keçirərsə, o zaman istənilən sahibkarlıq subyektləri formasından və həcmindən asılı olaraq bu təklifləri qəbul edə bilərlər.

Təkliflərin edilməsi müddətlərinin optimallaşdırılması ilə bağlı qanunda da bir sıra maraqlı müddəalar vardır. Belə ki, açıq tender zamanı satınalma predmetinin ehtimal olunan qiymətindən asılı olaraq təkliflərin cəlb edilməsi üçün ən azı 15 iş günü tələb olunur. Xatırladım ki, indiyə qədər açıq tenderin keçirilməsi ilə bağlı tələb olunan müddət 30 iş günü idi. Bunun 15 gün edilməsi satınalmanın daha sürətlə həyata keçirilməsinə imkan yaradacaqdır.

Təkliflərin qiymətləndirilməsi başa çatdıqdan sonra qaliblə satınalma müqaviləsi bağlananadək təchizatçıların nəticələrdən şikayət etmələri üçün 37-ci maddəyə uyğun olaraq, 5 günlük gözləmə müddətinin tətbiq edilməsi qanunda bir yenilikdir. Bu yenilik satınalma başa çatdıqdan sonra verilə biləcək şikayətlərin və lüzumsuz yazışmaların qarşısını almaq məqsədi daşımışdır.

Layihədə təchizatçıların satınalmalarda iştirakı üçün müəyyən edilmiş minimum tələblərə yenidən baxılaraq, bu tələblər təkmilləşdirilərək ümumi tələblərə və xüsusi tələblərə bölünmüş və bunlar qanunda açıq göstərilmişdir.

Layihədə satınalmaların büdcə kateqoriyasına uyğun deyil, Nazirlər Kabineti tərəfindən müəyyən ediləcək 18.10-cu maddədə nəzərdə tutulmuş təsnifat kodları üzrə aparılması nəzərdə tutulur. Təsnifat kodlarının tətbiqi satınalmalarda müxtəlif meyarlara görə hesabatlılığın əldə

olunmasına, eyni zamanda, eyni növ mallar üzrə orta bazar qiymətinin real vaxt rejimində hesablanmasının asanlaşmasına müsbət təsir göstərəcəkdir.

Layihənin 51-ci maddəsinə əsasən satınalan təşkilatın nəqliyyat vasitəsi, maşın, dəzgah, avadanlıq, texnika və qurğulara dövri və ya təkrar texniki xidmətin göstərilməsi ilə bağlı satınalmalarının sadələşdirilməsi üçün layihəyə "çərçivə sazişi" anlayışı daxil edilmiş və bununla bağlı prosedur müəyyənləşdirilmişdir.

Bütövlükdə, qanun layihəsinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirəsi İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti və Hesablama Palatasının nümayəndələrinin iştirakı ilə keçirilmiş, müzakirələr kifayət qədər geniş olaraq işıqlandırılmışdır.

Eyni zamanda, qeyd etmək istərdim ki, komitənin bütün üzvləri qanun layihəsini birinci oxunuşda konseptual olaraq dəstəkləmiş və bununla bağlı suallar isə müvafiq dövlət orqanının nümayəndələri tərəfindən cavablandırılmışdır. Mən həmkarlarımdan qanun layihəsini birinci oxunuşda konseptual olaraq dəstəkləmələrini xahiş edirəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Təklif var, 5 dəqiqə. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Təşəkkür edirəm, hörmətli sədr. Mən ilk növbədə hörmətli Tahir müəllimə təşəkkür edirəm ki, bu məsələ ilə bağlı çox ətraflı təqdimat etdi. Biz o fikri də bölüşürük ki, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin 2 ildən çox müddətdə müxtəlif qurumlarla razılaşmadan keçirərək dövlət rəhbərinə təqdim et-

diyi və nəhayət, müzakirəyə çıxarılan bu qanun layihəsi ölkəmizin iqtisadi tarixində mühüm hadisədir. Obyektivlik naminə onu da qeyd edək ki, Məmməd Abbasbəylinin rəhbərlik etdiyi bu qurum cəmiyyətə və bütün müraciət edənlərə açıqdır, səmimi ünsiyyətə və peşəkar çalışmalara qadirdir, süni bürokratik zirehdən uzaqdırlar və konfliktlərin toqquşduğu çox mürəkkəb bir sahənin fəaliyyətini uğurla təşkil etməyi bacarırlar.

Hazırkı yeni qanun layihəsi ölkəmizdə iqtisadi islahatların ən çox gözlənilən, ətrafında müxtəlif daxili və beynəlxalq təşkilatların müzakirə apardıqları ümummilli bir məsələdir. Dövlət büdcəsinin dörddə birini təşkil edən satınalmaların ümumi maliyyə tutumunun 7 milyard manata yaxın olması o deməkdir ki, nəinki inhisara qarşı, eləcə də büdcənin xərclənməsində getdikcə artan ictimai nəzarət, xalqın qarşısında hesabatlılıq və aşkarlıq, o cümlədən korrupsiyanın azaldılması və qənaətli, səmərəli xərcləmələrin həyata keçirilməsi ən vacib tələblərdən birinə çevrilib.

Xüsusi vurğulayaq ki, burada hörmətli Tahir müəllim ona toxundu, satınalma prosesinin elektronlaşması məlumatlara əlçatanlıq yaratdığına görə minlərcə müəssisə, firma, təşkilat üçün fürsətlər açılıb və rəqabət mühiti genişlənib. Deməli, ölkəmizdə güclü sahibkarlıq subyektlərinin sayının artmasına və coğrafiyasının böyüməsinə şərait yaranıb.

Ötən onillərdə əksər hallarda hansı metodun tətbiqindən asılı olmayaraq, kağız daşıyıcılarda tender, kotirovka və ya təkliflər sorğusu müxtəlif nazirliklərin ətrafında qurulan şirkətlər və yaxın şirkətlər vasitəsi ilə dövlət büdcəsi vəsaitlərinin talanmasına şərait yaradıb. İndiki qanun layihəsi və elə son 2 ildə görülmüş işlər xeyli dərəcədə on-

ların qarşısını alıb və bu, inkarolunmaz faktdır. Hazırda bütün satınalma subyektləri, başda Prezident Administrasiyasından, Milli Məclisdən, ucqar əyalətlərdən adi xidmət təşkilatlarına qədər onların əməliyyatlarını elektron sistemlərdə izləmək, iştirak etmək və formalaşan obyektiv məlumat bazası əsasında satılanma siyasətinə dair hərtərəfli təhlillər aparmaq mümkündür. Əlbəttə, o da faktdır ki, rəqabət mühiti şəffaflıq və himayəsiz qurumların bərabər imkanlar qazanmasına şərait yaratdığı kimi, eyni zamanda, öhdəlikləri yerinə yetirmək imkanları olmayan iddiaçıların da satınalmalarda qalib olması riskini də artırıb.

Hesablama Palatasının rəyində deyilir ki, belə hallarda dövlət satınalmaları ləngiyir, təqdim edilən malların, işlərin və xidmətlərin keyfiyyəti aşağı düşür, bəzən qalib iddiaçının, ümumiyyətlə, müqavilə öhdəliyini yerinə yetirməkdən imtinası ilə də üz-üzə qalır.

Əlbəttə, qanun layihəsinin üstün məziyyətlərindən danışıldı. Birinci növbədə beynəlxalq hesabatlardakı mövqeyimizə təsir edəcək. Çünki bir mənbədən istifadə ilə bağlı reytinqlərdə ön yerdə olmaq bizə ziyan vururdu.

İkincisi, burada qeyd olunduğu kimi, qanunun əhatə dairəsi genişlənir, "dövlət vəsaiti" termininin "maliyyə vəsaiti" termini ilə əvəz edilməsi imkan verəcək ki, bütün proseslər ən azı bu qurum üzərindən həyata keçirilsin. O cümlədən nəzarətin gücləndirilməsi ilə bağlı burada müddəalar var. Xüsusilə də etibarsız təchizatçıların reyestrinin formalaşması üçün imkanlar yaranacaq. Düşünürəm ki, bu, Qərbdə geniş tətbiq olunan bir modeldir. Həqiqətən də, öz müqavilə öhdəliklərini yerinə yetirməyən qurumların da bir siyahısını yaratmaq lazımdır.

Qanun layihəsində subyektiv qərarlara və manevrlərə fürsətlər minimuma endirilib. Yəni "uzaq ola bilər" və

“verilə bilər” kimi konkretlikdən uzaq olan istilahlar azaldılıbdır. Bu da qanunu tətbiq edənlərin korrupsiya meylinə zərbə vurur.

Sonda bir-iki təklifimi səsləndirmək istəyirəm. İndiyədək satınalmaların üzərində ciddi ictimai və siyasi ittihamlardan biri qatılan şirkətin müvafiq sahə üzrə bazarda iştirakçılığı nəzərə alınmaması, daha dəqiq deyilsə, bir həftəyə, bəzən bir günə qeydiyyatdan keçən müəssisənin dövlət satınalmasına qatıla və qazana bilməsi məsələsi idi. Əlbəttə, belə qurumların qarşısını almağa hazırkı qanun imkan vermir, lakin indi belə subyektlərin müsabiqəyə qatılması satınalma metodlarına uyğun təsnifatlaşdırıla bilər. Məsələn, dəyəri müəyyən məbləği keçən satınalma müsabiqəsinə yalnız təcrübəsi olan qurumlar buraxıla bilər.

Satınalma haqqında hesabatda tam şəkildə iştirak edən hər bir qurumun verdiyi qiymət və bal sistemi əksini tapa bilər.

Bir neçə saniyə qalıb. 20 faizdən aşağı qiymət verəndə daha çox qazanmağa çalışan, sonra da öz maraqlarını qoyan qurumlarla bağlı fikirlərim vardı. Onları yazılı təqdim edəcəyəm. Layihəyə səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar. Dövlət satınalmaları ilə bağlı “hər şey gözəldir, şəffafdır, hər kəsin ürəyincədir” demək tezdir. Amma etiraf etməliyik ki, nəhəng işlər də görülüb və keçirilən tenderləri qanuni yollarla udmaq da olur. Təbii ki, tender sonrası da bir sıra obyektiv səbəblərdən yenə qaranlıq proseslər var. Nə etmək olar? Tender məsələləri o qədər maraqların toqquşduğu yerdir ki, bir neçə ayın içində şəffaf Qərbi Avropa standartları yaratmaq da mümkün görünmür. Bunu anlayıram və qəbul edirəm. Ona görə də tenderdə

iştirak edənlərlə bərabər, gərək bu satınalmaları keçirən dövlət qurumunun da xidmətlərini deyək. Həqiqətən də, çox gözəl, aydın və hər kəsin əlçatanlığını təmin edən “tender.gov.az” portalı yaradılıb və hər kəs də dövlət satınalmalarından istifadə edə bilir. Bu faktın özü bizim ölkəmiz üçün gərək inqilabi addım hesab edilsin. Çünki əvvəllər hər bir dövlət qurumunun yanında 10-15 firma yaradılırdı və tenderləri də elə onlar udurdu, qalan arxa-sızlar isə boynubükük dayanaraq parçalanan tortun heç qırıntılarına da yanaşa bilmirdilər. Qırıntıları da elə yerlərə süpürüb atırdılar ki, onu da özlərinə aid adamlar saf-çürük edib aparırdılar. Belə bir vəziyyətlə müqayisədə indiki vəziyyətin fərqi Yer kürəsi ilə Mars arasında olan məsafə qədərdir. Bu səbəbə görə qanun layihəsinin qəbul olunma-sında maraqlıyam və dəstəkləyirəm.

Hörmətli Məmməd müəllim, Sizə və kollektivinizə də təşəkkür edirəm ki, akulalarla mübarizə şəraitində indiki miqyasda müəyyən şəffaflıq ortaya qoya bilmisiniz. Təbii ki, İqtisadiyyat Nazirliyinin də bu sahədə ciddi dəstəyi olmasaydı, heç nə də olmazdı. Şəffaflıq, dürüstlük, düzlük gözəldir. Dəstək olmadan da nailiyyət çətindir. Amma üzərimizə qoyulan dövlət vəzifəsinin öhdəsindən gəlmək üçün bacarıq da lazımdır və düşünürəm ki, bu bacarıq və dirəniş də Sizdə var, hörmətli Məmməd müəllim.

Satınalmalarla bağlı bir çox iştirakçıların, istər dövlət qurumlarının, istərsə də adi vətəndaşların narazılığını da dilə gətirmək istəyirəm. Deyək ki, tender zamanı bir işin bazar qiyməti 100 manat olduğu halda, 70 manat qiymət qoyanlar da olur və onlar qalibdir, nəticə isə acınacaqlıdır. İş çox bərbad görülür, keyfiyyət sıfır, dayanıqlıq sıfır, vaxtında isə təhvil verilmir. Bir ildən sonra tökülüb dağılır və dövlətin qoyduğu vəsait də göyə sovrulur. Bilirsiniz, bu

nəyə bənzəyir? Deyək ki, bazarda quzu əti 18 manatdır, kim isə 12 manata təklif edir. Belə çıxır ki, 12 manata alınan quzu əti ya at əti, ya da xəstə qoca heyvan ətidir. Gətirib, közə qoyub kabab çəkdin, dadı yox, bərk, az qalır, dişləri sındırsın, ya itə, ya da pişiyə atırlar. Ona görə də bu məsələlər gərək nizamlansın.

İşin real və keyfiyyətli yerinə yetirilməsi üçün real qiymətlər də lazımdır. Amma bu məsələdə də nəzərə alacağımız məqamlar var. Qanuna belə dəyişiklik çox əyri yollara da apara bilər. Təbii ki, qiyməti və bazarı bəhanə edib tenderləri razılaşdırılmış şirkətlərə ötürmək təhlükəsi də yaranır. Bunun qarşısı necə alınacaq, necə monitorinq aparılacaq və hansı nəzarət mexanizmləri işə salınacaq? Qanunu tam dəstəkləməyimiz üçün bu nüansları da bilməyimiz vacibdir. Konseptual olaraq isə qanunu qəbul edirəm, təbii ki, dəstəkləyirəm və səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov. Buyurun.

**V.Əhmədov.** Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli millət vəkilləri. "Dövlət satınalmaları haqqında" Qanun ilk dəfə 2001-ci ildə qəbul olunub. O vaxtkı qanundan təxminən 22 il keçir. Biz bu dövrdə həmin qanuna 12-yə yaxın çox böyük dəyişiklik etmişik. Amma müasir tələblər yeni bir qanunun qəbul edilməsini vacib hesab edir. Hesab edirəm ki, cənab Prezident çox düzgün qərar qəbul edib və belə bir qanun layihəsinin Milli Məclisə təqdim olunmasına razılıq verib.

Ümumiyyətlə, satınalmalarla əlaqədar problemlər kifayət qədər çoxdur. Çünki biz həmişə Hesablama Palatasının hesabatını dinləyəndə orada ən çox şikayət mənbəyi məhz satınalmalarla əlaqədar olur. Elə son iclasda da mən baxdım, satınalmalarla əlaqədar kifayət qədər nöqsan var

idi. Azərbaycanda dövlət satınalmalarında və dövlətə məxsus ayrı-ayrı hüquqi şəxslərin satınalmalarında qeydə alınan qanun pozuntuları arasında ehtimal olunan qiymətin düzgün hesablanmaması və vəsaitlərə qənaətli yanaşılmaması kimi hallar üstünlük təşkil edir. Dövlət satınalmalarında belə hallar kifayət qədərdir. Ona görə də bu qanunun qəbul edilməsinin vacib olduğunu komitə sədri Tahir müəllim burada qeyd etdi. Mən hesab edirəm ki, çox vacibdir.

Bugünkü vəziyyətə baxaq, görək, indi satınalmalarla əlaqədar vəziyyət necədir. 2022-ci ildə təxminən 12 minə yaxın sayda satınalma keçirilib və harada isə 6,8 milyard manata yaxın vəsait əhatə olunub. Bu, dövlət büdcəsinin təxminən 20 faizidir, bizim qəbul etdiyimiz dövlət büdcəsinin 20 faizindən də bir az aşağıdır. Amma əksər ölkələrdə dövlət satınalmaları dövlət büdcəsinin 35-45 faizi arasındadır. Yəni bizim kifayət qədər, mən deyərdim ki, rezervimiz var. Biz satınalmaların tətbiq dairəsini genişləndirməliyik. Yeni qanun layihəsində satınalmaların tətbiq dairəsi ilə əlaqədar xüsusi maddə əhatə olunub. Amma mən hiss edirəm ki, o maddəyə yenidən baxmaq lazımdır. Çünki elə orqanlar var ki, dövlət büdcəsinin təxminən 14-15 faizini təşkil edirlər. Yəni kifayət qədər maliyyə mənbəyi var. Amma onlar satınalmalarda o qədər də iştirak etmirlər. Düzdür, burada hüquq mühafizə orqanları, Müdafiə Nazirliyi, qapalı təşkilatlar var. Amma o təşkilatlarda da elə hissələr var ki, onları mütləq satınalmalara cəlb etmək lazımdır.

Mən başa düşürəm, silahdır, sursatdır, bir mənbədən alınan satınalmanı daxil etmək, hansı isə məxfi misallar var, onları daxil etmək olmaz. Amma ümumi götürəndə, satınalmaların səviyyəsinin, yəni ümumi dövlət büdcəsi-

nin 20 faiz təşkil etməsi aşağı rəqəmdir. Biz bunu harada isə 30 faizə yaxın çatdırmaq üçün əlavə tətbiq dairəsini genişləndirməliyik. Yəni bu, çox vacib məsələlərdən biridir.

İkinci bir məsələ. Burada Tahir müəllim də mikro, kiçik və orta sahibkarlığın satınalmada iştirakı ilə əlaqədar qeyd etdi. Amma verilən hesabatlarda, ümumiyyətlə, 2022-ci ilin hesabatında təxminən 95 faiz satınalmada mikro, kiçik və orta sahibkarlıq iştirak edir. Amma ümumi məbləği götürəndə, yəni 7 milyard manatı götürəndə o tenderlərdə çox böyük sahibkarlar, böyük şirkətlər də iştirak edirlər. Yəni bunu da nəzərə almaq lazımdır. Mən belə hesab edirəm ki, ümumiyyətlə, satınalmalarla əlaqədar qanun layihəsi kifayət qədər mükəmməl hazırlanıb. Amma elə məsələlər var ki, biz burada müəyyən qədər onların üstünə getməliyik və onları nəzərə almalıyıq.

Birincisi, satınalmalarda əsas məqsədlərdən biri şəffaflığı və səmərəliliyi təmin etməkdən ibarətdir. Yəni bunun üçün elektron satınalma sistemini daha da genişləndirməliyik. Bir portal sistemini daha da çox istifadə etməliyik. Mən komitənin iclasında da dedim. Bizdə elə məlumatlar var ki, insanlar tenderə girirlər, tenderi udurlar, amma tenderin elan edilməsinə müəyyən müddət, vaxt sərf edildiyi üçün həmin tenderdə udan şirkəti çıxarıb başqa şirkəti ora əlavə edirlər. Müəyyən xahişlər olur və sair. Ona görə də mən hesab edirəm ki, ümumiyyətlə, tender qalibini elə həmin vaxtda, heç bir gün də vaxt vermədən portalda elan etmək lazımdır ki, sonradan ora heç kim müdaxilə edə bilməsin. Bu, çox ciddi məsələdir. Bizə bununla əlaqədar çoxlu müraciətlər var.

İkincisi. Satınalma komissiyalarının müəyyən edilməsi, təyin edilməsi qanun layihəsində var. Mən bunu müsbət

qiymətləndirirəm. Amma ümumilikdə, qanun layihəsi müsbətdir, səs verəcəyəm və həmkarlarımı səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, hörmətli sədr. Biz bayramlar ərəfəsindəyik. Hörmətli sədr, həm Sizi, həm də Ali Baş Komandanı Ordu Günü və Qurban bayramı münasibəti ilə təbrik edirəm. İnşallah, tezliklə Xankəndidə dövlət bayrağının asılacağı günü gözləyirik.

Hörmətli həmkarlar, məndən öncə çıxış edən bütün həmkarlarımın çıxışlarını diqqətlə dinlədim və orada qaldırılan bir çox məsələləri bölüşürəm. Biz yeni qanunla çalışmalıyıq ki, bu sahədə şəffaflığın artırılmasına, dövlət vəsaitlərinin səmərəli istifadə olunmasına nail olaq. Praktikada biz nələri müşahidə edirik. Mən istəyirəm, qanunla tanış olan insanlar görsünlər ki, bu qanun rastlaşdığımız nöqsanları aradan qaldıra biləcək, yoxsa qaldıra bilməyəcək. Birinci oxunuşun tələblərinə uyğun olaraq danışıram. Praktikada görürük, bir çox hallarda tenderlərdə iştirak edən şirkətlərə təsir edirlər ki, tenderdən geri çəkilsinlər. Düşünürəm ki, bunu hər kəs bilir, bu barədə məlumatları var. Məndən öncə də başqa problemlər barədə danışıldı.

Bundan başqa, məktublar, təkliflər göndərilir və çox təəssüf, o təkliflər müvafiq komissiya tərəfindən açılır və hansı isə şirkətə deyilir ki, misal üçün, ən axırıncı qiyməti filankəs 50 manat yazıb, sən 49 manat yaz. Beləliklə də, kiminsə orada üstün hüquqları təmin edilir və həmin kəs, həmin şirkət qalib elan edilir. Ona görə də mənim təklifim bundan ibarətdir ki, biz qanunda elə mexanizm nəzərdə tutaq, tenderə kimin qatılacağını həmin komissiya əvvəldən bilməsin, ona təsir edə bilməsin. Nə alınacaqsa,

onların siyahısı dərc olunur və elan olunur ki, məsələn, komissiya filan gün filan saatda filan yerdə toplanır. Kim qatılmaq istəyirsə, həmin gün yarım saat qabaq gəlsin, lazım olan ödənişləri də etsin və tenderə qatılsın. Həmin şəxs gəlir və təkliflərini də orada elan edir və bu da onlayn qaydada translyasiya olunur, videoyazı gedir. Çünki nəticələrdən narazı qalan vətəndaş məhkəməyə müraciət edə bilsin və məhkəmədə sübut edə bilsin ki, mən öz layihəmi təqdim etdim, filankəs də təqdim etdi. İndi onun da çıxışına, təkliflərinə qulaq asın, mənim də təklifimə qulaq asın və görün, necə oldu ki, mən deyil, filankəs qalib gəldi. Əgər biz bu mexanizmi yaradacağıqsa, hesab edirəm ki, burada şəffaflığı təmin edə biləcəyik. Yox, qeyd etdiyim məsələlər qanunda öz əksini tapmayacaqsa, yenə də köhnə qaydada, əvvəlcədən razılaşma olmadan hər hansı bir şirkətin tenderi udması müşkül bir məsələ olaraq qalacaq. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aydın Hüseynov. Buyurun.

**A.Hüseynov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Qanun layihəsi ilə bağlı komitəmizdə geniş müzakirə aparıldı. Hörmətli Tahir müəllim burada da ətraflı məlumat verdi. Eyni zamanda, Məmməd müəllimin, bayaq qeyd etdiyi kimi, iştirakı ilə bütün komitə üzvlərinin qaldırdığı suallar, maraqlandıran məsələlər cavablandırıldı. Mən də çalışacağam ki, komitədə səsləndirdiyimiz fikirləri burada təkrar səsləndirməyim, qısa bir fikrimi ifadə etməklə yanaşı, bəzi təkliflərimi də sizinlə bölüşüm.

Müzakirə etdiyimiz qanun layihəsinin ən başlıca xüsusiyyəti ondan ibarətdir ki, layihə müasir iqtisadi çağırışları və beynəlxalq təcrübəni özündə ehtiva edir. Qanun dövlət satınalmalarının iqtisadi, hüquqi, təşkilati əsaslarını müəyyənləşdirir. Qısaca desək, qanunun mahiyyəti dövlət

vəsaitlərinin, yəni indiki terminlə desək, maliyyə vəsaitlərinin səmərəli və qənaətli istifadə edilməsini təmin etməkdir.

Səsləndirəcəyim fikir nədən ibarət olacaq? Birinci növbədə, biz görürük ki, qanun layihəsində, ümumiyyətlə, indiki halda satınalma ilə məşğul olan qurum dövlət adından bu satınalmaları həyata keçirir. Mən reallığı dəyərləndirərək hesab edirəm ki, son illər bu sahədə şəffaflığın təmin olunması istiqamətində xeyli işlər görülüb. Eyni zamanda, bu işlərin həyata keçirilməsi və səmərəliliyin əldə olunması təkcə inzibati rıçaqlarla deyil, qanunla tənzimlənməsi daha səmərəli və daha uzunmüddətli olur. Mən bu qanunu oxumuşam. Doğrudan da, müasir çağırışları özündə ehtiva edir.

Burada prosesin daha geniş şəkildə əhatə olunması, satınalma prosesinin səmərəliliyinin, daha da səmərəli olmasının təmin olunması üçün, mən hesab edirəm ki, bu mərhələ 3 hissədən ibarət olduğundan təkcə indiki halda satınalmalar təchizatçının təmin olunmasına deyil, ona qədər olan proseslərə də nəzarət edə bilsin və yaxud da bu, qanunla öz təsdiqini tapsın. Bu nədən ibarətdir? Büdcə proqnozlaşması dövründə həmin büdcə təşkilatına xərc maddələri ilə ayrılan vəsait nominal bir rəqəmdir, yoxsa reallığı əks etdirən bir rəqəmdir? Yaxud da xərc maddəsində nəzərdə tutulan  həmin vəsait büdcə təşkilatına lazımdırmı? Lazımlığını, eyni zamanda, onun mövcud bazar qiymətlərinə uyğunluğunu müəyyənləşdirən hər hansı bir nəzarət mexanizmi varmı? Nəzarət mexanizmi indiki halda var. Bəli, onu demək olmaz ki, burada nəzarət mexanizmi yoxdur, özbaşına rəqəmlər verilir, yaxud da təhlil olunmur, nə isə bir metodologiyadır. Yəni qanun çərçivəsində onu daha da mükəmməlləşdirmək lazımdır.

Digər tərəfdən isə sonrakı mərhələyə qədər... Yəni bu-

rada həm də iqtisadi səmərədən söhbət gedir. İqtisadi səmərənin biri ondan ibarətdir ki, bu, doğrudan da, mikro, orta və kiçik biznesə öz müsbət təsirini göstərəcək.

İrəli sürəcəyim təklifin ən başlıca mahiyyəti nədir? Bu 6,8 milyard vəsaitin tərkibində nə qədər əmək tutumu var və bu təchizatçılar müəyyənləşdirilərkən hər hansı bir vəsaiti tenderdə və yaxud digər prosedurlarda udubsa, şərti deyək, yüz minin tərkibində nə qədər əmək tutumu var? Yəni nə qədər işçi orada çalışa bilər? Onun minimal həddi müəyyənləşdirilsin və o təchizatçılar qalib elan olunsun ki, şərtlərin daxilində o da özünü qanun səviyyəsində təsdiq etsin, orada bu işi neçə nəfər işçinin hesabına görmək olar. Bu, mütləq nəzərə alınsın. Mən hesab edirəm ki, bu, iqtisadi səmərəliliyi daha da artıracaq. Çünki dövlət vəsaitindən istifadə etmək təkcə onun qənaəti deyil, eyni zamanda, bu gün vətəndaşlarımızın məşğulluğunun təmin olunmasını da özündə ehtiva etməlidir.

Qanunu dəstəkləyirəm və yüksək qiymət verirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Rüfət Quliyev. Buyurun.

**R.Quliyev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli millət vəkilləri, hörmətli qonaqlar, jurnalistlər. Mən Məmməd müəllimə, ümumiyyətlə, İqtisadiyyat Nazirliyinə bu fədakar işlərinə görə təşəkkürümü bildirirəm. Amma mən başqa məsələyə toxunmaq istəyirəm. Düzdür, mən komitə iclasında bu sualı verdim, cavablandırıldı, amma istəyirəm, bu sual indi stenoqrama düşsün.

Keçən il bir neçə dövlət qurumu həmin satınalma tenderləri keçirib, sonra nə isə fikirlərini dəyişib... Tender keçib, tenderdən sonra bəyan edirlər ki, tender sayılmır, ləğv olunur və bununla da iş bitdi. Təzədən tender keçirəcəyik. Burada söhbət qeydiyyat pulundan, maliyyədən gedir.

Yəni orada 3 min, 5 min, 10 min manat, ondan da çox olur. O vəsaitlər qayıtmırdı, həmin dövlət qurumunun hesabında qalırdı. Mən adını çəkmək istəmirəm. İndi mən sualımı verdim və aydın cavab aldım. İstəyirəm, bu, stenoqrama düşsün.

Bundan sonra əgər hansısa bir dövlət qurumu bu üsula əl atsa, bilməlidir ki, o, özbaşına o tenderi ləğv etsə, hansısa bir formada nə isə addım atsa, gələcək tenderdə həmin iştirakçılar üçün iştirak pulsuz olacaq və yaxud o tenderə, qeydiyyata alınan pula görə geriyə qaytarmalıdır.

Qanuna səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev.

**E.Əliyev.** Çox hörmətli xanım sədr, hörmətli deputatlar. Dövlət başçısı cənab İlham Əliyev çıxışlarında təbii inhisarlar, haqsız rəqabət, məmurların biznesə müdaxiləsi, ictimai nəzarət məsələlərinə xüsusi önəm verir. Prezident dəfələrlə qeyd edib ki, bütün sahələrdə ictimai nəzarət gücləndirilməlidir, inhisarçılıq və təbii inhisar sektoru ictimai nəzarətin ən çox vacib olduğu sahədir. Amma fikrimcə, burada ictimai nəzarətin gerçəkləşdirilməsi üçün imkanlar yetərli deyil.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəhbərliyi indiyə qədər ictimai müzakirələr təşkil edibmi? İctimai iştirakçılıq üçün rəqəmsal imkanlar, rəqəmsal həllər yaradılmalıdır. Bir çox sahələrdə dövlətin xüsusi çəkisi hədsiz dərəcədə çoxdur. Satınalma portalı təkmilləşdirilməlidir. Bu portal digər ölkələrin oxşar resursları ilə müqayisə olunmalı və maraqlı tərəflər ümumiləşmiş informasiyalar, normal müqayisəli datalar, infoqrafiklər əldə etmək imkanına malik olmalıdırlar.

Satınalmalarla bağlı iki konkret misal çəkəcəyəm. Bir nəşriyyat var: "Şərq-Qərb" nəşriyyatı. Kimə məxsus oldu-

ğunu hamı bilir. Tenderlərdə iştirak edən kimi bütün nəşriyyatlar pərən-pərən düşürlər, əvvəlcədən bilirlər ki, qalib odur. Məsələn, Elm və Təhsil Nazirliyinin 2022–2023-cü tədris ilinə təhsil müəssisələrində kargüzarlığın aparılması üçün məktəb sənədləri blanklarının istehsalı ilə bağlı poliqrafiya işlərinin satınalınmasına dair elan etdiyi tenderin qalibi "Şərq-Qərb" olub. 36 milyon 108 min manat udub. Nəşriyyat bu qədər vəsaiti udmamışdan əvvəl çap məhsulları üzrə, ümumilikdə, 10,4 milyon manat məbləğində debitor borcu olmuşdur. Hesablama Palatasının hesabatı "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti tərəfindən uzun müddət ötməsinə baxmayaraq, çap məhsulları üzrə yaranmış 10,4 milyon manat məbləğində debitor borcun bağlanılması və müqavilə üzrə öhdəliklərin icra edilməməsi ilə bağlı aşkar edilmiş hüquqpozmalarda cinayət tərkibinin əlamətləri ehtimalını nəzərə alaraq Baş Prokurorluğa təqdim edilib.

İkinci misal. Ölkə Prezidentinin fərmanına əsasən optimallaşma, təhlükəsizlik və səmərəlilik baxımından ölkədə hökumət qurumu formalaşdı və dövlət qurumlarına tapşırılıb ki, paralel strukturlar yaratmaq yolverilməzdir. Əmək və əhalinin sosial müdafiəsi naziri fərmana məhəl qoymadan məxsusi elektron poçt sisteminin qurulması, məxsusi serverlər yaratması və özəl antivirus proqramlarının alınması ilə bağlı tender elan edir və tanınmamış bir şirkət 1,2 milyon manat udur. Bu nə deməkdir?

Rəqəmsal sektorda, kommunal sektorda istehlakçıların hüquqlarının qorunması üçün real işlər görülməlidir. Təcrübə göstərir ki, müxtəlif rəqəmsal həllər vasitəsi ilə rəqəmsal sektorda istehlakçıların hüquqlarını qorumaq üçün əhəmiyyətli işlər görülə bilər. Bir daha qeyd etmək istəyirəm ki, əvvəlki illərə nisbətən dövlət xidmətində

müəyyən canlanma, irəliləyişlər hiss olunub. Yeri gəlmişkən, qurum antiinhisar işlərə baxılma cədvəlini də öncədən dərc etməyə başlayıb. Amma qeyd etdiyimiz kimi, problemlərin zaman baxımından həlli üçün hüquqi normativ bazanın təkmilləşməsi vacibdir.

Düşünürəm ki, Dövlət satınalmaları haqqında qanun layihəsinin qəbul olunması zamanın tələbidir. Ümid edək ki, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti maraqlı tərəfləri cəlb edərək köklü məsələlərin ictimai müzakirəsini təşkil edəcək, antiinhisar tədbirləri və rəqabətli mühiti gücləndirəcək, haqsız rəqabətin qarşısını alacaq. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tahir müəllim, Sizin sözünüz var?

**T.Mirkişili.** Hörmətli xanım sədr, biz qeyd etdik. Mən düşünürəm ki, ikinci oxunuşda həm bizim tərəfimizdən, həm də xidmət tərəfindən bu məsələlərə münasibət bildirəcəyik. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Onda ikinci oxunuşda. Oldu. Hörmətli həmkarlar, mən qanun layihələrini bir-bir səsə qoyacağam. Xahiş edirəm, 19-cu məsələyə – Dövlət satınalmaları haqqında qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə 20-ci məsələnin səsverməsinə keçirik. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar! Bildiyiniz kimi, iki gündən sonra xalqımız Azərbaycan Respublikasının Silahlı Qüvvələri Gününü böyük qürur hissi ilə qeyd edəcəkdir. Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində göstərdiyi şücaətlər xalqımızın qəhrəmanlıq tarixinə əbədi həkk olunmuşdur. Azərbaycan torpaqlarını 30 il işğal altında saxlamış Ermənistan silahlı qüvvələri darmadağın edilmiş, əzəli və tarixi torpaqlarımız olan Qarabağ və Şərqi Zəngəzur düşmən əsarətindən xilas edilmişdir.

Tarixi ədalətin öz yerini tutması, dövlətimizin ərazi bütövlüyünün bərpa olunması naminə canından keçmiş şəhidlərimizin, qanlı döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin igidliyini və fədakarlığını biz heç zaman unutmayacağıq.

Bu gün Silahlı Qüvvələrimiz işğaldan azad olunmuş

bölgələrin müdafiəsi, dövlət sərhədlərimizin qorunması naminə öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. Biz əminik ki, Azərbaycan Silahlı Qüvvələri qarşıdakı illərdə daha da inkişaf edəcək və dünyanın ən güclü orduları sırasında öz yerini möhkəmləndirəcəkdir.

Hörmətli həmkarlar! Silahlı Qüvvələr Günü münasibəti ilə biz müzəffər Ali Baş Komandanı, Silahlı Qüvvələrin qəhrəman əsgər və zabitlərini, bütün hərbi qulluqçularımızı ürəkdən təbrik edir, Azərbaycanın milli maraqlarının və hərbi təhlükəsizliyinin qorunması naminə şərəfli missiyalarını həyata keçirməkdə onlara yeni uğurlar arzulayırıq! *(Alqışlar.)*

Hörmətli həmkarlar, bununla da bizim iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Növbəti iclasın vaxtı ilə bağlı sizə məlumat veriləcək. Sağ olun.

# ALTINCI ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN NÖVBƏDƏNKƏNAR XIII SESSİYASI İCLASININ

# PROTOKOLU № 140

*Milli Məclisin iclas salonu.*
*6 iyul 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 98 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 91 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Rəşad Orucov**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti sədrinin birinci müavini.

**Kəmalə Qurbanova**, Azərbaycan Respublikası Mərkəzi Bankının departament direktoru.

**Məmməd Abbasbəyli**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi.

**Əhməd Həsənov**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin şöbə müdiri.

**Rasim İsmayılov**, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"nə dəyişiklik haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

2. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

3. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. Azərbaycan Respublikasının "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 140-VQD nömrəli, "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 141-VQD nömrəli, "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının Qa-

nunundа dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 142-VQD nömrəli, "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 143-VQD nömrəli, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 144-VQD nömrəli, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 145-VQD nömrəli və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 146-VQD nömrəli qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

9. "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

10. "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

11. "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

12. "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

13. “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

14. “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

15. “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

16. “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

17. “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

18. “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

19. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

20. “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

21. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

22. “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azər-

baycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

23. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

24. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

25. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

26. "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

27. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

28. "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

29. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

30. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

31. Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

32. “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

33. “Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

Fransa da Təhlükəsizlik Şurasının daimi üzvlərindən biridir. Bir dövlət ki soyqırım siyasətini, bir dövlət ki irqi ayrı-seçkilik siyasətini, rasizmi özünün dövlət siyasətinin əsas istiqamətinə çevirib, belə bir dövlətdən dünyanın təhlükəsizliyi üçün nə gözləmək olar? Təbii ki, heç bir şey. Elə bu səbəblərdən də dünyamız bu gündədir. Məşhur ifadədə deyildiyi kimi, “təhlükənin olduğunu hiss etməmək özü ən böyük təhlükədir”. Bu gün dünyamız ona görə böyük təhlükə içərisindədir ki, onun təhlükəsizliyinə təminat verənlərin özü dünya üçün ən böyük təhlükə

mənbələrindən birinə çevrilibdir. Dünən cənab Prezidentin çıxışı beynəlxalq ictimaiyyət üçün həm də çox ciddi bir mesaj idi. Cənab Prezidentin dünənki çıxışı Ermənistan, onun siyasi hərbi rəhbərliyi üçün son dərəcə ciddi xəbərdarlıq idi. Əvvəlcə beynəlxalq ictimaiyyət məlumatlandırıldı ki, Ermənistan hələ də 10 noyabr sənədinin ən mühüm bəndlərini icra eləmir, hələ də Qarabağda qeyri-qanuni silahlı qüvvələr saxlayır və belə olan vəziyyətdə Azərbaycan özündə o hüququ saxlayır ki, istənilən yolla, həm də hərbi yolla məsələləri...

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov. Buyurun.

**V.Əhmədov**. Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli millət vəkilləri, hörmətli mətbuat. Fransada ötən ayın sonunda 17 yaşlı Əlcəzairli gəncin öldürülməsi ilə başlayan etiraz dalğası ölkədə böyük qarşıdurmaya səbəb olmuşdur. Bu hadisə Fransada fərqli millətlərə qarşı etnik nifrət, dözümsüzlük və zorakılıq hallarının pik həddə çatdığını göstərir. Afrika ölkələrində törətdiyi qətliyamlara baxmayaraq, özünü demokratiya və insan haqlarının nümayəndəliyi kimi təqdim edən dövlətin öz xalqı ilə bu cür rəftarı Makron hökumətinin əsl simasını nümayiş etdirir. Makronun hakimiyyətə gəlişindən sonra bu kimi halların artması onun ikiüzlü siyasətindən xəbər eləyir. 44 günlük müharibə dövründə, eləcə də müharibədən sonrakı dövrdə ermənilərə açıq dəstəyi əsirgəməyən, işğalçı dövlətə həmrəylik nümayiş etdirən Makron bu gün də erməni faşizminin əsas himayədarlarından biridir. Azərbaycan ilə iqtisadi münasibətləri yüksək səviyyədə olmasına baxmayaraq, Makron hökuməti erməni diasporunun sifarişi ilə Azərbaycan əleyhinə çıxışlar edərək danışıqlar prosesində ədalətli mövqe əks etdirmir və ölkədə ortaya çıxan etiraz dalğası minlərcə insanın qorxmadan çölə çıxmasına səbəb

oldu, fransa xalqının humanist və demokratik prinsiplərə sadiqliyini bir daha göstərdi. Əlbəttə, bu kimi hadisələrin bir daha təkrarlanmaması üçün bütün dünya Fransa xalqına bu məsələdə açıq dəstəyini bildirməlidir.

Azərbaycan bu məsələdə öz qəti mövqeyini ortaya qoydu. Milli Məclisin məsələ ilə bağlı beynəlxalq təşkilatlara müraciəti törədilən cinayətin bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırılması baxımından vacib əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Bakıda keçirilən nazirlər görüşündən sonra Fransanın ikiüzlü siyasətini sərt tənqid etdi. İlham Əliyev çıxışında Fransada hökm sürən irqçilik və islamofobiyaya diqqət çəkərək BMT-nin polisin atəş açmasını pisləyən bəyanatından xeyli danışdı. Dövlət başçısı, həmçinin Fransanın bu müstəmləkə keçmişini bir daha yada saldı, qanlı müstəmləkə cinayətlərinə və törədilən aktlarına görə Qoşulmama Hərəkatının üzvü olan Afrika, Cənub Şərqi və Asiya və digər ölkələrdən üzr istəməyə çağırdı. Hesab edirəm ki, Fransa dövləti bu kimi aksiyalardan nəticə çıxarmalı və dünya ictimaiyyətində olan demokratiyanı öz ölkəsində tətbiq etməlidir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Son vaxtlar istər sosial şəbəkədə, istərsə də cəmiyyətdə müzakirə olunan məsələlərin mənasızlığını araşdırıb səbəblərini öyrənmək istədiyimdə bir şey aydın olur. Niyə cəmiyyət bir müğənninin yazıçılar birliyinə üzv olmasını, yaxud da Söyüdlüdə baş verən hadisələri, yaxud da Şəmkirdə hansısa bir iş adamının 250 min dollara xaricdən müğənni gətirib sünnət toyunda oxutmasını müzakirə eləyir? Bunun bir səbəbini mən özüm üçün müəyyən elədim ki, biz ciddi məsələləri hər

hansı bir şəkildə rəsmi və ictimai auditoriyada müzakirəyə çıxartmadığımıza görə bu məsələlər daha çox aktuallıq kəsb edir. Ciddi məsələlər nədir? Bu yaxınlarda Azərbaycanın təhsil naziri bildirdi ki, dərslərin sentyabrın 1-dən başlamasının tərəfdarıdır. Dərs saatları itirilməsin. Hər kəsə bəllidir ki, iyun ayında dərs keçirilmir. Bu, çox ciddi, təhsillə bağlı vacib məsələlərdən biri idi və müzakirə dayandı. Heç bir inkişaf etdirilmədi, qaldı.

Ciddi məsələlərdən biri odur ki, Böyük Britaniyanın "World University Rankings" nəşri 2023-cü ildə dünyanın ən yaxşı universitetləri sırasında Qazaxstanın doqquz şəhərindən top 1000-nə daxil olan 21 universitetin adını qeyd eləyib. Azərbaycan universiteti burada yoxdur. Müstəqilliyin 30-cu ilində bir Azərbaycan universitetini biz bu siyahıya daxil edə bilməmişik. Səbəbi də odur ki, universitet ancaq tələbədən yığılan təhsil haqqı hesabına ayaqda qalır və universitetlərdə elmi-tədqiqatlar üçün büdcədən bir qəpik də pul ayrılmır. Məsələnin mahiyyəti budur. Bu ciddi məsələlər müzakirə olunmur.

Ciddi məsələlər daha nədir? Azərbaycanın blokadada olan bölgəsi Naxçıvana bilet məsələsidir. Doğrudur, dünən də "AZAL" böyük təzyiqlərdən sonra açıqlama verdi ki, onlayn bilet məsələsi həllini tapır. İllərdir, bu açıqlamanı verir, amma bu təyyarə məsələsi həll olunmur. Səbəbi nədir? Səbəbi birbaşa korrupsiya ilə bağlıdır. Səbəbi odur ki, böyük reysləri, – İstanbul reysinə qeyd edirlər, – Gürcüstandan İstanbula 100 manat, Azərbaycandan 700 manatdır. Deməli, bunun üzərindən pul tuturlar. Ona görə də Naxçıvana gedəndə 20 manat qazanırsan. Fikirləşir ki, bu reyslərin çoxunu başqa yerə yönəldim, 300-400 manat qazanım. Belə olmaz. Naxçıvan həm də Dağlıq Qarabağ məsələsini həll edəndən sonra Qarabağ regionunda Azərbay-

canın müqayisə barometridir. Biz kommunikasiyanı elə bir şəkildə həll eləməliyik ki, orada yoxsulluq içində yaşayan əhali sıxıntı çəkməsin. Məsələnin mahiyyəti budur. Ona görə də ciddi məsələlərin müzakirəsinə, nəhayət ki, başlamaq vacibdir. Diqqətinizə görə  sağ olun.

**Sədrlik edən.** Sağ olun. Kamal Cəfərov. Buyurun.

**K.Cəfərov**. Çox sağ olun, hörmətli xanım sədr. 2019-cu ildə Qoşulmama Hərəkatına üzv ölkələrin yekdil qərarı ilə Azərbaycan təşkilata sədr seçiləndə bəziləri bu təşkilatın və təşkilata rəhbərliyin strateji əhəmiyyətini düzgün qiymətləndirə bilmədilər. Nəzərə alsaq ki, İkinci Qarabağ müharibəsi zamanı və 2022-ci ildə BMT-nin Təhlükəsizlik Şurasında məhz Qoşulmama Hərəkatı ölkələrinin dəstəyi ilə Azərbaycan əleyhinə olan birtərəfli və qərəzli bəyanatların qəbul edilməsinin qarşısı alındı. BMT-dən sonra ən böyük üzvə malik ikinci beynəlxalq təşkilat Qoşulmama Hərəkatıdır, 120 üzvü var. Nəzərə alsaq ki, hazırda BMT adekvat olmayan fəaliyyəti ilə yeni dünya nizamında öz səmərəliliyini itiribdir. Bu gün tam əminliklə demək olar ki, Azərbaycan dünyanın ən nüfuzlu, güclü beynəlxalq təşkilatına rəhbərlik edir. Bu isə Azərbaycanın təkcə regional formatda deyil, həm də yeni dünya nizamında tutduğu güclü mövqeyi göstərir. Əlbəttə, bütün bu uğurlar Azərbaycan Prezidenti cənab İlham Əliyevin uzaqgörən və müdrik siyasətinin nəticəsidir.

Azərbaycan təşkilata rəhbərlik etməyə başlayanda, siz də yaxşı bilirsiniz ki, dünya COVID-19 pandemiyası ilə üz-üzə qaldı. Dünya ölkələri nəinki beynəlxalq təşkilatlar formatında, öz daxillərində bu pandemiyaya qarşı mübarizə aparmaqda çətinlik çəkirdi. Belə mürəkkəb vəziyyətdə COVID-19 pandemiyasına qarşı mübarizədə qlobal səyləri birləşdirən ilk  təşkilat Qoşulmama Hərəkatı oldu. Azər-

baycanın təşəbbüsü ilə ilkin olaraq Qoşulmama Hərəkatının liderlər səviyyəsində onlayn sammiti, daha sonra isə BMT Baş Assambleyasının xüsusi sessiyası keçirildi. Eyni zamanda, Azərbaycan 80-dən çox ölkəyə maliyyə və humanitar yardım göstərdi. Bununla da Azərbaycan göstərdi ki, qlobal problemlərə qarşı səyləri birləşdirmək ona qarşı mübariz aparmağın ən səmərəli üsuludur. Azərbaycan Prezidenti təşkilatın institusional davamlılığını təmin etmək üçün Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Gənclər Təşkilatı yaradıldı, indi isə qadınlar şəbəkəsi yaradılacaq. Dünən təşkilatın Əlaqələndirmə Bürosunun nazirlər görüşü keçirildi. Cənab Prezident həmin görüşdə bir neçə qlobal məsələ barədə konkret və hədəfli mesajlar verdi. Hesab edirəm ki, bunlardan biri də Ermənistan işğalının mənfi fəsadı olan minalarla bağlıdır.

Bildiyimiz kimi, mina nəticəsində 300 azərbaycanlı həlak olub və ya ağır yaralanıbdır. Minalar, eyni zamanda, yenidənqurma prosesi və keçmiş məcburi köçkünlərin azad edilmiş ərazilərə qayıdışını ləngidir. Bunu nəzərə alaraq Azərbaycan öz milli dayanıqlı inkişaf məqsədini müəyyənləşdirib, eyni zamanda, qlobal səviyyədə də minatəmizləmənin 18-ci dayanıqlı inkişaf məqsədi olması təklifini irəli sürmüşdür. Cənab Prezident bu sahədə bizim də parlament diplomatiyası çərçivəsində həyata keçirdiyimiz fəaliyyət üçün yeni dəqiqləşmiş hədəf qoydu və biz də çalışmalıyıq ki, müxtəlif beynəlxalq sənədlər, yazılı bəyanatlar, hesabatlar və müxtəlif alətlər vasitəsi ilə minatəmizləməni 18-ci dayanıqlı inkişaf məqsədi etməyə nail olaq. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli media nümayəndələri! Mən

də deputat həmkarlarımın dediklərinə qoşuluram. Bakıda keçirilən bu möhtəşəm tədbir Azərbaycanda olan ictimai-siyasi sabitliyin, Azərbaycanda olan tolerantlığın göstəricisidir. Cənab Prezidentin orada ətraflı çıxışı, bilavasitə yeni təkliflər verilməsi, həmişə olduğu kimi... Xüsusilə də Fransanın cinayət, soyqırım törətdiyi ölkələrdən üzr istəməsi məsələsi, doğrudan da, bu gün dünyanın yeniliklərindəndir. Mən hesab edirəm ki, elə Ermənistan da Fransadan dərs götürüb sülh müqaviləsi imzalananda Azərbaycan xalqından bu illər ərzində törətdiyi soyqırıma görə üzr istəməlidir. Vətəndaşların, dinc sakinlərin öldürülməsinə, işgəncə verilməsinə görə üzr istəməlidir. Bundan sonra isə bağlanacaq müqavilələrdə gələcək fəaliyyət öz əksini tapmalıdır.

İkinci bir məsələ. Fransa bu sülh müqaviləsinə qoşulduğu müddətdə, mən belə başa düşürəm ki, bu sülh müqaviləsi imzalanmayacaq. Dərhal bir şərt qoymalıyıq ki, Fransa bu məsələdən çıxmalıdır. Makron erməni diasporu ilə görüşündə çox utanmazcasına bir ifadə işlədir və deyir: "Mən Ermənistanın baş nazirindən daha çox Azərbaycana təzyiq göstərirəm". Bu ifadəni işlədən adam ədalətli sülhə nail ola bilərmi? Qəti şəkildə yox. Yəni bu adam özü deyir ki, mən sizin xeyrinizə bu məsələni həll etmək istəyirəm. Yuyulmamış çömçə kimi həmişə ortaya özünü atır. Hansı ölkədə görüş keçirilirsə, Makron o tərəfdən çıxır. Vaxtı ilə burada Rəhim Qazıyev var idi. Nə iclas gedirdi, özünü gətirib soxurdu ora. Elə həmin xarakter də Makrondadır. Deməli, hara gedir, ermənilərin böyrünə gəlib çıxır. Qardaş, Ermənistan istəyirsən, apar, özünə birləşdir, Fransaya birləşdir. Köçün, gedin. İmkan verin ki, özümüz öz məsələlərimizi həll edək. Yaxşı danışıqlar gedir, Amerika, ayrı-ayrı dövlətlər, Türkiyə dəstək verir. İnsanlar ədalətli

sülh istəyir. Bu ədalətli sülhün bağlanmasına Fransa imkan vermir və bilir ki, bu ədalətli sülhün olmaması elə əsas ermənilərin özünə ziyandır, ən çox ermənilərə ziyan vurur. Bu saat ən çətin vəziyyətdə yaşayan ermənilər özləridir. Oradan-buradan yardım almaqla yaşamaq mümkün deyil. O baxımdan da mən hesab edirəm ki, bizim Xarici İşlər Nazirliyi qəti şəkildə məsələ qoymalıdır ki, Fransa, ümumiyyətlə, bu işə qarışmamalıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc**. İyunun 24-də Prezident İlham Əliyev İrəvana ardıcıl səfərlər edən beynəlxalq missiyaların məqsədlərini ifşa edərək dedi: "Ermənistana baş çəkən rüşvətxor Avropa məmurları və deputatları sərhəddə şəkillər əkdirir, bizə mesajlar ünvanlayırlar". Ölkə rəhbərinin hədəfində Avropa Parlamentinin mandatı altında silahlanan bir qrupun olduğu şübhəsizdir. Xatırladaq ki, Avropa Parlamentinin alt komitəsinin sədri Natali Loazo 6 nəfərlə birlikdə iyunun 19-da Laçın sərhədinə gələrək 4 aydır orada keşik çəkən Avropa İttifaqının missiyası ilə birləşdilər. Zəngəzurda "Qarabağ köçkünləri" ilə görüşərək sərhəddə və Laçın buraxılış məntəqəsinə beynəlxalq qüvvələrin yeridilməsini və BMT-nin təcili qətnaməsini tələb etdilər. Natali Loazo dedi ki, rus sülhməramlı qüvvələrini Laçın postundan başqa hər yerdə görüb. Halbuki Azərbaycan o məntəqədə bayraq qaldırmağa cəsarət edib.

Göründüyü kimi, 30 ildir, Xankəndiyə qanunsuz gələnlərin yolu bağlanıb və sülhməramlı olmayanlar Rusiya hərbi kontingentini regiondan çıxarıb NATO-nu yerləşdirmək, sərhədi döyüş xəttinə çevirmək niyyətindədirlər. İyunun 22-də AŞPA və Avropa Parlamentinin Laçın yolunun açılmasını tələb edən qətnamələri sinxron, vahid mərkəzdən idarə olunurdu və erməni mediası Azərbaycan nüma-

yəndə heyətinin 60 təklifindən heç birinin qəbul olunmamasını bayram etdi. Elə həmin gün ABŞ Konqresinin 54 üzvü Co Baydendən Azərbaycana hərbi yardımı dayandırmağı və Xankəndiyə dəstək göstərməyi xahiş etdilər.

Bəs Natali Loazonun özü kimdir? Fransanın hakim Respublika hərəkatının üzvü, qəddar türkofob, islamofob, afrikalılarla bağlı aşağılayıcı irqçi açıqlamaların müəllifi, səfir vəzifəsində çalışarkən maliyyə cinayətlərini açıqlayan işçisini intihara sövq edən şəxs. Natali Loazo Laçına həmin məntəqəyə 4 dəfə deputat seçilən, sabiq, xüsusi xidmət əməkdaşı, Fransanın Balkanlarda casusu erməni Arnaud Danjiyanla birlikdə gəlib. İyunun 24-də 1906-cı ildən fəaliyyət göstərən ümumerməni xeyriyyəçilik ittifaqı onun şərəfinə Fransada Paris meri  Valeri Pekresin iştirakı ilə şükranlıq naharı verib. Dövlət başçısı məhz Pekresi nəzərdə tutaraq "hünəriniz varsa, bir də gəlin, görək, sonra axırınız necə olacaq" dedi.

Beləliklə, sual olunur. Nə üçün avropalı deputatlar öz ölkələrinin sərhədlərini Yaxın Şərqdə devirdikləri hakimiyyətlərdən və xaosdan sonra rezin qayıqlarla gələn yüz minlərə açmırlar? Necə olur ki, onların ərazisi suveren və toxunulmazdır? Bizə gəldikdə isə hamısı sərhədsiz reportyor, həkim, diplomatdırlar? Belə beynəlxalq səfərlər üçün hazırlanan sərhəd təxribatları və qətnamələr Avropa dəyərlərinin alınıb satıldığını göstərir. Vaxtı ilə Amerikanın İraqa hücumunu dəstəkləyən Şərqi avropalı və keçmiş Sovet rəhbərlərini suçlayan Jak Şerak demişdir: "O liderlər ən yaxşı şanslarını – susmaq imkanlarını itirdilər". İndi qlobal erməni millətinin Avropa Parlamentindəki siyasi korrupsiya şəbəkəsi sülh prosesinə zərbə vurmaqla separatizmin qərb tərəfindən müdafiə olunduğunu göstərdikləri üçün gərək danışmasınlar. Bəli, 1990-cı illərin staravoyto-

valarını indi loazolar əvəzləyib. Təşəkkür edirəm, hörmətli sədr. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Musa Qasımlı. Buyurun.

**M.Qasımlı.** Hörmətli xanım sədr, Qoşulmama Hərəkatının Bakıda keçirilən toplantısında cənab Prezidentimiz İlham Əliyevin böyük tarixi əhəmiyyət daşıyan nitqi ilk növbədə müasir beynəlxalq münasibətlərin mahiyyətini açmaq, köhnəlmiş BMT Təhlükəsizlik Şurasında islahatların aparılması zəruriliyinin bir daha bəyan edilməsi baxımından qiymətlidir. Bu, bir daha göstərdi ki, cənab Prezidentimiz dünya məsələlərinə aydın baxışı olan islahatçı dünya lideridir.

İkinci. Nitqdə müsəlmanların müqəddəs kitabı olan Qurani-Kərimin yandırılmasına etiraz edilməsi bir daha təsdiq etdi ki, ölkəmiz dünya müsəlmanlarının hüquqlarını və İslam dəyərlərini qoruyan öncül ölkədir.

Üçüncü. Cənab Prezidentimiz bu nitqi ilə Fransanı, Emanuel Makronu onurğasından, iliyindən vurdu. İndiyədək Fransa heç bir beynəlxalq toplantıda bu cür siyasi-diplomatik zərbə almayıb. Dövlət başçımız Makrona ustad dərsi keçdi, yerini göstərdi. Bir daha bildirdi ki, Makronun və indiki Fransanın demokratiyadan, insan hüquqlarından, ədalət, qardaşlıq və bərabərlikdən danışmağa haqqı yoxdur. Nəhayət, cənab Prezidentimiz bu nitqi ilə Azərbaycan dövlətini Ermənistanla gələcək siyasətinin əsas ana xətlərini bir daha elan etdi. Bu da ondan ibarətdir ki, Ermənistan Azərbaycanın daxili işlərinə qətiyyən qarışmamalı, terrorçu tör-töküntülərini ərazimizdən çıxarmalıdır. Yoxsa Azərbaycan sərt güc tətbiq etməyə məcbur olacaq. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, biz gündəliyin məsələlərinə keçirik. Bu gün bizim 49 məsələmiz

var. Gündəliyin 1-ci məsələsi "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"nə dəyişiklik haqqında" Protokolun təsdiq edilməsi barədə qanun layihəsidir. Bildiyiniz kimi, qanun layihəsi beynəlxalq sənədlə bağlı olduğuna görə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək.

Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədr müavini hörmətli Əli Məsimliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Məsimli,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, deputat həmkarlarım, hökumət nümayəndələri, media mənsubları! Azərbaycan qeyri-neft ixracının artımı üçün əlverişli şəraitin yaradılması məqsədi ilə xarici ölkələrlə ticarət əlaqələrinin inkişaf etdirilməsi istiqamətində mütəmadi tədbirlər həyata keçirir. Həmin tədbirlər çərçivəsində ölkəmizin bağladığı və hazırda qüvvədə olan 10 ölkə ilə sərbəst ticarət, habelə bir çox ölkələrlə ikitərəfli ticarət və ya ticarət-iqtisadi əməkdaşlıq sahələrini tənzimləyən sazişlərə əlavə olaraq Azərbaycan əsas ticarət tərəfdaşlarından olan Türkiyə ilə Preferensial Ticarət Sazişi imzalanmışdır. 2020-ci il fevralın 25-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi" 2020-ci il 31 may tarixində qanunla təsdiq olunmuşdur. Hər şeydən əvvəl qeyd edim ki, preferensial rejim dedikdə malların hərəkətində tariflərin azaldılması və ya ləğvi və qeyri-tarif maneələrinin ləğvi yolu ilə razılığa gələn tərəf tərəfindən bu saziş çərçivəsində verilmiş hər hansı güzəşt və ya üstünlük başa düşülür.

Saziş, əsasən, bir sıra kənd təsərrüfatı və yeyinti məhsullarının idxalına tətbiq edilən gömrük rüsumlarının qarşılıqlı surətdə azaldılmasını əhatə edir. Sazişin 1 nömrəli əlavəsində həmin məhsulların dəqiq siyahısı göstərilib. Əlavələrdə sadalanan 15 növ kənd təsərrüfatı məhsulu və digər Azərbaycan və türk mənşəli mallarının qarşılıqlı preferensial ticarət rejimi tətbiq edilməklə ticarəti həyata keçiriləcəkdir.

Preferensial Ticarət Sazişinin məqsədi mallar üzrə tariflərin azaldılması və ya ləğv olunması, para tariflərinin və qeyri-tarif maneələrinin ləğv olunması, iqtisadi əlaqələrin harmonik inkişafı vasitəsi ilə ticarətin genişləndirilməsi və təşviq edilməsi, ədalətli rəqabət üçün əlverişli şəraitin yaradılması, ticarətin davamlı artımı üçün proqnozlaşdırıla bilən və təhlükəsiz mühitin yaradılmasıdır. Tərəflərin qarşılıqlı razılığı ilə bu sazişin ayrılmaz tərkib hissəsi olan ayrıca protokollar da tərtib edilə bilər və bu gün müzakirə etdiyimiz həmin protokol məhz həmin qəbildən olan sənəddir. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"nə dəyişiklik haqqında" Protokol 2023-cü il aprelin 29-da Samsun şəhərində imzalanmışdır.

Əlavələrdə sadalanan əlavə yeni 15 növ Türkiyədən Azərbaycana və Azərbaycandan Türkiyəyə idxal ediləcək sənaye və digər mallara preferensial ticarət rejimi çərçivəsində tətbiq ediləcək güzəştlər göstərilmişdir. Burada spirtli içki növləri, yarımfabrikatlar, karton malları, qablaşdırma və bükmə üçün avadanlıq, müxtəlif növ aparatura və sair kimi mallar daxildir.

Hörmətli sədr, qeyd etmək istəyərdim, bu strukturu qiymətləndirmək lazımdır ki, başqa ölkələrlə olan ticarət rejimindən, yaxud da strukturundan fərqli olaraq məhz bu

strukturda Azərbaycanda qeyri-neft sektorunun, Türkiyə ilə ticarətin genişləndirilməsi bizim müəyyənləşdirilmiş hədəflərə çatmaqda böyük bir təkan olacaq. Hədəflər ambision xarakter daşısa da, iki ölkənin potensialına layiqdir. Yaxın illərdə ticarət dövriyyəmizi 15 milyard dollara çatdırmaq – hesab edirəm ki, bu iki qardaş ölkə bunun öhdəsindən gələcək. İkinci hədəf isə qeyri-neft sektorunda həm istehsalın genişləndirilməsi, həm ixracın genişləndirilməsi, həm də assortimentin artırılmasıdır. Hörmətli sədr, bunun əhəmiyyəti ondan ibrətdir ki, biz burada yaxşı bir təcrübə qazanacağıq. Həmin təcrübə Avropadaxili yeni regionlara təkcə neft-qaz məhsulları ilə deyil, qeyri-neft məhsulları ilə çıxışımıza böyük təkan verəcək. Bu cür mühüm qanun layihəsinin qəbul edilməsinə deputat həmkarlarımı səs verməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Ona görə, Səməd müəllim, mən xahiş edirəm, Siz komitənin rəyini bildirin, buyurun.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Tamamilə haqlısınız, biz də komitədə bu məsələyə baxmışıq. Əli müəllim çox düzgün qeyd etdi. Bu saziş bizim əlaqələrimizi yeni bir mərhələyə yüksəldir və komitənin bütün üzvləri yekdilliklə bunun qəbul olunmasının tərəfdarıdır. Ona görə xahiş edirəm, öz müsbət münasibətinizi bildirəsiniz. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Müzakirəyə başlayırıq. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev**. Təşəkkür edirəm, hörmətli sədr. Hörmətli həmkarlar, media nümayəndələri! Hörmətli sədr, ilk öncə bir məsələyə diqqətinizi cəlb etmək istəyirəm. Çox təəssüf ki, həmkarlarım başqa məsələlərə toxunsa da, vacib bir məsələyə toxunmadılar. İyun ayında Berlin şəhərində iki olimpiya oyunları – Avropa oyunları və xüsusi olimpiada keçirilib. Mehriban xanımın təşkilatçılığı ilə Bakıda keçirilmiş Birinci Avropa oyunlarında biz 56 medal qazanmışdıq. Həmin tədbir yüksək səviyyədə təşkil olunmuşdu. Amma üçüncü oyunlarda biz cəmi 11 medal qazanmışıq, yəni 5 dəfədən də az. Bu bizi ciddi narahat etməlidir. Amma buna baxmayaraq, mən olimpiadada qalib gəlmiş idmançıları, onların məşqçilərini təbrik edirəm. Hesab edirəm ki, müvafiq dövlət orqanları bu barədə ciddi düşünəcəklər.

Mən deputat həmkarım Fazil Mustafanı xüsusi təbrik etmək istəyirəm. Onun rəhbərlik etdiyi xüsusi olimpiadada tam fəaliyyət qabiliyyəti olmayan uşaqlar iştirak edirdilər. Əslində belə uşaqlara xüsusi diqqətin göstərilməsi dövlətin inkişaf səviyyəsinin ən böyük göstəricisidir. 49 idmançıdan 24-ü qalib gəlib və MDB üzrə medal qazanıb. MDB üzrə birinci yeri tutmuşuq. Almaniyada həmin yarışlarda 200 ölkə iştirak edirdi.

Müzakirə olunan məsələ ilə bağlı, hörmətli Sahibə xanım, Azərbaycan dövləti türk dövlətlərinin inteqrasiyasına, türk dövlətləri təşkilatlarının yaranmasına xüsusi töhfə verib. Mən hesab edirəm ki, əlbəttə, biz bu protokolu təsdiq etməliyik və bunu alqışlayırıq. Amma Türkiyə ilə Azərbaycan arasında münasibətlər daha yüksək səviyyəyə qaldırılmalıdır. Mən hesab edirəm ki, Azərbaycan ilə Türkiyə Avropa Birliyi modelində birlik yaratmalıdırlar, vahid valyuta, vahid gömrük siyasəti, gömrük sərhədləri.

Gələcəkdə bura digər türk respublikaları və slavyan respublikaları da qoşula bilər. Biz bu istiqamətdə ciddi şəkildə çalışmalıyıq. Bu, həm iqtisadiyyatımızın inkişafına töhfə verər, həm də bizim təhlükəsizliyimizi təmin etmiş olar.

Burada hörmətli həmkarlarım qeyd etdilər. Dünən Qoşulmama Hərəkatının toplantısında cənab Prezident çıxış etdi və Fransanı ciddi tənqid etdi. Amma mən fikir verdim ki, bu bizdə erməni və fransız bacılardan daha çox ermənipərəst qərb dairələrinə xidmət edən daxildəki insanları narahat edib. Dünən bütün internet-televiziyalarda ölkə Prezidentinə çağırışlar edilirdi ki, siz təcili Ermənistanla sülh sazişi bağlamalısınız. Sanki bu sülh sazişini bağlamayan bizik, günah bizdədir, yəni dünyaya belə bir mesaj ötürülürdü. Yazıqlar olsun o insanlara. Özü də o insanlar hətta çalışırdılar ki, başqalarına vətənpərvərlik dərsi keçsinlər. Ona görə də bizim güclü müttəfiqlərə və türk dövlətlərinin inteqrasiyasına böyük ehtiyacımız var. Ona görə də mən səs verəcəyəm və hökuməti də bu barədə ciddi düşünməyə çağırıram. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**Sədrlik edən.** Çox sağ olun, qanun layihəsi qəbul edildi. Hörmətli həmkarlar, gündəliyin 2-ci məsələsindən baş-

layaraq növbəti 37 məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə bağlıdır. Xatırladım ki, bu qanun layihələri bank işi sahəsində tənzimləmənin və nəzarətin təkmilləşdirilməsi, maliyyə bazarlarında sabitliyin təmin olunması və bu sahədə xidmətlərdən istifadə edənlərin hüquqlarının qorunması ilə bağlıdır.

Qeyd edim ki, təqdim olunan qanun layihələrinin 27-si, yəni 2-ci qanun layihəsindən başlamış 28-ci məsələyə qədər üçüncü oxunuşda təqdim edilir. 29-cu məsələdən başlayaraq növbəti 10 məsələ isə uyğunlaşdırma və dəqiqləşdirmə xarakteri daşıyır. Ona görə də bir oxunuşda qəbul ediləcək.

Hörmətli həmkarlar, nəzərinizə çatdırım ki, qanun layihələrinə Milli Məclisin 4 komitəsində baxılmışdır. Təklif edirəm, həmişə olduğu kimi, biz əvvəlcə həmin komitələrin təqdimatlarını dinləyək. Qeyd edim ki, 26 məsələyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Bu məsələlərə dair məlumat vermək üçün, Əli Məsimli, mən yenə də Sizdən xahiş edirəm, buyurun, məlumat verin. Deməli, 26 məsələyə sizin komitə baxıb. Buyurun, 26 məsələyə dair məlumat verin.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Qanuna təklif olunan dəyişikliklər barədə həm birinci oxunuş, həm də ikinci oxunuş zamanı xeyli dərəcədə əhatəli məlumat verilib. Həmin məlumatlarla yanaşı, qaldırılan məsələlərə dair isə Mərkəzi Bankın sədri çox əhatəli şəkildə açıqlamalar verib. Mən, sadəcə, qısa bir arayış vermək istərdim ki, bu qanun layihəsinin qəbul edilməsi nəticəsində Mərkəzi Bankın məqsəd və funksiyalarının daha səmərəli həyata keçirilməsi üçün çox etibarlı hüquqi bir zəmin

yaranacaq. Əgər bundan əlavə hansısa çıxışlar olsa, məsələlər qalxsa, Mərkəzi Bankın təmsilçiləri həmin suallara da cavab verməyə hazırdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hələ səsə qoya bilmirik. Mən dedim, bütün komitələr hamısı təqdimatlarını eləsinlər. 9 məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Mən sözü Kamal Cəfərova verəcəyəm. Kamal müəllim, Siz 4-cü, 6-cı, 20-ci, 25-ci, 27-ci, 28-ci, 29-cu, 30-cu və 31-ci məsələlər haqqında məlumat verəcəksiniz. 9 məsələdir.

**K.Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, xanım sədr. Qeyd etdiyiniz kimi, bütün məsələlərlə bağlı hər hansı rəy və təklif olmadığından olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** 19-cu məsələyə Səhiyyə komitəsində baxılıb. Mən hörmətli Əhliman Əmiraslanova söz vermək istəyirəm. Əhliman müəllim, buyurun.

**Ə.Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. "Tibbi sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi də ikinci oxunuşda müzakirə edildikdən sonra komitəyə irad və təkliflər daxil olmamışdır. Xahiş edirəm, qanun layihəsini səsə qoyasınız.

**Sədrlik edən.** Çox sağ olun. 32-ci məsələyə, Tahir müəllim, sizin komitənizdə baxılıb. Tahir Rzayev, Aqrar siyasət komitəsinin sədri. Buyurun, Tahir müəllim.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Hörmətli sədr, burada Sizin tərəfinizdən, digər deputat həmkarlar tərəfindən qanunlara edilmiş təkliflər haqqında ətraflı məlumat verildi. "Aqrar sığorta haqqında" Qanuna edilmiş dəyişikliklər əsasında "müvafiq icra hakimiyyəti

orqanının müəyyən etdiyi orqan" sözləri "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri ilə əvəz olunur. Bu, qanuna uyğundur. Ona görə də səs verilməsini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, son 11 məsələyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Əli müəllim, bu 11 qanun layihəsi haqqında, buyurun, komitənin rəyini bildirin.

**Ə.Məsimli.** Hörmətli sədr, 2-ci məsələni müşayiət edən qanunlarda bir xətt gedir. Təklif olunan dəyişikliklərə əsasən "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri ilə əvəz edilir. Bu, uyğunlaşma və dəqiqləşdirmə xarakteri daşıyan məsələlər silsiləsindəndir ki, sonrakı bir oxunuşda qəbul etdiyimiz həmin sənədlərə dair normativ hüquqi aktlardır. Bunların da ikinci məsələyə uyğun surətdə qəbul edilməsini deputat həmkarlarımdan xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, heç kimin sualı yoxdur, çıxış etmək istəyən də yoxdur. Mən qanun layihələrini ardıcıl olaraq səsə qoyacağam.

Xahiş edirəm, 2-ci məsələyə münasibət bildirin. Bu, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.47 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə mən 3-cü məsələni səsə qoyuram. "Banklar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.47 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

4-cü məsələni səsə qoyuram. Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.47 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 5-ci məsələni – Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

6-cı məsələni səsə qoyuram. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

7-ci məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti 8-ci məsələ “Bank olmayan kredit təşkilatları haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Səsə qoyuram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
| --- | --- |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə “Kredit ittifaqları haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini səsə qoyuram. Bu bizim 9-cu məsələmizdir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
| --- | --- |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə “Poçt haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini səsə qoyuram. 10-cu məsələmizdir.

| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 11-ci məsələni səsə qoyuram. Münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 12-ci məsələyə – "Kredit büroları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
13-cü məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 14-cü məsələyə – "İnvestisiya fondları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
15-ci məsələni səsə qoyuram. "Qiymətli kağızlar bazarı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 16-cı məsələni – "Sığorta fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini mən səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

17-ci məsələyə keçirik. "İcbari sığortalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 18-ci məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti qanun layihəsi "Tibbi sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu bizim 19-cu məsələmizdir. Səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

20-ci məsələyə – "Publik hüquqi şəxslər haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ 21-ci məsələdir. "Sahibkarlıq fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Xahiş edirəm, səs verin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

22-ci məsələyə – "Hesablama Palatası haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ 23-cü məsələdir. “Mühasibat uçotu haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

24-cü məsələyə keçirik. Bu, “Dövlət satınalmaları haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

25-ci məsələyə keçirik. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| --- | --- |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi, çox sağ olun.

26-cı məsələyə keçirik. "Auditor xidməti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Münasibət bildirin, səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| --- | --- |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

27-ci məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
| --- | --- |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

28-ci məsələyə keçirik. “İcra haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verMədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi, çox sağ olun.

29-cu məsələyə keçirik. Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Səsə qoyacağam. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

30-cu məsələyə keçirik. İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

31-ci məsələ Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

32-ci məsələni səsə qoyuram. "Aqrar sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

33-cü məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

34-cü məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

35-ci məsələyə keçirik. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

36-cı məsələ "Reklam haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

37-ci məsələni səsə qoyuram. Bu da "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Nəhayət, 38-ci məsələyə, xahiş edirəm, münasibət bil-

dirin. Bu da “Büdcə sistemi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Münasibət bildirin, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də qəbul edildi.

Hörmətli həmkarlar, bizim 11 məsələmiz qalır. Bu məsələlərin hamısı ikinci oxunuşda olan qanun layihələridir. Biz indi gündəliyin 39-cu məsələsinə keçirik. Bu məsələ “Dərman vasitələri haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, məsələnin müzakirəsi ilə əlaqədar Azərbaycan Respublikası səhiyyə nazirinin müavini Rasim İsmayılov iclasımızda iştirak edir. Mən qonağımızı da salamlayıram.

Hörmətli həmkarlar, qanun layihəsinə Milli Məclisin Səhiyyə komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Əhliman müəllim, mən Sizdən xahiş edirəm. Buyurun, məlumat verin.

**Ə.Əmiraslanov.** Çox təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli millət vəkilləri, media nümayəndələri. 2023-cü il iyunun 23-də tarixində “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə edilərək yekdilliklə qəbul edilmişdir. Müzakirələr zamanı deputat həmkarlarımdan Tahir Kərimli, Etibar Əliyev,

Azər Badamov, Razi Nurullayev, Tahir Mirkişili, Qənirə Paşayeva və Rəşad Mahmudov layihə ilə bağlı fikirlərini söyləmiş və layihəni dəstəkləmişlər. Eyni zamanda, çıxış edən millət vəkilləri ölkəmizə idxal olunan dərman vasitələrinin qiymətlərinin yüksək olması və keyfiyyətinin qənaətbəxş səviyyədə olmaması ilə bağlı problemləri də səsləndirmişlər.

Həmçinin bildirmək istərdim ki, 2 gün öncə iyul ayının 4-də keçirilən Səhiyyə komitəsinin iclasında bu qanun layihəsi komitəmizin üzvü olmayan, lakin plenar iclasda çıxış etmiş və komitə iclasına dəvət olunmuş deputat həmkarlarımın da iştirakı ilə bir daha geniş müzakirə edilmiş, suallar ətraflı şəkildə cavablandırılmışdır. İstər plenar iclasda, istərsə də komitə iclasında deputat həmkarlarımın səsləndirdiyi fikirlərin böyük əksəriyyətinin sözügedən qanun layihəsinin predmetinə deyil, bu sahədə həllini gözləyən ümumi problemlərə aid olduğunu nəzərə alaraq suallara bugünkü iclasımızda iştirak edən səhiyyə nazirinin müavini hörmətli Rasim İsmayılovun da münasibət bildirməsini məqsədəuyğun hesab edirəm.

Qısa şəkildə onu demək istərdim ki, bu layihə qəbul olunduğu təqdirdə dərman vasitələrinin beynəlxalq tanınma sisteminə keçirilməsi, sadələşdirilməsi, rəqabət mühitinin dairəsinin genişləndirilməsi kimi mexanizmlərin işə düşməsi ilə dünyanın aparıcı dərman vasitələri istehsalçılarının məhsullarına əlçatanlıq təmin olunacaq.

Yeni dəyişikliklərin məqsədi də məhz həmkarlarım Tahir Kərimli, Etibar Əliyev, Razi Nurullayev və Tahir Mirkişili tərəfindən qaldırılan problemlərin bilavasitə həllinə yönəlib. Digər həmkarım Azər Badamovun icbari tibbi sığorta çərçivəsində xüsusi reseptlə apteklərdə satılan dərmanları daha ucuz qiymətə əldə etmək üçün bu

qanuna dəyişiklik edilməsi təklifi ilə bağlı deməliyəm ki, bu məsələ sözügedən qanunun predmeti deyil, bu güzəşt icbari tibbi sığorta zərfində nəzərdə tutulmamışdır, lakin gələcəkdə bu məsələyə yenidən baxıla bilər.

Ötən plenar iclasda dəyərli həmkarım Qənirə Paşayevanın səsləndirdiyi fikirlərin mövcud qanunvericilikdə hansı formada tənzimlənməsinə də aydınlıq gətirmək istərdim. Qənirə xanımın “dərmanların keyfiyyətsizliyi ilə bağlı cəza mexanizmi nədən ibarətdir, bioloji aktiv qida əlavələrinin reseptə yazılması ilə bağlı məsuliyyət yaradan məhdudlaşdırıcı və ya tənzimləyici norma varmı?” suallarına cavab olaraq bildirmək istərdim ki, İnzibati Xətalar Məcəlləsinin “Dərman vasitələri haqqında qanunvericiliyin pozulması” adlanan 221.1-ci maddəsi, Cinayət Məcəlləsinin isə “Dərman vasitələrinin qanunsuz dövriyyəsi” adlanan 200-1-ci maddəsi ilə müvafiq hüquqi tənzimləmələr qanunvericiliyimizdə təsbit olunmuş və sərt məsuliyyət tədbirləri nəzərdə tutulmuşdur.

Qənirə xanımın digər fikrinə də sırf qanunvericilik müstəvisində münasibət bildirmək istərdim. Daha konkret desək, bioloji aktiv qida əlavələrinin reseptə yazılmasını məhdudlaşdıran tənzimləyici normanın da İnzibati Xətalar Məcəlləsində təsbit olunmasını qeyd etməliyəm. Belə ki, 221.9-cu maddəyə əsasən bioloji fəallığa malik qida əlavələrinin həkim reseptinə yazılmasına görə sözügedən qanunda müvafiq sanksiyalar nəzərdə tutulmuşdur.

Nəhayət, deputat Rəşad Mahmudovun hər iki iclas zamanı səsləndirdiyi və yazılı şəkildə müvafiq qanunvericilik şöbəsinə təqdim etdiyi əlavələr və təkliflər qanunvericilik təşəbbüsü subyekti ilə geniş müzakirə olunmuş, lakin əlavə və təkliflər məqsədəmüvafiq hesab edilməmişdir.

Sonda bir daha əminliklə qeyd etmək istərdim ki, möv-

cud qanunvericilikdə kifayət qədər sərt məsuliyyət tədbirləri nəzərdə tutulmuşdur. Bununla belə, layihənin qəbul edilməsi ona görə vacibdir ki, yeni dəyişikliklər bu sahədə mövcud olan problemlərin həllini sürətləndirəcək. Ən əsası isə yeni qəbul ediləcək normalar hüquqi tənzimləmənin səmərəliliyini təmin etməklə yanaşı, məsuliyyət yaradan normaları daha işlək edəcəkdir.

Hörmətli millət vəkilləri, qanun layihəsini ikinci oxunuşda da dəstəkləməyinizi xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Hörmətli həmkarlar, ikinci oxunuşdur, ona görə qanun layihəsini müzakirədən əvvəl əsas kimi qəbul etməliyik. Buyurun, mən qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---:|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs verмədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Yazılan var. Rəşad Mahmudov. Buyurun, Rəşad müəllim.

**R.Mahmudov.** Çox təşəkkür edirəm. Çox hörmətli xanım sədr, dəyərli millət vəkilləri. Mən də hörmətli Əhliman müəllimin bir az əvvəl dilə gətirdiyi "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanun layihəsinin hazırlanmasını dövrün tələblərinə uyğun vacib bir vəzifə olduğunu bildirmək istəyirəm. Qanun

layihəsini dəstəkləməklə yanaşı, dövrümüz üçün çox vacib olan bu sənədə bütün millət vəkillərini də dəstək verməyə çağırıram.

Ümumiyyətlə, mən bəzi məqamlara, millət vəkilləri və cəmiyyət arasında dolaşan bəzi fikirlərə aydınlıq gətirmək üçün bir neçə nöqtəyə toxunmaq istəyirəm. Hər zaman müqayisə olunan Türkiyə ilə bağlı 2022-ci ilin bir rəqəmini demək istəyirəm. Türkiyə Cümhuriyyətinin dərman vasitələrinə 2022-ci ildə xərclədiyi rəqəm 7 milyard dollardır. Bunun 5,4 milyard dolları idxal olunmuş dərman vasitələridir. Yəni dünya dərman istehsalında 21-ci yerdə olan Türkiyə kimi bir dövlət belə, ehtiyacı olan dərmanın 80 faizindən çoxunu, dərman vasitələrini idxal etmək məcburiyyətindədir. Bu, bir göstəricidir.

İkinci. Cəmiyyət və deputatlar arasında da bəzən səhv anlaşılmaya və buna görə də cəmiyyətə fərqli mesajlar verilməsinə səbəb olan digər bir məsələ odur ki, istehsalçı ilə istehlakçı arasında olan zəncirin mahiyyətinin insanlar tərəfindən anlaşılmasında bəzən çətinlik çəkilir. Əlbəttə ki, dərman vasitəsinin qiyməti qədər daha vacib olan digər amil onun təhlükəsizliyidir. Mən bir həkim kimi onu demək istəyirəm ki, bu təhlükəsizlik məsələsi ən vacib məsələlərdən biridir. Diqqətinizə çatdırmaq istəyirəm ki, aptek və xəstəxanalar əgər bu zəncirin beş parçasının içərisində birinci hissədirsə, topdansatış məntəqələri, ölkələrə bu dərman vasitələri idxal edən distribütor və yerli şirkətlər həmin zəncirin digər hissələridir və bunlar bəzən qarışdırılır.

Mən başqa bir parametr haqqında da danışacağam. İstehsalçı ölkələr, hansı ki, istehsal edib bizə keyfiyyətli dərmanın gəlməsini təmin edirlər, bu 4 faktor arasında hamının bilməsi lazım olan ən vacib məsələ, əslində, bu

qanun layihəsini də labüd edən vacib məsələlərdən biri istehsalçıların rəsmi nümayəndəliklərinin ölkələrdə olmasıdır. Bu gün dünyada ilk onluq var ki, o onluğun nümayəndəliklərinin bu gün Azərbaycanda, ölkəmizdə olmasına görə bu qanun layihəsi, əslində, bu qədər önəm daşıyır. Onların ölkəmizdə nümayəndəliklərini açması geridə qalan digər yüzlükdə iştirak edən nümayəndəliklərin də fəaliyyətinin tənzimlənməsinə və ölkələrdə işin daha yüksək səviyyədə həyata keçirilməsinə ciddi bir töhfə verir.

Vurğulamaq istədiyim məsələ nədir? Rəsmi nümayəndəlik heç bir zaman satışla məşğul olmur. İstənilən dərman vasitəsinin satışını edən, idxal edən depolar və eləcə də idxalçı distribütorlardır. Amma burada əsas rəsmi nümayəndəliyin funksiyalarıdır. Bu gün dövlətin də əsas məqsədlərindən biri odur ki, həmin nümayəndəliklərin fəaliyyətini, əsasən də, ilk onluqda olanların... 2015-ci ildə qiymət sərhədi bəlirləyərkən biz keyfiyyət standartlarını qoymadığımıza görə, əslində, onlar qiymətə görə deyil, keyfiyyətin standartlarının olmadığına görə bəzi qurumların mərkəzlərini qapatma reallığı ilə üz-üzə idik.

Mən millət vəkillərinə bildirmək istəyirəm ki, bugünkü qanunvericilikdə olan bir çox rahatlamalar həmin nümayəndəliklərin ölkəmizə gəlməsi üçün imkan yaradacaq və həmin nümayəndəliklərin gəlişi, əmin olun, dövlətin aidiyyəti strukturlarında təhlükəsizliyin təmini, yəni istehsalçıdan son nöqtəyə qədər gedən yolda, hətta xəstə dərmanı istifadə etdikdən sonra formakoloji nəzarəti belə onlar həyata keçirirlər. Bu bizim ölkəyə aid bir şey deyil, qardaş Türkiyədə də, Avropa ölkələrində və dünyanın hər yerində də bu, məhz bu şəkildə həyata keçirilir. Bəzən firma adı altında hədəf keçirilən hadisələrdə ölkəyə cari olaraq bunu gətirən, idxal edən şirkətlərlə rəsmi nümayən-

dəlikləri qarışdırmamaq lazımdır. Çünki rəsmi nümayəndəliklər, yenə də deyirəm, hər bir ölkə üçün təhlükəsizlik mənbəyidir. Bu, bəzən çox yerlərdə qarışdırılan bir mövzu olduğuna görə mən bunu dilə gətirmək istəyirəm.

Qanun layihəsinin bütün müddəaları, ümumilikdə, işin tənzimlənməsinə böyük dəstək verəcək. Amma mən fürsətdən istifadə edərək narahat olduğum iki məsələni bir daha dilə gətirmək istəyirəm. Bu, əslində, bugünkü səsvermənin və ya qanun layihəsinin qəbul olunmasına təsir edən bir hadisə deyil, amma çox vacibdir. Həkim məsuliyyətini, ölkədəki reallıqları və dünyadakı vəziyyəti hiss edərək bunları dilə gətirmək istəyirəm. Bunlardan biri nədir? İlk başda hamıya məlum olan reseptlərdə dərmanların əmtəə nişanı, yəni dünyada və ölkəmizdə rəsmi şəkildə tanınmış əmtəə nişanlarında həkim tərəfindən yazılmasının əngəllənməsi. İlk başda hədəf nədir? Həkimlərlə dərman firmaları arasında ola biləcək xoşagəlməyən hadisələr varsa, onun qarşısının alınması kimi bir məqsəd güdülür. Bunu çox dəyərli nazir müavini Rasim müəllim də demişdi. Amma dünya təcrübəsindən başqa bir həqiqəti deyim. Əgər məqsədimiz təhlükəsizliyin təmini və optimal qiymətə nail olmaqdırsa, bir neçə narahatedici məqam var və bunu bilməyimiz mütləq lazımdır. Çünki bunu keçən ölkələr bunun reallığını artıq yaşayıblar. Biz yenidən bunu yaşamasaq, daha yaxşı olar. Bu mövzu nədir? Əgər bir əmtəə nişanının rəsmi şəkildə yazılmasına icazə verilmirsə, həmin əmtəə nişanı sahibi olan dünya liderlərinin rəsmi nümayəndəlikləri həmin ölkələrdə öz fəaliyyətlərini məhdudlaşdırmağa çalışırlar. Əslində, əsl problem ondan sonra əmələ gəlir. Çünki birinci məqsəd hər bir ölkədə rəsmi nümayəndəliklərin daha çox olmasına nail olmaqdır, bir az əvvəl dediyim kimi, zəncirin pozulmamasına görə-

dir. İkinci, onunla birlikdə bu gün Azərbaycanda ilk onluq olmasa belə, 250-yə yaxın rəsmi nümayəndəlik var və onların hər birində 15, 20, 30 xüsusi hazırlanmış ixtisasçılar var. Onlar satışla məşğul deyillər. Onlar dərmanın son nöqtəyə qədər gedən bütün zəncirini izləyərək problemlərin həlli ilə məşğul olurlar və dövlətin aidiyyəti orqanları üçün çox ciddi faydalı iş görürlər.

Mənim vurğulamaq istədiyim məsələ nədir? Bu qanun layihəsi qəbul olunsa belə, gələcəkdə onların gəlişinə əngəl yaradan, əslində, bu gün qanun layihəsinin içərisində olan 80-dən çox maddəyə də zərər vermək ehtimalı var. Çünki təməl hədəf onların burada nümayəndəliklərinin, ofislərinin açılmasına nail olmaqdır. Çünki Türkiyə bu yolla vəziyyətdən çıxdı və onların dəstəyi ilə 100-dən çox böyük qlobal şirkətin fabrikləri və istehsal müəssisələri açıldı.

Digər bir məsələ. Əlbəttə, bu gün biz həkimlə firma arasında olan əlaqəyə görə narahatıq. Buna görə həll yolu tapılırmı? Çox gözəl fikir kimi görünür, amma unudulmamalı olan digər bir həqiqət var. Həkimlərin yazısı zamanı, tutaq ki, üçlü dərman icazə verilir. İkili dərmanlar içərisində faiz dərəcədə ola biləcək hər hansı bir səhv... Yaxud o səhvi oxumaqla əlaqədar həkim reseptlərində yazılış qaydalarını hamımız bilirik. Verilən səhv dərman nəticəsində... Təsiredici maddənin qarışdırılma ehtimalı var. Çünki bizim apteklərdə bəzən o səviyyədə hazır kadrlar olmur ki, o səhvə yol verməsinlər. Bunlar gələcəkdə problemlər yaratmaqla birlikdə həm də nümayəndəliklər deyil, idxalçı dərman şirkətləri ilə həmin aptek nümayəndələri arasında daha xoşagəlməyən sui-istifadələrin olması üçün bir şərait yarada bilər deyə, mən ən azından problem ola biləcək bu hadisəni dilə gətirməyi

özümə borc bilirəm.

Əminəm ki, biz bütün bunlarla bu gün cənab Prezident tərəfindən həyata keçirilən dövlət səhiyyə siyasətinin daha yüksək səviyyədə reallaşdırılmasına nail olacağıq. Mən fürsətdən istifadə edərək bütün həmkarlarımı da bu qanun layihəsinə dəstək verməyə çağırıram. Təşəkkür edirəm, minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Fəzail müəllim, sualınız, təklifiniz var, deyəsən. Buyurun.

**F.Ağamalı.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Mənim sualım var. Hörmətli səhiyyə nazirinin müavininin burada iştirakından istifadə edərək sual vermək istəyirəm. Milli Məclisin deputatlarının bir çoxu hökumətin hesabatında dərmanın qiyməti ilə bağlı konkret təkliflərlə çıxış etdilər. Onlardan da biri, təbii ki, mən idim. Xaricdən idxal olunan dərmanların rüsumunun aşağı salınması və ya onun satışında əlavə dəyər vergisindən azad edilməsi təklifləri irəli sürülmüşdür. Mən bilmək istərdim ki, Səhiyyə Nazirliyi bununla bağlı müvafiq qurumlarla danışıqlar aparırmı? Bununla bağlı vermiş olduğu təkliflər hansı səviyyədədir? Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov.

**V.Əhmədov.** Çox sağ olun. Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri. Hörmətli Əhliman müəllim qanun layihəsi barədə geniş məlumat verdi. Mənim qanun layihəsinə ciddi iradım yoxdur. Səs verəcəyəm, həmkarlarımı da səs verməyə çağırıram. Amma burada səhiyyə nazirinin müavini iştirak etdiyi üçün bir neçə məsələyə aydınlıq gətirmək istərdim. Dərman vasitələri ilə əlaqədar mən bir neçə əsas şirkət rəhbərləri ilə görüşmüşəm. Müəyyən arayışlar var, təqdim ediblər. Bir sıra məsələləri ön plana çıxarırlar ki, niyə Azərbaycanda dərman qıtlığıdır,

niyə qiymətlər yüksəkdir, niyə uzun müddət bu proseslər uzanır və sair. Niyə məsələlər  öz həllini tapmır?

Birincisi, Azərbaycana gətirilən dərmanların, ümumiyyətlə, sertifikasiyası çox ciddi bir məsələyə çevrilib. Yəni elə dərmanlar var ki, onları sertifikasiyadan keçirmək üçün aylarla vaxt gözləyirlər. Elə dərman vasitəsi var, 6 aydan sonra faktiki olaraq qeydiyyatdan keçirilir, ona sertifikat verilir ki, satışa buraxmaq olmaz. Bu məsələ niyə belə uzunmüddətlidir? Dünya sisteminə baxırıq. Ümumiyyətlə, beynəlxalq təbabətdə tanınmış dərmanların sertifikata da ehtiyacı yoxdur, onlar birbaşa satışa buraxılırlar. Niyə bu Azərbaycanda həyata keçirilmir?

İkincisi. Bilmirəm, bu dərman qıtlığı son  vaxtlar nədən yaranıb? Çox ciddi dərman qıtlığı var. Bir sıra apteklərdə hətta adi baş ağrısı və digər dərmanları da tapmaq mümkün deyil. Bu nə ilə əlaqədardır? Dərman qıtlığının yaranması və dərmanların keyfiyyəti məsələsi çox ciddi məsələdir. Adi aptekdən dərman alırsan, təsir göstərmir. Yəqin, həmkarlarım bilirlər, "Alman apteki" var, dərmanı oradan alırsan, tamamilə başqa cür təsir göstərir, təsir səviyyəsi kifayət qədər yüksəkdir. Yəni niyə bu qədər fərq var? Gətirilən dərmanların keyfiyyətində ciddi problemlər aşkara çıxarılır. Yəni əgər bu laboratoriyadan keçirilirsə, laboratoriyalarda yoxlanılırsa, niyə bu dərmanların keyfiyyəti aşağı səviyyədə olur və insanların sağlamlığına müsbət təsir göstərə bilmir?

Mən dərmanların qiyməti ilə əlaqədar məsələyə də toxunmaq istəyirəm. Keçən dəfə də hörmətli Əhliman müəllim bu məsələyə toxundu və dedi ki, Azərbaycan hökuməti əhalinin bu məsələ ilə əlaqədar tələbatını və sorğularını nəzərə alaraq, hansısa bir layihə hazırlayır. O layihə bu günə qədər bizə məlum deyil. Hansı layihədir? Niyə

uzun müddətdir, hazırlanır və bizə təqdim olunmur, əhaliyə təqdim olunmur? Baxaq, görək, bu dərmanların qiyməti Azərbaycanda niyə belə yüksəkdir? Çünki Azərbaycanda, açığını deyim ki, dərmanı almaq imkanlarına malik olmayan kifayət qədər əhali var. Ona görə də dərmanın qiyməti məsələsi bizim üçün bu dəqiqə çox önəmli məsələlərdən biridir. Biz neçə dəfə demişik. Elə məhsullar var ki, onları əlavə dəyər vergisindən, idxal vergilərindən azad etmək lazımdır. Ümumiyyətlə, əgər Azərbaycanda belə yüksək qiymətlər varsa, onları gömrük rüsumlarından, vergilərdən azad etmək lazımdır.

Çox uzağa getməyək. Gürcüstanın dərmanla əlaqədar çox gözəl təcrübəsi var. Türkiyə ilə müqavilə bağladılar. Əsas dərmanları Türkiyədən alıb gətirirlər və Gürcüstanda tavan qiymətləri tətbiq eləməyə başladılar. Yəni o qiymətdən yuxarı heç bir aptek, heç bir əczaçı dərmanı sata bilmədi. Azərbaycan Türkiyə ilə dost dövlətdir, bizim əsas tərəfdaş dövlətimizdir. Türkiyə ilə niyə bu müqavilələr imzalanmır və sair həyata keçirilmir? Nəhayət, Azərbaycan hökuməti nə vaxt bu qərar layihəsini bizə təqdim edəcək, baxaq, görək ki, doğrudan da, dərmanların qiymətinin sabitləşməsi üçün, əlçatanlığı üçün hansı addımlar atılacaq? Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Rasim müəllim, mən Sizə söz vermək istəyirəm, buyurun.

**R.İsmayılov,** *Azərbaycan Respublikası səhiyyə nazirinin müavini.*

Təşəkkür edirəm, çox hörmətli xanım sədr.

**Sədrlik edən.** Rasim müəllim, mən çox üzr istəyirəm. Bir dəqiqə. Əhliman müəllim, Sizin sözünüz var idi?

**Ə.Əmiraslanov**. Mən indiki çıxışlarla bağlı bir neçə məsələyə münasibətimi bildirmək istəyirəm. Hörmətli

Vahid müəllimin dərmanların qiymətləri ilə, keyfiyyəti barədə qaldırdığı məsələ ilə əlaqədar demək istəyirəm ki, doğrudan, bu problemlər var. Sahibə xanım, nə qədər ki biz əsas dərmanları xarici ölkələrdən idxal eləyəcəyik, bu problem həmişə qalacaq. Dərmanların həm keyfiyyətinin yüksəldilməsi, həm qiymətlərinin aşağı düşməsi və digər çatışmazlıqlar bu gün ölkəmizdə dərman istehsalının, demək olar ki, olmaması ilə bağlıdır. İstərdim qeyd edim ki, artıq ölkəmizdə bu istiqamətdə ciddi addımlar atılmağa başlayıbdır. Mən Ələt Azad İqtisadi Zonasının rəhbəri hörmətli Valeh müəllimdən dəqiq məlumat almışam. Orada dünyanın dörd tanınmış dərman şirkəti fabrik quraşdıracaq və əsasən, ölkəmiz üçün lazım olan dərmanların istehsalı artıq Azərbaycanda həyata keçiriləcək. Deyilənlərin hamısı düzdür. Bunların bəziləri haqda indi Rasim müəllim də məlumat verəcək, suallara cavab verəcək. Bu çatışmazlıqların obyektiv, bəzilərinin də subyektiv səbəbləri var. Əsas səbəbi dərmanların tam əksəriyyətinin xaricdən ölkəmizə gətirilməsidir.

Hörmətli Rəşad müəllimin çıxışı ilə bağlı mən qeyd edim ki, bu məsələ komitə iclasında çox geniş müzakirə olundu, komitə iclasımız iki saat çəkdi və çox geniş müzakirə olundu, bütün suallar dəqiqləşdirildi. Əmtəə nişanı və dərman formasının göstərilməsi məsələsi geniş müzakirə olundu. Bütövlükdə, komitənin də, qanunvericilik təşəbbüsü subyektinin də fikri ondan ibarətdir ki, əmtəə nişanından daha vacib məsələ dərman formasının, yəni təsiredici maddənin dərmanların üzərindən götürülməsidir. Yalnız dərman əmtəə nişanının götürülməsi, – mən burada çox geniş danışmaq istəmirəm, – xeyli neqativ hallara yol açır. Bu barədə geniş danışmaq olar. Ona görə biz qanunvericilik təşəbbüsü subyektinə müraciət elədik. Bununla

bağlı qanunvericilik təşəbbüsü subyektinin fikri konkretdir ki, bu, qanunda olduğu kimi qalmalıdır. Bu iki məsələyə aydınlıq gətirmək istərdim. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Rasim müəllim, buyurun.

**R.İsmayılov**. Təşəkkür edirəm, çox hörmətli xanım sədr. İlk növbədə Sizə və hörmətli millət vəkillərinə bu qanun layihəsinə böyük həssaslıqla yanaşmalarına görə dərin təşəkkürümü bildirirəm. Birinci oxunuşda millət vəkillərinin qaldırdığı məsələlərin, eyni zamanda, bu gün qaldırılan məsələlərin eyni məzmunlu olduğunu və vaxt məhdudiyyətini nəzərə alaraq, mən bu suallara qruplaşdırılmış formada cavab vermək istəyirəm. Suallar, əsasən, səkkiz istiqamət üzrədir və onların hər birinə öz fikrimi bildirməyə çalışacam.

Birinci. Keçən müzakirələr zamanı və indi də dərman vasitələrinin qıtlığının səbəbi ilə bağlı fikir səsləndi. Dərman vasitələrinin ölkəmizdə qıtlığının bir çox səbəbi var. Bizim təhlillərimiz göstərir ki, burada səbəblərin əsas ikisi vacib əhəmiyyət kəsb eləyir. Birincisi, beynəlxalq bazarlarda baş verən qeyri-sabitlikdir. COVID-19 pandemiyasından başlayan dünya təchizat zəncirinin qırılması, son zamanlar baş verən geosiyasi hadisələrlə əlaqədar, – mən burada Rusiya və Ukrayna arasında olan hərbi əməliyyatları xüsusi qeyd eləmək istəyirəm, – enerji daşıyıcılarının bahalaşması, dünya üzrə xammalın qıtlığı, qablaşdırma materiallarının və logistik xərclərin artması bütün sahələrdə olduğu kimi dərman vasitələrinin istehsalına da öz mənfi təsirini hələ də göstərməkdə davam edir. Bəzi hallarda istehsalçılar öz öhdəliklərini yerinə yetirməkdən qismən imtina edirdilər, bəzi hallarda isə, ümumiyyətlə, öhdəliklərini icra etmirdilər. Təchizat zəncirinin qırılması və xüsusilə də xammal qıtlığı səbəblərindən bir çox isteh-

salçılar yeni sifarişləri, ümumiyyətlə, qəbul etmədilər. Son zamanlar bu istiqamət üzrə dünya bazarlarında hiss olunan sabitləşmə bizə deməyə əsas verir ki, yerli idxalçılar, – biz idxalçılarla çox sıx əlaqədəyik və onlarla mütəmadi olaraq görüşürük, – bütün zəruri tədbirləri görərək etibarlı təchizat zəncirini təmin edəcəklər. Bu, əsas məsələlərdən biridir.

İkinci əsas məsələ isə, hörmətli millət vəkillərinin də qeyd etdiyi kimi, hazırda dərman vasitələrinin tənzimlənməsində qüvvədə olan qanunvericiliyin günün tələblərinə cavab verməməsidir. Dərman vasitələrinin qeydiyyat prosedurunun müddətinin çox olması, – bu məsələni Vahid müəllim də qaldırdı, – tələb olunan sənədlərin sayı və digər səbəblər təklif olunan layihədə tam nəzərə alınmışdır. Hesab edirik ki, əgər bu qanun layihəsində düzəlişlər qəbul olunarsa, bu istiqamətdə irəli atılmış kifayət qədər ciddi addımlar olacaq. Yəni qeydiyyat prosesi sadələşəcək və sürətlənəcəkdir.

Keçən müzakirələrdə qaldırılan növbəti məsələ qiymətlərin tənzimlənməsi və zərurət yarandıqda Tarif Şurası tərəfindən qiymətlərin tənzimlənməsində çevikliyin artırılmasıdır. Bununla əlaqədar bildirmək istəyirəm ki, Tarif Şurası tərəfindən beynəlxalq təcrübədə tətbiq olunan referans qiymət yanaşması metodologiyası tətbiq olunur. Bu tənzimləmə, hörmətli millət vəkilləri, bir çox inkişaf etmiş ölkələrdə, o cümlədən Avstriya, İspaniya, İtaliya, Belçika və digər inkişaf etmiş ölkələrdə də həyata keçirilir. Eyni zamanda, Ümumdünya Səhiyyə Təşkilatı istehlakçılar və səhiyyə sistemi üçün dərman vasitələrinin əlçatanlığının təmin edilməsi məqsədi ilə dərman vasitələrinin qiymətlərinin tənzimlənməsini tövsiyə edir. Bu baxımdan hesab edirik ki, dərman vasitələrinin Tarif Şurası tərəfindən

tənzimlənməsi indiki halda ən düzgün həll yoludur. Bəli, tənzimlənən qiymətlərin əlçatan olması üçün tənzimlənmə mexanizmlərinin və meyarlarının daim təkmilləşdirilməsinə ehtiyac var. Bu istiqamətdə də Səhiyyə Nazirliyi Tarif Şurası ilə və digər aidiyyəti dövlət qurumları ilə çox sıx əməkdaşlıq edir. Hazırda zərurət olduqda Səhiyyə Nazirliyinin müraciəti və rəyi əsasında Tarif Şurası sağlamlıq baxımından əhəmiyyət kəsb eləyən dərman vasitələrinin qiymətinə operativ şəkildə yenidən baxır və yeni qiymətləri müəyyən edir.

Növbəti məsələ dərman vasitələrinin qiyməti məsələsidir. Bu, keçən müzakirələrdə də qaldırılmışdı, bu gün də hörmətli millət vəkilləri tərəfindən səsləndirildi. Bəli, son zamanlarda ən çox müzakirə olunan və hörmətli millət vəkillərimiz tərəfindən də bu iclaslarda, bundan əvvəlki müzakirələrdə qaldırılan məsələ dərman vasitələrinin qiymətidir. Mən bildirmək istəyirəm ki, ümumiyyətlə, istənilən məhsulun, əgər bu məhsul dərman vasitəsi kimi strateji məhsuldursa, belə məhsulun qiymətinin formalaşmasında bir neçə amilə xüsusi diqqət yetirmək lazımdır. Bu amillər nədir? Qiymətini müəyyən etdiyimiz, müqayisə etdiyimiz dərman vasitələri həmin ölkənin daxili istehsalıdır və yaxud həmin ölkəyə idxalla daxil olur. Qiymətini müqayisə etdiyimiz ölkə dərman vasitələri üzrə özünün daxili tələbatının neçə faizini təmin edir? Qiymətini müqayisə etdiyimiz ölkədə dərman vasitələrinin qiymət tənzimlənməsi proseduru necədir və hansı vergi dərəcələri tətbiq olunur? Qiymətləri müqayisə olunan iki dərman vasitəsi eyni ölkənin istehsalıdır, yoxsa deyil? Ən əsas məsələlərdən biri: qiymətini müqayisə etdiyimiz ölkədə əhali sayı bizim ölkənin əhali sayı ilə uyğundur, yoxsa deyil?

Qeyd etdiyim kimi, Səhiyyə Nazirliyi idxalçılarla gö-

rüşlərini mütəmadi formada keçirir və biz onların qayğıları ilə bağlı tam məlumatlıyıq. Böyük istehsalçılar kiçik sifarişlərin qəbul olunması üçün çox sərt tələblər qoyur. Məsələn, müəyyən saydan az sifariş qəbul etmirik, yaxud sifarişi ən geci 6 ay, 8 ay əvvəldən təqdim eləməlisiniz. Bütün bu amillər dərman vasitəsinin qiymətinin formalaşdırılmasına çox ciddi təsir edir. Lakin mən əsla o fikirdə deyiləm ki, bizdə belə hallar yoxdur. Bildirmək istəyirəm ki, Səhiyyə Nazirliyinin müvafiq strukturları bu məsələ ilə əlaqədar daim təhlillər aparır, dünyada, qonşu ölkələrdə, bizim partnyor ölkələrimizdə, Azərbaycanın qardaş ölkəsi olan Türkiyədə dərman qiymətləri haqqında məlumat bazasını toplayıb və biz zərurət olduqda Tarif Şurası ilə bu məsələləri çox operativ müzakirə edib həll yollarını tapırıq.

Dərman qiymətlərinin baha olmasını formalaşdıran fikirlərdən biri də bioloji fəallığa malik qida əlavələridir. Mən bu fikirlərimlə iki məsələyə toxunmaq istəyirəm. Birincisi, sizlər tərəfindən də dəfələrlə qaldırılan problemlərdən biri, – çox hörmətli Əhliman müəllim də bunu qeyd elədi, – bioloji fəallığa malik qida əlavələrinin reseptlərə yazılmasıdır. Bildiyiniz kimi, bioloji fəallığa malik qida əlavələri dövlət qeydiyyatına alınmır və qiymətləri Tarif Şurası tərəfindən tənzimlənmir. Bu da sahibkarların həmin məhsulları istənilən qiymətə satmasına yol açır. Nəticədə, əhalimizdə qida əlavələrinin deyil, dərman vasitələrinin qiymətinin baha olması haqqında bir fikir formalaşır. Yəni bu qida əlavəsi reseptə yazılır və sözsüz, insanlarda fikir oyanır ki, bu, dərmandır. Həmin qida əlavələrinin qiymətlərini digər ölkələrlə müqayisə edirlər və belə bir fikir formalaşır. Qanuna təklif olunan düzəlişdə elektron resept sisteminin tətbiq olunması nəzərdə tutulmuşdur ki, bu da həmin neqativ halların aradan qaldırılmasını tam təmin edəcəkdir.

Növbəti istiqamət şəxsi idxalla əlaqədardır. Bu məsələni millət vəkillərimiz qaldırmışdılar. Qeyd etmək istəyirəm ki, qüvvədə olan “Dərman vasitələri haqqında” Qanuna əsasən fiziki şəxslər tərəfindən şəxsi istifadə üçün zəruri miqdarda dərman vasitəsinin gətirilməsinə hər hansı məhdudiyyət yoxdur. Fiziki şəxs xarici ölkədə müalicə alırsa və həmin ölkədən dərman gətirirsə, buna hər hansı bir məhdudiyyət qoyula bilməz. Əksinə, biz yeni təkliflərimizdə Azərbaycanda müalicə alan pasiyentlər üçün qeydiyyatı olmayan və reseptdə yazılan dərman vasitələrinin sifarişi əsasında həmin pasiyent üçün ölkəyə gətirilməsi hallarını nəzərə almışıq. Bu nə deməkdir? Bu o deməkdir ki, əgər hər hansı bir şəxs Azərbaycanda müalicə alırsa, onun müalicəsi üçün təyin olunan dərman vasitəsi də dövlət qeydiyyatında yoxdursa və sözsüz, satışda yoxdursa, həmin şəxsin xarici ölkə ilə əlaqəsi yoxdursa, onun xarici ölkəyə getməsinə artıq zərurət yaranmır. Özü, yaxud hər hansı bir qohumu ölkədə dərman vasitələrinin idxalı ilə məşğul olan şirkətlərə müraciət edərək zəruri olan dərman vasitələrini öz müalicələri üçün ölkəyə gətizdirə bilərlər.

Növbəti məsələ keçən müzakirələrdə qaldırmışdıq, – bu gün də millət vəkillərimizin çıxışlarında bildirildi, – dərman vasitələrinin keyfiyyəti ilə bağlıdır. Həmçinin hörmətli Qənirə xanım “laboratoriyalar varmı və varsa, necə fəaliyyət göstərir?”, bu barədə öz fikirlərini bildirmişdir. Qeyd etmək istəyirəm ki, Azərbaycana rəsmi idxal olunan bütün dərman vasitələrinin nümunələri Səhiyyə Nazirliyinin müvafiq qurumu tərəfindən laborator müayinədən keçirilir, dərmanların istehsalçı tərəfindən müəyyən olunmuş texniki göstəricilərinə uyğunluğunu təsdiq edir. Bu tələb Nazirlər Kabinetinin müvafiq qaydasında öz əksini tapmışdır.

Hörmətli Qənirə xanımın qaldırdığı sualın ikinci hissəsi: Bəs belədirsə, bu qədər keyfiyyətsiz dərman vasitələri necə olur ki, bizim ölkəmizə gəlir? Çox haqlı sualdır. Bu sualın cavabı ilə əlaqədar iki məqama toxunmaq istəyirəm. Birincisi, yenə də bioloji fəallığa malik qida əlavələri ilə əlaqədardır. Qeyd etdiyimiz kimi, onlar reseptə dərman vasitəsi kimi yazılır. Sözsüz ki, onların hər hansı bir xəstəliyin müalicəsində təsiri kifayət qədər ola bilməz. Bəzi hallarda, ümumiyyətlə, təsiri yoxdur. Sözsüz ki, bu da əhalimizdə dərman vasitəsinin keyfiyyətsiz olması fikrini formalaşdırır.

Növbəti məsələ şəxsi məqsədlər üçün xaricdən gətirilən dərman vasitələridir. Yəni keyfiyyətsiz dərmanlar necə bazara gəlir, mən buna fikrimi bildirirəm. Şəxsi məqsədlər üçün gətirilən dərman vasitələri, etiraf edək ki, hamısı şəxsi məqsədlər üçün gətirilmir. Qanunvericiliyin vətəndaşlarımız üçün yaratdığı imkanlardan bəzi insanlar şəxsi maraqları üçün istifadə edirlər. Dərman vasitəsini şəxsi məqsəd adı ilə gətirən insanlar sonra həmin dərman vasitələrinin satışını hansısa bir formada təşkil edirlər. Şəxsi məqsədlər üçün gətirilən dərman vasitələrinin də laborator müayinəsinə qanunla ehtiyac yoxdur və nəticədə biz həmin dərman vasitələrinin keyfiyyəti barədə hər hansı bir zəmanət verə bilmirik. Biz düşünürük ki, bu məsələ, həqiqətən də, kifayət qədər ciddi məsələdir. Görüşlərdən sonra Səhiyyə Nazirliyi bu məsələnin həlli üçün həm Dövlət Gömrük Komitəsi ilə, həm də Qida Təhlükəsizliyi Agentliyi ilə birlikdə, hesab edirəm ki, kompleks tədbirlər görməlidir.

Növbəti sual daxili istehsal və azərbaycanlı iş adamları il əlaqədar idi. Bu məsələ haqqında da Əhliman müəllim kifayət qədər ətraflı məlumat verdi. Sadəcə, öz fikirlərimi

bildirmək istəyirəm. Dərman vasitələri ilə əlaqədar olan problemlərin fundamental həlli yolu daxili istehsalın genişləndirilməsi və idxaldan asılılığın minimuma endirilməsidir. Əsas yol bundan ibarətdir. Dərman təchizatının yaxşılaşdırılması və əczaçılıq məhsullarının idxaldan asılılığının azaldılması məqsədi ilə dövlət tərəfindən kifayət qədər ciddi sistemli işlər aparılır və ən yaxın zamanlarda bir neçə çox ciddi istiqamət üzrə Azərbaycanda dərman vasitələrinin istehsalına başlanılacaqdır. Bu, Ələt Azad İqtisadi Zonasında, digər azad iqtisadi zona və sənaye parklarında olan istehsalçılardır. Möhtərəm cənab Prezidentin tapşırığına əsasən yaradılmış həmin iqtisadi zonalar, sənaye parkları və həmin ərazilərdə tətbiq olunan güzəştlər, eyni zamanda, Azərbaycanın müasir nəqliyyat infrastrukturuna malik tranzit ölkəsinə çevrilməsi, ölkəmizdə olan çox münbit investisiya mühiti bir çox investorları, o cümlədən qardaş Türkiyədən olan istehsalçıları Azərbaycana cəlb edir. Belə istehsalçıların arasında azərbaycanlı iş adamlarının olması bizim üçün qürurvericidir. Biz həmin iş adamları ilə əlaqə yaradıb Azərbaycanda istehsal imkanlarını müzakirə etməyə hazırıq.

Hörmətli millət vəkilləri! Təklif olunan dəyişikliklər bizə gələcəkdə nəyi vəd edir? Əgər bu dəyişikliklər qəbul olunarsa, tanınma rejiminin tətbiqi bu sahədə beynəlxalq qurumlar tərəfindən qeydiyyata alınmış, inkişaf etmiş ölkələrdə istehsal olunmuş və istifadəsinə icazə verilmiş dərman vasitələrinin idxalını kifayət qədər sürətləndirəcək və ölkədə çeşid bolluğu yaradacaqdır. Qeyd etmək istəyirəm ki, tanınma rejiminin əhatə dairəsinə 38 ölkə, Avropa, Amerika, Yaponiya, Türkiyə kimi ölkələr və iki beynəlxalq qurum daxildir.

Eyni zamanda, hazırda burada qaldırılan məsələlər,

dərman vasitələrinin qiyməti... Tarif Şurası tərəfindən dərman vasitələrinin qiyməti sabit deyil, qiymətin yuxarı həddinin müəyyən olunması öz növbəsində sağlam rəqabət mühitinin yaranmasına və nəticədə daha keyfiyyətli dərman vasitələrinin daha ucuz qiymətə təklif olunmasına səbəb olacaqdır. Burada həm çeşid bolluğuna, eyni zamanda, ucuz qiymətə nail olmağa hədəflənmişik. Növbəti elektron resept, təqib və izləmə sisteminin tətbiqi ölkədə onlayn olaraq dərman vasitələrinin hərəkətinə, dövriyyəsinə və qalığına nəzarət etmək imkanı verəcək. Eyni zamanda, ölkəyə rəsmi idxal olunmamış keyfiyyətsiz dərman vasitələrinin, bioloji fəallığa malik qida əlavələrinin istifadəsini mümkünsüz edəcəkdir. Elektron reseptin tətbiqi, keçən müzakirələrdə qaldırılmış digər vacib bir məsələ olan antibiotiklərin və digər güclü təsiredici dərman vasitələrinin reseptsiz istifadəsinin qarşısını alacaqdır.

Düşünürəm ki, hörmətli millət vəkillərinin suallarına mümkün qədər cavab verməyə çalışdım. Sonda, hörmətli xanım sədr, hörmətli millət vəkilləri, sizdən bu qanun layihəsinə səs verməyi xahiş edirəm. Çox sağ olun, minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Rasim müəllim. Rasim müəllim, Siz indi dediniz ki, bəzi hallarda insanlar guya özlərinə dərman gətirirlər, ancaq həmin o dərmanlar sonra apteklərdə satışa çıxarılır. Bununla əlaqədar, qeyd etdiniz ki, Səhiyyə Nazirliyi tərəfindən Dövlət Gömrük Komitəsi ilə bir yerdə hansı isə tədbirlər görüləcək. Elə deyilmi, elə dediniz? Kompleks şəkildə. Çox yaxşı olardı ki, sonra bizə məlumat verilsin. Səhiyyə komitəsinə bu haqda məlumat verin. Çünki əsas məsələ ondan ibarətdir. Bu dərmanlar necə gəlir? Vətəndaşlar apteklərdən alırlar və onların də heç bir təsiri yoxdur. Xahiş edirik, bizə bununla bağlı

sonra məlumat verilsin. Hansı tədbirlər görülür və nəticə nədən ibarətdir? Hikmət müəllimin sualı, təklifi var. Hikmət müəllim, buyurun.

**H.Məmmədov.** Çox sağ olun, hörmətli xanım sədr. Mənim Rasim müəllimə bir neçə sualım var. Əgər qida əlavələri həkimlər tərəfindən reseptə dərman kimi yazılırsa və bu, vətəndaşlarda dərmanların keyfiyyətsiz olması ilə bağlı şübhələr yaradırsa, siz nazirlik olaraq neçə belə fakt aşkar etmisiniz və hansı cəza tədbirləri tətbiq etmisiniz? Bu, birinci sualım. Mən düşünürəm ki, Azərbaycan vətəndaşları kifayət qədər savadlıdırlar, onlar qida əlavəsinin dərman vasitəsi olduğu qənaətinə gələ bilməzlər. Belə nadir faktlar ola bilər.

İkinci məsələ. Deyirsiniz, vətəndaşlar şəxsi istifadə adı ilə dərman gətirirlər və sonra onları apteklərə satırlar, yəni alverlə məşğul olurlar. Neçə belə fakt var? Xahiş edirəm, statistikanı səsləndirin. Bu faktlarla bağlı nə qədər cinayət işi açılıbdır və hansı tədbirlər görülübdür? Xahiş edirəm, bu məsələyə aydınlıq gətirin.

Üçüncüsü. Deyirsiniz, xarici vətəndaş Azərbaycanda müalicə alırsa, belə çıxır ki, gedib xaricdən dərman gətirə bilər və yaxud onun üçün xaricdən dərman gətirə bilərlər. Bəs Azərbaycan vətəndaşı? Bax, bu məsələyə də aydınlıq gətirməyinizi xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Mən təklif edirəm, əgər Rasim müəllimin bununla bağlı dəqiq statistikası və bu suala dəqiq cavabı yoxdursa, bəlkə gələn dəfə bunu verəsiniz. Əgər varsa, indi deyin, yoxdursa, bizim hələ üçüncü oxunuşumuz var. Mən bilirəm, Siz yenə də burada olacaqsınız, onda cavab verərsiniz. Buyurun.

**R.İsmayılov.** Hörmətli sədr, sözsüz ki, hazırda qaldırılan suallarla əlaqədar statistikam yoxdur. Təklif olunduğu

kimi, mən bunu işçi qaydada Səhiyyə komitəsinə təqdim edə bilərəm. Sadəcə, hörmətli millət vəkilinin sonuncu sualına, icazənizlə, cavab vermək istəyirəm ki, qanun layihəsində məhz Azərbaycan vətəndaşları Azərbaycanda müalicə alırlarsa və onların xaricə getmək imkanları, səfərləri, planları yoxdursa, özləri, yaxud qohumları, Azərbaycan vətəndaşları ölkədə dərman vasitələrinin idxalı ilə məşğul olan şirklətlərə dövlət qeydiyyatında olmayan dərmanların gətirilməsi üçün sifariş verə bilərlər. Çox sağ olun, minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun. Əhliman müəllim, Siz buyurun.

**Ə.Əmiraslanov.** Mən də təşəkkür edirəm, Rasim müəllim ətraflı məlumat verdi. Ancaq mən bir məsələyə münasibət bildirmək istəyirəm, Sahibə xanım. Rasim müəllim dedi ki, vətəndaşların özləri üçün gətirdikləri dərmanlar apteklərdə satışa çıxarılır. Mənə belə gəlir ki, belə hallar varsa, çox cüzi bir miqdardır, bu, ölkədə satılan dərmanların keyfiyyətinə və qiymətinə təsir edən amil deyil. Əgər qeydiyyatsız, keyfiyyətsiz dərman gəlirsə, hörmətli Rasim müəllim, Siz onun hansı yolla gəldiyini araşdırın. Onlar başqa yollarla gəlir. Vətəndaş xaricə gedib özü üçün 3-5 qutu dərman gətirirsə, onu özü üçün gətirir, satış üçün gətirmir.

Sahibə xanım, mən Sizə məruzə etmişəm. Biz bir neçə ay bundan qabaq Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, Nazirlər Kabinetinin bu sahəyə baxan şöbə müdiri və Rasim müəllimin iştirakı ilə bizim komitədə görüş keçirtdik və bunu müzakirə etdik. Bizim komitə çox ciddi iradını bildirdi ki, insanların özü üçün gətirdiyi dərmanlara sərhəddə qadağa olmamalıdır. 3-5 qutu dərman gətirirsə, deyirlər ki, onun ikisini keçirə bilərsiniz, qalanını

keçirə bilməzsiniz. Mənə belə gəlir ki, bu məhdudiyyət ortadan götürülməlidir. Amma bu faktorun dərmanların keyfiyyətinə və qiymətinə təsir etməsinə mən inanmıram. Keyfiyyətsiz dərman gəlirsə, onun başqa mənbələrini axtarmaq lazımdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Əhliman müəllim. Ancaq onu da demək lazımdır, Rasim müəllim özü də nazirlik tərəfi olaraq etiraf edir ki, bu hallar var və bununla da bağlı kompleks işlər görüləcək. Ona görə mənim də sualım oldu ki, hansı işlər görüləcək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Rasim müəllim, bu dəqiqə söz verirəm. Hansı işlər görüləcək və bununla bağlı parlamentə də məlumat verilsin. Çünki bununla bağlı, Siz bilirsiniz, bizə çoxsaylı suallar olur. Rasim müəllim, buyurun.

**R.İsmayılov.** Təşəkkür edirəm. Sahibə xanım, Sizin və hörmətli Əhliman müəllimin dediyi kimi, həmin dərmanların apteklərdə satışı fikrini səsləndirmədim. Yəni qeyri-qanuni, qeyri-rəsmi idxal olunmuş dərmanların hansı isə vasitələrlə satışının təşkil olunması fikrini bildirdim. Sözsüz, apteklərdə mütəmadi olaraq nəzarət tədbirləri keçirilir və belə halların olması, Əhliman müəllimin dediyi kimi, çox az sayda, hansı isə bir formada olur. Amma yenə də ətraflı məlumatı mən işçi qaydada təqdim edərəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, biz artıq səsverməyə keçirik. İkinci oxunuşdur deyə, mən qanun layihəsini həm maddələr üzrə, sonra isə bütövlükdə səsə qoyacağam. Bu qanun layihəsində 4 maddə var. Mən onları iki-iki səsə qoyacağam. Xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

İndi isə mən 3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Mən iclasımızda iştirak etdiklərinə görə qonaqlarımıza təşəkkür edirəm, sağ olun.

Hörmətli həmkarlar, biz gündəliyin 40-cı məsələsinə keçirik və bu məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Mən yenə də Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**K.Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Layihədə hər hansı bir dəyişiklik olmadığından olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Kamal müəllim. Hörmətli həmkarlar, mən qanun layihəsini əsas kimi səsə qoyuram. İkinci oxunuşdur, xatırladıram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən var? Yoxdur. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Qanun layihəsi 5 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 4-cü və 5-ci maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə ikinci oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. 44-cü məsələ "Konstitusiya Məhkəməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bildiyiniz kimi, bu məsələyə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmış-

dır. Yenə də, Kamal müəllim, mən Sizə söz verirəm. Buyurun, məlumat verin.

**K.Cəfərov**. Çox sağ olun, hörmətli xanım sədr. Birinci oxunuşda geniş məlumat verilib. Layihədə hər hansı bir dəyişiklik olmadığından olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, müzakirədən əvvəl biz bu qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Yazılanlar var. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, qanun layihəsi ilə bağlı ikinci oxunuşun tələblərinə uyğun olaraq öz fikirlərimi söyləmək istəyirəm. Burada söhbət 32-ci maddənin 2-ci bəndindən gedir. Biz qanun layihəsinə nəzər salıb baxanda görürük ki, həmin maddə, burada təqdim olunan düzəliş Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinə ziddir. Həm Azərbaycan Respublikasının "Konstitusiya Məhkəməsi haqqında" Konstitusiya Qanununa, həm də Azərbaycan Respublikasının "İnsan hüquqları üzrə müvəkkili haqqında" Konstitusiya Qanununa ziddir.

Söhbət nədən gedir? Biz referendum keçirdik. Vətəndaşlara Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək hüququ vermişik və bu, Konstitusiya ilə təsbit olunub. Burada göstərilir ki, vətəndaş Ali Məhkəmənin qərarından Konstitusiya Məhkəməsinə şikayət, müraciət ünvanlaya bilər. Lakin bu müddəadda göstərilir ki, vətəndaş ancaq Ali Məhkəmənin Konstitusiyaya zidd və normativ hüquqi aktlara zidd çıxardığı qərardan şikayət, müraciət edə bilər. Ali Məhkəmə necə Konstitusiyaya və normativ hüquqi aktlara zidd qərar çıxarda bilər? Bu, Ali Məhkəmənin özünə düzgün yanaşma deyil. Ali Məhkəmə yuxarı instansiya məhkəməsidir, qanunvericilik təşəbbüsü hüququ var. Bu necə bu maddəni verə bilər? O baxımdan da biz vətəndaşı vadar edirik, yəni vətəndaş öz hüququnun bərpasını deyil, guya hansı isə qanunla Konstitusiyaya uyğun müraciət edəcək ki, bu müraciətə də baxılsın. Amma əvvəlki normada bu, tamamilə düzgün verilibdir. Biz vətəndaşımızı vadar edirik ki, Avropa Məhkəməsinə, başqa instansiyalara müraciət etsin.

Konstitusiya Məhkəməsində bu düzəliş olunana qədər Ali Məhkəmənin cəmi 10 qərarına baxılıbdır. Yəni təxminən 12-13 ildə 10 qərara baxılıbdır. Konstitusiya Məhkəməsində hər gün Ali Məhkəmənin qərarı müzakirə olunmur ki. Vətəndaş ona müraciət edir, hüquqlarının pozulması ilə əlaqədar ombudsmana birbaşa müraciət edir ki, Ali Məhkəmədə çıxarılan qərarda mənim hüququm pozulub. Bu qanunumuzda Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək hüququ vermişik. Lakin bunu da məhdudlaşdırırıq ki, yenə də həmin normanın Konstitusiyaya uyğunluğu və normativ hüquqi aktların əleyhinə olan qanun olduğu tərzdə...

Biz bu yaxınlarda "Azərbaycan Respublikasının İnsan

hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Konstitusiya Qanununa düzəliş qəbul etdik. İki oxunuşdan keçdi. BMT-nin qətnaməsinə, Paris prinsiplərinə uyğun şəkildə biz statusunun artırılması ilə əlaqədar onu qəbul etdik. Bu biri tərəfdən, onun konstitusion hüququnu məhdudlaşdırırıq. Mən bu barədə Əli müəllimlə də işçi qaydada söhbət etmişəm. Hesab edirəm, ikinci oxunuşdan sonra aidiyyəti qurumla bu söhbətlər aparılsın, aidiyyəti qurumun nümayəndələri dəvət olunsun və bu məsələyə baxılsın, müzakirə olunsun ki, hər hansı bir qərar qəbul edilsin və son nəticə nə ola biləcək. Biz qəbul etdik. Konstitusiya Məhkəməsinin konstitusion hüququ var ki, buna baxsın, onun Konstitusiyaya uyğunsuzluğunu ortaya qoysun və geri qaytarsın. O baxımdan da mən hesab edirəm ki, bu məsələyə bir daha baxılması yaxşı olar. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, saat 1-dir. Əgər razılıq varsa, fasiləsiz işləyək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Təşəkkür edirəm, hörmətli sədr. Hörmətli Məclis üzvləri, mən qısa olaraq layihə ilə bağlı fikirlərimi bölüşmək istəyirəm. Öncə istəyirəm ki, həmin mətni həmkarlarımız üçün bir də oxuyaq. Ötən on illərdə mən şahidi olmuşam ki, bu dil ekspertizası məsələsi dəfələrlə qaldırılıbdır. 32.2-ci maddəyə nə təklif olunur? Deyilir ki, Konstitusiyanın 130-cu maddəsinin III hissəsinin 4-cü bəndində nəzərdə tutulmuş məsələyə dair Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin sorğusuna Konstitusiya Məhkəməsi tərəfindən baxılmasına barəsində sorğu verilən Azərbaycan Respublikası Ali Məhkəməsi qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olmayan normativ hüquqi

akta əsaslandığı hallarda yol verilir. Mən onu bir qədər vurğu ilə oxudum ki, bəlkə aradakı pauzaya görə "baxılması" sözündən sonra vergül qoysa idik, bu morfoloji qrammatik qaydaya əməl etsə idik, bəlkə məna düzələrdi. Heç onda da düzəlmir. Yəni burada ciddi üslubi bir yanlışlıq var. Əminəm ki, onu aradan qaldırmaq olar. Amma burada məsələnin siyasi mahiyyəti nədən ibarətdir?

Biz ombudsman təsisatına bir ilin içərisində iki dəfə səsvermədən sonra yeni səlahiyyətlər verdik və bununla yaxşı mənada öyündük ki, bu qurumun hökumət, dövlət sistemi, yəni inzibati qurumlardan fərqli olaraq xalq təsisatı sayıldığına görə beynəlxalq platformalarda üstün hüquqları var. İllah da, ona görə ki, biz Qarabağ savaşını qələbə ilə başa vurandan sonra Ermənistan tərəfinin hansı məsələlər üzrə xarici aləmə necə çıxdığını görməkdəyik. Armen Totayan var idi, onların insan hüquqları üzrə müvəkkili, kifayət qədər iyrənc bir insan idi, onun üzərində xarici kəşfiyyat maraqlarının olduğu da açıq görünürdü. Onu hansısa məqamlara hazırlayırdılar. Bu gün də onun ətrafında müxtəlif qüvvələr işləyirlər. Ən fəal dövlət sistemindən, dövlət hakimiyyət orqanlarından qat-qat fəal, ön planda tutulan bir adam idi. Biz indi müzakirə etdiyimiz sənədlə insan haqları üzrə müvəkkilin səlahiyyətlərini azaldırıq. Bunu açıq deməliyik. Yəni burada Siyavuş müəllim də söylədi, cəmi 10 sorğu verilə bilir. İndi hansı sorğunu verə biləcəyini bu çərçivə ilə müəyyənləşdirmiş oluruq. Bizdə deyirdik ki, iki dəfə səsvermə ilə biz beynəlxalq aləmdə, həmin o alyansda insan haqları üzrə müvəkkilin statusunun az səviyyəsinə çatdırılmasına təsir göstərmişik.

Başqa bir məsələ ondan ibarətdir ki, indi belə bir vəziyyət yaranır. Konstitusiya Məhkəməsi sabah, gerçəkdən də, bir sorğu əsasında bu layihənin Konstitusiyaya uyğun

olmadığını təsbit edərsə, faktiki olaraq parlament pis vəziyyətdə qalmış olacaqdır. "Normativ hüquqi aktlar haqqında" Qanuna görə, hər bir layihə həm maliyyə, həm linqvistik, həm hüquqi və digər zəruri ekspertizalardan keçib. Məsələn, İnsan hüquqları komitəsi kimi, hətta bizim özümüz belə bu müzakirələrdə olmamışıq. Qoy, deyilsin, qanunvericilik hüququnun subyekti, bu layihə harada ekspertizadan keçibdir? Hansı qurumlar iştirak edib? İnsan haqları üzrə müvəkkil institutu da bu layihədən narazıdır. Ona görə mən hesab edirəm ki, Azərbaycan vətəndaşlarının haqlarını aşağılamamaq naminə, onsuz da, bu qurumun üzərinə yetərincə vəzifələr düşür. Onlar dövlət hakimiyyəti orqanlarının, bələdiyyə institutlarının müxtəlif qərar və qərarsızlığından dövlət orqanlarına müraciətlə bağlı müəyyən bir mexanizmdir. Bu, yalnız ictimai məzəmmət mexanizmidir. Biz ildə bir dəfə onun məlumatını dinləyirik. Faktiki olaraq tələb edirik ki, hansı isə qurumların adını çəkin. Amma onlar da müxtəlif məqamları nəzərə alıb başqa gözə görünməyən mexanizmləri işə salırlar ki, ən azı statusları olsun, səlahiyyətləri olsun, cəmiyyət üçün etibarları olsun. Biz indiki halda da həmin o səviyyədən, o uğurlardan geri durmuş oluruq. Ona görə də mən bu layihənin nə lehinə, nə də əleyhinə səs verməyəcəyəm. Düşünürəm ki, hörmətli Kamal müəllim bu məsələ ilə bağlı qanunvericilik hüququnun subyektinə bir daha müraciət etsə, yaxşı olar. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Erkin Qədirli. Buyurun.

**E.Qədirli.** Çox sağ olun. Xanım sədr, dəyərli millət vəkilləri. Mən Ali Məhkəmə və Konstitusiya Məhkəməsi məsələsinə toxunmaq istəyirəm. Birincisi, onu deyim ki, mən layihəni doğru sayıram və lehinə səs verəcəyəm. İkincisi, burada Ali Məhkəmənin, yaxud onun qərarları ilə

bağlı göndərilən sorğu bu layihə ilə bağlı hər hansı bir Konstitusiyaya uyğunsuzluq yaradılmır. Məsələ nədədir? Məsələ ondadır ki, bəli, Ali Məhkəmə də hər hansı məhkəmə kimi yanıla bilir. Zatən məhkəmə ona görə üçpilləlidir ki, mübahisə iştirakçıları, məhkəmə prosesinin iştirakçıları yenidən o prosesə, işə baxılıb doğru qərarın çıxarılmasına nail ola bilsinlər, yəni belə bir fürsət qazansınlar. Lakin hər məhkəmənin, hər bir instansiyanın öz məhdudiyyətləri var. Ali Məhkəmə, onsuz da, fakt məsələsini araşdırmır. O, kassasiya instansiyasıdır, ancaq hüquq məsələsidir, normativ və prosessual normaların düzgün və doğru seçilib tətbiq olunması məsələsinə baxır.

Konstitusiya Məhkəməsi, ümumiyyətlə, ümumi iyerarxiyada yoxdur, ayrıca, xüsusi bir məhkəmədir. Yalnız Konstitusiya ilə bağlı onun uyğunluq və ziddiyyət məsələlərini müəyyən edir və Konstitusiya normalarını şərh edir. Problem ondadır ki, bizdə indiyə qədər Konstitusiyanın əksər maddələrinin rəsmi şərhi yoxdur. Konstitusiya Məhkəməsinin qərarlarına baxın. Əksər hallarda cari qanunvericiliyə şərh verir. Bu nəyə gətirib çıxarır? Bir də görürsən, rayon məhkəməsi icraatı dayandırır, sorğunu Konstitusiya Məhkəməsinə göndərir ki, filan qanunun maddəsini şərh edin. Əmək Məcəlləsi, Mülki Məcəllə və yaxud digər qanunlar. Halbuki rayon məhkəməsinin birbaşa öz səlahiyyətindədir. Rayon məhkəməsi ona şərh verməyə nədən çəkinir? Özünü sığortalamaq üçün ora göndərirsə, bu, tamamilə yanlış bir təcrübədir və məhkəmə də, iştirakçılar da bununla bağlı sui-istifadə imkanları qazanır.

Konstitusiya məhkəmələrinin tarixən işi Konstitusiya maddələrinə şərh verməkdir və qanunların Konstitusiyaya uyğunluğunu yoxlamaqdır. Bizdə isə təcrübə elə yaranıb ki, Ali Məhkəmənin qərarlarından, cinayət, yaxud mülki

işlərdən, digər işlərdən maddi narazılıq olan, yəni faktiki tərəfindən razı olmayanlar əlavə fürsət qazanırlar. Konstitusiya Məhkəməsi artıq 4-cü instansiya olur, gedib baş vururlar, nail olduqda o qərarı ləğv etdirirlər, təzədən gəlib faktiki mübahisəyə çıxırlar. Yəni fakt üzrə işə yenidən baxılmasına nail olurlar. Bu isə Konstitusiya Məhkəməsinə, onun imicinə, onun legitimliyinə ciddi zərər verir. Ona görə bu düzəlişlər tamamilə yerində və doğrudur. Konstitusiya Məhkəməsi 4-cü instansiya deyil. O, Ali Məhkəmənin qərarlarına yalnız, burada yazıldığı kimi, Konstitusiyaya uyğunluğu baxımından ziddiyyət yaranarsa, baxa bilər. Konstitusiya Məhkəməsinə sorğu verənlər, yaxud onlara vətəndaşlar da birbaşa şikayət verirsə də, bu, qeyri-abstraktdır, yəni bizim qanunvericiliyə görə, mücərrəd sorğu vermək olmur, konkret faktlarla bağlı olmalıdır. Orada sübut edilməlidir ki, konkret nə ilə bağlı insan haqları pozulub. Bəzi ölkələrdən fərqli olaraq bizdə o məhdudiyyət var. Ona görə bu məhdudiyyətin də yeri tamamilə doğrudur. Mən millət vəkillərinə tövsiyə edirəm ki, bu layihənin lehinə səs versinlər. Sağ olun.

**Sədrlik edən.** Erkin müəllim, ətraflı məlumata görə çox sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev.** Hörmətli sədr, bilirəm, iş vaxtının sonudur, hamı yorulub, çıxış etmək istəmir. Amma Erkin müəllimin çıxışından sonra mən məcbur oldum ki, söz alım. Erkin müəllimin söylədiyi məsələ nəzəri məsələdir. Bununla bağlı beynəlxalq təcrübəyə də istinad etmək olar ki, bəli, Konstitusiya məhkəmələri bir çox hallarda Konstitusiya və qanunların hansısa normalarının şərhini verə bilirlər, qanunların Konstitusiyaya uyğunluğu barədə rəy verirlər. Amma hazırda bizim qüvvədə olan Konstitusiyada açıq mətnlə yazılıb ki, ombudsman məhkəmə aktları-

nın qanunlara və Konstitusiyaya uyğunluğuna dair Konstitusiya Məhkəməsinə sorğu verə bilər. Konstitusiyada belə yazılıb. Yəni bu, olduğu kimi qanuna daxil olmalıdır. Biz bunu dəyişiriksə, bu o deməkdir ki, Konstitusiyanı açıq şəkildə pozuruq. Mən komitə iclasında çox geniş çıxış etdim, əsaslandırmağa çalışdım. Birbaşa Konstitusiyanı oxudum, xeyri olmadı. Xatırlayırsınızsa, birinci oxunuşda da oxudum, yenə də xeyri olmadı. Ona görə indi çıxış etmək istəmirdim.

Mən çıxış yolunu nədə görürəm? Sözün doğrusu, mən hər zaman söyləmişəm ki, qanunların, xüsusilə parlament, hökumət tərəfindən pozulması vətəndaşlara, qanunlara hörmətsizlik yaradır. Ona görə də elə qanunlar yaradaq ki, onu icra edə bilək. Konstitusiyanı pozmaqdansa, referendum aktı keçirək, Konstitusiyanın fəaliyyətini hansısa müddətə dayandıraq, adını qoyaq, keçid dövrü üçün, nəinki bu cür tez-tez pozaq. Bu, onsuz da, heç nəyi dəyişməyəcək. Siyavuş müəllim də qeyd etdi, onsuz da, müraciətlərin sayı çox deyil ki, Konstitusiya Məhkəməsinin işi pozulsun. Sadəcə olaraq, əsas verəcəyik, camaat görsün ki, Konstitusiyaya əməl olunmur. Həmçinin bizi kənardan tənqid etsinlər ki, baxın, Konstitusiyaya hörmət bundan ibarətdir. Ona görə də, hörmətli sədr, bu məsələ ilə bağlı, doğrudan da, ciddi qapalı müzakirələrə ehtiyac var ki, deputatların qaldırdığı məsələlərə bu layihəni hazırlayan adamlar hansısa formada əsaslandırılmış reaksiya, izahat verməlidirlər ki, niyə Konstitusiyanı oxuyuruq, orada belə yazılıb, amma siz belə yazırsınız. Bunun bir izahı olmalıdır. Amma bu izahatı, açıq deyirəm ki, vermirlər.

Bir dəfə də demişdilər, biz cənab Prezidentə bu formada müraciət etmişik, təkrar gedib deyə bilmərik ki, bu məsələ bizim diqqətimizdən qaçıb, yaxud biz Konstitusiyaya

baxmamışıq, yaxud Konstitusiyanı qəsdən pozmuşuq. Ona görə də elə bu cür də səsə qoyacaqsınız və bu cür də qəbul edəcəksiniz. Bir az, ola bilsin, sərt formada deyirəm, yanaşma bundan ibarətdir. Bu yanaşma dəyişilməlidir. Mən bir dəfə uzun müşavirə keçiriləndə də söylədim ki, yanaşma dəyişilməlidir. Çox təəssüf ki, bu yanaşma dəyişmir və layihəni hazırlayan adamlar özlərini hamıdan ağıllı bilirlər. Axı, parlamentdə 120 nəfər deyil, bir az azdır, 7 nəfər millət vəkilimiz artıq yoxdur. Amma yüzlərcə insan oturub, ağıl ağıldan üstündür. Ona görə kollegial müzakirələr keçirilir ki, birinin diqqətindən yayınan məsələ başqasının ağlına gəlir.  Amma çox təəssüf, yenə də söyləyirəm ki, bizə münasibət heç də ürəkaçan deyil, parlamentə münasibət dəyişməlidir. Açıqdan-açığa Konstitusiya qanunlarına zidd normaların parlamentə göndərilməsi praktikasına son qoyulmalıdır. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Ancaq mən düşünürəm ki, bu məsələ ilə bağlı parlamentə münasibəti, ümumiyyətlə, Siz düzgün dəyərləndirmirsiniz. Ümumiləşdirib deyirsiniz ki, parlamentə münasibət belədir. Xeyr. Bu məsələ, əslində, sizin komitənizin, Qüdrət müəllim, məsələsidir və Siz həmin komitədə müavinsiniz. Mən, sözün düzü, indi qulaq asıram, bir az da təəccüb edirəm. Bu məsələyə komitənizdə baxılıb və komitənin də rəyi verilib ki, bu gün bu məsələ buraya, ikinci oxunuşa çıxarılır. Siz indi öz fikrinizi bildirdiniz. Komitənin sədri hörmətli Əli müəllim bu gün yoxdur, ezamiyyətdədir. Əli müəllim gələndən sonra biz bu məsələyə qayıdacağıq. Ancaq yenə də deyirəm, parlamentə münasibəti bir məsələ ilə ölçməyin.

Zahid müəllim, yenə sözünüz var? Buyurun.

**Z.Oruc.** Təşəkkür edirəm, hörmətli sədr. Təkrar söz götürdüyüm üçün millət vəkillərindən çox üzrxahlıq edi-

rəm. Mən 130-cu maddənin 7-ci bəndinin, hazırda qüvvədə olan 7-ci bəndinin vaxt almamaq üçün sonuncu abzasını oxuyuram. Yəni aydın mətnlə sadalanır ki, hansı sahələr üzrə müvəkkil Konstitusiya Məhkəməsinə sorğu verə bilər.

İkinci. Biz yeni referendum keçirərək bunu dəyişməmişik. İndiki Konstitusiya qanunları ilə də onu dəyişməyimiz doğru deyil.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**19. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Energetika haqqında”, “Büdcə sistemi haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” və “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*14 iyul 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 105 |
| Yetərsay | 83 |

Çox sağ olun. İclasa başlaya bilərik. Yetərsay var. Hörmətli həmkarlar, gündəliyin qəbul olunmasına da, xahiş edirəm, münasibət bildirin. Gündəlik hamınızda var.

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, bizim 30 dəqiqəmiz var. Gündəmdə, ya da gündəlikdə olan məsələlərlə bağlı 10 nəfər çıxış edə bilər. Buyurun. Kim yazılmaq istəyirsə, yazıla bilər. Etibar Əliyev. Etibar müəllim, axırıncı çıxış Sizinki olacaq. Fazil Mustafa. Buyurun, Fazil müəllim.

**F.Mustafa.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycanın əksər ucqar bölgələrində və hətta Naxçıvan Muxtar Respublikasında vəkillər çatışmır, vəkil sayı çox azdır. Bunun bir səbəbi var. O səbəb də ondan ibarətdir ki, bizdə "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunun 8-ci maddəsində nəzərdə tutulub ki, vəkillik üçün testdən keçən şəxslərin 3 illik hüquqi stajı olmalıdır. Bu, absurd bir tələbdir. Türkiyə Cümhuriyyətində belə, bu cür bir tələb yoxdur. Vəkillər gəlirlər, testdən keçirlər, şifahi müsahibəyə girə bilmirlər, vəkillik adı qazana bilmirlər. Bu, prokurorluq deyil, başqa bir hüquq mühafizə orqanı deyil ki, burada bu tələb qoyulsun. 1 il vaxt verilə bilər, bunlar staj keçə bilər və bu stajdan sonra da vəkillik adını qazanarlar. Məncə, bu da onlar üçün hüquqi bir müddət olar. Ona görə də, məncə, bu müddəanın ləğv olunması və vəkilliyə qəbulu asanlaşdırmaq lazımdır ki, bölgələrdə bu çatışmazlıq, vəkil azlığı problemi çözülsün, insanlar öz hüquqlarını müdafiə eləyə bilsinlər.

İkinci vacib məsələ. Bu yaxınlarda mən Avropa ölkələrindən birində olanda bir şey müşahidə elədim. Bizim brendlərdən birinə – Naftalan brendinə rast gəldim. Təəccübləndim ki, bu, başqa ölkələrin istehsalı olan bir məhsul kimi təqdim olunur. Bizim bu gün İstisu kimi, Qalaaltı kimi sərvətimiz, Azərbaycanın yüzlərcə təbii mənbələri var. Biz bunun üzərində mütləq düşünməliyik. Biz bu brendləri öz adımızla dünyaya çıxarmaq yolunu artıq

tapmalıyıq. Bunun üçün Azərbaycanda xüsusi qurum da var, bu məhsulları Azərbaycan istehsalı adı ilə dünyaya çıxarmaqla məşğul olurlar. Nədən biz imkan verməliyik ki, başqa yerlərdə bizim məhsulları öz adları ilə çıxarsınlar? Naftalan nefti bir brenddir. Bura hətta ay ərzində müalicə olunmaq üçün dörd mindən artıq turist gəlir. Müalicə mərkəzi kimi də çox məşhurdur. Burada çox gözəl sanatoriyalar tikilib. Ölkə Prezidenti bu sahəyə xüsusi diqqət ayırır və bu istiqamətdə də xüsusi işlər görür. Ona görə də mən hesab edirəm ki, bizim əqli mülkiyyətlə və patentlə məşğul olan müəssisələrimiz, qurumlarımız mütləq bunun üzərində düşünməlidirlər. Biz öz brendlərimizi öz adımızla dünyaya təqdimetmə imkanını əldən qaçırmamalıyıq. Çünki bu həm də ölkəyə turist axınını təmin eləyən məsələdir. Bir çoxları eyniləşdirirlər ki, guya bu, eyni tərkibə malikdir. Naftalan neftinin əvəzi yoxdur və hər kəs də bilir ki, müalicə məqsədi ilə bundan daha çox faydalanmaq mümkündür. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov, buyurun.

**B.Məhərrəmov**. Hörmətli sədr, əziz həmkarlar! 14 iyul dövlətçilik tariximizdə çox önəmli bir gün, Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəldiyi təqvimdir. 1969-cu ilin bu günü Ümummilli Liderin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə Azərbaycan geri qalmış ucqar subyektdən SSRİ-nin iqtisadi flaqmanına çevrildi, mədəniyyət, incəsənət, ədəbiyyat intibah dövrünə qədəm qoydu.

Müstəqilliyin bərpası üçün bazis də məhz bu dövrdə formalaşmağa başladı. Heydər Əliyevin qurduğu sənaye, inkişaf etdirdiyi iqtisadiyyat, yaratdığı hərbi təyinatlı təhsil müəssisələri, formalaşdırdığı və qoruduğu milli elita

elə Sovet dövründə Azərbaycana müstəqil davranmaq imkanı verdi. Hətta çəkinmədən demək olar ki, Heydər Əliyevin Sovet Azərbaycanı Azərbaycan Xalq Cümhuriyyətindən heç də az müstəqil deyildi, 1991–1993-cü illərin Azərbaycanından isə çox daha müstəqil idi.

Biz illər ərzində yanlış təbliğatın, yarıtmaz tarix dərsliklərinin ucbatından Sovet Azərbaycanına ancaq təqiblər dönəmi kimi baxmışıq. Amma Heydər Əliyevin əsəri olan 1978-ci il Konstitusiyasının 68-ci maddəsində Azərbaycanın suverenliyi, 69-cu maddəsində SSRİ-dən azad surətdə çıxmaq hüququ, 73-cü maddəsində dövlət dili kimi Azərbaycan dili təsbit edilirdi. Heydər Əliyev dəyişdirə bilməyəcəyi bir rejimdə "xalq üçün nə etmək olar?" sualına cavab verməyi bacaran ilk və son lider oldu.

Tarixdən bəllidir ki, Sovet hakimiyyətinin ilk dövrlərində bolşeviklər kommunist ideologiyasına bağlı olmayan hər şeyin üstündən xətt çəkirdilər. İnanclar, ənənələr, hətta milli musiqi belə keçmişin qalığı hesab olunurdu.

Nə qədər qəribə olsa da, SSRİ süquta uğrayandan sonra bu düşüncə vandalizmi Azərbaycanda da yenidən baş qaldırdı. Bolşeviklərin Muzdurlar Şurasından fərqi olmayan AXC–Müsavat cütlüyü Sovetə bağlı nə varsa, hər şeyə nifrət aşılamağa, hətta Böyük Vətən müharibəsi iştirakçılarını belə xainlikdə suçlamağa başladılar. Bunun bir səbəbi var idi: Heydər Əliyevə olan kin və düşmənçilik. Bilirdilər ki, Azərbaycan xalqı Əliyev kimi bir dahini qoyub bunlara üz tutmayacaq. Ona görə də Heydər Əliyevi SSRİ və DTK ilə bağlayaraq gözdən salmaq istəyirdilər. Amma xalq bilirdi ki, Heydər Əliyev şərəfli bir general kimi Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olanda da, Azərbaycana rəhbərlik edəndə də, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olanda da həmişə

milli olub. Əks halda 1988–1989-cu illərdə meydan hərəkatında olanlardan daha çox Heydər Əliyev məhrumiyyətlərə məruz qalmazdı.

Heydər Əliyev SSRİ-nin ən güclü vaxtında Konstitusiyada SSRİ-dən çıxmaq hüququmuzu təsbit etdiyi halda, 1991-ci ildə hətta SSRİ dağılandan sonra belə o dövrkü hakimiyyət SSRİ-dən çıxmağa qorxurdu. Öncə Bakıda qaldırılmalı olan üçrəngli bayrağı yalnız Heydər Əliyev cəsarət edib Naxçıvanda qaldırdı. Budur müstəqillik, budur dirçəliş.

Ona görə də təklif edirəm ki, 14 iyulun tariximizdə müstəsna rolunu nəzərə alaraq xüsusi rəsmi bir gün kimi qeyd olunması məsələsinə baxaq. Çox təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Mən də bu günün, yəni 14 iyulun Azərbaycan tarixindəki yerindən və rolundan danışmaq istərdim. Bilirsiniz, Heydər Əliyevin Sovet dönəmində Azərbaycana rəhbərliyindən söz düşərkən daha çox onun respublikanı iqtisadi inkişaf baxımından sonuncu sıralardan qabaqcıllar sırasına necə çıxardığı vurğulanır. Amma unudulur ki, Azərbaycan Kommunist Partiyasının birinci katibi vəzifəsi respublikada ən yüksək vəzifə sayılsa da, Heydər Əliyevə qədər həmin vəzifədə hətta Mircəfər Bağırov kimi son dərəcə hökmlü adamlar əyləşsə belə, heç biri hökm verən deyildi və ola da bilməzdi. Çünki hökmün verildiyi yer Moskva idi. Heydər Əliyev özündən əvvəlkilərdən fərqli olaraq hələ DTK-da işlədiyi vaxtdan həmin Moskvanın respublikalar üzərində nəzarətindəki boşluqları bilirdi və bundan xalqımızın maraqlarının təmini üçün uğurla faydalanmağa başladı.

Nəticədə nə baş verdi? Heydər Əliyevin Kommunist

Partiyasının Mərkəzi Komitəsinə rəhbərliyi dövründə Bakı milliləşdirildiyi kimi, burada azərbaycanlıların sayı çoxaldıldığı kimi, bütövlükdə, Azərbaycana azərbaycançılıq gətirildi. Sovetçilik, sosialistçilik və beynəlmiləlçilik onun kölgəsində qaldı. Azərbaycan Sovet Sosialist Respublikasından de-fakto azərbaycanlılar respublikasına çevrildi. Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsi isə Heydər Əliyevin dövründə artıq respublikada təkcə ən yüksək vəzifə deyildi, orada əyləşən həm də de-fakto ali icraedici orqanın, yəni hakimiyyətin başında duran şəxs funksiyasını yerinə yetirirdi.

Təbii, bunun üçün təkcə bilik və təcrübə deyil, öz xalqına möhkəm bağlılıq, eyni zamanda da, qarşısındakıları arqumentlərinə yüksək inandırmaq bacarığı tələb olunurdu ki, onların hamısı məhz Ulu Öndərdə vardı. Sadəcə, bir misal: əgər bu keyfiyyətləri, yüksək qabiliyyəti olmasaydı, o, Kremldəkiləri Azərbaycanla Türkiyə arasında sıx əlaqələrin qurulmasının SSRİ-nin maraqlarına tam cavab verdiyinə inandıra bilərdimi? Məhz onun fövqəladə inandırmaq bacarığının nəticəsi deyildimi ki, o zaman üçün görünməmiş hadisə baş verdi? Türkiyənin rəhbərləri, xarici işlər nazirləri SSRİ-yə səfərləri çərçivəsində Azərbaycana da gəlirlər, burada ən yüksək səviyyədə qarşılanırlar və iki türk qövmü arasında körpülər yenidən qurulurdu. Yeri gəlmişkən, Heydər Əliyevin bu keyfiyyətləri müstəqilliyimizn ilk illərində də əlimizdən tutdu. Yeltsin də daxil olmaqla, o zaman Rusiyanın rəhbərliyində yer alanların əksəriyyəti “Əsrin müqaviləsi”nin əleyhinə çıxdıqları halda, həmin ölkənin yanacaq və energetika naziri sözügedən anlaşmanın imzalanma törənində Bakıda idi. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli. Buyurun.

**Ə.Məsimli**. Çox sağ olun, hörmətli sədr. 2023-cü il iyulun 11-də 6 ayın sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı göstərdi ki, ölkəmizin iqtisadi imkanlarının artması həm əsas hədəflərə doğru, həm də digər məsələlərdə ən mühüm, ciddi addımların atılmasına ciddi maliyyə imkanları yaradıb, bu, həm də hədəflərə daha tez çatmaq istiqamətində xeyli dərəcədə imkanlarımızı genişləndirib. Dövlət başçısı bu yöndə bir sıra mühüm məsələlərə toxunub və vacib mesajlar verib. Onların arasında Böyük Qayıdış, silahlı qüvvələrimizin ən qabaqcıl orduların səviyyəsinə çatdırılması, sülh danışıqlarının gedişindəki yeni meyillərin gətirdiyi yeni məqamlar və onun bilavasitə son nəticəyə gətirib çatdırılması imkanları, təbiətə, insanların sağlamlığına təhlükə yaradan biznesin sosial və ekoloji məsuliyyəti, Azərbaycanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyinin gücləndirilməsi, inflyasiyanın səngidilməsi və sair kimi vacib məqamlara toxunub və bunların arasında bəzi məqamları qeyd eləmək istəyərdim. Qarabağa, Şərqi Zəngəzura təqribən 12 milyarda qədər vəsaitin xərclənməsi nəzərdə tutulur və xüsusi vurğulanıb ki, ayrılan vəsait böyük qənaətlə və şəffaflığın tam təmin edilməsi şəraitində həyata keçirilməlidir. Bu, vacibdir.

İkinci. Ölkəmizdə işləyən xarici şirkətlər və yerli şirkətlər Azərbaycan qanunlarına hörmət etməlidirlər. Hörmət etməyəcəklərsə, onların fəaliyyəti burada mümkünsüz olacaq. Azərbaycan qanunlarına, ekoloji tarazlığa hörmət edilməlidir. Təbiətə, insanların sağlamlığına zərrə qədər təhlükə varsa, həmin şirkətlərin fəaliyyəti dayandırılmalıdır. Hesab edirəm ki, bu, çox ciddi bir mesajdır və müasir dövrün tələblərinə cavab verən, Azərbaycanın maraqlarını

xeyli dərəcədə ifadə edən məqamdır.

Üçüncü isə inflyasiya ilə bağlıdır. Çünki inflyasiya əhalinin təkcə aztəminatlı təbəqəsinin deyil, orta təbəqəsinin də güzəranına mənfi təsir göstərir. İkirəqəmli inflyasiyanın birrəqəmli inflyasiyaya çevrilməsi istiqamətində tədbirlər gücləndirilməlidir. Burada subyektiv faktorların irəli çəkilməsini mən yüksək qiymətləndirirəm. Çünki artıq obyektiv faktorlar, xaricdən gələn inflyasiya bir neçə məhsulu çıxmaq şərti ilə səngiməyə başlayıb. İndi subyektiv faktorları aradan qaldırmaqla, bu sahədə cavabdeh olan bəzi məmurların cavabdehliyini artırmaq və antiinflyasion tədbirləri gücləndirməklə birrəqəmli inflyasiyaya nail olmaq mümkündür. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vüqar İskəndərov, buyurun.

**V.İskəndərov**. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, media mənsubları. Beynəlxalq Qırmızı Xaç Komitəsinin Xankəndi şöbəsinin fəaliyyəti nə beynəlxalq hüquqa, nə də komitənin özünün nizamnaməsinə uyğundur. 150 ildən çox yaşı olan bu təşkilat münaqişə qurbanlarının müdafiəsi və onlara yardım göstərilməsini qarşısına məqsəd qoymasına baxmayaraq, Azərbaycana gələndə münaqişə qurbanlarını kənara qoyub, münaqişəni törədənlərlə əlbir olub, qaçaqmalçılıqla məşğuldur. Bu təşkilat unudub ki, Azərbaycanın suveren ərazisində fəaliyyət göstərir. Hələ də ərazimizə İrəvandan gəlib-gedir. Rəsmi Bakı dəfələrlə təşkilata fəaliyyətini ölkəmizlə koordinasiya şəklində göstərməli olduğunu bildirib. Onlara Xankəndi və digər yerlərə Bakıdan gəlib-getmələri bildirilib. Təəssüf ki, bu təşkilat hələ də bu təklifləri qulaqardına vurur.

Düşünürük ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi özünün nizamnaməsinə, yaradıcısı Anri Dünanın ideyalarına, Cenevrə Konvensiyasının və onun əlavə protokol-

larına uyğun fəaliyyət göstərəcək, öz işlərini və missiyasını Azərbaycanın qanunlarına və tələblərinə uyğunlaşdıracaq. Ümid edirik ki, hüquqazidd əməllər törədən əməkdaşlarına qarşı ən sərt şəkildə ölçü götürəcək. Təbii ki, məsələ ilə bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə bağlı cinayət işi açılıb və zəruri istintaq hərəkətləri aparılır. Unutmasınlar ki, qanunu pozanlar cəzalarını mütləq alacaqlar. Diqqətiniz üçün minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev, buyurun.

**R.Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələri olub və onlar lisenziya ilə fəaliyyət göstərib, diplom veriblər. İndi o şəxslərin işə düzəlmək problemi var. Çünki Təhsil Nazirliyi o diplomları təsdiq etmir. Deyirlər ki, qanunsuz işləyib, qanunsuz diplom verib və sair. Bu necə olub? Onlar yerin altında fəaliyyət göstərib, yoxsa sehrli çubuqla özlərini görünməz ediblər? Onların sayı xeylidir. O cümlədən Cənubi Rusiya Humanitar İnstitutu Bakıda olub, sərhəd giriş-çıxışına da ehtiyac olmayıb. Tələbələr 5 il oxuyub, indi onlar diplomlarını təsdiq edə bilmirlər. Kim də istəyirsə, işdən çölə atılır, yaxud da iş yerində hələ də stress yaşayır ki, yenə yoxlayırlar. Bunların ürəyi xəstə düşdü ki, bunlar məhv oldu ki... O lisenziyanı kim verib? Dövlət. Diplomu kim verib? Dövlət. Kim şərait yaradıb? Dövlət. Əzizlərim, niyə vətəndaşlara qarşı bu cür hərəkət edirlər? Niyə günah vətəndaşın üzərində qalmalıdır? Bu məsələ mütləq həllini tapmalıdır.

Təhsil Nazirliyinin yanaşması bu ölkədə böyük narazılıqlar yaradıb. Onlar hər bir məsələdə vətəndaşı günahkar görür. Nəyə nail olmaq istəyirlər, bilmirəm. Həll

yolunu onlar tapmalıdır. Maneçilik etmək lazım deyil. Bəyənmirlər, birillik kurs təyin etsinlər, oxusunlar, imtahan versinlər. Kəsib atmağa nə var ki? Narazılıq yaratmağa nə var ki? Faydalı iş odur ki, kömək edəsən, həll yolu tapasan. Məncə, Nazirlər Kabineti bu məsələni həll edərdi. Təhsil Nazirliyi doğru yanaşma və təklif ortaya qoymur. Elə kəsmək, doğramaq, ancaq və ancaq vətəndaşı günahkar çıxarmaq. Mən parlamentdən bu sahədə kömək istəyirəm.

İkinci məsələ. Mənim yaşadığım, doğulub böyüdüyüm İmişli rayonu Xəlfəli kəndinin uşaq bağçası bərbaddan da bərbad gündədir. Yapon səfirindən də xahiş etdik. Onlar o bağçanın tikintisi üçün 80 min dollar civarında pul ayırdılar. Təhsil Nazirliyi deyir ki, tikilən bağçalar gərək Nazirlər Kabinetinin təsdiq etdiyi standartlara uyğun olsun. Haradan tapaq 1 milyon manatı ki, bağça tikək? Onda zəhmət çəkib, gedib özləri standartlara uyğun bağça tiksinlər. Təhsil Nazirliyinin aidiyyəti şöbəsi ilə danışdım, xeyri olmadı. Nazir müavini ilə danışdım, xeyri olmadı. Sonda cənab nazirlə danışdım və sağ olsun ki, yarım saatdan çox bir-birimizə kimin haqlı olduğunu sübut etməyə çalışdıq. Mənə İmişli və digər rayonlarda standarta uyğun bir bağça göstərsinlər, mən kənara çəkilim. Qoy, uşaqlar hələ 10 il bundan sonra da o bərbad və acınacaqlı, uçuq damda uşaqlıqlarını məhv etsinlər. Mən Təhsil Nazirliyinin yanaşmasını qətiyyətlə rədd etməklə bərabər, bu məsələnin də və buna bənzər həllini gözləyən digər problemlərin də həllini tələb edirəm. Təhsil Nazirliyi və bir neçə digər qurum ölkə reallığından bir əsr arxada qalıb, ya da özlərini böyük islahatçı göstərmək istəyirlər. Onların bu islahatçılığı ölkədə kərpic-kərpic haqlı olaraq sosial narazılıq yaratmaqdadır. Xəbəriniz olsun, hörmətli depu-

tatlar. Həm də bizim borcumuzdur ki, gördüyümüz narahatlıqları həll etməyə çalışaq və ölkəmizdəki xain qüvvələr bu kimi problemlərdən yararlanıb ölkəni xaosa sürükləmək istəməsinlər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sədaqət Vəliyeva. Buyurun.

**S.Vəliyeva.** Sahibə xanım, söz verdiyinizə görə çox təşəkkür edirəm. Hörmətli media nümayəndələri, hörmətli millət vəkilləri. Bildiyiniz kimi, ötən il möhtərəm Prezidentimiz cənab İlham Əliyevin imzaladığı sərəncama əsasən 2023-cü il Azərbaycan xalqının Ümummilli Lideri, xilaskarı, böyük siyasətçi, dahi "Heydər Əliyev İli" elan edilmişdir. 1969-cu il iyulun 14-də Heydər Əliyev hakimiyyətə gəldi. Azərbaycan tarixində sanki həmin gün qızıl hərflərlə yazıldı. Azərbaycan üçün nələr etdiyi hamımızın gözü qarşısında baş verdi. Heydər Əliyev, demək olar ki, bütün sistemi tamamilə dəyişdirdi. Onun nələr etdiyini biz bu günlər ərzində keçirilən tədbirlərdə çıxış eləyərkən xalqın qarşısında bir daha xatırlayırıq. Mən hesab eləyirəm ki, hələ 100 il də bundan sonra danışsaq, yenə də az olacaqdır. Xüsusi olaraq və qürurla qeyd etmək istərdim ki, müasir Azərbaycan parlamentarizminin banisi olan Ulu Öndərimiz Heydər Əliyevin adını daşıdığı 2023-cü ilin həm payız, həm də növbədənkənar sessiyası ərzində Milli Məclisin fəaliyyəti xüsusi məhsuldar və səmərəli olmuşdur. Qarşıya qoyulmuş bütün vəzifələr layiqincə yerinə yetirilmişdir və Milli Məclis bu illə bağlı bir çox tədbirləri yüksək səviyyədə həyata keçirmişdir. 2023-cü ilin yaz sessiyası zamanı qəbul edilmiş qanunvericilik aktlarının dövlət başçımız cənab Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə bütün sahələrdə həyata keçirilən islahatların, quruculuq işlərinin hüquqi bazasını daha da təkmilləşdirəcəyinə inanıram.

Cari ilin yaz sessiyasında Milli Məclisin beynəlxalq fəaliyyətini xüsusi qeyd etmək istəyərdim. Hörmətli xanım Sahibə Qafarovanın rəhbərlik etdiyi nümayəndə heyətləri bir çox ölkələrə səfərlər etmiş, bu səfərlər çərçivəsində keçirilən görüşlər və aparılan danışıqlar zamanı ölkəmizin mövqeyi, haqq səsi faktlarla diqqətə çatdırılmış, parlamentlər arasında əməkdaşlığın genişləndirilməsi üçün müzakirələr aparılmışdır. Həmçinin Azərbaycan parlamentinin nümayəndə heyətləri beynəlxalq təşkilatların işində də fəal iştirak edərək beynəlxalq təşkilatların sessiya və konfranslarında iştirak etmişdir. Eyni zamanda, deputatlarımız cənab Prezident İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq, vətəndaşların problemləri ilə yaxından maraqlanmış və çətinliklərin həllinə kömək etməyə çalışmışlar. 2023-cü ilin yaz sessiyası başa çatır və mən inanıram ki, biz bu 2023-cü il ərzində, Ulu Öndərin adı ilə bağlı il ərzində əlimizdən gələni etməyə çalışmışıq. Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov. Buyurun.

**H.Məmmədov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hazırda dəbdə olan bir ifadə var: “denasifikasiya”. Denasifikasiya bir milləti milli şüurdan məhrum etmək, bir millətin milli identikliyini əlindən almaq, bir milləti idarə olunan kütləyə çevirmək deməkdir. 1928-ci ildən başlayaraq, 1918–1920-ci illər istisna olmaqla, 1969-cu ilə qədər Azərbaycanda bu denasifikasiya siyasəti həyata keçirildi. Yalnız böyük dövlət xadimi Ulu Öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra bu prosesin qarşısı alındı. Ulu Öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi kimi Azərbaycan dilinə önəm verməklə, Azərbaycan dilində nitq ifadə etməklə, azərbaycanlı kimliyini önə çəkməklə

bu denasifikasiya siyasətinə son qoydu. Beləliklə, bu gün hər birimizin fəxr etdiyimiz azərbaycançılıq ideologiyasının əsasları yarandı.

Eyni zamanda, başqa bir mühüm hadisə baş verdi. Kosmopolit ideyalarını milli şüurun yerinə qoymaq istəyənlər, əslində, kosmopolit ideyalarını istismar edənlər idi ki, Azərbaycan bundan da xilas olmağı bacardı. Hazırda eyni proses yenə baş verməkdədir. Çünki tarixin indiki mərhələsində demokratik dəyərləri və insan hüquqlarını istismar edərək onu milli identikliyin və milli şüurun mərkəzinə qoymağa çalışırlar. Çox təəssüf ki, bu prosesdə insan hüquqları da, demokratik dəyərlər də istismar olunur. Biz bunun bariz nümunəsini harada gördük? Azərbaycan demokratik cəmiyyətində vətəndaşın öz hüquqlarını tələb etmək istəyində gördük.

Azərbaycanda mövcud olan marginal qruplar xaricdən aldıqları direktivlərlə, radikal müxalifətin təşviqi ilə Gədəbəyin Söyüdlü kəndində baş verən hadisələri demokratiya müstəvisindən çıxarıb istismar müstəvisinə qoydular və Azərbaycan vətəndaşlarının haqlı etirazını vətəndaş–dövlət qarşıdurması kimi təqdim etdilər. Yəni Azərbaycanda demokratiyanın qarşısında duran, insan hüquqlarının qarşısında dayanan ən güclü qruplaşmalar elə həmin o marjinal qruplaşmalardır. Ona görə də Azərbaycan Prezidenti 2023-cü ilin 6 ayının yekunları ilə bağlı keçirdiyi müşavirədə bu məsələyə xüsusi toxundu və bir daha Azərbaycan vətəndaşının yanında olduğunu göstərdi, bir daha Azərbaycan vətəndaşının haqlı mövqeyini müdafiə etdi. Eyni zamanda, o təxribatçı qruplarla bağlı ən qəti tədbirlərin görülməsinin zəruri olduğunu da bildirdi. Mən düşünürəm, tədbirlər təkcə inzibati qaydada deyil, həm də ictimai qınaq qaydasında olmalıdır ki, Azərbaycanın bütün

institutları bu prosesə qoşulsunlar.

**Sədrlik edən.** Sağ olun. Elman Nəsirov. Buyurun.

**E.Nəsirov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. İyul ayının 11-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə bu ilin 6 ayının sosial-iqtisadi inkişafının yekunlarına dair müşavirə keçirildi və bu müşavirədə ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycanın bundan sonrakı strateji inkişafının əsas istiqamətlərini bəyan etdi. İlk növbədə ölkəmizin dayanıqlı inkişafının təmin edilməsidir, ölkəmizdə qeyri-neft sektorunun inkişafı məsələləridir. Bundan savayı, strateji hədəf kimi müəyyən etdi ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası həyata keçirilməlidir. Nəhayət, ölkəmizdə sosial-iqtisadi islahatların davam etdirilməsi kursunu bəyan etdi. Sual yaranır ki, bu mühüm strateji vəzifələri həyata keçirmək üçün Azərbaycanın iqtisadi potensialı, imkanları varmı? Cənab Prezident bu sualların da tam mükəmməl, bitkin cavabını verdi və söylədi ki, bəli, 6 ayın yekunlarına görə, ölkəmizin təkcə qeyri-neft sənayesində bu gün 6,5 faizlik artım qeydə alınıb.

Bütövlükdə, qeyri-neft sektorunda artım 3 faizdən çoxdur və sevindirici haldır ki, bizim müstəqillik dövrü tariximizdə heç bir zaman Azərbaycanın dövlət büdcəsi 33 milyard manat olmamışdır. Cənab Prezident elan etdi ki, artıq bu dürüstləşmələrdən sonra bizim dövlət büdcəmiz 36 milyard manata gəlib çatıbdır. Nəzərə alaq ki, 6 ayın nəticələrinə görə, ölkəmizin iqtisadi inkişafının birbaşa nəticəsi olaraq iqtisadiyyatda profisit 10 milyard dollara gəlib çatıb. Strateji hədəfimiz o idi ki, xarici borcumuz ümumdaxili məhsulun 10 faizi səviyyəsinə ensin və bu da əldə edilib. Bu gün Azərbaycanın xarici borcu 6,7 milyard

dollar təşkil edir ki, bu da ümumdaxili məhsulun təxminən 10 faizi deməkdir.

Ən mühüm məsələlərdən biri odur ki, bu iqtisadi potensialımıza əsaslanaraq qarşımızda dayanan digər vəzifələrin, xüsusilə də hərbi gücümüzün artırılması məsələsinin həlli də kifayət qədər asanlaşmış olur. Qeyd edim ki, qarşıda, elə bu günlərdə ən yüksək səviyyədə Azərbaycan–Ermənistan danışıqları olacaq və bu danışıqlara Azərbaycan iki mühüm uğuru ilə gedir: Birinci, Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını və suverenliyini Ermənistan qəbul etmiş olub. İkinci isə, təkcə ərazi bütövlüyümüzü qəbul etməyib, həm də onun parametrlərini qəbul edib. Yəni 86,6 min kvadrat kilometr ərazini Azərbaycanın ərazisi kimi tanıyıb. Bu da bizim mühüm uğurlarımızdan biridir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev. Buyurun.

**E.Əliyev**. Çox hörmətli Sahibə xanım, hörmətli deputatlar. Azərbaycan Prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikasını qısa zaman içərisində inkişaf etmiş ölkələr sırasına qaldırmağı ali məqsəd kimi qarşıya qoyub. Bu baxımdan elmin və təhsilin sürətli inkişafı çox vacibdir. Ötən iclasların birində Türkiyənin "İMECE" peykinin hazırlanmasında Orta Doğu Texniki Universitetinin alimlərinin böyük rol oynadığı barədə danışmışdım. Biz isə hələ də plagiatlıq, birinin işinin digəri tərəfindən yazılması söhbətləri ilə məşğuluq. Məlum olduğu kimi, Böyük Britaniyanın "World University Rankings" nəşri 2023-cü ildə dünyanın ən yaxşı universitetlərinin reytinqini dərc edib. "QS" reytinqində dünyanın ən yaxşı universitetlərinin qiymətləndirilməsi 9 meyar əsasında aparılıb: akademik nüfuz, işəgötürənlər arasında nüfuz, müəllim heyətinin tələbələrin sayı ilə nisbəti, sitat gətirilmə indeksi,

xarici müəllimlərin payı, xarici tələbələrin payı, xarici həmkarları ilə əməkdaşlıqda alimlərin nəşrlərinin payı, məzunların iş ilə təmin edilmə səviyyəsi və görkəmli məzunların sayı daxildir.

Türk dövlətlərindən qlobal reytinqdə top-1000 siyahısına Qazaxıstanın 7, Türkiyənin 11 universiteti düşüb. Top-1000-də bir universitetimiz belə yoxdur. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 yanvar tarixli Fərmanı ilə IV Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi yaradırıq. Bu təhlillərdə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti öndə olmalı idi. Lakin "QS" reytinqində bu ali məktəbin tutduğu biabırçı mövqe bu ali məktəbin prosesdə iştirakını qeyri-mümkün edirdi. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində baş verən rüsvayçılıqlar, korrupsiya və antimilli fəaliyyət insanı dəhşətə gətirir. Etiraf edim ki, Elm və Təhsil Nazirliyi bütün bu neqativ hallara gözünü yumub və heç bir qərar qəbul etməyib.

Qeyd etdiyim reytinqdə Azərbaycan Dövlət Pedaqoji Universiteti və Tibb Universiteti 1500-lük reytinq cədvəlinə belə düşə bilməyiblər. XXI əsrdə müəllim və həkim hazırlayan universitetlərin bu cür axsamaları heç də ürəkaçan deyil. "Təhsil haqqında" Qanunda universitet rektorları 5 il müddətinə təyin olunurlar. Rektorların əksəriyyəti 10 il müddəti ötüb, digər hissəsi isə 10 ilə yaxınlaşırlar. Qanunun tətbiqi indiki situasiyada çox vacibdir. 24 il, 32 il işləyən rektorlar var. Artıq durğunluq yaradılıb. 32 ildir ki, müstəqillik qazanmışıq, ancaq hələ bir universitetimiz məşhur reytinqlərdə yer almayıb. Ali təhsil haqqında qanunun taleyi müəmmalı olaraq qalmaqdadır. Təəssüflər olsun ki, Elm və Təhsil Nazirliyi daha çox qərarlarla və normativ sənədlərlə işləməyə üs-

tünlük verir. Ali təhsil haqqında qanunun qəbul olunmasına maneçiliklər törədilir. Bu nüfuzlu reytinq təlqin edir ki, milli təhsil sistemi birmənalı olaraq inkişaf etdirilməlidir və şübhəsiz, qanunvericilik bazasının mükəmməl olması ən vacib şərtlərdən biridir. Düşünürəm ki, Ali təhsil haqqında qanunun payız sessiyasında qəbulunu yubatmamaq...

**Sədrlik edən.** Sağ olun. Mən hamıya təşəkkür edirəm. Gündəliyin məsələlərinə keçirik. Hörmətli həmkarlar, biz bu gün 19 məsələni müzakirə etməliyik. Gündəliyin 1-ci məsələsi "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya Qanunudur. Bildiyiniz kimi, Konstitusiya qanunları Milli Məclisdə iki dəfə səsə qoyulur. Biz bu qanuna ötən il dekabrın 30-da birinci səsvermədə münasibət bildirmişik, indi isə onu ikinci səsvermədə qəbul etməliyik.

Məsələyə dair məlumat vermək üçün mən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**, *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli deputat həmkarlar, xanım sədrin qeyd etdiyi kimi, biz bu qanun layihəsini müzakirə edib qəbul etmişik, səs vermişik. Müzakirəmiz üç oxunuşdan keçib və xatırlayıram, geniş müzakirələr olmuşdur. İndi ancaq səsvermə həyata keçirməli olduğumuza baxmayaraq, mən yaddaşları təzələmək baxımından qanun layihəsinin əhəmiyyəti ilə bağlı fikirləri söyləmək istəyirəm. Normativ hüquqi aktları biz də qəbul edirik. Biz qanunverici orqanıq. Bu Konstitusiya qanunu-

nun çox vacib əhəmiyyəti var, ona görə ki, normativ hüquqi aktların özünün hazırlanması qaydalarının qəbul olunması burada nəzərdə tutulur. İkinci, nəzərdə tutulur ki, qanunvericilik subyektləri arasında təmaslar necə olmalıdır. Belə deyək ki, elektron formada təmaslar, onsuz da, var, amma bu təmasların da, bu əməkdaşlığın da bir qaydası olmalıdır. Nəhayət, üçüncü mühüm məqam qeyd olunur ki, hər 10 ildən bir bütün bu normativ hüquqi aktlar cild formasında dərc olunmalıdır. Yəni normativ hüquqi aktların tənzimlənməsinə dair, hesab edirik ki, bu Konstitusiya qanunu çox mühüm qanundur, o cümlədən parlamentin də birbaşa fəaliyyəti ilə bağlıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Çıxış etmək istəyən var. Qüdrət Həsənquliyev. Qüdrət müəllim, buyurun.

**Q.Həsənquliyev**. Təşəkkür edirəm, hörmətli sədr. Hörmətli həmkarlar, media nümayəndələri. Bu qanun birinci dəfə qəbul olunanda, birinci dəfə səsverməyə qoyulanda mən 48-ci maddə ilə bağlı təkliflərlə çıxış etmişdim. Sadəcə, bilmək istəyərdim ki, mənim qaldırdığım o məsələlərə qanunvericilik təşəbbüsü subyektinin reaksiyası nədən ibarət olub? Söhbət ondan gedir ki, 48-ci maddə "Normativ hüquqi akt layihəsinin normayaratma orqanına təqdim edilməsi" adlanır. Normayaratma orqanı deyəndə, yəni Milli Məclis. Əslində, norma təsdiq edən orqan yazılsa idi, bəlkə də daha məntiqli olardı. Amma hər halda belə yazılıb.

Burada qeyd olunurdu ki, hansı sənədlər bizə təqdim olunmalıdır. Misal üçün, normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması, o cümlədən maliyyə-iqtisadi əsaslandırılması, sonra normativ hüquq akt layihəsinə dair ekspert rəyləri. Ona görə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 61-ci maddəsində xüsusilə qeyd olunur ki, normativ hüquqi aktların

sui-istifadəyə məruz qalmasına dair ekspertiza keçirilməlidir, yəni məcburi ekspertiza.

Bundan başqa, normativ hüquqi aktın qəbul edilməsinin ehtimal olunan nəticələrinin proqnozlaşdırılması. Buna dair arayışlar verilməlidir. Amma çox təəssüf, yəni bunlar yazılır ki... Normanın adını da oxudum, belədir: “Normativ hüquqi akt layihəsinin normayaratma orqanına təqdim edilməsi”. Deməк, əvvəl sadalana-sadalana gəlir, sonra 48.6-cı maddədə deyilir ki, Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim edilən qanun layihəsinə yalnız müşayiət məktubu əlavə olunur və Konstitusiya Qanununun 48.3-cü, 48.4-cü maddələrində göstərilən sənədlər Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında saxlanılır.

Hörmətli həmkarlar, mən sizə müraciət edirəm. Əvvəla, o sənədlərin bizə də göndərilməsi, bizim də onlarla tanış olmağımız niyə məhdudlaşdırılır? Axı, yuxarıda qeyd olunur ki, normayaratma orqanına bu sənədlər daxil olunmalıdır. Biz onu da nəzərə almalıyıq ki, kiçik istisnalarla bütün qanun layihələri və qanunlara əlavə və düzəlişlər faktiki surətdə Prezident tərəfindən təqdim olunur. Belə çıxır ki, biz normayaratma fəaliyyəti ilə məşğul olanda bu normada göstərilən sənədlərin heç biri ilə tanış ola bilmirik. Hətta qanunvericilik təşəbbüsünün subyekti olan, məsələn, Respublika Prokurorluğu. Prokurorluq haqqında da qanunlara kiçik istisnalarla dəyişikliklərin hamısı Prezident tərəfindən daxil olur. Məhkəmə sistemi ilə bağlı. Ali Məhkəmənin də qanunvericilik təşəbbüsü subyekti olmasına baxmayaraq, o da Prezident Administrasiyasından gəlir. Yəni digər qanunvericilik təşəbbüsünün subyektləri faktiki surətdə öz hüquqlarından istifadə etmirlər. İndi səbəb başqa mövzudur. Belə olduğu halda, bu 48-ci mad-

dənin mənası nədən ibarət oldu? Ona görə mən təklif etmişdim ki, bu 48.6-cı maddə buradan çıxarılsın.

Bir də 48.2-1.2-ci maddəyə yeni bir bənd əlavə olunur. Layihənin hansı dövlət orqanları ilə razılaşdırıldığı. Bu, onsuz da, həmin 48-ci maddədə var. 48.2.2-ci maddədə qeyd olunur ki, normativ hüquqi aktın layihəsinin razılaşdırılması, vizalanması haqqında məlumatı əks etdirən sənədlər. Bu vizalanma nə deməkdir? Orada, onsuz da, "razılaşdırılması" yazılıbdır. O sənədlərdə göstərilir ki, kimlər viza qoyub, kimlərlə razılaşdırılıb. Yəni ora əlavə bir yeni normanın da daxil edilmə mənasını başa düşmürəm. Qanunlara dəyişiklik naminə dəyişiklik edilir. Amma bu qədər ziddiyyəti görməmək... Faktiki surətdə bu 48.6-cı maddə, ümumiyyətlə, 48-ci maddənin mahiyyətini heçə endirir və bunu da göstərmək... Mən, sadəcə olaraq, bunu anlaya bilmirəm. Ona görə çox istəyərdim ki, bax, bizə ekspert rəyləri təqdim olunmuş olsa idi və bu qanunla da bağlı ekspert rəyi təqdim olunsa idi, burada hər bir deputat, hər kəs bilərdi ki, bu, əslində, Konstitusiyaya uyğundur, yoxsa deyil. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əli müəllim, sizin məsələnizdir, xahiş edirəm, məlumat verin.

**Ə.Hüseynli**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli Qüdrət müəllimin qaldırdığı bu məsələləri mən xatırlayıram. Qüdrət müəllim, bu Konstitusiya qanunu ilk dəfə müzakirə olunarkən, birinci, ya ikinci oxunuşlarda bu məsələni demişdiniz. Mən də bu layihənin bu gün səsverməsi olmasına baxmayaraq, o çıxışları bir də izlədim. Mən də qanunvericilik təşəbbüsü subyektinin mövqeyini, həmçinin öz mövqeyimi də çatdırmışdım. Həqiqətən də, "Normativ hüquqi aktlar haqqında" Qanuna görə, təsadüfən deyil ki, cənab Prezidentin təqdim etdiyi layihələrdə ancaq

müşayiət məktubudur. Çünki onun belə bir öhdəliyi də yoxdur ki, subyekt kimi bizə öz tabeliyində olan orqanlardan aldığı ekspert rəyləri və arayışları təqdim etsin. Məhz buna görə də işçi qaydada Administrasiyada saxlanılır. Mən o zamankı izahatımda da demişdim ki, ehtiyac olanda qanunu təqdim edən məruzəçilər həmin sənədlə də tanış ola bilirlər. Amma cənab Prezidentin qanunvericilik təşəbbüsü subyekti kimi bizə onu təqdim etmək öhdəliyi yoxdur. Çünki o özü qanunvericilik subyektidir, bizə onu təqdim edir. Tabeçiliyində olan orqanların verdiyi rəyləri nədən təqdim etmək öhdəliyini onun üzərinə qoymalıyıq? Məhz buna görə də "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda biz onu qəbul etmişik. Zamanında Prezidentin subyekt kimi o müstəsna hüququnu ayırmışıq.

48.2-ci və 48.7-ci maddə ilə bağlı. Biz ona işçi qaydasında da baxa bilərik. Burada birində qeyd olunur ki, həmin məlumatlar uyğunluğun təmini haqqında arayışa daxil edilməlidir. Digərində isə, ümumiyyətlə, norma yaradan orqana. Məncə, bu, texniki bir məsələdir və mən burada ziddiyyət görmürəm. Amma yenə də işçi qaydasında bunu müzakirə edə bilərik. Çox sağ olun.

**Sədrlik edən.** Əli müəllim, sağ olun. Əli müəllim, bu suallar komitə iclasında səslənmişdi, yoxsa yox? Yəni deyirsiniz, işçi qaydada təzədən müzakirə edərik.

**Ə.Hüseynli**. Xeyr, Sahibə xanım. Çünki biz indi ancaq səsverməni həyata keçiririk. Hesab edirəm ki, Siz plüralizm naminə şərait yaradırsınız, deputatlar Konstitusiya qanunu ilə bağlı fikirlərini söyləyirlər. İndi ancaq bu məsələ ilə bağlı səsvermə prosedurudur, yəni komitədə müzakirəmiz olmayıb. Buna baxmayaraq, biz Konstitusiya qanunu ilə bağlı istənilən dövrdə müzakirələrimizi işçi

qaydada davam etdirə bilərik. İndi ancaq səsvermədir.

**Sədrlik edən.** Xahiş edirəm, zəhmət olmasa, bunların hamısını işçi qaydada edin. Hörmətli həmkarlar, səsverməyə keçirik. Buyurun, mən səsə qoyuram, ancaq xatırladım ki, 95 səs çoxluğu ilə qəbul olunmalıdır. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Konstitusiya qanunu qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 2-ci məsələsinə keçirik. Bu məsələ Azərbaycan Respublikasının Slovakiya Respublikasında (Bratislava şəhərində) Səfirliyinin təsis edilməsi haqqında qanun layihəsidir. Qeyd edim ki, layihə bir oxunuşda qəbul ediləcək. Qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Azərbaycanın xarici əlaqələri gündən-günə artır. Xüsusilə Avropada yerləşən ölkələrlə əlaqələrimiz getdikcə inkişaf edir. Bu, Azərbaycanın strateji hədəflərindən biridir və bu strateji hədəflərə, təbii, Avropanın mərkəzində yerləşən Slovakiya da daxildir.

Qeyd etmək lazımdır ki, Azərbaycan–Slovakiya münasibətləri son zamanlar xüsusi inkişaf edən xətlə yüksəlir. Həm cənab Prezidentin, həm də Sahibə xanım, Sizin 2021-ci ildə Slovakiya səfəriniz, o cümlədən Slovakiya parlament sədrinin 2022-ci ildə Azərbaycana rəsmi gəlişi və Şuşaya gedişi, Şuşada, Qarabağda Azərbaycanın həqiqətləri ilə tanışlığı göz qabağındadır.

Bundan başqa, bu yaxınlarda Azərbaycan parlamenti Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş təntənəli yığıncaq, təntənəli iclas keçirdi. O iclasda Slovakiyanın spikeri iştirak etmişdir. Bu göstərir ki, Azərbaycan–Slovakiya münasibətləri getdikcə inkişaf edir və Azərbaycan həqiqətləri Slovakiya kimi Mərkəzi Avropada yerləşir, böyük əhəmiyyətə və gücə malikdir. Coğrafi məkanda o qədər də böyük bir ölkə deyil, ancaq siyasi nöqteyi-nəzərdən çox vacib və əhəmiyyətli ölkədir. Ona görə belə bir səfirliyin orada açılması, – nəzərə alaq ki, Slovakiyanın Azərbaycandakı səfirliyi fəaliyyət göstərir, – çox vacib və əhəmiyyətli bir məsələdir.

Komitəmizdə bu məsələ yekdilliklə dəstək almışdır və bir sizdən xahiş edirik, buna dəstək verəsiniz. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Mən baxıram, 2 nəfər yazılıb. Əgər etiraz etmirsinizsə, səsə qoyaq. Əgər təkid edən varsa, ya Ceyhun müəllim, ya da...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Ceyhun müəllim danışmaq istəyir. Buyurun.

**C.Məmmədov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Proseslərin təhlili göstərir ki, müharibə bitsə də, Ermənistanın ölkəmizə təxribatları davam edir. Biz deyə bilərik ki, bu proseslər bir az da kəskin formada gedir. Bu gün Ermənistanın xarici siyasətində

Qarabağ mövzusu prioritet olaraq qalır və bu gün də Azərbaycana qarşı yalan və saxta təbliğat davam edir. Azərbaycana qarşı davamlı olaraq yalan məlumatlar yayılır. Eyni zamanda, Qarabağda Azərbaycanın humanitar böhran yaratması ilə bağlı fikirlər geniş təbliğ olunur.

Onu da qeyd edim ki, bu siyasət ərəb ölkələri ilə, müsəlman ölkələri ilə də davam edir. Bu gün Ermənistan məqsədli şəkildə müsəlman ölkələri ilə sıx əlaqələr qurmağa çalışır və davamlı olaraq bu prosesdə Azərbaycanı günahlandırır. Eyni zamanda, Ermənistan mediası da xaricdə ərəb mediası ilə çox sıx iş aparır. Bu günlərdə mən Dubayda "Məşhəd" kanalına müsahibə verərkən bir daha belə bir problemlə rastlaşdım ki, ərəb mediası da Azərbaycanı Qarabağla bağlı məsələlərdə günahlandırmağa çalışır.

Bu gün Azərbaycanın Xarici İşlər Nazirliyi bu istiqamətdə çox fəal iş aparır. Azərbaycanın xaricdəki diplomatik korpusunun səylərini açıq görürük və bu gün bizim qarşımızda bu səylərin daha da gücləndirilməsi, Ermənistan təxribatlarının qarşısının alınması kimi mühüm məsələlər var. Bu baxımdan zaman-zaman səfərlərimiz zamanı görüşlərdə apardığımız müşahidələrə əsasən deyə bilərik ki, bu gün xaricdə fəaliyyət göstərən səfirliklərimizin əməkdaşlarının, eyni zamanda, bu səfirliklərin maddi-texniki bazasının daha da gücləndirilməsinə böyük ehtiyac var.

Bu gün sevindirici haldır ki, Azərbaycan bir çox ölkələrdə səfirliklər açır. Amma bəzi ölkələrdə bəzən əsas heyətin 1-2 nəfərdən ibarət olduğunu görürük. Əlbəttə, burada maddi məsələlər var. Dövlət öz diqqətini və qayğısını göstərir. Amma biz mövcud vəziyyəti nəzərə alaraq bu informasiya müharibəsində Ermənistanın diplomatik müstəvidə apardığı təxribatlarının qarşısını almaq üçün bu məsələlərə xüsusi önəm verməliyik. Çünki bir sıra hallarda

əməkdaşların az olması səfirliyin normal qaydada fəaliyyət göstərməsinə də öz təsirini göstərir.

Qeyd etdiyim kimi, bu gündən sonra mübarizəmiz davam etdiyi üçün bu məsələlərə, düşünürəm, davamlı olaraq həssas yanaşmalıyıq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Ceyhun müəllim, heç olmasa, çıxışınızda Slovakiyanın adını çəkəydiniz. Deyərdiniz, çox yaxşı ki, növbəti bir səfirlik açılır. Mən başa düşürəm ki, 3 dəqiqəyə, əlbət, yazılmaq istəyirsiniz. Dayandıra da bilmirəm, çünki Siz çox mühüm məsələni vurğulayırsınız. Qarabağ məsələsidir, Qarabağ həqiqətləridir. Ancaq, heç olmasa, bir Slovakiyanın adını çəkin, axı, bu, stenoqrama düşür.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, Musa müəllim, əlbəttə, söz verəcəyəm. Ceyhun müəllimə söz vermişəm, Sizə də verəcəyəm. Amma dediklərimi, heç olmasa, Siz həyata keçirin. Buyurun.

**M.Qasımlı.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Cənab Prezidentimiz İlham Əliyev tərəfindən Slovakiya Respublikasının Bratislava şəhərində səfirliyimizin açılması dövlətimizin beynəlxalq mövqelərinin möhkəmləndiyini, xarici siyasət fəaliyyətimizin genişləndiyini göstərir. Bir neçə tarixi ana diqqət yetirmək istəyirəm. Bu bizim Slovakiya ilə münasibətlərimiz baxımından əhəmiyyətlidir. Birincisi, Birinci Dünya müharibəsi illərində Avstriya–Macarıstan imperiyasının tərkibində olan slovak xalqının nümayəndələrindən hərbi əsirlər Azərbaycanda olub. Azərbaycan müstəqil olmamasına baxmayaraq, bu əsirlərə qayğı göstərib. Bu, bizim, iki xalqın münasibətləri baxımından çox vacib bir andır. İkinci. İkinci Dünya müharibəsi illərində azərbaycanlılar faşizmə qarşı müba-

rizədə Slovakiyanın, slovak xalqının nasizm zülmündən xilas olunmasında müstəsna rol oynayıblar.

Söyləmək istədiyim digər bir məsələ. İkitərəfli münasibətlərin qurulması çoxtərəfli platformada dövlətimizin möhkəmləndirilməsi baxımından əhəmiyyətlidir. Avropa İttifaqının, Avropa Şurasının və Avropada yerləşən digər qurumların üzvü olan Slovakiya ilə ikitərəfli əlaqələrin genişlənməsi, eyni zamanda, həmin təşkilatlarda dövlətimizin mövqelərinin güclənməsi deməkdir. Ona görə mən cənab Prezidentimizin bu addımını bəyənirəm və hesab edirəm ki, çox faydalıdır. Eyni zamanda, ictimai əlaqələrə, parlamentlərarası əlaqələrə də yeni dinamika verəcək. Diqqətinizə görə təşəkkür edirəm, xanım sədr. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin qalan 17 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. Onu da deyim ki, növbəti 6 məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə də bir-birinə yaxındır. Gündəliyin 3-cü məsələsi "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə,

4-cü məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, 5-ci məsələ Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, 6-cı məsələ "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 7-ci məsələ "Lisenziyalar və icazələr haqqında" Qanunda dəyişiklik edilməsi barədə və 8-ci məsələ "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir.

Qeyd edim ki, qanun layihələrinə Milli Məclisin iki komitəsində baxılmışdır. 3-cü, 5-ci, 7-ci və 8-ci məsələlər İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsindən keçmişdir. Bu məsələlərə dair məlumat vermək üçün mən komitənin sədr müavini hörmətli Əli Məsimliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Məsimli,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli sədr. İcazənizlə, mən 3-cüdən başlayıb 8-ci məsələyə qədər özümüzə aid olan məsələlərə aydınlıq gətirərdim. "Avtomobil nəqliyyatı haqqında" Qanunda edilən dəyişikliklər barədə birinci və ikinci oxunuşlar zamanı yetərincə məlumat verilib. Xatırlatmaq üçün qeyd etmək istərdim ki, "Avtomobil nəqliyyatı haqqında" Qanuna təklif olunan dəyişikliklər sərnişin və yük daşımaları sahəsində icazələrin təkmilləşdirilməsinə xidmət edir. Həmin dəyişikliklərdə öz əksini tapan bəzi mexanizmləri də xatırlatmaq istərdim. Birinci. Daşıyıcılara buraxılış vəsiqəsinin, onun istifadəsində olan nəqliyyat vasitəsinə isə buraxılış kartının verilməsi təklif olunur. İkinci. İcazələrin verilməsi üçün tələb olunan sənədlər və məlumatlara dəqiqlik, müəyyənlik, aydınlıq gətirilib. Üçüncü. İcazənin verilməsi üçün dövlət rüsumu müəyyənləşdirilir və sair. Deputat həmkarlarımı qanun layihəsini üçüncü oxunuşda da dəstəkləməyə dəvət edirəm.

5-ci məsələ haqqında qısa qeyd etmək istərdim ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsində edilən bu dəyişiklik “Avtomobil nəqliyyatı haqqında” Qanunda dəyişiklik edilməsi barədə layihəyə uyğun olaraq hazırlanıb və dəqiqləşdirmə xarakteri daşıyır.

7-ci məsələ ilə bağlı qeyd etmək istərdim ki, “Lisenziyalar və icazələr haqqında” Qanuna dəyişiklik “Avtomobil nəqliyyatı haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə uyğun olaraq hazırlanıb. Qeyd olunan qanun layihəsində təsbit olunan avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına icazələrin növləri icazələrin siyahısında təsbit olunub.

8-ci məsələ barəsində qeyd etmək istərdim ki, “Dövlət rüsumu haqqında” Qanunda olan dəyişikliklər yenə də “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə uyğun olaraq hazırlanıb. Adıçəkilən qanun layihəsində avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına icazənin növləri yenilənib, “Dövlət rüsumu haqqında” Qanunda təsbit olunması təklif olunur. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, indi isə 4-cü, 6-cı məsələlərin təqdimatına keçirik. Bu məsələlərə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələlər barəsində komitənin üzvü hörmətli Kamal Cəfərov çıxış edəcək. Kamal müəllim, buyurun.

**K.Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Komitə lehinədir. Hər hansı bir rəy və təklif olmadığından olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Əli müəllim, sizin komitənizdə 4-cü və 6-cı məsələlərə baxılıb. Xahiş edirəm, komitənin rəyini bizə təqdim edin.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi bu layihənin lehinədir. Olduğu kimi səsə qoyulmasını təklif edirik.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, biz səsverməyə keçirik. Mən ardıcıl olaraq qanun layihələrini səsə qoyacağam. Xahiş edirəm, 3-cü məsələyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

4-cü məsələni səsə qoyuram. Bu, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə biz 5-ci məsələyə keçirik. Bu, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə mən 6-cı məsələdə olan qanun layihəsini səsə qoyuram. Bu da "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə mən 7-ci məsələnin səsverməsinə keçirəm. Bu, "Lisenziyalar və icazələr haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin səsverməsinə keçirik. Bu, 8-ci məsələmizdir. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, 9-cu məsələyə keçirik. Bu məsələ də "Dərman vasitələri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Milli Məclisin Səhiyyə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri çox hörmətli Əhliman Əmiraslanova söz verirəm. Əhliman müəllim, buyurun.

**Ə.Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Çox hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri, media mənsubları. Dərman vasitələri haqqında qanun layihəsi iyulun 6-da Milli Məclisin plenar iclasında geniş müzakirə olunmuş və yekdilliklə qəbul olunmuşdur. Qanun layihəsi ikinci oxunuşda qəbul olunduqdan sonra komitəyə irad və təklif daxil olmamışdır. Hörmətli millət vəkili həmkarlarımdan xahiş edirəm, qanun layihəsini üçüncü oxunuşda da dəstəkləsinlər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Üçüncü oxunuşdur, əslində, səsə qoymalıyıq. Amma mən görürəm ki, Rəşad müəllim yazılıb. Rəşad müəllim, buyurun. Rəşad Mahmudov.

**R.Mahmudov.** Çox təşəkkür edirəm. Əlbəttə ki, üçüncü oxunuşun tələblərinə uyğun şəkildə qanuna səs verəcəyik. Bu, həqiqətən, ölkəmiz üçün vacib bir məsələdir. Amma bəzi məqamlar var ki, hər birimiz üçün, hər birimizin gələcək həyatı üçün, bu dövlətdə yaşayan və gələcəkdə doğulacaq insanlar üçün vacibdir, ona görə mən onları dilə gətirmək ehtiyacını hiss edirəm. Çox dəyərli Əhliman müəllimin də dediyi kimi, biz bu fikirləri müzakirələr zamanı qanunvericilik subyektinin nəzərinə çatdırdıq. Suallar verildi. Əfsuslar olsun, bəzi məqamlar var ki, ümumiyyətlə, izah olunmadı. Mən gələcəkdə hər birimiz üçün problem, təhlükə yarada biləcək bəzi məqamları fürsətdən istifadə edərək bir daha diqqətinizə çatdırmaq istəyirəm.

Qanun layihəsinin 6.6-cı maddəsində təklif etmişdik ki, təsiredici maddə eyni olmaqla eyni əmtəə nişanı adı altında fərqli dozalarda qablaşma formalarında olan dərman vasitələrinin vahid qeydiyyat vəsiqəsi ilə təmin edilməsi

məsələsi, əslində, ən sadə bir şəkildə ortaya qoyulmuş tələblərdən biri idi. Hətta bunu dəfələrlə, illər əvvəl Əhliman müəllim də dilə gətirmişdi. Amma bu, qanunvericilikdə öz əksini tapmadı.

İkincisi. Ölkədə dərman vasitələrinin keyfiyyətli, uyğun qiymətə olması və təhlükəsizliyinin təmin edilməsi baxımından çox əlamətdar bir hal olmaqla bərabər, keçən dəfə də dilə gətirdim, 12.1-ci və 13.1.3-cü maddələrdə çox təzadlı fikirlər var. Nəticə etibarı ilə dərman vasitəsinin adı öz əmtəə nişanı ilə yazılmır. Əlbəttə ki, ola bilər. İlkin məqamda təsiredici maddə yazılır. Amma qanunda yazılır ki, o dərmanın ki təsiredici maddəsi yoxdur, əmtəə nişanı ilə yazıla bilər. Ümumiyyətlə, təsiredici maddəsi olmayan bir dərman dünyada yoxdur. Yəni qanunda belə bir cümlənin olması, sadəcə, texniki məsələ deyil, bu, gələcəkdə bizim üçün, həqiqətən, problem yarada bilər. Çünki qanunda çox aşkar bir şəkildə deyilir ki, qida əlavələri dərman vasitəsi deyil. Bu, artıq bilinəndən sonra burada belə bir cümlənin istifadə olunması problem deyil.

İkinci bir məqam. Ticarət adına qarşı qoyulacaq qadağa, əslində, bizi narahat etməlidir. Mən keçən dəfə də izah etdim. Beynəlxalq səviyyədə qəbul olunmuş standartlar var. Bütün zəncirin mərhələləri ilə birlikdə hər bir ölkənin ən böyük marağı olmalıdır ki, o ölkədə istehsalçının maraqları qorunsun. Nə cür? İstehsalçının nümayəndələri olan yerdə ölkə üçün təhlükəsizlik təmin edilir. 2015-ci ildən sonra qarşımıza qoyulan ən böyük hədəflərdən biri, əslində, bu qanun layihəsinin də əsas məqsədlərindən biri odur: istehsalçıların nümayəndələrinin ölkəmizdə daha fəal bir şəkildə iştirakına təminat yaratmaqdır. Amma yaxşı, ticarət adına qadağa qoyuruq ki, həkimlə hansı isə müəssisə arasındakı əlaqənin pozulmasına şərait yaradaq.

Mənim 5 dənə sualım var. Yenə də fürsətdən istifadə edərək bunları vermək istəyirəm. Nə üçün qardaş Türkiyə başda olmaqla Almaniyada, Fransada, İtaliyada, İngiltərədə, 95 faizdən yuxarı ölkələrdə, ümumiyyətlə, belə bir maddə yoxdur? Həqiqətən, buradakı həkimləri müqayisə edəndə bir az narahatedici bir hadisə baş verir. Çünki bu həkimlərə dəyər verilməlidir. Bu həkimlərin səhvləri varsa da, biz beynəlxalq səviyyədə qəbul olunmuş standartlara uyğun bir şəkildə sistemləri qurmalıyıq və bu qanun layihəsinin də əsas məqsədi budur. Nə üçün dünyada dərman istehsalı ilə məşğul olan əsas ilk top 10 şirkət başda olmaqla tədqiqatlar aparan, tibb işçilərinin inkişafı üçün lokal və beynəlxalq səviyyədə konfranslar təşkil edən, tibb işçilərinin inkişafı üçün bununla birlikdə təkmilləşməsinə dəstək verən, illik rəsmi qazanclarının açıq bir şəkildə, heç bir gizlilik olmadan 20 faizini bu işlərə sərf edən, proseslərə əngəl yaradaraq, əmtəə nişanının istifadəsinə hiss eləmədən, əslində, qadağan qoyuruq?

Bu qanun layihəsinin bu gün qəbul olunması təqdirəlayiqdir. Amma bu iki maddə bir çox problem yaradır. Həkim tərəfindən patentləşdirilməmiş adı ilə yazılmasına nail olmaqla... Zaman keçdikcə mən bunu daha dərindən araşdırdım. Arxa planda şirkətlərlə aptek işçiləri arasında daha xoş olmayan, yeni yaranacaq münasibətlər var. İnanın, nə qədər desək də, bu olmayacaq. Bu bizi çox xoşagəlməz və geri dönüşü çətin olan bir vəziyyətə sala bilər. Bu məsələləri dilə gətirdikdən sonra bununla əlaqədar heç bir açıqlamanın olmaması da insanda qorxu yaradır. Həqiqətən, bəlkə biz bunları görməklə əlaqədar hansısa təcrübəyə malik deyilik.

Beynəlxalq səviyyədə qəbul olunmuş, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən təsdiqlənmiş şəffaf yollarla

gələn, bir az əvvəl dediyimiz kimi, tədqiqatlarda istifadə olunan həmin o maliyyənin ölkəyə gəlməməsi üçün, əslində, hiss eləmədən iki maddə ilə şərait yaratmış oluruq. Ən əsası isə istehsalçı ilə istehlakçı arasında olan zəncirin hər mərhələsinə yaxından nəzarət edən, beynəlxalq səviyyədə qəbul edilmiş, rəqabətliliklə ölkələrdə ən optimal, uyğun qiymətə və keyfiyyətə sahib preparatların istifadəsi üçün nəzarəti həyata keçirən, satışdan sonrakı nəzarət prosesini həyata keçirən, ölkənin aidiyyəti qurumlarına doğru analizlər və proqnozlar verən, ana istehsalçının nümayəndəliklərinin yerinə dərman vasitələrini idxal edən şirkətlər, topdansatış məntəqələri və apteklər bu tənzimləməni həyata keçirə bilərmi? Bununla əlaqədar, həqiqətən, dünyada nümunə yoxdur. Mən bu gün bunu söz xətrinə dilə gətirmirəm.

Dəyərli millət vəkilləri, çox hörmətli xanım sədr, istifadə etdiyimiz bilginin iki mənbəyi var. Birinci, bizim öz təcrübələrimiz və mülahizələrimizlə sahib ola biləcəyimiz bilgilər var ki, istifadə eləyə bilərik. Buna subyektiv bilgilər deyilir. Bir də ölçülə bilən bilgi vardır, beynəlxalq səviyyədə təsdiqlənmiş, elmi tədqiqatlar nəticəsində sübuta yetirilmiş obyektiv bilgilər vardır. Biz bu obyektiv bilgiləri hiss eləmədən müzakirə obyektinə çevirmədiyimiz zaman bu, qanunvericilik bazasında gələcəkdə geri dönüşü çətin olan problemlərə səbəb ola bilər. Yəni bunlar şəxsi maraq, ambisiyalar üzərinə deyilən düşüncələr deyil. Bunlar, həqiqətən, Azərbaycan vətəndaşının sağlamlığı üçün vacib olan kiçik məqamlardır ki, bütün qanun layihəsinin, ümumilikdə, zərər görməsinə səbəb, şərait yarada bilər. Onun üçün fürsətdən istifadə edərək yaxın gələcəkdə bu qanun subyektlərinin, Səhiyyə Nazirliyinin, Əhliman müəllimin rəhbərliyi ilə də tapşırılacaq olarsa, bir daha müzakirə aparılaraq bu məqamlara diqqət yetirilməsinin

vacibliyini dilə gətirmək istəyirəm.

Sadə görünür. Baxın, bir nümunə verim. Bu gün biz deyirik, istənilən bir ölkədən istənilən dərman gətirilsin, bolluq yaradılsın. Amma biz bunu dəfələrlə soruşduq. Bütün ölkələrdən eyni cavablar gəldi. Qanun layihəsində zəncirin qırılmasına səbəb olacaq mexanizmlər var, istənilən ölkədə, yəni başqa ölkəyə aid, o ölkə üçün istehsal olunmuş dərman vasitələrinin ölkəyə gətirilməsini təmin etmək... Bu zəncirin qırılması ilə bərabər, kiçik görünən, amma çox ciddi təhlükəsizlik problemi əmələ gətirir. Çünki həmin ölkəyə girdikdən sonra istehsalçı artıq sənin ölkəndə ola biləcək problemlərə görə məsuliyyət daşımır. Milyonlarca dəyəri olan dərmanlarda ola biləcək problemlərin geri qaytarılması zamanı onu idxal edən şirkətlər o böyük məbləğlərin qarşısında aciz qalacaqlar. Halbuki dünyada var olan mexanizm bu məsuliyyəti istehsalçının üzərinə qoyur. Biz istehsalçı ilə istehlakçı arasında olan zəncirin hiss eləmədən bir qanunun maddəsi ilə pozulmasına səbəb oluruq. Ona görə mən bu bilgiləri və düşüncələrimi paylaşmaqla bir daha bildirmək istəyirəm ki, bəli, bu qanun layihəsi zamanın, dövrün tələblərinə uyğun olan, çox vacib və məqamında ortaya qoyulmuş bir qanun layihəsidir.

Qanun layihəsində bəs qədər müsbət maddələr var. Sadəcə, gələcəkdə bu problemlərin daha xoş olmayan məqamları ilə üzləşməmək üçün, mən düşünürəm ki, bu məqamlar yenə, bir daha dilə gətirməklə, xüsusən qanunvericilik subyektindən bu mövzu ilə əlaqədar heç bir açıqlama verilmədiyinə görə, bəlkə də bilmədiyimiz şeylər varsa, bunun izahının gələcəkdə verilməsinin labüd olduğunu düşünürəm. Bir daha fürsət yaratdığınıza görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Rəşad müəllim. Əhliman müəllim, mən sözü Sizə vermək istəyirəm. Buyurun.

**Ə.Əmiraslanov**. Çox hörmətli Sahibə xanım, çox hörmətli millət vəkilləri. Biz uzun illərdir, deyərdim ki, Dərman vasitələri haqqında qanun layihəsini müzakirəyə çıxarmağı arzu eləmişik. Bu qanun layihəsi üzərində bütün ölkədə olan ekspertlərin iştirakı ilə uzunmüddətli iş gedibdir. Demək olar ki, dərman vasitələrinə aidiyyəti olan bütün sahələr üzrə, bütün ixtisas sahələri üzrə mütəxəssislərin iştirakı ilə bu qanun layihəsi hazırlanıbdır. Qanun layihəsinin birinci müzakirəsində də, ikinci oxunuşda da, – Rəşad müəllim birinci oxunuşda müzakirələrdə, ümumiyyətlə, iştirak eləməyibdir, – ikinci oxunuşda eyni çıxışı həm komitədə, həm də Milli Məclisin plenar iclasında da eləyibdir. Biz bu sualları cavablandırmışıq. Bu təkliflərin bir çoxu qanunvericilik subyekti ilə müzakirə olunubdur və qəbul edilməyibdir.

Rəşad müəllim çox uzun-uzadı danışdı. Ola bilər ki, bizim millət vəkilləri üçün də əsas məsələ söhbətin ana məqamının, məqsədin nədən ibarət olmasındadır. Burada söhbət ondan gedir ki, Rəşad müəllim beynəlxalq təşkilatlardan, Ümumdünya Səhiyyə Təşkilatından, dünyada olan dərman şirkətlərinin təcrübəsindən danışdı. Ancaq bu qanunda bütün bu təcrübə nəzərə alınıb və öz əksini tapıbdır. Söhbət burada nədən gedir? Söhbət ondan gedir ki, dərman vasitələrinin, yəni bizim aldığımız dərman vasitələrinin üzərində  əmtəə nişanları göstərilməsin. Yalnız o dərmanın formulu göstərilsin, təsiredici maddə göstərilsin. Mən hesab eləyirəm ki, biz dünyada elə bir dərman preparatı tapa bilmərik ki, onun üzərində onun təsiredici formulu, təsiredici maddə göstərilməmiş olsun. Bunu nəyə görə edirlər? Ona görə ki, bəzən eyni ad altında müxtəlif

təsiredici maddələrdən istifadə olunur və ancaq əmtəə adı eyni gedir. Bütün bunların qarşısının alınması üçün dərman vasitələrinin üzərində ilk növbədə onun təsiredici maddəsinin göstərilməsi çox vacibdir. Bu gün bizə elə bir dərman preparatı göstərsinlər ki, üzərində onun təsiredici maddəsi yoxdur. Mən belə dərman vasitəsinə indiyə qədər rast gəlməmişəm.

Digər məsələlər redaktə xarakterli məsələlərdir. Bəlkə də Rəşad müəllimin bundan xəbəri yoxdur. Artıq 71 qanun layihəsində 71 dəyişiklik edilibdir. Həm texniki, həm də redaksiya xarakterli dəyişiklik edilibdir və o deyilən məqamların bir çoxu qanun layihəsində artıq öz əksini tapıbdır. Mən hesab edirəm ki, qanun layihəsi çox mütərəqqi bir qanun layihəsidir. Qanun layihəsinin qəbul olunması dərmanların keyfiyyətinin yaxşılaşdırılmasına, dərmanların qeydiyyatının sürətləndirilməsinə, dərmanların lisenziyalarının vaxtının qısaldılmasına xidmət edəcəkdir, eyni zamanda, dərmanların qiymətlərinin optimallaşdırılması da bu qanunda öz əksini tapıbdır. Mən Rəşad müəllimdən fərqli olaraq hesab edirəm ki, qanun layihəsi çox mükəmməl hazırlanmışdır və hörmətli millət vəkillərindən də xahiş edirəm, bu gün qəbul edək. Şübhəsiz ki, vaxt keçdikcə qanun layihəsində dəyişikliklər olacaq. Dövrün tələbatına uyğun olaraq, biz daim qanun layihələrində dəyişiklik edirik. Mənim deyəcəyim bu qədər.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Siz komitənin rəyini bildirmisiniz və mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 2 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 10-cu məsələyə keçirik. Bu da İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən sözü Sizə verirəm. Buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu layihə elə parlamentin özünün hazırladığı və qəbul etdiyi "Siyasi partiyalar haqqında" Qanunun pozulması ilə bağlı məsuliyyət məsələləridir, pozulmanın dispozisiyası, onsuz da, siyasi partiyalar haqqında qanunda var idi. Bizim təkliflərimiz ancaq sanksiyalarla bağlıdır. Komitəmizin rəyi müsbət olub. Yeri gəlmişkən, "Siyasi partiyalar haqqında" Qanun üzərində çalışan digər komitələr də bizimlə həmrəydirlər və üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək, sual vermək istəyən yoxdur. Qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələ 11-ci məsələdir, “Konstitusiya Məhkəməsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Mən sözü yenə də Sizə verirəm, Əli müəllim. Buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli həmkarlar, “Konstitusiya Məhkəməsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi parlamentdə ikinci oxunuşda çox geniş müzakirə olunmuşdur. Xanım sədr, Sizin yaratdığınız o şəraitdə deputatlar hətta bir neçə dəfə çıxış edə biliblər. Hesab edirəm ki, Konstitusiya qanunvericiliyi baxımından, hüquq baxımından çox səmərəli bir fikir mübadiləsi olmuşdur. Mən buna fikir çəkişməsi deməzdim, əksinə, fikir mübadiləsi olmuşdur. Biz bu məsələyə yenə də komitədə baxmışıq. Hörmətli xanım sədr, dünən komitə sədrinin iclasında mən həm qanunvericilik təşəbbüsü subyektinin, həm də Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri kimi bu layihənin Konstitusiyaya uyğunluğu ilə bağlı arqumentlərimi bir daha çatdırmışam. Ona görə hesab edirəm ki, üçüncü oxunuş üçün qanun layihəsini səsə qoymaq mümkündür.

Eyni zamanda, xanım sədr, bilirsiniz ki, Konstitusiya Məhkəməsi öz yubileyi ərəfəsindədir. Daha doğrusu, bu gün Konstitusiya Məhkəməsinin 25 illiyidir. Bir neçə gün bundan əvvəl Sizin təbrikləriniz tərəfimdən müvafiq beynəlxalq konfransda çatdırılmışdır. Dünən cənab Prezidentin fərmanı ilə Konstitusiya Məhkəməsinin bir neçə hakimi təltif olunmuşdu. Fürsətdən istifadə edərək onları da yubileyləri münasibəti ilə təbrik edirik. Əminəm ki,

qəbul etdiyimiz bu dəyişiklik Konstitusiya Məhkəməsinin fəaliyyətinə öz töhfəsini verəcəkdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Xahiş edirəm, bizim təbriklərimizi də çatdırın. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.151 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələ "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu, bizim 12-ci məsələmizdir. Qanun layihəsinə yenə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Nizami Səfərova söz vermək istəyirəm. Nizami müəllim, buyurun, söz Sizindir.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Qanun layihəsi barədə birinci və ikinci oxunuşlarda kifayət qədər ətraflı məlumat verilmişdir. Mətndə hər hansı dəyişiklik edilməmişdir. Üçüncü oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti 13-cü məsələ "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998–2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Mən yenə də sözü Nizami Səfərova verirəm. Nizami müəllim, buyurun, bu məsələ ilə də bağlı məlumat verin.

**N.Səfərov.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Qanun layihəsi iki oxunuşda qəbul edilmişdir, mətndə hər hansı bir dəyişiklik olmamışdır. Üçüncü oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Fazil müəllim yazılıb. Fazil Mustafa, buyurun.

**F.Mustafa.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Burada yubileylərlə bağlı 4 istiqamətdə qanun layihəsi var. Ümumiyyətlə, mən bu aspektdə bir neçə vacib məsələyə toxunmaq istəyirəm. Minatəmizləmə sahəsi ən təhlükəli sahələrdən biridir. Mənim fikrimcə, burada yubiley medalından daha öncə onların həyat sığortası məsələsində ayrıca xüsusi müstəsna qaydaların qəbul olunması vacibdir.

Çünki həyati risklə bağlı ən ciddi sahələrdən biridir.

Bu yubiley medalları ilə bağlı. Bir çox qurumlarda bunların kimlərə verilməsi, subyektiv mülahizələrlə paylanması ənənəsi daha çox hiss olunmaqdadır. Bu məsələ ilə bağlı hansısa bir qurum bunu nəzarətə götürməlidir. Bir çox hallarda orada uzun illər işləyən işçilər və sair nəzərə alınmır. Amma kiminsə medallarının sayı çox olsun deyə, işçilərə verilir. Bu, hər sahədə müşahidə olunmaqdadır.

Üçüncü. Elə bununla dolayı yolla əlaqədar olan, Milli Məclislə əlaqədar olan bir məsələni diqqətə gətirmək istəyirəm. Bizdə bu vacib qurumlardan biri Mərkəzi Seçki Komissiyasıdır. Mən Mərkəzi Seçki Komissiyasının yubileyi ilə bağlı araşdırdım, ciddi bir məlumat tapa bilmədim.

Azərbaycan dövləti qurulanda, 1918-ci il dekabr ayının 15-də Məmməd Əmin Rəsulzadənin təşəbbüsü ilə bir seçki komissiyasının yaradılması təklif olunmuşdu və dekabrın 26-da M.Ə.Rəsulzadənin rəhbərliyi ilə, sədrliyi ilə Müəssislər Məclisinə aid ola biləcək parlament seçkilərinin keçirilməsi üçün Mərkəzi Seçki Komissiyası yaradılmışdır. Yəni bu tarix 26 dekabr tarixi kimi qeyd oluna bilər. O zaman da tapşırılmışdı ki, əsasnamə qəbul olunsun. Seçkilərlə bağlı əsasnamə də 1919-cu il iyulun 21-də qəbul olunub. Bu tarixi qeyd etmək ona görə vacibdir ki, Mərkəzi Seçki Komissiyası ölkənin ən vacib qurumlarından biridir və Milli Məclisə seçkilərin keçirilməsi, referendum, Prezident seçkilərinin keçirilməsi bu quruma həvalə olunubdur.

Maraqlıdır ki, bu qurumda siyasi partiyanın da təmsilçiləri var və bu qurumun üzvlərinin heç birinin diplomatik pasportu yoxdur. Hansı ölkəyə gedirsən, Mərkəzi Seçki Komissiyasının üzvləri orada seçkilərdə iştirak edirlər, hər gün, demək olar ki, ayda bir dəfə səfərdədirlər. Amma bunlara bu imtiyaz verilmir. Onsuz da, bizdə millət vəkili

də daxil olmaqla, Türkiyədən, başqa inkişaf etmiş ölkələrdən fərqli olaraq səlahiyyət müddəti başa çatandan sonra səhəri gün qapını kəsib diplomatik pasportunu əlindən alırlar. Amma Türkiyədə, başqa yerlərdə bu imtiyaz ömür boyu davam edir. Yəni bu adam şəxsiyyət olaraq, məşhur filmdə deyildiyi kimi, "sədrlikdən gedəndən sonra hər halda qədirlikdən getmir". Ona görə biz bu məsələ üzərində də düşünməliyik. Niyə verilməsin? Onun neçə üzvü var ki? Bu nə problem yaradır ki? Ciddi səlahiyyətli bir qurumdur və biz bu qurum ətrafında da müəyyən problemləri həll etməliyik. Ona görə də mən təklif edirəm ki, birinci yubiley Mərkəzi Seçki Komissiyasının... Burada qeyd edilən 4 qurumun yubileyini qeyd etmirik? Elə onun da yubileyi ilə bağlı məsələ araşdırılıb gündəmə gətirilsin. İndi tarix müzakirə oluna bilər, mən demirəm ki, 1992-ci ildən götürməyi doğru hesab etmirəm. Çünki bizim müstəqillik tariximizdən götürülsə, daha məqsədəuyğundur, daha məntiqlidir.

İkinci tərəfdən də onun üzvlərinin səlahiyyətinin müəyyən dərəcədə, heç olmasa, diplomatik pasportla təmin olunmasını gerçəkləşdirək. Bu olsa, hər halda onlara da bir diqqət göstərmiş olarıq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 3 məsələsi də yeni medalların təsis edilməsi ilə bağlıdır və möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Qeyd edim ki, qanun layihələri mahiyyətcə də bir-birinə yaxındır. 14-cü məsələ Azərbaycan Respublikası Prezidentinin təhlükəsizliyini təmin edən orqanın 30 illik yubiley medalının, 15-ci məsələ Azərbaycan Respublikasının strateji obyektlərin mühafizəsi orqanlarının 30 illik yubiley medalının və 16-cı məsələ Azərbaycan Respublikasının xüsusi rabitə və informasiya təhlükəsizliyi orqanlarının 30 illik yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Hər 3 qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Nizami müəllim, bu məsələ ilə bağlı yenə də Siz məlumat verəcəksiniz. Buyurun, Sizi eşidirik.

**N.Səfərov.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Gündəliyin 14-cü, 15-ci və 16-cı məsələləri barədə ətraflı məlumat verilmişdir. Hər 3 qanun layihəsi iki oxunuşda qəbul edilmişdir. Üçüncü oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim. Çıxış etmək, sual vermək istəyən yoxdur. Mən qanun layihələrini bir-bir səsə qoyacağam. İndi 14-cü məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə növbəti 15-ci məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Bu məktubda sonuncu, 16-cı məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 17-ci məsələsinə

keçirik. Bu məsələ Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Mahir Abbaszadəyə söz verirəm. Mahir müəllim, buyurun.

**M.Abbaszadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Çox sağ olun, Sahibə xanım. Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında qanun layihəsi birinci və ikinci oxunuşlarda müzakirə edilibdir. Hörmətli millət vəkillərimizin rəyləri müsbət olub. Üçüncü oxunuşda da olduğu kimi səsə qoymağınızı Sizdən xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---:|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin son 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındır. 18-ci məsələ Dövlət satınalmaları haqqında qanun layihəsidir, 19-cu məsələ isə Vergi Məcəlləsində, "Energetika haqqında" Qanunda və digər 3 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, hər iki qanun layihəsinə

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Mən, Əli müəllim, Sizə söz verəcəyəm. Siz iki məsələ ilə bağlı qanun layihələrinə dair ümumi bir məlumat verin. Buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. Dövlət satınalmaları haqqında qanun layihəsinə edilən dəyişikliklərlə bağlı həm birinci, həm də ikinci oxunuşlar zamanı onun mahiyyəti, əsas cəhətləri, üstünlükləri barəsində kifayət qədər məlumat verilib. Eyni zamanda, həm komitədə, həm də plenar iclaslarda müzakirələr zamanı bir sıra məsələlər qaldırılıb. Həmin məsələlərlə əlaqədar qanunvericilik təşəbbüsü subyektinin təklifi ilə bir sıra maddələrə dəyişikliklər təklif olunur. Həmin dəyişiklikləri sizin diqqətinizə çatdırmaq istəyirəm.

Birinci. Dövlət satınalmalarının əsas prinsiplərinə həsr olunmuş 4.1.2-ci maddədə "satınalmaların şəffaflıq, aşkarlıq və rəqabət qabiliyyətliliyi əsasında həyata keçirilməsi" cümləsinə "ədalətlilik" sözü də əlavə olur.

İkinci. Məxfiliyə həsr olunmuş 8-ci maddədə "Azərbaycan Respublikasının Hesablama Palatası" sözləri də əlavə olunur.

Dövlət satınalmalarına nəzarətin xüsusiyyətlərinə həsr olunmuş 14.2.3-cü maddədə "satınalma predmetinin həcminin 15 faizə qədər artırılıb-azaldılmasına razılıq verilməsi" cümləsində 15 faiz 10 faizlə əvəz olunub.

33-cü və 38-ci maddələr üzrə redaksiya xarakterli bir sıra məqamlar var ki, ora "həmçinin ehtimal olunan qiyməti keçməmək" ifadəsi əlavə olunur. Hörmətli sədr, 39-cu maddə isə bütövlükdə çıxarılır. Bir sıra redaktə xarakterli əlavələr var. Hesab edirəm ki, bunların hamısı yerinə düşən dəyişikliklərdir. Üçüncü oxunuşda bunu da nəzərə almaqla hörmətli deputat həmkarlarımı bu qanun layi-

həsini dəstəkləməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

19-cu məsələ barəsində də qeyd etmək istərdim ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Energetika haqqında", "Büdcə sistemi haqqında" və digər qanunlarda edilən dəyişikliklərə məhz Dövlət satınalmaları haqqında yeni qanun layihəsi ilə əlaqədar uyğunlaşdırma xarakterli bəzi düzəlişlər təklif olunur. Mən deputat həmkarlarımı hər iki layihəyə səs verməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Razi müəllim, sözünüz var? Buyurun.

**R.Nurullayev.** Hörmətli xanım sədr, təşəkkür edirəm. Mənim deyəcəyim məsələ çox vacib məsələdir, özəlləşdirmə çekləri ilə bağlıdır. İcazə versəniz, İqtisadi siyasət, sənaye və sahibkarlıq  komitəsi tərəfindən qanun təqdim olunduğuna görə bu hissədə bunu demək qərarına gəldim.

Hörmətli xanım sədr, özəlləşdirmə çekləri 1996-cı ildə mərhum Prezident Heydər Əliyev tərəfindən 450 nömrəli fərman ilə 1997-ci ilədək anadan olmuş bütün ölkə vətəndaşlarına əmlak payı olaraq verilib. Təxminən 1 milyon 600 mindən çox özəlləşdirmə çeki ayrı-ayrı vətəndaşlarda saxlanılır. Elə mən də zamanında aldığım 7 ədəd özəlləşdirmə çekini hələ də özümdə saxlayıram. Vətəndaşlar bu çeklərdən nə vaxtsa yenidən istifadə edə biləcəklərinə ümid edirlər. Amma bu məsələ get-gedə sıradan çıxır. Özəlləşmənin məqsədi vətəndaşları da mülkiyyət, müxtəlif müəssisələrdə payçı etmək olub. Proses çox gözəl başladı və verilən fərman da vətəndaşların xeyrinə idi. Amma düzünü desək,  həyata keçirilən zaman vətəndaşlar heç bir xeyrini görmədilər. Özəlləşdirmə prosesi ayrı-ayrı şəxslərin müxtəlif fırıldaqlarına, birdən-birə varlanmasına səbəb

oldu. Dövlət özəlləşdirmə çekləri sahəsində vətəndaşlar qarşısında olan borcunu yerinə yetirə bilməyib və bunu boynumuza almalıyıq.

Özəlləşdirmə çekləri ilə bağlı sosial şəbəkələrdə müxtəlif platformalar var. Elə ilk gündən mən də onların üzvüyəm və məlumatlı qalıram. İnsanlar haqlı olaraq narahatdır və dəfələrlə müxtəlif instansiyalara müraciət edirlər. Amma onların səsinə səs verən yoxdur. Çek sahibləri bir neçə maddə üzrə Konstitusiya hüquqlarının pozulmasını deyir və bunu əsaslandırırlar. Konstitusiya Məhkəməsinə də məktub ünvanlanıb. Analoji məktublar bir neçə millət vəkili tərəfindən də eyni quruma ünvanlanıb. Amma problemin bu şəkildə həlli, hələ ki, mümkün görünmür. Məncə, bu məsələnin müzakirə yeri elə parlament olmalıdır. Onun üçün də bu sahədə fəaliyyət göstərən təşkilatların, dövlət qurumlarının, fəalların və aidiyyəti hökumət strukturlarının iştirakı ilə müzakirələrin keçirilməsini vacib sayıram.

Hörmətli xanım sədr, bəlkə bununla bağlı Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclası ola bilər. Məncə, bu müzakirənin keçirilməsi və maraqlı tərəflərin dinlənilməsi ən əlverişli çıxış yollarından biri ola bilər. İmkan yaratdığınız üçün təşəkkür edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Razi müəllim, dediyiniz məsələnin bu qanun layihələrinə aidiyyəti varmı? Olmaz, axı. 1 dəqiqə, xahiş edirəm. Mən hamıya hörmətlə yanaşıram. Görürəm ki, yazılıblar. Aydın müəllim, üçüncü oxunuşdur, bu qanun layihələri ilə bağlı nə isə demək istəyirsiniz? Çox vacibdirsə, buyurun.

**A.Hüseynov.** Bəli, doğrudan da, vacib hesab edirəm. Çünki qanunun mahiyyətini bilirəm. Təklif edəcəyim

bənddə nələr əldə olunacağını da bilirəm. Bu, yeni iş yerləri deməkdir, proqnozlaşdırıldığından əlavə iş yeri deməkdir. Ona görə də çox xahiş edirəm.

23.4.2-ci maddədə "müvafiq işin görülməsi üçün tələb olunan işçi sayının olması". Biz "işçi sayı" sözlərini göstərməklə tenderdə, prosedurlarda iştirak edən təchizatçılar məcburən, heç olmasa, hərəsi bir vətəndaşı işlə təmin edəcək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Aydın müəllim, Siz ikinci oxunuş komitə iclasında olmusunuz? Axı, bu, üçüncü oxunuşdur. Biz nəyi dəyişə bilərik? Dəyişilibsə, onda xahiş edirəm, işçi qaydada xəbər verərsiniz.

Hörmətli həmkarlar, mən qanun layihələrini bir-bir səsə qoyuram. 18-ci məsələyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 19-cu məsələdə olan qanun layihəsini səsə qoyuram. Münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 98
Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, həm iclasımızın, həm də növbədənkənar sessiyamızın gündəliyinə daxil olan məsələlər bu gün başa çatdı.

Sessiyanın yekunları ilə bağlı mən bir neçə söz demək istəyirəm. İlk öncə bu dövrdə Milli Məclisin 9 iclası keçirilmiş, 90 qanun və qərar qəbul edilmişdir.

Düşünürəm ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uzaqgörən dövlət siyasətini qanunvericilik sahəsində dəstəkləmək üçün Milli Məclis öhdəsinə düşən vəzifələri bu növbədənkənar sessiyada yerinə yetirmişdir.

Hörmətli həmkarlar, bu gün Ulu Öndərin 1969-cu ildə Azərbaycanda ilk dəfə ali hakimiyyətə gəlməsinin 54-cü ildönümü tamam olur. Bu haqda hörmətli həmkarlar söz açmışdılar. Məhz o illərdə Azərbaycan tərəqqi və çiçəklənmə dövrünə qədəm qoymuşdur. Azərbaycanın başladığı bu uğurlu yol Ulu Öndərin xidmətləri sayəsində dövlət müstəqilliyi dövründə davam etdirilmişdir. Bu dahi şəxs, Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Milli Məclisin növbədənkənar sessiyasında daha bir xüsusi iclas keçirilmiş və Bəyanat qəbul olunmuşdur.

Hörmətli həmkarlar! Növbədənkənar sessiya dövründə Milli Məclisdə iki dinləmə keçirilmişdir. Onlardan biri ölkəmizdə uşaq hüquqlarına, digəri isə Qərbi Azərbaycanın tarixi və mədəni irsi ilə bağlı məsələlərə həsr

edilmişdir. Eyni zamanda, qeyd edim ki, sessiya müddətində qanunvericilik fəaliyyəti ilə yanaşı, Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı sahəsində də zəruri tədbirlər görülmüşdür.

İyun ayının 6-dan bu günə qədər, yəni 1 ay 8 gün ərzində Milli Məclisin 39 deputatı 16 xarici ölkəyə 51 səfər həyata keçirmişdir və 7 xarici ölkənin və 3 beynəlxalq təşkilatın nümayəndə heyətləri Milli Məclisdə qəbul edilmişdir.

Həmçinin bizim deputatlar Özbəkistanda keçirilmiş Prezident seçkilərini müşahidə etmişlər.

Bildiyiniz kimi, Milli Məclis sədrinin Avstriya Respublikasına rəsmi səfəri olmuşdur və bu barədə sizə məlumat verilmişdir.

Hörmətli həmkarlar, inanıram ki, həm yaz sessiyasında, həm də növbədənkənar sessiyada görülmüş işlər gələn sessiyanın uğurlarına da möhkəm zəmin yaratmışdır.

Mən səmərəli fəaliyyət üçün sizin hamınıza təşəkkür edirəm.

Hörmətli deputatlar, Milli Məclisin növbədənkənar sessiyasını bağlı elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***16 iyun 2023-cü il***

**Kamran Bayramov.** Məlum olduğu kimi, dünən səhər saatlarında ölkəmizin dövlət sərhədləri daxilində olan Laçın yolundakı sərhəd-buraxılış məntəqəsinə qarşı Ermənistanın silahlı qüvvələri tərəfindən törədilmiş hərbi təxribat nəticəsində Azərbaycan Sərhəd Xidmətinin hərbi qulluqçusu yaralanıb.

Əslində, Ermənistanın bu təxribatı gözlənilən idi. Çünki Laçın sərhəd-buraxılış məntəqəsinin açıldığı andan etibarən Ermənistanın rəsmi şəxsləri və havadarları ağız köpüyü ilə Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin guya blokada şəraitində olduğunu, yaşadıqları ərazilərin qaz və elektrik enerjisi təminatının kəsildiyini, hətta utanmadan etnik təmizləməyə məruz qaldıqlarını bildirirdilər, bununla da dünya ictimaiyyətini çaşdırmağa cəhd göstərirdilər.

Lakin bu cəhdlər baş tutmadı. Azərbaycan bütün yaya göstərdi və sübut etdi ki, erməni sakinlərinin məntəqədən təhlükəsiz, sərbəst və maneəsiz keçidi təmin edilir. Bu proses onların Azərbaycan cəmiyyətinə reinteqrasiyası üçün əverişli şərait yaradırdı. Lakin Ermənistan və onun havadarları bunu heç cür həzm edə bilmədi.

Çirkin cəhdlərin uğursuzluğunu görən Ermənistan yenə ənənəvi üsula – dövlət siyasətinin tərkib hissəsi olan hərbi təxribatlara əl atdı, regionda onsuz da qeyri-sabit olan vəziyyəti daha da gərginləşdirdi. Göründüyü kimi, Ermənistan yeni reallıqlarla barışmaq istəmir, hətta bunu etməyə ona imkan və ya icazə vermirlər.

Bu cür davranış açıq-aşkar göstərir ki, Ermənistan

Azərbaycanla münasibətlərin normallaşmasında, sülh danışıqlarının davam etdirilməsində, bölgədə sülh və sabitliyin bərqərar olunmasında nəinki maraqlı deyil, əksinə, bu prosesləri sarsıtmaq və regionda gərginliyi artırmaq niyyətindədir. Dünənki təxribat isə Ermənistanın son dövrlərdə münasibətlərin normallaşması ilə bağlı ifadə etdiyi pozitiv ritorikanı çox böyük şübhə altına qoydu.

Azərbaycan, həmişə olduğu kimi, dünənki təxribatın da qarşısını qətiyyətlə aldı, mütənasib cavab verdi. Təxribatı törədənlər zərərsizləşdirildi, Laçın sərhəd-keçid məntəqəsindən keçid müvəqqəti dayandırıldı. Təxribatın nəticəsi isə odur ki, Ermənistan Qarabağ ermənilərinin Laçın yolu ilə sərbəst hərəkət imkanlarını məhz öz çirkin hərəkətləri ilə məhdudlaşdırdı. Heç kimdə şübhə qalmamalıdır ki, Azərbaycan bundan sonra da sərhədlərinin təhlükəsizliyini və toxunulmazlığını qorumaq üçün bütün zəruri addımları atacaq.

**Nizami Səfərov.** Laçın sərhəd nəzarəti məntəqəsində dislokasiya olunmuş və ərazidə xidmət göstərən Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusunun Ermənistan ərazisindən açılmış atəş nəticəsində yaralanması əyani formada nümayiş etdirir ki, Ermənistan regionda vəziyyətin gərginləşməsində hələ də maraqlıdır. Bu məsuliyyətsiz hərbi-siyasi təxribatın çox uzaqlara gedən məqsədləri var.

Birincisi, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan Respublikası tərəfindən Qarabağda həyata keçirilən təhlükəsizlik tədbirlərinin qarşısının alınması, sərhəd nəzarəti məntəqəsinin normal fəaliyyətinin pozulması və bununla da bu bölgədə davamlı sülhün və sabitliyin bərqərar olunmasına maneçilik törədilməsi.

İkincisi, Azərbaycanın suveren ərazisinə qarşı Ermənistan tərəfindən hansısa hərbi təxribat, şübhəsiz ki, cavabsız

qala bilməz və mənfur qonşularımız bu halda bütün dünyaya car çəkirlər ki, onlara qarşı dırnaqarası təcavüz olub.

Bir daha xatırlatmaq istərdim ki, Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığının əleyhinə baş vermiş təhdidin qarşısının alınması istiqamətində atdığı addımlar birmənalı olaraq beynəlxalq hüquq çərçivəsindədir.

BMT Nizamnaməsinin 2-ci maddəsinə əsasən "Birləşmiş Millətlər Təşkilatının bütün üzvləri beynəlxalq münasibətlərdə hər hansı bir dövlətin ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı və ya BMT-nin məqsədləri ilə bir araya sığmayan hər hansı şəkildə güc tətbiq edilməsi təhdidindən və ya güc tətbiq etməkdən çəkinirlər". Əgər Ermənistan beynəlxalq münasibətlərdə imperativ xarakter daşıyan dövlətlərin davranış qaydasını pozursa, bu halda silahlı hücüma məruz qalan ölkəmiz fərdi özünümüdafiə hüququndan irəli gələn müvafiq tədbirləri həyata keçirəcək.

Heç kəsdə şübhə olmasın ki, Azərbaycan Respublikası ona qarşı yönələn istənilən təhdidin qarşısını alacaq və bunun üçün bütün zəruri vasitələr mövcuddur.

**Sahib Alıyev.** Dünən Azərbaycan Milli Qurtuluş Gününü qeyd edərkən Laçındakı nəzarət-buraxılış məntəqəmizin atəşə tutulması iyulun 21-də Brüsseldə üçtərəfli danışıqların keçiriləcəyi, buna hazırlıq məqsədi ilə Azərbaycanla Ermənistanın xarici işlər nazirlərinin Vaşinqtona gedəcəkləri açıqlanandan sonra törədilən təxribatların azğın şəkildə davamıdır. Dövlət Sərhəd Xidməti "Laçın" nəzarət-buraxılış məntəqəmizi atəşə tutan iki snayperin məhv edildiyini bildirir. Ermənistan hələlik susur. Bəlkə qarşı tərəfin, doğrudan da, itkisi yoxdur. Bizim nəzarət-buraxılış məntəqəsini atəşə tutanlar regionda sülh olmasını arzulamayan hansısa ölkənin kəşfiyyat-diversiya qrupu olub.

Təəssüf ki, bu regionda sülhə qarşı çıxanların sayı heç də az deyil. Onlardan da ikisinin – İran və Fransanın Ermənistanda hərbi təlimatçıları da var. Amma bu, daha çox 1905-ci ildə kazaklara təxribat törətdirməklə məqsədlərinə çatanların dəst-xətinə bənzəyir. Məhz həmən ölkənin ekspertləri və hətta rəsmiləri artıq açıq şəkildə bildirirlər ki, Azərbaycanla Ermənistan arasında sülh, Qarabağdakı haydillilərin reinteqrasiyası Qafqazdakı mövcudluqları üçün təhlükə yaradır. Onların deməklərindən çıxan məntiq budur ki, özlərini rahat hiss etmələri üçün bu region təhlükə içində, qarşıdurma vəziyyətində yaşamalıdır.

Burada diqqətinizi bir məqama da cəlb edim ki, təqribən iki ay öncə, aprelin 11-də yenə məhz Dığ kəndindən mövqelərimiz atəşə tutulmuş və təəssüf ki, 3 hərbçimiz şəhid olmuşdu. Həmən təxribatdan iki gün sonra Ermənistan baş naziri ölkəsinin Laçınla sərhədlərinin 12 kilometrini Rusiyanın qoruyacağını bildirdi. Belə görünür ki, Moskva təkcə Zəngəzur dəhlizini deyil, Ermənistandan Xankəndiyə gedəcək yolu da başlanğıcdan sona kimi tam nəzarət altında saxlamaq istəyir. Dünənki təxribat da, fikrimcə, Ermənistanın Azərbaycanla sərhədlərinə kontrolu da öz əllərinə almaq istəyənlərin prosesi tezləşdirmək niyyətindən qaynaqlanır. Halbuki 1992-ci il sentyabr anlaşmasına görə Rusiya Federal Təhlükəsizlik Xidməti Ermənistanın ancaq Türkiyə və İranla sərhədlərini qorumalıdır.

İstənilən halda arxasında kimin durmasından asılı olmayaraq Azərbaycanın sərhəd-buraxılış məntəqəsinə qarşı törədilən dövlət terror aktına görə Ermənistan məsuliyyət daşıyır və forpostluğu onu bu məsuliyyətdən azad etmir.

Mən dünən Tərtərin Sarıcalı kəndində seçicilərlə görüşdüm. Onlar böyük su, xüsusən də içməli su qıtlığı ilə üzləşdiklərini dedilər. Bu, ilk növbədə Sərsəngdən suyun

buraxılmaması ilə bağlıdır. Xatırladım ki, bizim uyğun qurumların mütəxəssisləri Sərsəng su anbarının daha optimal istismarıyla bağlı Qarabağdakı haydillilərlə görüşüb danışmışdılar. Amma sonra onlar bu ünsiyyətdən qaçdılar. Çox ehtimal ki, Nikol Paşinyanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıdığını deməsindən sonra gecə saat 11-də Xankəndidəki uydurma parlamenti toplayaraq bu açıqlamanı pislətdirənlərin, yəni Rusiyanın oradakı müvəqqəti hərbi kontingentinin təhriki ilə belə davrandılar.

***23 iyun 2023-cü il***

**Bəhruz Məhərrəmov.** Konstitusiyanın 26-cı maddəsinin II hissəsi ilə dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. O cümlədən də (39, I.) Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququna.

Eyni zamanda, Konstitusion formada (60, I.) hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir, (61, I; II) hətta dövlət hesabına yüksək keyfiyyətli hüquqi yardım imkanı var.

Sual yaranır, Gədəbəydə vətəndaşlar müvafiq problemlə bağlı aidiyyəti hüquqi imkanlardan istifadə edibmi? Kimsə kal formada sərbəst toplaşmaq azadlığına istinad edirsə, bilsin ki, "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 4-cü maddəsinə əsasən toy, dəfn, bayram, matəm, o cümlədən dini mərasimlər istisna olmaqla, sərbəst toplaşmaq yalnız dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə, ictimai qaydanı pozmamaq şərti ilə mümkündür. Biz nə gördük? Zorakılıqla müşayiət olunan hərəkətlər.

Azərbaycan qadını bir örpəyi ilə qan davalarını dayandırıb, indi övladı yaşında polisə daş atıb, onu təhrik edən ağbirçəklər bu cəmiyyətdə nə zaman meydana gəldi?

Bu, Ağrı dağa baxıb yaşmanan Azərbaycan qadınının obrazı deyil, bu, övladını qurban verən, amma 30 ildə bir addım geri çəkilməyən Gədəbəyli ananın üslubu ola bilməz.

Bu, Laçın–Xankəndi yolunda ekofəalların fəaliyyətinə cavab olaraq hazırlanan, o insanların da alət edildiyi ləyaqətsiz təxribatdır. Bu, Avroparlamentdəki anti-Azərbaycan dinləmənin, son həftələrdə intensivləşən hərbi təxribatların bir həlqəsidir.

Necə oldu, aksiya başlanan anda Qərbdən maliyyələşən muzdlu yal mediası hadisə yerində idi?

Şuşa–Laçın yolunda 138 günlük aksiyalarda, harada idi bu media, bu gün Gədəbəydən canlı yayımlar edənlərin biri bir cümlə yazmışdımı o aksiyadan? Yaxud, Şuşada ekofəalların əlindəki plakatların imitasiyası birdən-birə Söyüdlüdə haradan peyda oldu, kim təşkil etdi?

Qanunla polisin vəzifəsi müəyyənləşib, əgər qanunsuz toplaşanlar daşla, küt alətlərlə ərazidəki fəhlələrə xəsarət yetirirsə, polis nə etməli idi?

"Polis haqqında" Qanunun 26-ci maddəsinə əsasən polis əməkdaşı konkret hallarda xüsusi vasitələri tətbiq edə bilər. Eyni zamanda, xüsusi vasitənin tətbiq edildiyi hər bir halda xidməti yoxlama aparılır və rəy verilir. Orada qadına qarşı gözyaşardıcı qazın tətbiqi üzrə də, təbii ki, müvafiq rəy hazırlanacaq və yalnız bundan sonra pozuntuya yol verilib-vermədiyini demək olar. Hər kəs də əmin olsun ki, iş obyektiv, tam və hərtərəfli araşdırılacaq. Polis bu dövlətin sütunudur, hansısa polis əməkdaşı fərz edək ki, səlahiyyətlərini aşıb, bu, bütövlükdə, polisə hücum etməyə əsas verirmi? Unutmayaq ki, polisi hədəfə almaq dövləti hədəfə almaq, sabitliyi, ictimai təhlükəsizliyi hədəfə almaqdır.

Dövlətin bu istiqamətdə mövqeyi aydındır, bilirsiz, Baş

nazirin sərəncamı ilə bu istiqamətdə komissiya yaranıb, araşdırma gedir.

Əziz həmkarlar biz, qanunçuluğu bir tərəfə qoyub, insanların qulağına xoş gələn ifadələrdən çəkinməliyik. Prioritetimiz hüququn və qanunun aliliyinin qorunması, dövlətçiliyin və bütövlükdə, xalqın mənafelərinin müdafiəsi olmalıdır. Bu gün leş qarğası kimi fürsət gözləyənlər var, bunlara həmin fürsəti vermək olmaz.

Heydər Əliyevin qurduğu bu dövləti, İlham Əliyevin yaratdığı bu reallığı kimsə hədəfə ala bilməz, heç kimə imkan verilməyəcək bu ölkəni 1990-cı illərin Azərbaycanına qaytarsın, Suriyaya, Liviyaya döndərsin. Necə ki dövlət öz xalqının yanındadır, xalq da öz dövlətinin keşiyindədir. Sosial şəbəkələrdəki 3-5 ünsür xalq deyil, xalqı təmsil etmir.

**Jalə Əliyeva.** Hörmətli xanım sədr. Əvvəla Sizi və rəhbərlik etdiyiniz Parlament nümayəndə heyətini Avstriyaya uğurlu səfəriniz münasibəti ilə təbrik edirəm. Əminik ki, səfər çərçivəsində keçirtdiyiniz çoxsaylı görüşlər və apardığınız danışıqlar ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına öz əhəmiyyətli töhfəsini verəcəkdir.

Fransa parlamentinin 170 deputatının Azərbaycanın əzəli torpağı olan Qarabağla bağlı növbəti yersiz iddiaları, əlbəttə ki, beynəlxalq müstəvidə heç bir haqq tanımır. Fransa Prezidenti Emmanuel Makrona edilən bu absurd müraciət heç bir həqiqəti özündə əks etdirmədiyi kimi, eyni zamanda, Fransanın münaqişənin başından bəri sərgilədiyi birtərəfli mövqeyi və haqsız tərəf olan Ermənistana yenidən haqq tanımaq çağırışı kimi qəbul edilməlidir.

Bu, artıq sülh müqaviləsi yolunda addımlamaqda olan iki xalqın, xüsusi ilə də Ermənistanda yaşayan insanların gələcək taleyinə vurulan bir zərbədir. Çağırış edən 170

deputatın əgər siyasətdən biraz da olsa anlayışı varsa, bilməlidir ki, Qarabağda yaşayan ermənilər Azərbaycan dövlətinin vətəndaşlarıdır və bu belə də davam edəcək. Azərbaycan dövləti hər bir vətəndaşına bərabər hüquq tanıdığı kimi, eyni zamanda, Qarabağda yaşayan erməni əsilli şəxslərə də eyni hüquqları tanıyır. Yəqin ki, həmin deputatlar bu tələsik açıqlamalarını verərkən özlərinin illərdir işğal altında saxladıqları ölkələrdə həyata keçirdikləri siyasət ilə Azərbaycan dövlətinin apardığı siyasəti səhv salırlar. Düşünürəm ki, Fransa dövləti parlamenti vasitəsi ilə bir daha öz simasını və münaqişədəki mövqeyini ortaya qoyur. Bu mövqe birbaşa həm suveren bir ölkənin daxili işlərinə qarışmaq, həm də işğalçı dövlətə verdiyi dəstəyin davamı kimi qiymətləndirilir.

**Malik Həsənov.** Bu gün müzakirəmizə çıxarılan “Dərman preparatları haqqında” Azərbaycan Respublikasının Qanununda edilməsi nəzərdə tutulan dəyişikliklər mütərəqqi xarakterdə olub, müasir çağırışlara cavab verir. Ölkə gündəmində dərman preparatları, onların keyfiyyəti, təsir faizləri haqqında ciddi və mübahisəli məqamlar çoxdur. Bu, həm ayrı-ayrı sosial təbəqə nümayəndələrinin, KİV mənsublarının, həm də vətəndaşların daim gündəmə gətirdiyi məsələdir. Hesab edirəm ki, məsələyə yeni yanaşma ortaya qoyulmalıdır. Bu gün vətəndaşlar müxtəlif yollarla xarici ölkələrdən şəxsi istifadə üçün dərman gətirməyə çalışırlar. Hər birimiz bu sual ətrafında düşünməliyik.

Təqdim edilən layihədə alqışlanan məqamlar dünya praktikası əsas götürülərək bir sıra xarici dövlət qurumları tərəfindən istifadəsinə icazə verilməsi, habelə Avropa İttifaqına, Avropa Azad Ticarət Assosiasiyasına üzv ölkələrdə, Avropa İttifaqı ilə Gömrük İttifaqı Sazişi qüvvədə olan ölkələrin ən azı birində istehsal olunan və dövlət qey-

diyyatına alınmış və istifadəsinə icazə verilməsi meyarları nəzərə alınmaqla, dərman vasitələrinin xarici (beynəlxalq) qeydiyyatının tanınması nəzərdə tutulmuşdur.

Bu dərman vasitələrinin beynəlxalq qeydiyyatının tanınmasına müraciət edən ərizəçi qismində istehsalçı ilə yanaşı, topdansatış əczaçılıq müəssisəsi nəzərdə tutulmuşdur. Beləliklə, dərman vasitələrinin Azərbaycan Respublikasına gətirilməsi məqsədi ilə qeydiyyatı üçün müraciət edə biləcək tərəflərin dairəsi genişlənmiş və bütövlükdə, qeydiyyat prosesi surətləndirilmişdir.

Qanun layihəsində dərman vasitələrinin dövriyyəsinə nəzarəti təmin etmək məqsədi ilə Səhiyyə Nazirliyi tərəfindən aparılan elektron sisteminin tətbiq edilməsi nəzərdə tutulmuşdur. Bu sistem istehsal və idxal olunan markalanmalı malların dövriyyəsinə, topdan və pərakəndə satışına nəzarəti həyata keçirən və bununla bağlı məlumatları qeydə alan informasiya ehtiyatı olacaqdır. Həmçinin dərman vasitələrinə reseptlərin elektron formada yazılmasına imkan verən sistemin tətbiqi nəzərdə tutulmuşdur.

Bununla yanaşı, layihədə dövlət qeydiyyatına alınmış dərman vasitələrinin tənzimlənən qiymətlərdən yuxarı qiymətlərlə satılması qadağan olunur.

Beləliklə, qanun layihəsinin qəbul edilməsi dərmanların, ölkə ərazisinə idxal edilən keyfiyyətli dərman vasitələrinin sayının artırılması, ölkədə dərman qıtlığının aradan qaldırılması və dərman vasitələrinin istehsalı ilə məşğul olan istehsalçıların dərman vasitələrinin dövlət qeydiyyatına alınmasının sadələşdirilməsi, tələb edilən sənədlərin azalması və sahibkarlıq subyektləri üçün prosesin sadələşdirilməsinə səbəb olacaqdır. Ümumiyyətlə, təqdim olunan layihə yeni çağırışlara cavab verir və onun lehinə səs verəcəm.

**Məlahət İbrahimqızı.** Mən də son günlərdə Gədəbəyin

Söyüdlü kənd sakinləri ilə polis arasında baş vermiş olaylara münasibət bildirmək istəyirəm. Öncə demək istərdim ki, bu gün Azərbaycana dünyada ən etibarlı tərəfdaş ölkə kimi hörmət edilir və dövlətimizin sürətlə artan gücündən çox narahat olan qüvvələr var. 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfərlə dövlətimiz beynəlxalq aləmdə çox böyük nüfuza malikdir. Bu isə Azərbaycana qarşı fobiyası olan ermənipərəst qüvvələrdə, xüsusi ilə dərdi başından aşan Fransa kimi ölkələri və Makron kimi dövlət başçılarını çox narahat edir və onlar ölkəmizə qarşı açıq-aşkar qərəzli mövqe göstərirlər. Bu qüvvələrin məqsədi içimizdə olan milli satqınların əli ilə regionda söz sahibi olan ölkəmizdə xaos və müxtəlif təxribat törətmək və milli birliyimizi sarsıtmaqdır. Məqsəd isə dövlətimizi və xalqımızı əsas məqsədindən yayındırmaqla, Ermənistanla münasibətlərin normallaşma prosesini pozmaq və yeni bir münaqişənin yaranmasına nail olmaqdır. Heç şübhəsiz ki, Söyüdlüdə baş vermiş hadisələrdə də bu qüvvələrin dəsti-xətti var. Etiraf edək ki, Söyüdlüdə baş verən insidentdə hər iki tərəfin də müəyyən səhvlikləri olubdur. Amma bu tərəflərin hər ikisi də bizimdir. Polis də bizimdir, uzun illərdir təcavüzkar Ermənistanla sərhəddə öz torpaqlarının keşiyində olan Söyüdlü kənd sakinləri də bizimdir. Buna görə də baş vermiş hadisəyə ancaq Azərbaycanın qanunvericiliyi çərçivəsində qiymət verilə bilər.

Bu gün Azərbaycan polisinin fəaliyyətinin nəticəsidir ki, ölkəmizdə asayiş ən yüksək səviyyədə qorunur və dünyada ən güvənli və təhlükəsiz ölkə sayılır. Gecə saatlarında belə polisin bizim təhlükəsizliyimizin qarantı olduğunu bilirik. Eyni zamanda, heç bir vətəndaşın ixtiyarı yoxdur ki, polisə daş-kəsək atsın. Polisə daş atmaq elə dövləti-

mizə, dövləti təmsil edənlərə daş atmaqdır. Söyüdlüdəki polis nəfərinin hər biri azərbaycanlıdır və hər biri Azərbaycan qadınının, anasının, bir ailənin oğludur. Vətən müharibəsi dövründə işğal altında olan torpaqlarımızın azad olunmasında Azərbaycan polisi ərazi bütövlüyümüz və dövlətçiliyimiz uğrunda qəhrəmanlıqla vuruşaraq canlarından keçdilər və şəhid oldular. Polisə daş atanlar da, onları bu işə təhrik edənlər də bunu heç vaxt unutmamalıdır.

Hər kəs bilməlidir ki, o, dövlətin qanunlarına tabe olmalıdır. Tabe olmaq istəməyən özünə yaşamaq üçün başqa ölkə seçə bilər. Əlbəttə, polis də ancaq zəruri hallarda, göstəriş verildiyi halda sərt tədbirlər icra edə bilər. Ola bilsin ki, baş vermiş hadisələr zamanı təhlükənin qarşısını almaq məqsədi ilə polis sərt tədbirlər tətbiq etmək məcburiyyətində olubdur.

Əminik ki, baş verən olaylarla bağlı yaranmış hökümət komissiyası ən qısa zamanda ictimaiyyətə ətraflı məlumat verəcəkdir.

Mənim sözüm bu olaylardakı çirkli canfəşanlıqları ilə gündəmdə qalmaq istəyən Əli Kərimli və onun kimi antimilli satqınlarımıza, eləcə də xarici qüvvələrin sifarişi ilə Söyüdlüdə baş vermiş insidenti şişirdən bəzi jurnalistlərədir. Əmin olsunlar ki, onların bu çirkli arzuları və niyyətləri növbəti dəfə də ürəklərində qalacaqdır. Qulaqlarını açıb eşitsinlər ki, bütün dünya Azərbaycan xalqının müharibə vaxtı öz liderinin ətrafında sıx birləşərək tək yumruğa çevrilmiş məğlubedilməz milli birliyinə şahidlik edibdir.

Sözsüz ki, Azərbaycan dövlətinə və dövlətçiliyinə bata bilməyənlərin millətimizə hücum etmək cəhdləri bu dəfə də boşa çıxacaq. Qaldı ki, bu milli satqınlarımız polis

zorakılığı görmək isəyirlərsə, gözlərini yaxşı-yaxşı açıb Fransa polisinin öz vətəndaşına qarşı törətdiyi qəddar zorakılığı seyr etsinlər. Əgər toyuq korluğu yoxdursa, demokratik Avropanın düz ortasında yerləşən, Avropa Birliyinin banisi olan Fransanın üçüncü dərəcəli ölkələr adlandırdığı ölkələrdə belə fransız polisinin törətdiyi vəhşiliyi görəcəklər. Bu gün hər kəs çox gözəl bilir ki, Fransada polis zorakılığı normal hal kimi qəbul edilir və fransız mediasında fikir də verilmir.

Son olaraq demək istəyirəm ki, daxildəki milli satqınlarımız da, xaricdəki antimilli qüvvələr, Fransa kimi Azərbaycana fobiyası olan ölkələr də bilməlidir ki, dövlətimizin də, millətimizin də gücü ilə birliyi yerindədir. Eləcə də müdrik xalqlmızın milli birliyi də, təmkini də yerindədir. Bu qüvvələr nə qədər gec deyilsə, anlasınlar ki, müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə üç yüz illik erməni düşmənçiliyini darmadağın edən xalqımız bü cür təxribatların da qarşısını almağa qadirdir.

Mən Gədəbəy rayonunda baş vermiş olaylarda rayon rəhbərliyinin, eləcə də rayonun bütün məmurları ilə bağlı münasibət bildirmək istərdim. Dövlətimizin başçısının hər çıxışında özünü xalqın bir nömrəli xidmətçisi elan etməsi və onu real həyatda əməli olaraq həyata keçirməsi hər bir məmurun qulağında sırğa olmalıdır.

Əminik ki, tezliklə baş vermiş olaylarda günahkar olan hər kəsin adekvat cəzası veriləcəkdir.

## ***6 iyul 2023-cü il***

**Jalə Əliyeva.** Bakıda növbəti dəfə Qoşulmama Hərəkatının Koordinasiya Şurasının Nazirlər Toplantısı keçirilir. Nazirlərin toplantısında Hərəkatın gündəliyi ilə bağlı

çoxsaylı tədbirlərlə yanaşı, yekun sənədlərin qəbulu gözlənilir. Ümumiyyətlə, Qoşulmama Hərəkatı yarandığı gündən etibarən son dövrlərdə daha geniş perspektivdə inkişaf edib. Azərbaycanın sədrliyi dövründə hərəkatın nüfuzu beynəlxalq aləmdə daha da artıb. Bu hərəkatda iştirak etmək istəyən ölkələrin sayı getdikcə çoxalır və ildən-ilə onun əhatə etdiyi coğrafiya da genişlənir. Düşünürəm ki, bu, Azərbaycanın sədrliyi dövrü və bu hərəkata yeni can qatan dövlət başçısı İlham Əliyevin birbaşa səyləri nəticəsində mümkün olub. Qoşulmama Hərəkatı bu gün dünyanın nüfuzlu beynəlxalq təşkilatlarından biri kimi fəaliyyət göstərir. Azərbaycanın bu hərəkata ard-arda ev sahibliyi etməsi dövlətimizin beynəlxalq nüfuzunun artması mənasına gəlir. Azərbaycanın istər adıçəkilən qurumda, istərsə də bütün beynəlxalq təşkilatlarda söz və nüfuz sahibi olması ölkəmizə dünyada yeni və üstün mövqe qazandırır. Birmənalı olaraq düşünürük ki, Bakıda keçirilən Nazirlər Toplantısında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gözlənilən çıxışı və toxunacağı məsələlər bütün bəşəriyyət, o cümlədən bəşəriyyətin bir parçası olan ölkəmiz üçün çox mühüm amilləri ehtiva edəcək.

Mən, eyni zamanda, Prezident cənab İlham Əliyevə deputatı olduğum Zərdab rayonunun Ağabağı–Kəndəbil–Şıxbağı–Nəzəralılı avtomobil yolunun tikintisi ilə bağlı verdiyi Sərəncama görə Zərdab sakinləri adından təşəkkürümüzü səsləndirmək istəyirəm.

Təşəkkürlər, cənab Prezident! Sizə bütün Zərdab seçiciləri adından və şəxsən öz adımdan dərin minnətdarlığımızı bildirirəm. Həyata keçirdiyiniz uğurlu və əvəzsiz fəaliyyət nəticəsində doğma Azərbaycanımızın hər qarışı, o cümlədən deputatı olduğum Zərdab və Ucar rayonları

hər ötən gün daha da inkişaf edir, abadlaşır, gözəlləşir. Bir zamanlar iqtisadi baxımdan ölkənin bir o qədər inkişaf etməmiş rayonu sayılan Zərdab indi Sizin diqqətinizlə, Sizin himayənizlə, Sizin qayğınızla tamamilə yeni libas geyinib. Son illərdə Zərdab rayonunun inkişafı ilə bağlı ard-arda imzaladığınız sərəncamlar, ayırdığınız vəsaitlər, verdiyiniz tapşırıqlar sayəsində Zərdab rayonunun siması tamamilə dəyişib. Bu müsbət dəyişikliklər, əlbəttə ki, insanlarımızın gündəlik həyatında, yaşayış tərzində öz müsbət əksini tapır. Vətəndaşlarımız bu dəyişiklikləri böyük bir sevinclə qarşılayırlar və Sizə sonsuz minnətdardırlar. Bir daha sağ olun, cənab Prezident! Nə yaxşı ki, varsınız!

**Kamran Bayramov.** Mən Fransa Prezidenti Emmanuel Makronun bu yaxınlarda Marsel şəhərində erməni icması ilə görüşdə ölkəmizə və Prezidentimizə qarşı səsləndirdiyi əsassız və məsuliyyətsiz fikirlərə münasibət bildirmək istərdim. Avropanın iri dövlətlərindən biri olan Fransanın başçısına bu cür bəyanatlar nəinki yaraşmır, onun siyasi oyuncaq, siyasətdə təsadüfi şəxs olduğunu birbaşa sübut edir.

Səylərini ölkəsi daxilində sayı-hesabı olmayan problemlərin həllinə yönəltməkdənsə, bu psevdo-siyasətçi Azərbaycana demokratiya, beynəlxalq hüquq və insan hüquqları dərsi keçməyə, ağıl öyrətməyə çalışır. Heç bir şübhə yoxdur ki, Fransa daxilində baş verənlərin, o cümlədən xaosun hökm sürməsinin, proseslərin nəzarətdən çıxmasının, irqçiliyin və müsəlmanlara qarşı nifrətin artmasının, etirazçılara və jurnalistlərə qarşı amansız davranışın və şiddətin tətbiqinin səbəbi məhz Makrondur və onun yeritdiyi yarıtmaz siyasətdir. Vətəndaşından şillə almış, xarici həmkarları tərəfindən ələ salınan ölkə başçısının hansı hörmətindən, nüfuzundan danışmaq olar?

Fransada baş verən hadisələr üzərində nəzarəti itirən,

vətəndaşları ilə dil tapa bilməyən bu siyasi əlil hələ xarici dövlətlərin daxili işlərinə qarışmağa vaxt tapır, öz məntiqsiz, əsassız, yanlış bəyanatları ilə digər regionlarda gərginliyi artırmağa cəhd edir. Anlamır ki, onun hər bir hərəkəti, sözü, ifadəsi onun siyasətçi kimi tam rüsvay olmasına xidmət edir və Fransanın beynəlxalq nüfuzuna bərpaolunmaz xələl gətirir. Əgər vaxtı ilə Fransa demokratiya və insan hüquqları beşiyi hesab edilirdisə, bu gün Fransa ikili standartlar, irqçilik və zorakılıq mərkəzinə çevrilib. Təbii ki, Makronun sayəsində. Əminliklə demək olar ki, Fransanın V respublika tarixində Emmanuel Makron kimi vətəndaşların tam nifrətini qazanmış və bu qədər hörmətsiz, zəif prezidenti hələ olmamışdır. Onun Avropada nüfuzu sıfıra yaxınlaşır, Cənubi Qafqazda hörməti və vasitəçilik rolu isə sıfırdan da aşağıdır.

Makronun bəyanatları ilə bağlı ölkəmizin mövqeyi bəllidir, Xarici İşlər Nazirliyi tərəfindən müvafiq bəyanat verilib, Fransa səfiri nazirliyə də çağırılıb və ona etiraz bildirilib, amma bu addımların səmərəsi olacaqmı? Hesab edirəm ki, ölkəmizə qarşı bu cür münasibət davam edərsə, daha ciddi tədbirlər görülməlidir, ikitərəfli münasibətlərimizin bütün spektrinə yenidən baxılmalıdır.

**Sahib Alıyev.** Mən Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə səsləndirdiyi geosiyasi xarakterli 4 məsələyə toxunacam. Onlardan biri Avropada müqəddəs Quranın yandırılmasının ifadə azadlığı kimi təbliğ edilməsi, İslamın zorakılıq və terrorla eyniləşdirilməsi cəhdlərinin kəskin tənqidi idi. Bu islamofob hərəkətlərlə bir zamanlar işğal altında olmuş torpaqlarımızdakı 67 məsciddən 65-nin darmadağın edilməsi, əslində, eyni zehniyyətin əlamətləridir. Cənab İlham Əliyevin bu çıxışını dinləyənlər arasında rəs-

mi adında "İslam" sözü olan, amma həmin vəhşiliyi törədən Ermənistana hər cür dəstək verən bir ölkənin xarici işlər naziri də var idi. Bilmirəm, həmin an o nə hisslər keçirirdi.

Dövlət başçımızın BMT-nin Təhlükəsizlik Şurasını "keçmişin qalığı" adlandırması, onun tərkibinin genişləndirilməli olduğunu bildirməsi, orada Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və Afrika İttifaqına sədrlik edən ölkələrin veto hüququ ilə rotasiya əsasında yer almaları təşəbbüsü də, məncə, nə qədər ədalətlidirsə, bir o qədər də aktualdır.

Başında ölkəsindəki müsəlman icmasını "etnik aparteid" adlandıran Makron kimi bir məsuliyyətsizin durduğu ölkənin BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvləri arasında boy göstərdiyi halda, orada İslam dünyasının bir təmsilçisinin belə olmaması, əlbəttə, böyük ədalətsizlikdir. İç və dış siyasəti eyni dərəcədə yaramaz olan Fransa hansı xidmətinə görə oradadır? Bu o dövlət deyilmi ki, oradakı milli azlıqların hüquqları tanınmır, onlar deqraqasiyaya uyğrayır, gettolarda yaşayır və ötən həftə 17 yaşlı bir əlcəzairlinin öldürüldüyü kimi, addımbaşı polis vəhşiliyi ilə üzləşirlər. Cənab İlham Əliyevin Fransa və onun prezidenti haqda diplomatik təcrübədə elə də çox rast gəlinməyən dünənki sərt tənqidinin, həmin dövləti neokolonializm siyasətinə son qoymağa çağırmasının və ən əsası, bu siyasətdən əziyyət çəkən dənizaşırı ərazilərin təmsilçilərinin də Bakıdakı görüşə dəvət edilmələrinin nə demək olduğunu, yəqin, açıqlamağa ehtiyac yoxdur.

Onu deyim ki, mən Prezidentimizin Qarabağdakı qanunsuz silahlı birləşmələrin tərk-silah olunmaları tələbinin də geosiyasi xarakter daşıdığı düşüncəsindəyəm. Çünki bu tələbin hədəfi təkcə separatçı ünsürlər və Ermənistan deyil, həm də qanunsuz silahlı birləşmələrdən proksi kimi

faydalananlar idi. Ali Baş Komandanımızın beynəlxalq auditoriya qarşısında, məncə, bu son xəbərdarlığı hədə-qorxu deyil, qan tökülməsini istəməyən bir dövlətin sülhə israrlı çağırışı, dünyaya isə baş verə biləcək toqquşmada kimin məsuliyyət daşıdığını anlatmaq idi.

**Sevil Mikayılova.** Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü bu gün dünyada davam edən ədalətsizlik və beynəlxalq hüququn ayaqlar altına atılmasına cavab tədbiri kimi çox əhəmiyyətlidir. Əsrlərdir, Fransanın müstəmləkə siyasətindən əziyyət çəkən Afrika, Sakit okean və dənizaşırı ölkələri tapdalanmış haqlarının müdafiəsi üçün məhz Qoşulmama Hərəkatı vasitəsilə güclü beynəlxalq tribuna qazanıblar. Bugünkü tədbirdə müstəmləkə siyasətindən hazırda da əziyyət çəkən və tarixi ədalətsizliklə mübarizə aparan Yeni Kaledoniya, Martinik və digər ərazilərdən olan nümayəndələr azad şəkildə problemlərini dilə gətirdilər. Onların ucadan səslənməsinə böyük ehtiyacları var. Müstəmləkə siyasətinin geridə qaldığı söylənilsə də, bu gün, təssüf ki, Fransa müstəmləkəçilik siyasətini yeni üsüllarla davam etdirməkdədir.

Onilliklərdir ki, Fransa müstəmləkəçilik buxovlarından tam azad olmaq üçün mübarizə aparan xalqların nə zaman layiq olduqları hüquq və azadlıqları bərqərar olacaq? Köləliyin kökünün kəsilməsi üçün bundan sonra neçə onillər gözləməlidirlər?

Bakıda keçirilən görüşdə çıxışı zamanı Prezident İlham Əliyev bir sıra vacib məqamlara toxundu. Haqlı olaraq Fransanı öz müstəmləkə keçmişinə, qanlı cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkə-

lərdən üzr istəməyə çağırdı.

Fransa tarix qarşısındakı cinayətlərini etiraf etməlidir. Fransa hələ də insanlarla quldarlıq dövründə olduğu kimi rəftar edir. Bakıda keçirilən tədbirdə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən ərazilərin vətəndaşlarının səsləndirdiyi fikir, etiraz bəyanatları da bunu bir daha təsdiqləyir. Makron isə bunu nə görür, nə də eşidir, əvəzinə, Azərbaycan–Ermənistan normallaşma prosesini pozmaq üçün bütün səylərini əsirgəmir, Cənubi Qafqazda yeni müstəmləkəçilik modelini formlaşdırmağa çalışır.

Kölə siyasətinin davam etdirilməsi yolverilməzdir, onun bütün forma və təzahürlərinin kökünün kəsilməsi nəticədə dünyada ədalət prinsipinin bərqərar olmasına yol aça bilər. Ona görə də kifayət qədər qanlı keçmişi olan Fransa ölkəsində hökm sürən humanitar böhranı nəzərə almalıdır, etiraf etməlidir və üzr istəməlidir.  İnsan haqları, demokratiya, insan haqlarının "müdafiəçisi" kimi pərdələnmiş Fransa bu ali dəyərləri, əslində, zədələyir. Makron rejiminin apardığı siyasət aydın şəkildə göstərir ki, bütün bu ali məfhumlar hazırkı Fransa üçün dəyər deyil, sadəcə, siyasətdir.

## ***14 iyul 2023-cü il***

**Anar İsgəndərov.** SSRİ adlanan nəhəng imperiya 15 müttəfiq respublikanı özündə birləşdirirdi. Məlum olan o idi ki, bu respublikalar mərkəzdən idarə olunur, ən xırda istək üçün Moskvaya müraciət olunmalı, "hə" və ya "yox" cavabı oradan gəlməli idi.

Azərbaycan İkinci Dünya müharibəsində müttəfiq respublikalar arasında nəyə qadir olduğunu əyani nümayiş etdirdi. Müharibənin taleyini həll edən neft və benzin

birmənalı olaraq Bakının xidməti idi. Azərbaycan faşizmə qarşı müharibəyə 600 mindən çox əsgər və zabit göndərdi, onlardan 300 mindən çoxu döyüşlərdə həlak oldu. Amma təəssüflər olsun ki, faşist Almaniyasına qulluq edən ermənilərin ölkəsi daha çox nüfuz sahibi oldu, bizim cəbhəyə göndərdiyimiz və cəbhədə qəhrəmanlıq göstərib həlak olanlarımız öz layiqli qiymətini ala bilmədilər.

Azərbaycan Sovet dönəmində 1920–1930-cu illərin repressiyalarını, kollektivləşmə və sənayeləşdirmənin ağır illərini, İkinci Dünya müharibəsinin dəhşətlərini yaşadı və nəhayət, Stalinin amansız və Xruşşovun mülayim idarəçiliyini arxada qoydu. Yüz minlərcə azərbaycanlı öz tarixi torpaqları olan Qərbi Azərbaycandan çıxarıldı. On beş respublika içərisində Azərbaycan sonunculardan sayılırdı və aqrar ölkə statusunda idi.

Nəhayət, 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi. Heydər Əliyev ixtisasca tarixçi idi. Hakimiyyətdə olduğu illərdə tarix yaratdı. Həmçinin onun fəaliyyəti ilə bağlı tarix yazılır və yazılacaq.

İyulun 14-dən sonra Azərbaycan nələrə nail oldu?

– Fəaliyyətinin ilk dövründə xüsusi xidmət orqanında çalışarkən və sonralar ilk azərbaycanlı kimi bu orqana rəhbərlik edərkən yüzlərcə azərbaycanlını bu orqana işə cəlb etdi və kifayət qədər azərbaycanlını sovet cəza maşınından qurtara bildi.

– Heydər Əliyev bütün hakimiyyəti dövründə (mərkəz təkid etsə də) heç bir qonşu ölkəyə, o cümlədən Ermənistana bir qarış torpaq vermədi.

– Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Bakı Dövlət Universitetinin 50 illik yubile-

yində (1969-cu il) rəsmi nitqini Azərbaycan dilində başladı. Bu, o dövrdə mərkəzdə qəbul olunmayan bir hadisə idi.

– Heydər Əliyev Bakıda Naxçıvanski adına hərbi məktəbin açılması üçün uzun müddət mübarizə apardı və 1971-ci ildə istəyinə nail oldu. Bu məktəb Azərbaycanda milli zabit heyətinin əsasını qoydu, sonralar Qarabağ müharibəsində həmin məktəbin müdavimlərinin qəhrəmanlığı dillər əzbəri oldu.

– Heydər Əliyev Azərbaycanda ali məktəblərin sayını artırdı, hər il minlərcə Azərbaycan gəncini SSRİ-nin ən nüfuzlu ali məktəblərinə göndərməyin əsasını qoydu.

– Heydər Əliyev Bakı şəhəri üçün böyük problem olan içməli su məsələsini Kür çayından su kəməri çəkməklə həll etdi.

– Heydər Əliyev istəmirdi ki, hərbi xidmətə çağırılan azərbaycanlı gənclər ancaq tikinti batalyonlarında xidmət etsinlər.

– Heydər Əliyev mərkəz qarşısında məsələ qoyurdu: Qoy, azərbaycanlı gənclər də hərbi xidmət zamanı ən müasir silahlarla tanış olsunlar, ən müasir texnika ilə rəftar etməyi öyrənsinlər.

– Heydər Əliyev Azərbaycan Konstitusiya Komissiyasının sədri kimi mərkəzin ciddi etirazlarına baxmayaraq, 1978-ci ildə Azərbaycan Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunmasına nail oldu.

– Heydər Əliyev Azərbaycanı aqrar ölkədən sənaye-aqrar ölkəsinə çevirdi, zavod və fabriklərin sayı artdı.

– Heydər Əliyev Dərin Özüllər Zavodunun tikintisi ilə bağlı düşüncələrini reallaşdıranda heç kimin ağlına gəlmirdi ki, SSRİ adlı nəhəng imperiya çökəndə Azərbaycan öz neftini hasil etmək və dünya bazarına çıxarmaq üçün bu zavodun məhsullarına ehtiyac olacaqdır.

– Heydər Əliyev 70 ildən artıq mövcud olan Sovet dövlətini idarə edən yeganə türk-müsəlman olmuşdur. Sovet dövlət adamı A.Qromıkonun sözləri ilə desək, əgər Heydər Əliyev slavyan mənşəli olsaydı, dövlətin birincisi də ola bilərdi.

– Heydər Əliyev ermənipərəst M.Qorbaçovun təzyiqlərinə etiraz olaraq bütün vəzifələrindən istefa verən kimi ermənilərin Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək hərəkatı başladı.

– Heydər Əliyev özünü və ailə üzvlərinin həyatını təhlükə altına qoyaraq Moskvada Qorbaçov başda olmaqla Sovet rəhbərliyini Bakıya qoşun yeritdiyinə görə ittiham etdi və Azərbaycan xalqının yanında olduğunu bəyan etdi.

– Heydər Əliyev ağır blokada şəraitində yaşayan Naxçıvanın harayına çatdı, bütün əhalini düşmənə qarşı mübarizədə birləşdirdi və qalib gəldi.

– Heydər Əliyev ilk dəfə Naxçıvan Ali Məclisində üçrəngli Azərbaycan Bayrağını rəsmi dövlət bayrağı kimi qəbul etdi.

– Heydər Əliyev bu gün öz sıralarında 800 min üzvü birləşdirən Yeni Azərbaycan Partiyasının əsasını qoydu. Bu partiya Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycanı dünyanın ən inkişaf etmiş dövlətləri sırasına çıxardı.

– Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etsə də, xalq bu müstəqilliyin şirinliyini dada bilmədi. Erməni təcavüzü, siyasi böhranlar, hakimiyyət uğrunda didişmələr, hərbi qiyam, qardaş qırğını, vətəndaş müharibəsi təhlükəsi, nələr, nələr...

– Heydər Əliyev Azərbaycan xalqı tərəfindən köməyə çağırıldı: elan olunan müstəqilliyin ömrü qısa olmasın, erməni işğalına son qoyulsun, qardaş qırğını dayandırılsın,

Azərbaycanın xoşbəxt gələcəyi təmin olunsun və sair.

– Heydər Əliyev yenidən hakimiyyətə gəlməklə vətəndaş müharibəsi və qardaş qırğınına son qoydu, balanslaşdırılmış xarici siyasətə nail oldu, dövlət–din münasibətlərini tənzimlədi, "Əsrin müqaviləsi"ni imzaladı, Ermənistanla atəşkəsə nail oldu, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının təsbitinə nail oldu, ölüm hökmü və senzuranı ləğv etdi, azərbaycanlıların soyqırımı və deportasiyası haqqında tarixi fərmanlar verdi, Avropa Parlamentinə üzv qəbul olunduq, azərbaycançılığı hakim ideologiyaya çevirdi, "Bir millət, iki dövlət" konsepsiyasına vəsiqə verdi, Qarabağ həqiqətlərini dünyaya çatdırmaq üçün mümkün olanları etdi, Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına nail oldu.

– 2003-cü ilin aprelində hazırda adını daşıdığı sarayda əsgərinə son çağırışını etdi: "Əsgər, Qarabağ düşmən işğalında qala bilməz!"

– 2003-cü ilin payızında Azərbaycan xalqına müraciətində Qarabağı düşməndən azad etmək üçün xalqımızı qalib xalqlar sırasına çıxara biləcək Ali Baş Komandanı da təqdim etdi. Xalq Ümummilli Liderini eşitdi və onun vəsiyyətinə əməl etdi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev bünövrəsi Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və xalqımız tərəfindən dəstək alan bütün məsələləri uğurla həyata keçirir.

44 günlük Vətən müharibəsində düşməni darmadağın edən, bir milyon qaçqın və köçkünü öz evlərinə qaytaran, 30 il ərzində düşmən tərəfindən yerlə-yeksan edilən torpaqlarımızın gecə-gündüz demədən bərpası, Azərbaycanın ən müasir orduya malik olması, ermənipərəst qüvvələrin məğlub edilməsi, Azərbaycan xalqının dəmir yumruq kimi

birləşməsi, heç şübhəsiz, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, Azərbaycan xalqı əmin ola bilər ki, bizim təhlükəsizliyimiz etibarlı əllərdədir.

**Bəhruz Məhərrəmov.** Ulu Öndər Heydər Əliyev 1993-cü ildə ikinci dəfə hakimiyyətə gələrkən ilk bəyanatlarından birində qeyd etmişdir ki, "Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır". Təsadüfi deyil ki, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilərkən ifadə olunan altı ali niyyətdən biri məhz "xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq" formasında təsbit olundu.

Bildiyiniz kimi, Konstitusiyanın qəbulu fonunda ölkədə genişmiqyaslı islahatlar kursuna start verildi və bu tarixi proseslərin mərkəzində, heç şübhəsiz ki, məhkəmə-hüquq islahatları dayanırdı. Heydər Əliyevin hüquqi konsepsiyası o ideya üzərinə köklənmişdi ki, "ədaləti ədalətsizliklə bərpa etmək olmaz" və bu məqsədlə də hüquqi islahatlar prosesinin vacib elementi kimi Konstitusiyanın 86, 88, 102, 103, 104, 107, 130, 153 və 154-cü maddələri ilə Konstitusiya Məhkəməsinin formalaşması və fəaliyyəti prinsipləri müəyyən olundu və 1998-ci il iyulun 14-də Ümummilli Liderin şah əsərlərindən biri olan Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradıldı. Konstitusiya Məhkəməsinin fəaliyyətinin hüquqi əsaslarının tamamlanması ilə başlanan qızıl dövr isə məhz cənab İlham Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin arzu etdiyi və hədəflədiyi məhkəmə-hüquq konsepsiyasını uğurla davam etdirən, daha da inkişaf etdirən cənab İlham Əliyevin prezident seçildikdən sonra ilk imzaladığı normativ hüquqi aktlardan biri 2003-cü il dekabrın 23-də qəbul olun-

muş "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu oldu.

Konstitusiya Məhkəməsi özünün 25 illik fəaliyyəti dövründə ali Konstitusiya ədalət mühakiməsi orqanı kimi öz işini Azərbaycan Respublikası Konstitusiyasının aliliyi, müstəqillik, kollegiallıq və açıqlıq prinsipləri əsasında qurmuş, qəbul etdiyi 550-dən artıq qərar və qərardadında birmənalı şəkildə Konstitusiyanın aliliyinin təmini, hər kəsin əsas hüquq və azadlıqlarının müdafiə edilməsi kimi şərəfli məqsədlərə sadiq qalıb. Bu gün Konstitusiya Məhkəməsi seçkilər də daxil bir sıra taleyüklü məsələlərdə həlledici instansiya kimi ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayır, qanunların, qərarların və digər normativ hüquqi aktların Konstitusiya və qanunlara uyğunluğunu yoxlayır, dövlət orqanlarından daxil olan sorğular və ümumi məhkəmələrin müraciəti əsasında Konstitusiya və qanunlara şərh verir, qanunla müəyyən edilmiş formada fərdi şikayətlərə baxır, ləğv edilə, dəyişdirilə və rəsmi təfsir oluna bilməyən qəti qərarları ilə hüquqi dayanıqlılığı təmin edir.

Konstitusiya Məhkəməsinin fəaliyyətində, heç şübhəsiz ki, məhkəmə aparatının işini xüsusi qeyd etmək lazımdır. Bu gün əminliklə demək olar ki, Konstitusiya Məhkəməsinin Aparatı dövlətə, dövlətçiliyə və dövlət başçısına sədaqəti ilə seçilən, ölkənin ən layiqli hüquqşünaslarından ibarət vahid peşəkar komandadır.

25-ci ildönümündə həm hakimlərin, həm də Konstitusiya Məhkəməsi Aparatının işini təhlil edərkən əminliklə demək olar ki, bu gün Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi məhz Ulu Öndərin görmək istədiyi ali konstitusiya ədalət mühakiməsi orqanıdır. Konstitusiya Məhkəməsinin yaranışının 25-ci ildönümündə Konstitusi-

ya Məhkəməsinin dünyasını dəyişmiş hakimlərini də yad edir, onlara Allahdan rəhmət diləyirik. Xüsusən bu ilin əvvəlində vəfatı hüquq ictimaiyyəti üçün böyük itki olan, Azərbaycan məhkəmə-hüquq sistemində, prokurorluq orqanlarında uzun müddət ləyaqətlə çalışmış, özündən sonra, sözün əsl mənasında, şərəfli ad qoyub getmiş mərhum Mahir Muradovu ehtiramla anırıq.

Bu əlamətdar gündə Konstitusiya Məhkəməsinin yaranışının 25-ci ildönümü münasibəti ilə məhkəmənin sədri başda olmaqla məhkəmənin bütün hakimlərini, Aparat və İşlər İdarəsinin əməkdaşlarını, əlalxüsus Konstitusiya Məhkəməsinin yaradılmasının 25 illiyi münasibəti ilə səmərəli fəaliyyət göstərdiklərinə görə möhtərəm Prezident tərəfindən dünən yüksək təltiflərə layiq görülmüş hər kəsi təbrik edir, daha güclü Azərbaycan naminə fəaliyyətlərində uğurlar arzulayırıq.

**Emin Hacıyev.** Mən əhalinin, xüsusilə aztəminatlı insanların mənzil təminatı ilə bağlı olan məsələyə toxunmaq istəyirəm. Bildiyiniz kimi, hazırda bu istiqamətdə dövlətin bir neçə dəstək layihəsi icra olunur. Buraya ipoteka kreditlərinin, xüsusilə dövlət büdcəsindən maliyyələşdirilən güzəştli ipoteka kreditlərinin verilməsi, MİDA tərəfindən həyata keçirilən güzəştli mənzil layihəsi, 2019-cu ildən uğurla tətbiq olunan kirayə mənzil layihəsi və ayrı-ayrı əhali kateqoriyalarına – 20 təqvim ili xidmət etmiş hərbi qulluqçulara, şəhid ailələrinə və müharibə əlillərinə, internat məktəbin valideyn himayəsindən məhrum olmuş məzunlarına ünvanlanan mənzil layihələrini aid etmək olar.

İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) məlumatına görə, ötən müddətdə əhaliyə 2 milyard 660 milyon manatlıq ipoteka krediti verilib ki, bundan da 45 min nəfərdən çox vətəndaşımız faydalanıb. Bununla yanaşı, qısa

zamanda 3500 yaşayış sahəsi kirayəçilərin istifadəsinə verilmişdir. MİDA-nın icra etdiyi layihələrin xüsusi qeyd olunmasına ehtiyac yoxdur. İstər Sumqayıt, Yasamal, istərsə də Hövsan layihəsi və digər layihələr hesabına çoxsaylı insanlarımız mənzillərlə təmin olunub. Göründüyü kimi, ölkəmiz sosial dövlət prinsipinə uyğun olaraq, böyük və çoxşaxəli layihələr icra edir. Lakin mən hesab edirəm ki, bu layihələrin ünvanlılığını daha da artırmaq və həqiqətən də, mənzilə ehtiyacı olanların bu layihələrdən faydalanmasını təmin etmək üçün ilk növbədə bu proqramlardan yararlanacaq şəxslərin mənzilə ehtiyacı olan qismində uçota alınması mexanizminin tətbiq edilməsi daha faydalı ola bilər. Uçotun həyata keçirilməsi ehtiyacı ortaya çıxaracaq, növbəliliyi təmin edəcək, mənzil otaqlarına olan ehtiyacı düzgün müəyyən edəcək, eləcə də bir çox layihələrdə olduğu kimi, "elektron sistem üzərindən daha sürətlə ev seçən əldə edir" kimi prinsiplər aradan qalxmış olacaqdır. Hesab edirəm ki, "gəlir, maaş imkan verir" prinsipi ilə dövlətin bu sosial layihələrindən faydalanmaq sanki bu layihələri kommersiyalaşdırır. Qeyd edim ki, Mənzil Məcəlləsinin 51.7-ci maddəsində "Vətəndaşların yaşayış sahəsinə ehtiyacı olan qismində uçotunun aparılması qaydası"nın təsdiq edilməsi nəzərdə tutulmuşdur, xeyli müddət keçsə də, bu qaydalar təsdiq edilməmişdir. Bu qaydalar təsdiq edilərsə, həmin uçotun aparılması da təmin edilə bilər.

Digər məsələ çoxmənzilli binaların, xüsusilə mənzil-tikinti kooperativlərinin inşa etdiyi binaların idarə olunması ilə bağlıdır. Bu sahədə də, hesab edirəm, ciddi problemlər vardır. Hələ 2018-ci ildə qəbul edilmiş qanunda qeyd edilir ki, kooperativ binanın tikintisi tam başa çatdıqdan və həmin binada mövcud olan yaşayış və qeyri-yaşa-

yış sahələrinin əlli faizinə mülkiyyət hüququ mənzil-tikinti kooperativinin üzvlərinə keçdikdən sonra bir ay ərzində MTK ləğv edilməli və ya mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinə çevrilməsi təmin edilməlidir. Bu işlər həyata keçirilərsə, insanların bu istiqamətdə toplanmış məsrəfləri azalar, toplanan vəsaitlərin daha şəffaf xərclənməsində sakinlərin iştirakı və onların nəzarəti təmin edilər, eyni zamanda, qanunların aliliyi təmin olunar.

Sonda qeyd etmək istərdim ki, Mənzil Məcəlləsinin icrasında olan bir çox boşluqların tam təmin olunması bu sahədə keyfiyyət dəyişikliyinə səbəb ola bilər.

**Jalə Əliyeva.** Bu gün – 14 iyul Ulu Öndər Heydər Əliyevin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ildən 54 il ötür. Bu gün – 14 iyul xalqımızın tarixi taleyində oynadığı misilsiz rolu ilə daim xatırlanır. Bu tarix Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış tarixidir. Dünya şöhrətli siyasi xadim öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaradıb. Ulu Öndərimizin nəsillərə nümunə olan həyat yolu xalqa təmənnasız xidmətdə keçib. O, nəinki müstəqil Azərbaycan dövlətçiliyinin əbədiliyini təmin edib, həm də müstəqil, milli dövlətçiliyin əsasını qoyub, yeni idarəçilik məktəbi formalaşdırıb.

1969-cu il 14 iyul tarixi Azərbaycanın özünə qayıdışının, dirçəliş və inkişaf yolunun başlanğıcı kimi tarixə düşüb. Çünki məhz həmin tarixdən etibarən Azərbaycana rəhbərlik edən Ulu Öndər Heydər Əliyev qüdrətli dövlət xadimi, mahir siyasətçi kimi Azərbaycanı nəinki keçmiş SSRİ-də və dünyada tanıdıb, həm də milli varlığımızı qoruyub saxlayıb. O illərin rəşadəti və şöhrəti XX əsr tariximizə qızıl hərflərlə yazılıb. Buna görə də 14 iyul tarixi xalqımızın qəlbində həm də milliliyin, azərbaycançılığın,

tarix səhifəsində milli dövlətçiliyimizin əbədi mövcudiyyət günü kimi qəbul edilir.

Ümummilli Liderin xalqa xidmətdə keçmiş parlaq və mənalı ömrünün hər anı əbədidir və siyasi təqvimdəki yeri silinməzdir. Zaman keçdikcə Heydər Əliyev şəxsiyyətinin böyüklüyü və əzəməti, onun xalqımızın naminə gördüyü xilaskarlıq və quruculuq işlərinin möhtəşəmliyi daha aydın görünür. Hər bir Azərbaycan vətəndaşı dərk edir ki, müstəqil və demokratik dövlətdə yaşadığına, bütün demokratik dəyərləri özündə əks etdirən vətəndaş cəmiyyətində fəaliyyət göstərdiyinə, xoşbəxt gələcəyinin sahibi olduğuna görə Heydər Əliyev şəxsiyyətinə borcludur.

Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini bu məktəbin layiqli davamçısı olan cənab İlham Əliyevə əmanət edib. Bu gün ölkəmiz Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında böyüyür, inkişaf edir, bütövləşir, güclənir, qüvvətlənir. Bütün bu uğurların altında xilaskar Prezident cənab İlham Əliyevin "dəmir imza"sı və Ulu Öndər Heydər Əliyevin əbədi varlığı dayanır.

**Malik Həsənov.** Bugünkü iclasımız olduqca əlamətdar günə təsadüf edir. 54 il öncə bu gün, yəni 1969-cu il iyulun 14-də Ulu Öndər Heydər Əliyev Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəlmişdir. Məhz həmin gündən müasir Azərbaycan tarixinin yeni bir mərhələsinə – davamlı inkişaf və müstəqilliyin bərpasına qədəm qoyur. Bu gün Ulu Öndərin xatirəsini hörmətlə anır, uca Tanrıdan rəhmət diləyirəm.

Bu il iyulun 11-də möhtərəm cənab Prezidentimizin iştirakı ilə son altı ayın yekunlarına dair müşavirə keçirildi. Edilən məruzə və çıxışlarla tanışlıqdan aydın olur ki,

ötən dövr ölkəmiz üçün uğurlu olmuş, hökumət qarşısına qoyulan vəzifələri uğurla icra etmiş, növbəti dövr üçün inkişafa zəminlər hazırlanmışdır. Həmin müşavirədə Prezidentimizin çıxışında bütün sahələr üzrə uğurlar əks olunmaqla proqram xarakterli olub növbəti mərhələ üçün doktrina hesab edilə bilər.

Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılması məqsədi daşıyan sülh gündəliyinə sadiqdir. Bunu cənab Prezident ABŞ dövlət katibi Entoni Blinkenlə son telefon danışığı zamanı bildirib. Təbiidir ki, hər birimizi düşündürən əsas məsələ, deyərdim, həllinin son mərhələsində olan Qarabağdakı erməni separatizminin ortadan qaldırılması ilə bağlıdır. Çox təəssüf ki, bu gün separatizm hərəkatına xarici dəstək davam edir. Beynəlxalq Qızıl Xaç Təşkilatının imkanlarından istifadə edərək ermənilərə dəstək verilməsi, bunun sərhəd rejiminin kobudcasına pozulması ilə müşayiət olunması humanitar bir təşkilatın tərəfsizliyinə və insanpərvərliyinə ciddi kölgə salır. Paralel olaraq zaman-zaman özlərini sülhməramlı adlandıran qüvvələrin separatçılara durmadan dəstək vermələri, onlara silah-sursat çatdırılmasına yardım göstərmələri bütün əndazələri aşır və 2025-ci ildə, hətta deyərdim ki, daha tez bir zamanda bölgədən uzaqlaşdırılmalarını labüd edir. Türkiyə Cümhuriyyətinin Prezidenti möhtərəm Rəcəb Tayyib Ərdoğana sülhməramlıların 2025-ci ildə bölgəni tərk etmələrinə dair bəyanatına görə təşəkkürümüzü bildirirəm.

Toxunmaq istədiyim və olduqca təhlükəli məsələ son günlər mətbuatda Ukrayna müharibəsində Rusiyaya dəstək üçün formalaşdırılan erməni birlikləri ilə bağlıdır. Sual edirəm: Kim deyə bilər ki, bu birliklər Ukrayna müharibəsi üçün deyil, sonradan Qarabağa gətirilərək vuruşmaq

üçün formalaşdırılmır? Ona görə də hesab edirəm ki, sərhədlərimizdə diqqəti bir qədər də artırmalıyıq. Necə ola bilər ki, quru sərhədlərimiz bütün istiqamətlərdə bağlı olduğu halda, Ermənistanla açıq olsun? Təklif edərdim ki, tez bir zamanda Qarabağda pasport rejimi yoxlanılsın, erməni əhalisi isə humanitar problemlərə dair Ağdam və digər istiqamətlərdən yararlansın.

**Musa Qasımlı.** 1969-cu il iyulun 14-ü Azərbaycan xalqının tarixində əlamətdar günlərdən biridir. Ulu Öndər Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi vəzifəsinə seçilməsi ilə SSRİ-ni təşkil edən müttəfiq respublikalardan biri olan Azərbaycan SSR-in həyatında yeni bir mərhələ başladı. Kommunist Partiyasının, sovet sisteminin mövcudluğuna baxmayaraq, Heydər Əliyev 1969–1982-ci illərdə mövcud şəraitdə millətinin qarşısında dayanan ən vacib məsələləri həll etməyə başladı. Gələcək dövlət müstəqilliyinin təməlləri üçün zəruri olan addımlar atıldı. Azərbaycan aqrar respublikadan sənaye-aqrar respublikaya çevrildi. Yeni fabrik və zavodların açılması ilə, kənd rayonlarından gənclərin Bakıya gəlməsi ilə şəhərin çarizm dövründə və Sovet hakimiyyətinin əvvəlki illərində dəyişdirilmiş milli siması bərpa olundu. Bakıya milli ruh gəldi. Azərbaycan xalqının gələcək taleyində müstəsna rol oynayacaq Cəmşid Naxçıvanski adına hərbi məktəb açıldı. Azərbaycanlılar döyüş hərbi hissələrində daha çox xidmət etməyə başladılar. Milli kadrların hazırlanmasına xüsusi diqqət yetirildi. Yeni ali məktəblər açıldı. Ölkənin ən qabaqcıl ali məktəblərinə azərbaycanlı gəncləri göndərirdilər. Hər il Heydər Əliyevin həmin şəxslərlə görüşüb tövsiyələrini verməsi milli kadrların hazırlanmasına necə diqqət yetirdiyini göstərirdi. Azərbaycan dilinə xüsusi qayğı bəsləyən

Heydər Əliyev ana dilimizə dair yazılan elmi əsərə ilk dəfə dövlət mükafatı verdi. Azərbaycan tarixinə dair araşdırmaların aparılmasına və daha yaxşı yazılmasına şərait yaratdı. Şair və yazıçılara orden və medallar verdirərək Sovet sisteminin təzyiqlərindən qorudu, onları Cənubi Azərbaycan mövzusundan yazmağa təşviq etdi. Cənubi Azərbaycandan olan gənclərin Azərbaycan SSR-in ali məktəblərində təhsil almalarına dair Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi Bürosunun qərarı qəbul edildi. Heydər Əliyev tarix və mədəniyyət abidələrinin qorunmasına xüsusi qayğı göstərdi. Hakimiyyəti illərində Ermənistanın əsassız ərazi iddialarının qarşısı qətiyyətlə alındı.

Hansı sistem, hansı ideologiyadan asılı olmayaraq, Heydər Əliyevin 1982-ci ilin sonlarından Sovet rəhbərlərindən biri olması Azərbaycan xalqı üçün milli qürur, başucalığı, iftixar idi. Heydər Əliyev sistemlərin, ideologiyaların fövqündə dayanan, bütün şəraitlərdən milləti üçün məharətlə istifadə edən realist, praqmatik rəhbər olmaqla zəngin bir təcrübə qoydu. Azərbaycan SSR-ni dünyada tanıdan Heydər Əliyevlə müsəlman Şərqi xalqlarının nümayəndələri fəxr edir, ondan nümunə götürürdülər. Sovet sisteminin mövcudluğuna baxmayaraq, Heydər Əliyevin ağsaqqal deputat olaraq sədrlik etdiyi iclasda Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" ifadələrinin çıxarılması, Ali Sovetin Ali Məclis adlandırılması, Sovet sisteminin düşmən münasibət bəslədiyi Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının muxtar respublikanın dövlət bayrağı olaraq qəbul edilməsi onun zamandan, şəraitdən və məkandan ucada dayandığını göstərməklə millətimizin bütün tarixinin qürurverici səhifələridir. Zamandan uca olaraq milləti

və dövləti üçün ən vacib məsələləri həll edənlər milləti və dövləti mövcud olduqca yaşayırlar, onların siyasi irsinə daim müraciət edilir və öyrənilir.

**Soltan Məmmədov**. Ümummilli Lider Heydər Əliyevin Sovet Azərbaycanında hakimiyyətə gəlişi respublikanın tarixində dönüş nöqtəsi idi. Qısa vaxtda Azərbaycan böyük iqtisadi nailiyyətlərə imza atdı. Yüzlərcə Azərbaycan gənci Sovet İttifaqının ən məşhur ali məktəblərində təhsil almaq imkanı qazandı. O vaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətini Bakıya daha möhkəm bağlayan vacib tədbirlər həyata keçirildi. İxtisaslaşdırılmış hərbi təmayüllü məktəbin açılışı, Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyada təsbiti, yeni fabrik və zavodların fəaliyyətə başlaması, mədəni və ədəbi mühitdə yaranan canlanma Ümummilli Liderin yüksək vətənpərvərliyinin və böyük dövlət adamı olmasının nəticəsi idi.

1993-cü ildə ölkədə baş verən təhlükəli proseslər fonunda Ümummilli Lider xilaskarlıq missiyasını üzərinə götürərək Azərbaycanı böyük fəlakətlərdən qurtardı. Bu gün əldə etdiyimiz nailiyyətlər məhz 1990-cı illərdə qurulmuş, möhkəmləndirilmiş müstəqil Azərbaycan dövlətçiliyinin uğurlarıdır. Ona görə də Ümummilli Lider Heydər Əliyevin 100 illiyi Azərbaycan xalqı tərəfindən xüsusi təntənə ilə qeyd olunur.

Heydər Əliyev Fondunun dəstəyi ilə bir çox ölkələrdə Ulu Öndərin 100 illiyi münasibəti ilə təntənəli tədbirlər keçirilib. Macarıstanda, Böyük Britaniyanın tarixi Viktoriya və Albert muzeyində, Rusiya Dövlət Dumasının inzibati binasında və Rusiya Federal Məclisinin Federasiya Şurasında təşkil olunan tədbirlərdə Ulu Öndərin xatirəsi ehtiramla yad olunub. Çin Xalq Respublikasının Diaoyutay dövlət iqamətgahında Azərbaycan xalqının Ümum-

milli Lideri Heydər Əliyevin 100 illiyi yüksək səviyyədə qeyd edilib.

Almaniya və Avstriyada Ulu Öndərin xatirəsinə həsr olunmuş sərgi və konsert proqramları, İtaliyada təşkil olunan tədbir, Polşa, Macarıstan və Gürcüstanda keçirilən tədbirlər Heydər Əliyevin nəinki bizim ölkəmizdə və yaşadığımız regionda, bütün dünyada böyük dövlət xadimi kimi qəbul edildiyini bir daha təsdiqləyir.

Azərbaycan Respublikasının Milli Məclisinin xüsusi iclasında xarici ölkələrin nümayəndələrinin söylədiyi fikirlər, diplomatik nümayəndəliklərimiz, diaspor təşkilatlarımız və digər qurumlar tərəfindən ayrı-ayrı ölkələrdə keçirilən tədbirlər Ulu Öndərin tarixi obrazına olan ictimai marağın nümunələri kimi yadda qaldı.

Bu gün Ümummilli Lider Heydər Əliyevin məhv olmaqdan xilas etdiyi müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi altında böyük uğurlara imza atır. Biz regionun ən qüdrətli ordusuna, ən qabaqcıl iqtisadi göstəricilərə malik, beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi qəbul olunan dövlətin vətəndaşlarıyıq. Cənab Prezidentin də çıxışlarında vurğuladığı kimi, Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Bu nailiyyətlərin əsasında dayanan başlıca amil isə ondan ibarətdir ki, Azərbaycan xalqı məhz Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi milli strateji inkişaf yolunu seçib. Əminik ki, bu yol bizi daha böyük uğurlara aparacaqdır.

# MÜNDƏRİCAT


16 iyun 2023-cü il.......................................................... 3

23 iyun 2023-cü il.......................................................... 81

24 iyun 2023-cü il.......................................................... 243

6 iyul 2023-cü il............................................................ 327

14 iyul 2023-cü il.......................................................... 478

Edilməmiş çıxışların mətnləri.......................................... 545

Altıncı çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

Növbədənkənar
on üçüncü sessiya

54-cü cild

16 iyun – 14 iyul 2023-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  36,2. Sifariş 16. Tiraj 150.